**NAİBƏ YUSİF**

# ZƏRBƏ

*(Roman)*

***Aprel döyüşlərinin qəhrəmanlarına həsr edirəm.***

**Bakı - "Heroqlif" - 2020**

Redaktor: Qəşəm Nəcəfzadə
Korrektor: Nəcibə İlkin
Operator: Hikmət Yusub
Dizayner: Fariz Məhərrəmov

Naibə Yusif. “Zərbə” (roman).
Bakı, “Heroqlif”, 2020, 304 səh.

İSBN: 978-9952-448-20-07

**© Naibə Yusif**

# DÜNYANIN XİLAS YOLU NƏĞMƏ...

*(Naibə Yusifin "Zərbə" romanına ön söz)*

Naibə Yusifi uzun illərdir ki, tanıyıram, Şirvan şəhərində Azərbaycan dili və ədəbiyyatından dərs deyir, gələcək nəsillərə ədəbiyyatın sirlərini öyrədir, ədəbiyyatımızı daim təbliğ edir. İndiyə kimi onun bir neçə kitabını oxumuşam, dövri mətbuatda, internet saytlarında dərc olunan nəsr əsərlərini, şeirlərini, xüsusən qəzəllərini diqqətlə izləyirəm. Şeirdən - şeirə, kitabdan - kitaba daha da püxtələşən Naibə xanım müasir ədəbi prosesdə çox fəaldır. Dostlarına qarşı tələbkar və qayğıkeşdir. Dərc olunan hər hansı bir mətn barədə fikirlərini dəqiqliklə bildirir. Hiss olunur ki, o, ədəbiyyatı dərindən bilir. Nəsr və şeir yaradıcılığı onda paralel xətlə inkişaf edir. O, nəsr əsərlərində yazıçı, şeirlərində isə orijinal şairdir. Yəni o, şeirdə nasirlik, nəsrdə şairlik eləmir.

Ədəbi qanun - qaydaları pozmur, xəyal aləmi, romantikası hüdudsuzdur. Bir neçə il öncə onun "Tənha köç" romanını oxumuşdum. Bu roman bəy nəslinin tarixi- psixoloji məqamlarından, kişilik, mərdlik dünyasından bəhs edirdisə, "Zərbə" romanı tamamilə yeni bir aspektdə inkişaf edir, müasir dövrümüzün ən böyük problemi olan Qarabağ hadisələrinin fəlsəfəsini önə çəkir.

"Zərbə" romanının əsas ideyası körpələrin taleyi üzərində qurulub, fərqi yoxdur, istər azərbaycanlı olsun, istər erməni, əsərdə uşaqların taleyi eynidir, müəllifin məqsədi uşaqları xilas etməkdir. Bu məsələdə dünyanın beynəlxalq təşkilatları, jurnalist birlikləri eyni məqsəd uğrunda mübarəzə aparırlar. Roman Xəyalın ad gününün sonunda naməlum qadının verdiyi qolbağıdan başlayır. İlk dəfə düyünə, mühasirəyə bənzəyən qolbağı əsər

boyu açılır, mühasirə yarılır. Qara paltarlı qadının (Tərgülün) Gülarə ilə qarşılaşması və sonrakı görüşlərin birində ona xatirə dəftəri verib oxumasını xahiş etməsi əsərin dinamikasını daha da artırır. Əsər boyu Gülarənin hiss və həyəcanları başına gələn hadisələrə üyğundur, yəni təbiidir. Onun düyğuları təbiətlə həmişə həmahənglik təşkil edir; əgər Gülarə qəmlidirsə, sinəsi ah- zarla doludursa, demək, təbiətə payız gəlib, yağış, duman hər tərəfi bürüyür, küləklər ağacların yaşıl yarpaqlarını yolub yerə tökür...

Romanda qadın fədakarlığı yüksək səviyyədə tərənnüm olunur. Bu fədakarlıq gəlişi gözəl sözlərdə deyil, qadının – qəhrəmanın düşdüyü çətin situasiyalarda üzə çıxır. Xocalı faciəsi zamanı Tərgül qundaqdan Xəyalı, Gülarə isə Amalı dəyişik götürdükləri zamandan ta əsərin sonuna kimi hər iki qadın başqasının “əmanətini” göz bəbəyi kimi qoruyur. Əslində bu təkçə öz övaldını qorumaq deyil, insanlığı, bəşəriyyəti qorumaqdır.

Fikir verin, Fransada gözəllik yarışmasında qalib gələn İveta “dünyanı xilas etmək əvəzinə” qəddarlıq nümayiş etdirir, Tərgülə min cür əzab verir, onun ayağına qandal bağlatdırır, körpəsini ac itin qabağına atır. Tərgül körpəsini xilas etmək üçün hərəkət edəndə qandalın iti dəmir ucları topuqlarına batır, qan damcıları ətrafa yağış kimi yağır. İveta hələ üstəlik bu görüntüləri video –kameraya çəkdirir. Budurmu, dünyanı xilas edə biləcək gözəllik? Demək, onun gözəlliyi həqiqi gözəllik deyil. Tərgül isə heç bir gözəllik yarışmasında qalib gəlməyib. O, körpəsini, onun simasında insanlığı, bəşəriyyəti xilas edir və ən sonda qalib gəlir.

Əsərdə diqqətimi çəkən çoxlu orijinal həyati faktlar var. Bunlardan biri xocalılar yurdlarını tərk edəndə Ağdam istiqamətində çayın üzərinə yıxılmış körpü- ağacdır. Qoca bir kişi meşədə soyuqdan titrəyən adamların yadına o ağac körpünü salır. Deyir

ki, mən o vaxt həmin ağacın üstündən keçib – gəlirdim.

Tərgülün bütün çətinliklərədən sonra böyük Allaha şükr etməsi və həmişə Allahın böyüklüyünə sığınması əsər boyu davam edir.

İvetanın ac itinin sonrakı taleyi acınacaqlı olur. Sonralar o it də Tərgül kimi unudulur, dəmir qəfəsin bir küncünə atılır, acından güclə sürünür və son anda Tərgülə sığınır, onun alnının qanını yalayır. Tərgül itin başını sığallayır. Bilir ki, itin günahı yoxdur. O da insanların içindəki pisliklərin qurbanıdır: ”Əlinə dəyən hənirti Tərgülü diksindirdi, zarıltıya bənzəyən zingiltini eşidəndə isə bir qədər sakitləşdi. Ayaqları bir-birinə dolaşan köpəyin arıqlıqdan pırtlaşan tüklərini tumarladı. Nəvazişdən büzüşən itin kimsəsizliyinə kövrəldi”.

Əsərin ən çox yadda qalan səhifələrindən biri də təyyarədəki uşağı gizlədən dəli qadının simasıdır, onun oyan-buyana yönələn baxışları çox dəqiqliklə təsvir edilib. Sonradan onun qucağındakı uşaq Artur Muradyan adı ilə Moskvada uşaq evinə gətirilir, bir neçə gün qaldıqdan sonra oradan çıxarılır və biləndə ki, bu uşaq Tərgülün övladı Amaldır, oxucu istər- istəməz həyəcanlanır. Bir-birini dinamik şəkildə izləyən hadisələr əsərin təsir gücünü daha da artırır.

Əsərdə Qayana və Nayruhi münasibətləri də çox maraqlıdır. Qayananın anası Nayhuri ermənidir, atası Vaqif və əri Arif azərbaycanlıdır. Qayana Şuşada doğulub boya-başa çatıb. Onun atasını, ərini və uşağını anasının dayısı oğlu Xoren öldürüb. Bundan sonra o, ağlı kəsəndən xoşu gəlmədiyi ermənilərə nifrət edir.

Əsərdə epizodik yer alan Xoren və Suren obrazları az - az görünsələr də, cəmiyyətin dərinliklərinə nüfuz edir, qəddarlıqları ilə daxili dramatizmi daha da gücləndirirlər.

Romanda övlad sevgisi millətindən, dinindən asılı olmayaraq hamını insana çevirir. Nayruhi əsəbləri pozulmuş qızı Qayanaya görə üzülür və əzab çəkə- çəkə insana çevrilir, qızı Qayana kimi həqiqət axtarır və sonda Tərgüllə birləşir. Qayana yenidən uşaq istəyir, özü də azərbaycanlı. Xoren əsir uşaq gətirir. Övladına Ayxan adı verən Qayana əmisi Raqiflə Bakıya gəlir. Nayruhi deyir ki, mən də yaşamaq üçün Bakıya gələcəyəm. Bu artıq türkün qələbəsidir. Xorenin namusuna toxunması Qayana üçün ağır bir zərbə olur, buna görə də Bakıya qayıdandan sonra o, intihar edir.

Qayananın bir etirafı əsər boyu yavaş – yavaş dünyaya sızan bir həqiqəti ifadə edir. "Qayana: – Amma mən heç vaxt ermeniləri sevmədim... Anam nə qədər qadağalar qoysa da, erməni uşaqlarına yovuşa bilmədim, dostlarım özümüzkülər oldu. Dəfələrlə cəzalandım, bəzən atam evə gələnə qədər ac da saxlandım... Anamı mənə sevdirən atamın ona sonsuz məhəbbəti idi. Atamı isə çox, lap çox sevirdim. Həyatımı onsuz təəsəvvür etmirdim...

Qayana köksünü ötürdü, bir qədər susandan sonra söhbətinə davam etdi:

- Atamı öldürdülər, Tərgül...

Tərgül təəccüblə ona baxdı.

- Hə, öldürdülər! Bilirsənmi kim?- Tərgüldən cavab gözləmədən sözünə davam etdi, - Xoren öldürdü, anamın dayısı oğlu Xoren...

Qayana əlləri ilə üzünü tutdu, onun bütün vücudu əsirdi. Tərgül onu sakitləşdirməyə cəhd eləmədi, çünki yaxınlarının faciəsini yaşamış insanlara təsəlli verməyin mümkün olmadığını gözəl bilirdi".

Hər üç qadını: Tərgülü, Nayruhini, Qayananı birləşdirən öv-

lad sevgisidir. Qayana da övladı üçün layla çalır, nəğmə deyir, Tərgül də layla çalır, nəğmə deyir . Əsərdə nəğmə insanları birləşdirir. Bu, romanın əsas ideyasıdır.

Əslən Fransadan olan və video çəkən Mişelin kamerani yerə qoyub İvetaya qarşı çıxması çox maraqlı epizoddur. Çünki artıq sivil dünya düşüncəsi zülmə qarşıdır.

Əsərdə qolbağının rəmzi mənası və qara paltarlı qadının mistik obrazı çox maraqlıdır. Qolbağının bir-birini tamamlayan halqaları qara paltarlı qadının həyat hekayəsinin sirli düyünlərinə bənzəyir. Bu düyünlər oxucunu çox intizarda saxlayır, bir düyün çözülməmiş növbəti düyün vurulur. Mikolanın erməni uşaq evlərindən çəkdiyi süjetdən sonra jurnalist Nadejdanın onunla görüşməsi, axtarılan uşaq barədə Mikolaya məlumat verməsi, dəli qadın və qucağındakı uşaq, qadının qorxunc baxışlarının təsviri romanın maraqlı səhifələrindəndir.

Tərgülün Gülarəyə verdiyi xatirə dəftəri yeni bir roman təsiri bağışlayır. Son dövrün içtimai – siyasi hadisələrinin ədəbi – bədii xülasəsi xatirə dəftərində bütünlüklə təsvir olunur. Əslində roman iki hissədən ibarətdir. Birinci hissə Gülarənin həyatı, ikinci hissə isə Tərgülün həyatından bəhs edən “Xatirə dəftəri”dir.

Romanda təbiət təsvirləri, xüsusən Şüşanın əsrarəngiz təbiəti, aylu-ulduzlu gecələri, aydın səması böyük sevgi ilə tərənnüm olunur.

Rövşənlə Tərgülün Şuşadakı söhbətindən:

“- Baxdım, nə var ki? Həmişə gördüyümüz ulduzlar, yerində yuvarlanan Aydır da.

- Yox, bu, həmişəki gecələrdən deyil. Bax ulduzlar çox parlaqdır. Ayın şöləsi adama “gəl-gəl” deyir, düşündürür, insanı öz duyğuları ilə baş-başa qoyur. Gecənin bitməsini istəmirsən, özü-

nü nağıllar aləmində zənn edirsən. Ürəyində qəribə hislər baş qaldırır, hər şeydə gözəllik axtarırsan."

Tərgil erməni əsirliyində olarkən İveta ona dəhşətli zülmlər verir. Bu qisası ona Siranuş tapşırıb. Deyib ki, oğlum Harrinin qisasını almamış yanıma gəlmə. Ona görə də İveta Tərgülə elədiyi zülmü lentə aldırır ki, anasına göstərsin. Zirzəmidə verilən inşəncələrdən ayağa dura bilməyən Tərgülün üstünə övladının - Amalın paltarlarını atırlar...

"Tərgül fəryad qoparmadı, yerə düşmüş paltarı götürüb qoxuladı, astaca dodaqlarına toxundurub bayraq kimi başı üzərinə qaldırdı, zəif, lakin qətiyyətli səslə:

- Şəhid anası ağlamaz, - dedi, - and içirəm, Şəhid balamın ruhuna and içirəm, sağ qaldıqca bu əllər, öləndə isə ruhum balamın qisasçısı olacaq.

Tərgülün səsi getdikcə gücləndi, ona elə gəldi ki, çağırışına minlərlə Şəhid anası qoşuldu. Başı üzərində dalğalanan isə minlərlə şəhidin kəfəninə çevrilən üçrəngli bayraqdır. Onun məğrur duruşu, əsirlikdə olsa da, ləyaqətini qoruması, balasından ötrü diz çöksə də, öz canından ötrü düşmən qarşısında boyun əyməməsi İvetanı mənən əzdi, daha da quduzlaşdırdı".

Tərgülün övlad sevgisi və sevginin tərənnümü ədəbiyyatımızın parlaq səhifələrindəndir. Övlad üçün ana bütün zülmlərə dözür. Ölüm hökmü belə onu sarsıda bilmir. Əri Adil ermənilər tərəfindən öldürüləndən sonra Tərgülün südü kəsilmişdi. Onun da uşağını Gülarə əmizdirirdi. Əsirlikdə olarkən Allahın möcüzəsi ilə Tərgülün döşlərinə süd gəlir. Bu, daim Allahını köməyə çağıran Tərgülə o böyük Yaradanın lütfüdür.

Əsirlikdə Tərgülün körpəsini İveta zorla onun əlindən alıdır. İti bıçağı yatan uşağın bələyinə tuşlayanda Tərgül fəryad qo-

parır, heç nə anlamayan uşaq qışqırır...

Bir gün keçdikdən sonra müvəqqəti olaraq körpəni yenidən Tərgülə verirlər. Ana- bala görüşü çox təsirlidir:

"... Körpə doğma nəfəsi duyan kimi səsini kəsdi. Tərgül onun gözlərində bir məyusluq, yorğunluq duydu. Elə zənn etdi ki, keçən bir gün ərzində balası həyatın bütün zərbələrini dadıb, beləkdə ikən qocalıb. Bu gözlərdə məsumluq, paklıq qədər giley-güzar da vardı. Saralmış bənizində, zəif səsində sanki yanan şamın son şölələri titrəşirdi. Tərgül kövrəldi, qəhərli həzin səslə balasına nəğmə oxudu. Gözlərini balasından ayırmadı. Nəğmə oxunduqca körpənin bənizindəki sarılıq çəkildi, hərəkətə gəldi, ağzını dolandırıb yemək istədi. Tərgül hər şeyi unudub yaxasını açdı, südü olmasa da, döşünü körpənin ağzına verdi. Əmdikcə üzündə xoş ifadə yaranan, əvvəlki əzabdan əsər qalmayan körpənin simasında həyat işartıları, gülüş duyuldu. Arabir yorulub dayansa da, yenidən aramla əmməyə başladı. İndi Tərgül dünyanın ən xoşbəxt anası idi. Oxuyurdu Tərgül... Başına gələn müsibətləri unudaraq oxuyurdu. Əlində kamera onu izləyən gənc də verilən əmri unutmuşdu. Tərgülün qarşısında yerə çökərək onun səsindəki sehri anlamağa çalışırdı. Ətrafda hər şey susmuşdu. Elə bil təbiət də bu saf, yanıqlı səsin sehrinə düşmüşdü. Dilini bir qarış çıxararaq ləhləyən it də dal ayaqları üstdə oturaraq qabaq ayaqlarını irəli uzatmışdı. Nəzərləri arabir balasına nəğmə oxuyan Tərgülə sataşsa da, sanki ona çəkdirdiyi acıdan utanaraq baxışlarını tez də yerə endirirdi. Gördüyü mənzərədən qəzəbi aşıb-daşan İvetanın bağırtısı nə kameranı söndürən gəncə, nə də köpəyə təsir etdi. Onlar elə bil Tərgülün oxuduğu nəğmənin bitməsini istəmirdilər. Qucağındakı körpə yatanda Tərgül susdu. Gənc oğlan ayağa qalxıb öz dilində nə isə söylədi və ona təzim

etdi, kameranı gözləri qəzəbdən hədəqəsindən çıxan İvetanın qarşısında yerə qoyub sərt şəkildə dedi:

- Xanım, əyləncənizə alət ola biləcək başqa birini axtarın!"

Tərgülün oxuduğu layla anasını unudan videoçəkən Mişelə təsir edir və o gəlib anasının qarşısında düz çökür, əllərindən öpür.

Əsər boyu Tərgülün oxuduğu nəğmələr nəinki onun, bütün dünyanın xilas yolu kimi oxucunu düşündürür. Əsərdəki üslub göstərir ki, dünyanı nəğmə, böyük mənada mədəniyyət xilas edəcək. Bu düyğuların nəticəsidir ki, Mişel də anasının qədrini bilir və onun qarşısında diz çökür.

Luiza Mişelin dostudur, o, bir neçə dil bilir. Onu İveta ilə Suren tanış edib. İvetanın şənliklərinin planlarını hazırlayan Luiza Tərgüllə malikanədə rastlaşır və videoçəkən Mişellə birlikdə əsiri qaçırmağa nail olur. Tərgülü Mişelin anası Annanın evinə gətirirlər.

Əsərdəki həyəcan doğuran nüanslardan biri də xoşbəxt günlərində Tərgüllə Adilin əhd etməsidir; qızları olsa, adını Gülyaz qoyacaqlar. Indi Xəyal Gülyaz adlı qıza aşiqdir. Sonradan məlum olur ki, Gülyazla Xəyal bacı- qardaşdır. Bu da amansız müharibənin insanlara və insanlığa vurduğu , müəllifin dediyi kimi ağır zərbələrdən biridir.

***

Fransadan Moskvaya gələn Tərgülü Mişelin dostu Mikola öz həyat yoldaşı Sofiya ilə birlikdə qarşılayır. Sonradan Sofiya ermənilər tərəfindən öldürülür. Mikola jurnalistdir. Jurnalist vicdanı onu həmişə humanizmə səsləyir və qorxmaz qələm sahibi kimi dünya jurnalistlərini Tərgülün müdafiəsinə yönəldə bilir.

Moskvada Darya Alekseyevna Tərgülə kömək etmək istəyir. O, uşaq evinin müdiridir. 1991-ci il təvvəllüdlülərin içində Muradyan familyalı bir uşaq diqqətini çəkir, (Əslində bu uşaq Muradov Amal Adil oğludur) onu "anası" havalandığı üçün bura qoyublar, lakin tezliklə atası gəlib aparıb. Bu həmin uşaqdır ki, anası təyyarədə üzünü Tərgüldən gizlətmişdi. Sonra günlərin bir günü o dəli qadın küçədə Tərgülü tanıyıb üstünə cummuşdu və onu uşağını oğurlamaqda günahlandırmışdı.

Tərgülün humanistliyi, mənəvi zənginliyi onu daha da mətinləşdirir. Övlad sevgisi onu qəhrəmana çevirir. Qayananın anası Nayruhi bu qəhrəmanın qarşısında acizliyini dərk edir, ondan kömək istəyir: "Mən də anayam, Tərgül, nə çəkdiyini gözəl anlayıram, bilirəm ki, yaralarını heç nə ilə sarımaq mümkün deyil. Üzüm qarşında qaradır, amma sənə bir ana kimi yalvarıram, mənə kömək et. Qayananı mənə qaytarmaqda kömək et. Onun yeganə təsəllisi sən ola bilərsən. Sənə söz verirəm, bütün istəklərini yerinə yetirəcəyəm".

Erməni uşaq düşərgəsində azərbaycanlı körpələri erməni uşaqları kimi qələmə verirlər. Guya bu uşaqların valideynləri Qarabağda şəhid olmuş ermənilərdir. Bunun yalan olduğunu junalist Mikola bilir, çünki erməni xidmətçilər uşaqların başına görüntü xatirinə sığal çəkəndə uşaqlar boyunlarını qısırlar. Çox dəqiq və maraqlı faktdır.

Ermənilər azərbaycanlı uşaqların soyadlarını dəyişdirir və gələcəkdə onları Azərbaycana hücum etmək, təxribatlar törətmək üçün hazırlayırlar.

Romanın ən maraqlı xüsusiyyətlərindən biri də odur ki, gənc nəsli təmsil edən ermənilər yaşlı nəslin qurbanı olurlar. Əvvəl Harri, sonra İveta Siranuşun qurbanına cevrilir. Qayana Nayru-

hinin hikkəsinin qurbanıdır və sonda gənc nəsil bunu aydınca dərk edir. Bax, bu, maraqlı situasiyadır.

Romanda düşmənlərin keçirdiy psixoloji sarsıntılar təbii verilib. Siranuşun yuxuda kabusla döyüşməsi, xırıldaması, dünyasını dəyişmiş İvetanın, Harrıinin onun üstünə cumması, sən bizi qatil elədin - deməleri çox orijinal və ibrətamiz səhnələrdir…

Tərgül Gürcüstana gedərkən qatarda tanış olduğu Loranın atası Xoren, anası isə itmiş uşağın hesabını istəyən dəli rus qadındır. O bunu Loranın göstərdiyi şəkilllərdən duyur. Bu cür dəyişən situasiyalar, maraqlı hadislər göstərir ki, roman əsasında gözəl bir serial çəkmək olar. Məncə, bu, çox vacibdir.

Tərgül Gürcüstandan Ermənistana keçir. Amalın gizlədildiyi düşərgədə tibb bacısı işləyir. O, Amalı tapır. Amalı tanımağında həm nişanlar, həm şəkil, həm də daxili hislər mühüm rol oynayır. Tərgül təkbaşına erməni düşərgəsində ermənilərə qarşı partizan hərəkatının əsasını qoyur. Romanda qoyulan əsas məsələrindən biri də partizan hərəkatına start verməyin vacibliyidir. Partizan hərəkatının gizli parolu budur: “Adımız “Qarabağ”, mahnımız “Sarı gəlin”. Ermənistan tərəfdən Amal, bizim tərəfdən Xəyal dostluğu və qardaşlığı erməni vandalizminə qarşı güclü bir zərbə olur. Amalın vətən sevgisi, Xəyalın içtimai, siyasi hazırlığı Aprel döyüşlərində erməni birləşmələrini darmadağın edir. Uzaqdan - Lələtəpədən ürəkləri titrədən nəğmə yüksəlir. Budur, həqiqət! Bütün dünyanı müharibələrdən ana laylası, ana nəğməsi xilas edəcək, o cümlədən Qarabağımızı da.

**Qəşəm Nəcəfzadə,**
**Şair, Əməkdar Mədəniyyət İşçisi**

***

Xəyal tələssə də, anası ətrafında hərlənir, gah qalstukunu düzəldir, gah köynəyinin yaxasını hamarlayır, gah döş cibindəki yaylığı səliqəyə salır, oğlunun narahat baxışlarını hiss etsə də, evdən buraxmaq istəmirdi. Xəyalın:

- Ana, gecikirəm axı, uşaqlar çoxdan gözləyirlər, - təkidindən sonra Gülarə oğlunu bir də başdan-ayağa süzdü.

- Dayan, - deyib mətbəxə keçdi, ovcunda gətirdiyi duzu onun başına hərlədi, kürəyindən astaca vurub, - yaxşı, get, - dedi.

Xəyalın on səkkiz yaşı tamam olurdu. Doğum gününü tələbə yoldaşları ilə qeyd edəcəkdi - atası restoranda yer sifariş vermiş, əylənmək üçün xüsusi musiqiçilər dəstəsi də gətirtmişdi.

Görüş yerində dostlarını tapmayan Xəyal duruxdu. Bir anlıq nə edəcəyini bilmədi, qeyri-ixtiyarı yaxınlıqdakı skamyaya çökdü. Arxadan hənirti duyanda geri boylandı. Üzünü əlindəki güllərin arxasında gizləyən Orxanı və digər yoldaşlarını görəndə dərindən nəfəs aldı, gözləri güldü. Bir anda ətrafı gənclərin səs-küyü bürüdü.

Beş-altı dəqiqədən sonra hamı restoranın həyətində idi. Atası Kamal dolama pilləkənlə ağır-ağır yuxarı qalxırdı. Xəyal gəldiklərini bildirmək üçün səsləndi:

- Ata, biz burdayıq. Kamal üzünü çevirmədən əli ilə yuxarı qalxmaq işarəsi verdi və açıq qapıdan içəri keçdi. Həyətdə nimdaş geyimli, üzünün dərisi almacıq sümüklərinə yapışmış bir qadın təbəssüm dolu baxışlarla gəncləri süzürdü. O, bir neçə addım irəli gəldi, sağ əlini Xəyala uzatdı. Üzünə zillənən baxışlardakı sehrin mənasını başa düşməyən Xəyal qadının ovcuna bir manatlıq qoydu və yoldaşlarının arxasınca pilləkənə tərəf yönəldi. Ayağını ilk pilləyə qoyanda kimsə qolundan yapışdı. Dilənçi

sandığı qadın əlindəki pulu ona uzadaraq mehribanlıqla dilləndi:

- Mən dilənçi deyiləm, oğul.

Naməlum şəxsin üz cizgiləri ilk baxışdan Xəyalda xoş təəssürat oyatmadı, birdən-birə əti ürpəşdi. Soyuq halda soruşdu:

- Kimsiniz, sizə nə lazımdır?

- Mənmi?- uzun-uzadı gözlərini bir nöqtəyə dikən qadın ağır-ağır, - heç özüm də bilmirəm. Özümü axtarıram, - söyləyəndə bayaqdan susan gənclərdən bir neçəsi yaxına gəldi. Orxan təkidlə:

- Xəyal, bunu da məclisə dəvət edək, maraqlı adama oxşayır,- dedi.

Dostlarından fərqli olaraq, Xəyal daxilində nəyinsə qırıldığını duydu. Belə gündə qərib adamın gəlişi qəlbini sıxdı. Yuxarı boylandı, atası Kamalı pilləkənin başında görəndə ürəkləndi:

- Nə dumusunuz, atam gözləyir, - deməyi ilə pilləkənləri sürətlə qalxması elə ani oldu ki, yoldaşları da naməlum qadını unudub onun arxasınca düşdülər.

Məclis çox şən keçirdi. Həyətdəki hadisəni Xəyal çoxdan unutmuşdu. Ləziz yeməklər, bir-birini əvəz edən musiqi nömrələri, rəqslər gəncləri sanki röyalar aləminə aparmışdı. Məclisin vaxtı bitsə də, heç kim bu aləmdən qopmaq istəmirdi. Gənclərin əhvali-ruhiyyəsi Kamala da sirayət etmişdi. Həkim icazə verməsə də, oğlunun xatirinə azacıq içmişdi də. Gənclər hay-küylə pilləkənləri iki-bir, üç-bir düşərək dayanacağa yönəldilər. Atası ilə birlikdə hamıdan sonra həyətə enən Xəyal gördüyü mənzərədən heyrətə gəldi: naməlum qadın bir küncdə divara söykənərək gözlərini pilləkənə dikmişdi...

Xəyalın duruxması Kamalın diqqətindən yayınmadı. Astaca çiyninə toxunub:

- Niyə dayandın, düşsənə, - dedi. Xəyal yerindən tərpənmədən:

- Ata, bu qadın kimdir? - deyib qarşı tərəfi göstərdi.

Kamal diqqətlə baxsa da, heç nə görmədi. Narahatlıqla əlini Xəyalın alnına qoydu. Qızması yox idi.

- Deyəsən, səni qara basır, oğul, burada heç kim yoxdur. Yəqin, çox yorulmusan. Evə gedərik, dincələrsən.

- Yox, ata, mən yorğun deyiləm. Ora bax.

Kamal divardan aralanan kölgəni indi gördü. Bayaqkı qadın idi. Maraq onu da çulğadı.

- Gecənin bu vaxtı burada niyə dayanmısınız, gedəcək yeriniz yoxdurmu? - soruşdu.

Qadın suala cavab verməkdənsə:

- Maşallah, ağıllı oğlunuz var, - dedi.

- Əlbəttə, atasına oxşayıb, - Kamal qürrələndi. Verdiyi sualı xatırlayıb soruşdu:

- Sualdan niyə yayınırsınız?

Sualın cavabı sualla gəldi:

- Siz məni tanımadınızmı?

Səsdəki həlimlik Kamala tanış gəlsə də, qadını tanıya bilmədi, başını buladı.

- Gedəcəyiniz yerə qədər sizi apara bilərəm,- təklifini eşidəndə qadın :

- Vağzala sürün, - dedi.

Xəyal atasının yanında, qadın isə arxa oturacaqda əyləşdi. Yol boyunca heç biri danışmasa da, Xəyal qadının baxışlarını üstündə hiss etdi. Vağzala çatanda Kamal qapını açıb aşağı endi, qadın fürsətdən istifadə edib ovcunda bərk-bərk sıxdığı nazik qolbağını Xəyala uzadaraq:

- Bunu anana verərsən, - dedi.

Ovcuna qoyulan metalın soyuqluğu nədənsə birdən-birə Xəyalı üşütdü, barmaqları sustaldı. Qadını ötürüb geri qayıdan Kamalın nə qolbağıdan, nə də Xəyalın halının dəyişməsindən xəbəri oldu. Sükutu pozaraq:

- Qəribə qadındır. Görəsən, onu buraya hansı rüzgar atıb? - dedi və bir qədər susduqdan sonra fikrini tamamladı, - amma bəzi cizgiləri, səsi mənə kimi isə xatırladır, amma kimi? Bunu yadıma sala bilmirəm.

Maşın həyətə çatanda Gülarə pəncərədən boylandı. Oğlunu və ərini qapının ağzında gülər üzlə qarşıladı. Xəyalın boynuna sarılıb başını köksünə qoydu:

- Maşallah, oğlumuz əməllicə böyüyüb, Kamal, daha qucaqlayıb bağrıma basa bilmirəm, - dedi.

Xəyal anasının vaxtından əvvəl dən düşmüş saçlarını öpdü. İlk dəfə görürmüş kimi üzündəki narın qırışlara uzun-uzadı baxdı. Anasının erkən yaşlanması bir övlad kimi qəlbini sıxdı. Otuz səkkiz illik bir ömür yaşasa da, Gülarə özündən on beş yaş böyük olan ərindən görkəmcə elə də fərqlənmirdi.

Gülarə çox deyib-gülməyi də xoşlamırdı. Ciddi siması qonum-qonşu arasında ona qaradinməz imici qazandırmışdı. Yeganə təsəllisi Xəyal idi. Bağrına basıb layla deyəndə gözündən axan yaşları Xəyal balaca barmaqları ilə az silməmişdi.

- Ana, nə olar, mahnı oxuma, - demişdi Gülarəyə.

Göz yaşlarını gizlətməyə çalışan Gülarə səbəbini soruşanda isə cavabı belə olmuşdu:

- Sən oxuyanda ağlayırsan, ağlama!

Həmin gündən sonra Gülarə layla çalmadı. Xəyal dəfələrlə anasının gizlin-gizlin göz yaşı axıtdığının şahidi olsa da, ona heç nə deyə bilmədi.

Gülarə Qarabağ müharibəsində ağır yaralanıb yaddaşını itirən Kamalın da əziyyətini az çəkməmişdi. Heç nəyi xatırlamayan Kamalı geri qaytarmaq Gülarədən ən gözəl günlərini almışdı. Körpəlikdən bütün hadisələrin şahidi olan Xəyal birdən kövrəldi, anasını bağrına basıb:

-Yaxşı ki, varsan, ana, - dedi.

Gülarə körpə uşaq kimi oğlunun köksünə sığındı, gözləri yaşardı. Hıçqırdı və sanki bu hıçqırıqla çiyinlərindən illərin yükü götürüldü. Kamal Gülarənin ağlamasına biganə qala bilmədi. Astadan dilləndi:

-Özünü ələ al, körpə uşaq deyilsən ki. Şükür, oğlumuz bir boy da ucaldı, - dedi.

Gülarə gözünün yaşını silib mətbəxə keçdi. Ad günü münasibətilə hazırladığı tortu süfrəyə gətirdi. Çay süfrəsi də dəbdəbəli idi. Bir neçə stəkan çay içdikdən sonra yorğunluq da yaddan çıxdı. Xəyal dostlarının sürprizlərindən danışdıqca ana gah kövrəlir, gah da gülürdü...

Dan yeri ağaranda Gülarə ayıldı. Adəti üzrə, Xəyalın otağına keçdi. Xəyal həmişə olduğu kimi üzüstə yatmışdı. Yenə bir çiyni açıq idi. Ana astaca yorğanı yuxarı çəkdi. Bir qolu çarpayıdan sallanan oğlunu oyatmağa qıymadı: qolunu qaldırıb ehtiyatla yastığın üstünə qoydu. Kətildə oturub bir xeyli övladına tamaşa etdi. Gözündə gilələnən iki damla yaş yanaqlarından süzüldü. Xəyal yerində qurcalananda tez gözlərini silib üzünə gülümsər ifadə verdi. Neçə illər idi ki, Xəyal oyananda anasını çarpayının yanındakı kətildə oturmuş görərdi. Buna o qədər adət etmişdi ki, gündüzlər yatarkən anasını yanında görməyəndə darıxardı.

Xəyal gərnəşsə də, adətinə xilaf olaraq, oyanmadı. Arxası üstə çevrilib yenidən yuxuya getdi. Gülarə öz-özünə:

-Yəqin, yorğunluqdandır, bir azdan oyadaram, - deyib kətildən qalxdı. Kamodun üstündəki gecə lampasını söndürmək istəyəndə ilan vurmuş kimi dik atıldı. Əvvəlcə elə zənn etdi ki, onu qara basır. Əlini astaca kamodun üstündə gəzdirəndə metalın soyuqluğu canına işlədi, həyəcandan dişləri bir-birinə dəydi. Bədənini vicvicə bürüdü. Yenidən kətilin üstünə çökdü. Bir qədər özünə gələndən sonra qolbağını əlinə götürüb diqqətlə baxdı. Bəli, bu onun idi: yeni doğulan körpəsinə Kamalın aldığı hədiyyə idi. Xəstəxanadan çıxaranda özü sevə-sevə körpənin qoluna bağlamışdı. Gülarə on səkkiz il əvvələ qayıtdı. Ona analıq şərbəti içirən körpəsini xəyalən əzizlədi, qoxusunu ciyərlərinə çəkdi, astadan layla dedi. Qolbağını dodaqlarına yaxınlaşdırdı, öpdü. Öpdükcə körpəsinin buza dönmüş bədəninin soyuqluğunu yenidən hiss etdi. Ondan qalan yeganə nişanəni bağrına basdı.

Xəyal ayılanda anasını yenə kətildə oturan gördü. Gülarənin bir nöqtəyə zillənən baxışlarından üşəndi:

-Ana, - deyə səsləndi.

Gülarə Xəyalın səsini nəinki eşitmədi, heç varlığını da duymadı. Gözlərinə dolan yaş leysan yağışı kimi üzünü islatdı, sinəsindən gələn fəryad qarışıq hönkürtü otağı doldurdu. Heç nə anlamayan Xəyal çaşıb qaldı. Anasına yaxınlaşıb onun çiyinlərini qucaqlamaq, ovundurmaq ağlına belə gəlmədi. Səsə qonşu otaqdan gələn Kamal da əvvəlcə duruxdu. Bütün vücudu əsən, rəngi boğulan arvadına kömək üçün təcili yardıma zəng vurdu. Təcili yardım maşını gələndə Gülarə çoxdan bayılmışdı...

***

Gülarə ayılanda gün günortadan keçmişdi. Əvvəlcə nə üçün yataqda olduğunu anlamadı. Kamalın narahat baxışlarını görən-

də fikri bir qədər aydınlaşdı, gözlərini dolandırıb Xəyalı axtardı. Stolun bir küncündə büzüşüb oturan Xəyalı görəndə toxtadı. Baxışları ilə yanına çağırdı. Bağrına basıb saçlarından öpdü. Pıçıltı ilə:

-Mənə dönük çıxsan, südümü sənə halal etmərəm, - dedi.

Anasından eşitdiyi kəlmə Xəyalı həyəcanlandırdı. Əllərindən öpə-öpə sual etdi:

-Bu nə sözdür, ana, mən sənə dönük çıxa bilərəmmi?

Bayaqkı vəziyyətin təkrarlanmaması üçün Kamal əli ilə Xəyala susmaq işarəsi verdi. Həkim xəstəyə dinclik lazım olduğunu söyləmiş, ehtiyatlı davranmağı məsləhət görmüşdü.

Ertəsi gün Gülarənin qırışığı bir qədər açılmışdı. Halsız olsa da, evdə əvvəlki ab-havanı yaratmağa çalışırdı. Arabir cibində gizlətdiyi qolbağıya baxır, özünü inandırmağa çalışırdı ki, bu, Xəyala dostlarının hədiyyəsidir. Amma dünəndən bəri oğlunun qolbağı ilə maraqlanmaması şübhələrini artırırdı...

Xəyalın məktəbdən gəlməsinə az qalırdı. Gülarə süfrəni açıb onu gözləməyə başladı. Qapının zəngi çalınanda cəld yerindən qalxdı. Poçtalyon idi. Məktub gətirmişdi. Göndərən adamın ünvanı yox idi. Maraqla məktubu açdı. "Dəmiryol vağzalı" sözlərini oxuyanda xəyalı dumanlandı, cismindən bir gizilti keçdi: bura onların daimi görüş yeri idi.

Təşvişə düşən Gülarə halsızlaşdığını duydu, birtəhər özünü otağa yetirdi, bütün ağırlığını güzgünün qabağındakı balaca kətilin üstünə saldı. Avazımış simasını, böyümüş gözlərini güzgüdə görəndə hiss etdi ki, ixtiyarı əldən gedir. Kağızı birtəhər kamodun alt gözündə - qolbağının yanında gizlətdi...

Alnına qoyulan yaş dəsmalın soyuğu Gülarəni ayıltdı. Gözlərini açanda Xəyalı gördü. Oğlunun narahat baxışlarından köv-

rəldi, dikəlmək, boyunu oxşamaq istədi. Xəyal:

-Olmaz, ana, burnunun qanı güclə dayanıb, bir az da uzan, - deyəndə yaş dəsmalın nə üçün alnında olduğunu anladı.

Gülarənin burnundan əvvəllər də qan açılardı, amma tez keçərdi. Bu dəfə, deyəsən, vəziyyət bir qədər mürəkkəbləşmişdi. Xəyal evə gələndə anasını qan içində görüb qorxmuş, təcili yardıma zəng eləmişdi. Həkim yardım edib Xəyala lazımi göstərişlər vermiş, resept yazmışdı. Anası ayılana kimi o, dərmanları da almışdı.

Gülarə əlində dərman və su mətbəxdən gələn oğlunu görəndə ağlamamaq üçün dodaqlarını dişlərinin arasında sıxdı. Bir neçə qurtum su içəndən sonra dərmanı qəbul etdi.Gülarənin yanan ürəyinə bir sərinlik doldu. O, dərindən nəfəs alıb rahatlandı. Asta səslə:

-Oğul, ac qalma, süfrə hazırdır,- dedi.

Xəyal qəti şəkildə etiraz etdi:

-Yeməyi birlikdə yeyəcəyik. Dərmanı içdin, indi dura bilərsən, ana.

Gülarə yerindən qalxdı, başı hərlənsə də, birtəhər dözdü. Birlikdə yemək otağına keçdilər. İştahası olmasa da, Xəyala görə əlini süfrəyə uzatdı. İştaha ilə yeməyə girişən oğluna məhəbbətlə baxdı. Süfrəni yığışdırmaq üçün yerindən qalxanda Xəyal qoymadı:

-Ana, bu gün mən sənin qulluğunda dayanacağam, - dedi.

Mətbəxdən qab-qacaq cingiltisi eşidiləndə Gülarə asta-asta ayağa qalxdı. Yataq otağına keçib kamoddan qolbağını götürdü. Ləngərli addımlarla geri qayıtdı. O, bu gün bütün şübhələrini dəqiqləşdirməli idi. Televizorda konsert verilirdi. Gülarə televizorun səsini azaldanda Xəyal mətbəxdən səsləndi:

-Ana, dəymə, qoy oxusun. Lap adamın iliklərinə işləyir bu musiqi.

Gülarə heç nə demədən divanın bir küncündə əyləşib yenidən qolbağıya baxdı. Bu nazik qolbağıda özünə yad, tanış olmayan bir iz axtardı. Tapmadı. Sanki qolbağının hər halqasından körpəsinin xəyalı asılmışdı: toppuş əllərini oynadaraq qığıldayırdı...

***

Gülarə tibb texnikumuna daxil olanda 17 yaşı vardı. Qrupdakı qızlardan biri – Tərgül şən zarafatları, gözəlliyi ilə ilk günlərdən onu ovsunlamışdı. Bir neçə gündən sonra dostlaşdılar. Tərgül Xocalıdan idi. Arabir pəsdən xalq mahnılarını zümzümə etməyi də vardı. Bu mahnıları oxuyanda onun gözlərində qəribə parıltı görünərdi. Gülarə bu parıltının səbəbini anlamağa çalışsa da, başa düşməzdi. Tərgülünsə gözləri qarşısında vətənin cənnət guşələri canlanar, xəyalən o yerlərdə gəzib-dolaşardı. Oxuduqca hər çiçəyin ləçəyini oxşar, zümrüd meşələri, dumanlı dağları bağrına basardı. Belə vaxtlarda Gülarə yarızarafat, yarıgerçək deyərdi:

-Vallah, müğənnilik sənin boyuna biçilib.

Tərgülsə susmaqla cavab verərdi.

Yaxın münasibət rəfiqələrin bir otaqda qalmasına səbəb oldu. Dəmiryol vağzalına yaxın bir həyət evində otaq kirələdilər. Məktəbi qurtaranda bir-birinə söz verdilər ki, hər dəfə Bakıya gələndə bu ev onların görüş yeri olacaq. Amma sən saydığını say... Onlar bu evdə bir dəfə də görüşmədilər. Məktəbi bitirən kimi Gülarə Kamalla nişanlandı. Çox keçmədən evləndilər...

Xocalıda çalışmaq üçün könüllülərdən ibarət briqadanın tər-

kibində Kamal da vardı. Gülarə ondan ayrılmaq istəmədi. Bu, Kamalın da ürəyincə oldu. Tərgüllə yenidən burada qarşılaşdı və sevincindən ağladı Gülarə. Tərgül də vaxtilə eyni sinifdə oxuduğu bir gənclə ailə qurmuşdu. Həyat yoldaşı aeroportda işləyirdi.

Günlər bir-birini əvəz etdikcə Xocalıda tikilən binaların sayı artır, gənc ailələrə evlər verilirdi. Bu ailələrdən biri də Tərgülgil idi. Xocalının ab-havası Kamalın həmişəlik burada qalmaq arzusunu reallaşdırdı. Verilən ikiotaqlı mənzil də ürəyincə idi. Rəfiqələr təsadüfən qonşu oldular. Uzaq məsafənin bu qədər yaxınlaşması hər ikisinin ürəyindən xəbər verdi. Bəzən yeməyi də birlikdə hazırlayıb yoldaşlarını gözlədilər. Adil də Kamala tez isnişdi, bəzi məsələlərdə onun məsləhətlərinə ehtiyac duydu.

Xocalı üçün adi günlərdən birində Gülarəni Ağdam rayon xəstəxanasına gətirdilər. Oğul atası olduğunu biləndə Kamal sevincək:

- Xəyallarımın ilk müjdəçisi, xoş gəldin, adın Xəyal olsun! - deyib cibindən bir qutu çıxartdı. İçindəki qolbağını uşağın biləyinə doladı.

On beş gündən sonra Tərgülün doğulan övladına Amal adını da bir böyük kimi Kamal verdi.

Günlər bir-birini qovduqca çiskinli payız ağsaçlı qışla döyüşü uduzduğunu dərk edir, ətəklərini əlinə alıb yavaş-yavaş meydandan uzaqlaşırdı. Təbiət libasını dəyişdikcə qayğılı, qayğılı olduğu qədər də sərt günlər Xocalı sakinlərini yeni "hədiyyə"lərə qonaq edirdi. Adilin ölüm xəbəri də soyuq qış gecələrindən birində gəldi: Əsgərandan keçərkən ermənilər tərəfindən vurulmuşdu. Uzun danışıqlardan sonra meyiti almaq mümkün oldu. Həyəcandan Tərgülün südü çəkildi. Gülarə həm Xəyalı, həm də Amalı yedirtdi. Xəyal süddən tez doyardı, Amal isə doymaz, süd

kəsilən kimi hay-haray qopalardı. Gülarə oğlunun payına şərik çıxan Amala mehrini elə salmışdı ki, tanımayanlar öz balası zənn edərdi. Bəzən Tərgülün xəbəri olunca uşağın bələyini açır, Xəyalı əzizlədiyi kimi onu da əzizləyir, bir qədər oynadıb yenidən bələyirdi. Adilin ölümündən sonra günbəgün əriyən Tərgülə təsəlli verməyə söz tapmasa da, onu tək qoymurdu.

Qarabağda münasibətlər kəskinləşdikcə Xocalıda vəziyyət daha da ağırlaşırdı. Bəzi ailələr hər ehtimala qarşı Xocalıdan köç etməyə hazırlaşırdılar. Gülarənin də gediş-gəliş seyrəldikcə, Ağdam ilə əlaqələr çətinləşdikcə narahatlığı artırdı. O da başqaları kimi müdafiəsi yerli əhalinin ümidinə buraxılan, mərkəzdən yardım almayan şəhərdən uzaqlaşmaq, balasını xilas etmək istəyirdi. Kamal onu dəstəkləyəndə rahat nəfəs aldı. Tərgülün yanına getdi. Tərgül Adillə çəkdirdiyi toy şəkillərinə baxır, arabir gözlərindən axan yaş şəklin üzərinə damcılayırdı. Rəfiqəsinin bu halına dözməyən Gülarə də ona qoşuldu. Bir azdan hər ikisi sakitləşdi. Gülarə heç nə demədən şəkilləri albomun arasına qoydu. Hələ də rəfiqəsinin hərəkətlərini anlamayan Tərgül:

- Sənədlər haradadır? – sualından diksindi. Yalnız indi anladı ki, Gülarə onun da əşyalarını qablaşdırır. Sakitcə ayağa durdu, əşyaları qaytarıb yerinə qoydu.

- Mən heç yerə getməyəcəyəm, - dedi.

Gülarə əvvəlcə duruxdu, sonra qəti şəkildə etiraz etdi:

- Bəs Amalı düşünmürsən? Adilin yeganə yadigarıdır. Onun xatirinə getməlisən.

- Mən onu bu torpaqlarda tənha qoya bilmərəm. Hər gün o məzara baş çəkməsəm, özümü xəyanətkar sayaram, - dedi Tərgül, - siz qorxursunuzsa, gedin.

- Sən nə danışırsan? Kamal burada qalır. Bizim getməyimi-

zi istəyir. Axı bilirsən, erməni nə uşağa, nə qadına rəhm eləyir. Balalarımızın gələcəyi naminə buradan müvəqqəti də olsa, getməliyik.

Gülarənin son sözləri də Tərgülə təsir etmədi:

- Mənim balamın gələcəyi bu torpaqlardadır, - dedi.

- Bilirəm, yaran təzədir, unutmaq mümkün deyil, amma, Tərgül, reallığı da nəzərə almaq lazımdır, nə olar, daşı ətəyindən tök, inad eləmə, - yalvarışı da nəticəsiz qalanda Gülarənin qəlbində qəribə bir hiss yarandı. Bu nə idi, özü də bilmədi.

Fevral ayının əvvəllərində vəziyyət daha da pisləşdi. Əli silah tutan Xocalı sakinləri səhəri dirigözlü açırdılar. Kamal da digər sakinlər kimi keşikdə idi. Bacısı dəfələrlə təkid etsə də, geri dönmək fikri yox idi. Dostları ilə birlikdə sona qədər mübarizə aparacağına and içən Kamal Tərgülün inadkarlığını çox gözəl anladığı üçün susurdu.

Hər tərəfdən erməni-rus hərbi birləşmələri ilə mühasirəyə alınan Xocalı sakinlərinə geri çəkilmək, doğma ocağı tərk etmək fikri yad idi. Gecələr atəş səsləri sakitliyi pozur, lakin heç kim qorxu hiss etmirdi. Yüngül yaralılar sarğıları dəyişən kimi səngərə qayıdırdılar. Düşmənin hədələri heç kimi qorxutmur, həyat öz axarı ilə davam edirdi. Elektrik enerjisi tez-tez kəsilsə də, məktəb, xəstəxana və digər obyektlər fəaliyyətini dayandırmırdı...

Fevralın 25-də səhər tezdən Kamal evə qaşqabaqlı gəldi. Düşdüyü çətinliyi büruzə verməyi xoşlamayan ərinin qaşqabağı Gülarəni üşəndirdi, narahatlıqla:

- Nə olub? – soruşdu.

Kamalın gözləri yol çəkdi. Gülarə başa düşdü ki, əri cavab verməyə çətinlik çəkir. Onu yormaq istəmədi. Sobanın üstündən

çaydanı götürdü. Bir stəkan çay süzüb:

- İç, canın qızsın, bir az dincəl. Gecəni səhərə qədər yatmamısan. Yəqin ki, bu gecə də oyaq qalacaqsan, - dedi.

Kamal dinmədi, isti çayı birnəfəsə içdi. Nəhayət, dilindən qıfıl götürüldü. Ağır-ağır dilləndi:

- Hər ehtimala qarşı hazır olun. Tərgül inad etsə də, yüngül əşyalarını bir yerə yığ.

Gülarənin canına üşütmə doldu. Həyəcandan titrədi, dişləri bir-birinə dəydi. Dili dolaşa-dolaşa:

- Vəziyyət necədir ki? – soruşdu.

Kamal onu qorxutmamaq üçün gülümsündü:

- Heç nə olmayıb, mən hər ehtimala qarşı hazırlıqlı olmağınızı istədim, - dedi və əlavə etdi, - Tərgülü də razı sal.

Kamal getmək üçün ayağa qalxanda Gülarə həyəcanla soruşdu:

- Bəs istirahət etməyəcəksən?

- İstirahət etməyə o qədər vaxtımız olacaq ki, - deyən Kamalın nəzərləri çarpayıda uyuyan körpələrə sataşdı. Yaxınlaşıb bir xeyli onların mışıltısına qulaq asdı. Eyni paltar geyindirilmiş uşaqlar bir-birinə o qədər bənzəyirdilər ki. Amma Kamal onları asanlıqla ayırdı. Xəyal Amaldan bir qədər böyük görünürdü. Əyilib əvvəlcə Amalın, sonra isə Xəyalın əlindən öpdü. Birdən-birə qəlbindən bu körpələri bağrına basmaq, doyunca qoxulamaq arzusu keçdi. Kövrələcəyindən qorxub çarpayıdan aralandı.

- Tərgül haradadır? - soruşdu.

- Harada olacaq, yenə qəbiristanlığa gedib. Bir gün Adilin məzarına baş çəkməsə, rahatlanmır. Dünən özünə yer tapa bilmirdi. Mərminin biri Adilin məzar daşını zədələyib. Axşama kimi ağladı. Səhərin gözü açılar-açılmaz uşağı mənə verib getdi.

Kamal paltosunu geyə-geyə yenə bərk-bərk tapşırdı:

- Dediklərimi unutma. Mən imkan olmasa, gələ bilməyəcəyəm.

Kamal getdi. Gedişi ilə sanki Gülarənin bütün hərəkətini də apardı, oturduğu yerdən tərpənməyə heyi olmadı. Nəhayət, özündə güc tapıb ayağa durdu. Uşaqlar oyanmamış əyin paltarlarını balaca bir çamadana yığdı. Lazımlı sənədləri və şəkilləri əl çantasında gizlətdi. Kamalın toy hədiyyələrini də balaca bir mücrüdə çantaya yerləşdirdi. Tərgülün gəlişini gözlədi. Onu necə yola gətirəcəyini düşündü.

***

Tərgül məzarlığa çatanda hava alatoran olsa da, hər tərəf aydın görünürdü.Ayağının altında xırtıldayan qar barmaqlarını dondursa da, o, inamla qəbirlərin arasından keçib Adilin məzarına çatdı. Dizləri üstə yerə çökdü. Yalın əlləri ilə məzarın üstünü örtən qarı təmizlədi. Üzünü soyuq torpağa qoydu. Göz yaşlarını saxlaya bilmədi. Yol boyu Adilə deyəcəklərini ürəyində dəfələrlə çək-çevir eləsə də, yadına heç nə düşmədi. Bir azdan ayağa durdu. Məzar daşından boylanan şəkli ilk dəfə görürmüş kimi diqqətlə seyr elədi. Ölümündən bir gün əvvəl də Adilin gözləri belə dalğın və qayğılı idi. Bir ayı tamam olan Amalı qucağına alaraq üzünə diqqətlə baxıb:

- Oğlum sənə əmanətdir, Tərgül, - dedi, - onu göz bəbəyin kimi qoruyacağına and iç.

Heç vaxt Adildən belə söz eşitməyən Tərgül gülə-gülə:

- Bəs məni kimə tapşırırsan? – soruşanda Adil tam ciddiyyətlə:

- Allaha, - cavabını verdi.

Həmin gecə Tərgülün qəlbində nəsə qırıldı, vəziyyətin ağırlığını bütün varlığı ilə dərk etdi, yaşla dolmuş gözlərini ərinin baxışlarından yayındırdı. Amma indi o, bu dalğın gözlərə xeyli baxdı:

- Oğlunu qoruyacağıma and içirəm, Adil, - dedi və evə tələsdi. O, içəri girəndə Gülarə körpələrin bələyini dəyişirdi.

Əvvəlki günlərdən fərqli olaraq, Tərgülün evə tez qayıtması Gülarəni təəccübləndirdi. Paltosunu soyuna-soyuna dediyi sözlərdən əvvəlcə bir şey anlamadı və heyrətlə:

- Nə?- sualını verdi.

- Deyirəm ki, yığışmaq, buradan müvəqqəti də olsa, getmək lazımdır, Gülarə, balalarımızın xatirinə getməliyik. Mən söz verdim, sözümü tutmalıyam, Amalı qorumalıyam, - dərindən ah çəkdi Tərgül.

Gülarəni maraq bürüdü:

- Kimə söz verdin?

Rəfiqəsinin bu sualı Tərgülü sanki yuxudan ayıltdı, gözlərindəki təlaşı acı bir nisgil əvəz elədi. Bu nisgil Gülarəni kövrəltdi, Tərgülü böyük bacı kimi bağrına basdı.

- Adil Amalı mənə, məni də Allaha tapşırdı, - sözlərini eşidəndə elə zənn etdi ki, Tərgül havalanıb, amma rəfiqəsində qeyri-adi bir hərəkət görməyəndə arxayınlaşdı. Birlikdə ən çox lazım olan əyin paltarlarını qablaşdırdılar. Adilin Amal üçün aldığı hər şeyi götürmək mümkün olmayanda Tərgül öz əyin paltarlarını çamadandan boşaltdı:

- Atasının yadigarıdır, burada qoya bilmərəm, - dedi.

Kamal yeni doğulmuş körpəsi üçün paltar, bələk alanda Adil də hələ dünyaya gəlməmiş oğluna bazarlıq eləmişdi. Kamal nəyə əl uzatmışdısa, o da həmin paltardan seçmişdi. Kamal gülə-gülə:

- Niyə tələsirsən, bəlkə, sənin övladın qız olacaq? - deyəndə də özünü sındırmamışdı. Əminliklə:

- Oğlum bilir ki, onu səbirsizliklə gözləyirəm, məni intizarda qoymaz, - cavabını vermiş, oğlunun gəlişini də dəbdəbə ilə qeyd etmişdi.

İndi o günlər xatirələrə çevrilmiş, Adilin aldığı hər paltarı götürəndə Tərgül için-için ağlamışdı. Bəzən paltarları qoxulayaraq Adilin əllərinin hənirtisini duymaq istəmiş, hiss etməyəndə:

- Aldığın paltarların ömrü sənin ömründən uzun oldu, ay Adil, - deyib hönkürmüşdü.

Belə anlarda Gülarə ona həyan olmuş, təsəlli verə bilməsə də, boynunu qucaqlayıb nəvaziş göstərmişdi. Tərgül körpə anasına sığınan kimi rəfiqəsinin sinəsinə qısılmış, bəzən hıçqırıqlar içində bayılmışdı. Özünə gələndə isə dönə-dönə üzrxahlıq etmiş: “Sən Allah, məni bağışla, səni çox üzürəm”, - demişdi. Gülarə isə: “Biz bacı deyilikmi?” – sualı ilə onu susdurmuşdu.

Gün əyiləndə ara-sıra eşidilən atəş səsləri güclənirdi. Ara vermədən yağan güllələr acığını bəzən dinc sakinlərdən, bəzənsə evlərin qapı-pəncərələrindən, divarlardan çıxırdı.

Bu gün isə günortadan sonra güllə səsləri eşidilmədi. Xocalıda çoxdan duyulmayan bir sakitlik hökm sürdü. Bu sakitliyin arxasında nə gizlənmişdi, heç kim bilmirdi. Qulaqları güllə səsinə öyrəşmiş Tərgül sual dolu baxışlarını Gülarənin üzünə dikərək:

- Qəribədir, niyə atmırlar? – soruşdu.

- Nə bilim? Allah özü axırını xeyir eləsin, - deyib Gülarə çiynini çəkdi.

Hava çoxdan qaralmışdı. Səhər tezdən evdən çıxan

Kamaldan bir xəbər yox idi. Gülarənin narahatlığını görən

Tərgül ona ürək-dirək verdi:

- Narahat olma, harada olsa, gəlib çıxar. Bu gün sakitlikdir. Təlaş etməyə dəyməz.

Elə bu vaxt bir neçə istiqamətdən atılan fişənglər Xocalı səmasını süd gölünə döndərdi. Fişənglər sönər-sönməz motor gurultusu eşidildi. Zirehli texnikanın ölümsaçan mərmiləri evlərin bir addımlığında partlayır, şüşələrin cingiltisi ara vermirdi. Layiqli cavabını alan düşmən geri oturduldu. Yenə sakitlik yarandı. Çaşqınlıqdan bir-birinə qısılan Gülarə ilə Tərgül özlərinə gəlməmiş qapı şiddətlə döyüldü.

- Yəqin, Kamaldır, - deyərək Gülarə qapıya cumdu. İşıqlar söndürüldüyü üçün qarşısında dayanan adamı tanımadı.

- Nə durmusunuz, təcili evləri tərk edin, ermənilər rusların köməyi ilə hücuma keçəcəklər, yubanmayın! – deyən adamın kimliyini də soruşa bilmədi. Haradansa çovuyan güllə gənci yerə sərdi. Gülarə başını itirdi:

- Tərgül, kömək elə, - deyərək gəncin başını dizinin üstünə alanda yaralı çoxdan keçinmişdi.

Gülarə ayağa qalxanda Tərgülü hüznlü gördü. O ağlaya-ağlaya:

- Bilirsənmi, bu, Adilin xalası oğludur, anası yataq xəstəsi olduğuna görə buranı tərk etməyəcəkdi, - dedi və birdən səsini kəsərək Gülarəni tələsdirdi:

- Durmaq olmaz, tez ol, uşaqları xilas etməliyik!

Uşaqlar dünyadan bixəbər uyuyurdular. İçəri qaranlıq idi. Hərə öz övladını götürdü. Gülarə isti yuvasına həsrətlə sonuncu dəfə göz gəzdirdi…

Küçə adamla dolu idi. Hansı tərəfə gedəcəklərini bilmədikləri üçün ikisi də axına qoşuldu. Hamının üzündə vahimə var-

dı. Bəzi adamlar paltarlarını belə geyinə bilməmiş, yarıyuxulu uşaqları adyala bükərək evləri tərk etmişdilər. Yan küçəyə burulanlar gözlərinə inanmadılar. Ağdam istiqamətində gedənlər geri dönmüşdülər. Yolu zirehli texnika ilə kəsən düşmənlər əhalini yaylım atəşinə tutmuşdular. Çaşqınlığın artdığı bir məqamda yeri-göyü lərzəyə salan partlayış səsi vahiməni daha da artırdı. Səs aeroport tərəfdən gəlirdi. Gülarənin ayaqları əsdi, dizləri büküldü: Kamal orada idi. Birtəhər özünü ələ aldı. Əlindəki balaca çamadan da ona ağırlıq etdi. Çamadanı bir tərəfə tullayıb Xəyalı bağrına basdı. Yerimək bir az asanlaşdı. Tərgül də yükünü atdı. O, Adilin ən böyük hədiyyəsini qorumalı idi. Bir addım da Gülarədən uzaqlaşmayan Tərgül yükünü atsa da, qüvvədən düşdüyünü hiss edirdi. Bəzən ona elə gəlirdi ki, Amal bir ayın içində qədərindən çox böyüdüyü üçün ağırlaşıb. O, arabir yerə çökür, bir qədər dincini alandan sonra dəstənin dalınca yürüyürdü. Meşəyə çatmağa az qalırdı. Yeganə xilas yolu burada idi. Arabir qaçanları haqlayan mərmilər düşdüyü yerdə dərin çuxurlar açır, hər şeyi havaya sovururdu. Lap yaxınlıqda partlayan mərmi Tərgülü yerə uzanmağa məcbur etdi. Amma gecikmək olmazdı. O qalxmalı, balasını xilas etməli idi. Gülarənin harayı Tərgülü özünə gətirdi. Birtəhər ayağa qalxdı. Son dəfə doğma şəhərə baxdı. Xocalıdan qalxan alov dilimləri əbədi olaraq gözlərinə həkk olundu. Ayaqları yerə mıxlandı. İndi o heç nəyi, hətta Gülarənin yalvarış dolu fəryadını da eşitmirdi. Növbəti mərmi Tərgülün bir neçə addımlığında partlayanda torpaq qarışıq qar topaları irəlidə gedənlərin başına ələndi.

Gülarə geri boylandı. Tərgülün dayandığı yerdə qaralan torpağı görəndə sinəsindən acı bir fəryad qopdu. Uşaq qucağında geri dönmək istəyəndə yaşlı bir kişi qarşısını kəsdi:

- Qızım, bu, müharibədir, - dedi, - hər şeyə hazır olmağı bacarmalısan.

Gülarə inildədi. Bu iniltidə nələr yox idi!

İlk dəstə meşəyə daxil oldu. Buraya bələd olanlar hamının bir yerdə irəliləməsinin təhlükəli olduğunu bildikləri üçün əhalini kiçik dəstələrə böldülər. Gülarəgilə yaşlı bir kişi başçılıq edirdi. Sıx ağacların arası ilə qara bata-bata yerimək çox çətin idi. Şaxtanın amansız dili insanların yalnız üz-gözünü yalamırdı, iliklərinə qədər işləyirdi. Dayanmaq ölümə bərabər idi. Düşmən əlinə keçməmək üçün yalnız irəli getmək, dolayı da olsa, Ağdam şosesinə çıxmaq lazım idi. Amma nə yol bitirdi, nə də ki uzun gecə tükənirdi. Bir saatdan çox idi ki, dəstə meşənin dərinliklərinə doğru irəliləyirdi. Qarşıda kiçik bir tala görünəndə bələdçi beş dəqiqəlik istirahət üçün dayanmaq işarəsi verdi. Gülarə fürsətdən istifadə edib körpəni yedirməyə münasib yer axtardı, böyük bir ağacın arxasında daldalandı. Körpə acgözlüklə əmməyə başlayanda Gülarə diksindi, Amal yadına düşdü: o da belə acgözlüklə əmirdi. Körpəsinin üzünü açmağa ürək eləmədi. Elə zənn etdi ki, şaxtanın ilan dili körpəni donduracaq. Bələdçi getmək işarəsi verəndə uşaq hələ də doymamışdı. Gülarə onu yedirə-yedirə çətinliklə də olsa, dəstənin ardınca irəlilədi. Qarqar çayına çatanda hamı dayandı, o taya keçmək üçün münasib yer axtardılar. Kimsə dilləndi:

- Bir qədər aşağıda nə vaxtsa çayın üstünə aşmış ağac var. Ov zamanı həmin ağacın üstü ilə o biri sahilə keçmişəm. Yolumuz uzansa da, oraya getməliyik.

Hamı razılaşdı. Ağacın üstünü qar örtsə də, yoğun gövdəsi hamının köməyinə çatdı. Dəstədəkilər bir-birinin ardınca "körpü"nü rahatlıqla keçdilər. Lakin qarşıda küləyin at oynatdığı

uzun yol yurd-yuvasını tərk edənlərə yaxşı heç nə vəd etmirdi.

Səhərə yaxın Ağdam şosesinə çatan dəstədə elə də çox adam yox idi. Meşə boyu taqətdən düşən, şaxtaya davam gətirməyən onlarla adam taleyin ümidinə qalmışdı. Anasını kürəyində daşıyan gəncin əzab dolu baxışı Gülarənin ürəyinə xəncər kimi sapландı. O, anasını yolun kənarında kürəyindən yerə qoyub:

- Muxtar əmi, anam sizə əmanət, mən geri qayıdıram, - dedi.

- Oğul, özünü təhlükəyə atma, bəlkə də, onlar ələ keçiblər,- söyləyən Muxtar kişiyə gənc çəpəki baxaraq qəti qərar verdi:

- Bütün ömrü boyu vicdan əzabı ilə yaşamaqdansa, ölüm yaxşıdır.

Dəstənin təhlükəsizliyinə əmin olan digər kişilər də Qadirə qoşuldular. Bir azdan altı-yeddi nəfərlik dəstə ağacların arasında qeybə çəkildi. Gülarə xilas olsa da, Tərgül gözlərinin qabağından getmir, sakitcə göz yaşı axıdırdı.

Hava işıqlandıqca ətraf aydın görünürdü. Bir dəstə silahlı şose yolla onlara doğru irəliləyəndə Gülarənin fəryadı hamını diksindirdi. O, qucağındakı körpəni tələşla yanındakı qadına verib qışqıra-qışqıra meşəyə tərəf götürüldü. Uşağı qucağında tutan qadının Gülarəyə yazığı gəldi. Doluxsunaraq:

- Yəqin ki, uşaq tələf olub, ona görə də hövüllənib, - fikri ilə bələyə bükülmüş uşağın üzünü açdı. Ağzını ayırıb yemək axtaran uşağı sağ görəndə Gülarənin halına acıdı.

- Gəlini geri qaytarmaq lazımdır, uşaq sağdır, - dedi.

Gülarə isə çoxdan gözdən itmişdi. Gecəni səhərə qədər yatmasa da, qorxu, həyəcan taqətini tükətsə də, daxilində baş qaldıran hiss onu geriyə - Tərgülün yanına çəkirdi. Bir qədər əvvəl çətinliklə keçdiyi yolları birnəfəsə necə qayıtdığından özünün də xəbəri yox idi. Qarışıq hislər içində addımlayan Gülarənin

gözünə heç nə görünmürdü. Onu düşündürən bir şey var idi: Tərgülə çatmaq, onu və körpəni xilas etmək. Qarşıdan beş-altı nəfərin gəldiyini görəndə Gülarə ürəkləndi, özünə inamı daha da artdı. Onlardan bir xəbər öyrənmək ümidilə sürətini bir az da artırdı.

- Bacım, hara? – sualından diksindi. Dili topuq vura-vura:

- Məə-n Təə-rgülü tapp-malıyam, körpp-əəmi xilaa-s ett-məliyəm,- dedi.

- Qayıt, bacım, geridə heç nə, heç kim qalmayıb, özünü güdaza vermə,- deyən əsgərin səsindəki hüzn Gülarənin son ümidini də qırdı. Bayaqkı gücündən əsər-əlamət qalmadı. Taqətsiz halda qarın üstünə çökdü. Anasını istəyən, lakin tapmayan körpələr kimi hönkürdü. Bu hönkürtü meşənin dərinliklərində əks-səda verib təzəcə yuxuya gedən meşəni ayıltdı. Uzaqdan atəş səsləri eşidildi.

- Dur, bacım, ağlamaq zamanı deyil, ermənilər geridə qalanları, yaralıları qətlə yetirirlər.

Gülarə birdən ayıldı. Ona bu sözləri deyən əsgəri ikrahla süzdü:

- Sizsə qaçırsınız! Hansı haqla? – əlini avtomata uzatdı, - Ver mənə! – dedi.

Bayaqdan Gülarənin sözlərini diqqətlə dinləyən yaşlı döyüşçü avtomatın boş darağını göstərərək bir qədər kəskin şəkildə:

- Bax bu haqla, - deyib səsini ucaltdı, - son gülləmiz qalana qədər döyüşdük, əhali qaçana qədər səngərlərimizi tərk etmədik. Sursatımız qurtaranda isə ucuz ölüm arzulamadıq. Əgər sağıqsa, bu bizim günahımızdırmı? Bu torpaqlara yenidən qayıtmaq üçün yaşamalıyıq!

Gülarə deməyə söz tapmadı. Xocalıya uzanan tapdalanmış qarlı cığırlara uzun-uzadı göz yaşları içərisində vida nəğməsi oxudu – ağı dedi. Atəş səsləri aydın eşidiləndə zorla ayağa qalxdı, ayaqlarını sürüyə-sürüyə dəstənin ardınca geri qayıtdı. Yola çatanda körpənin səsinə vaysınan qadınlardan biri:

- Şükür Allaha! Sağ-salamat gəlib çıxdın, a bala, körpəyə heç nə olmayıb. Bərk acıb, onu yedirsənə, - dedi.

Gülarə uşağı qucağına aldı. Diqqətlə üzünə baxdı:

- Can bala, - deyib göz yaşlarını sildi və ağzını dolandırıb yemək axtaran körpəni sinəsinə basdı. İsti nəfəs duyan körpə qığıldadı. Bu qığıltı Gülarənin qan daman yarasına duz səpdi. Elə bir duz ki, onu ömrü boyu göynədəcəkdi, bələkdə gördüyü hər körpədə Xəyalın cizgilərini axtardacaqdı. O, göz yaşları içərisində yaxasını açdı, körpə əmdikcə ruhunun cismindən aralandığını hiss etdi...

Üzünə dəyən yüngül şillələri duyanda gözlərini açdı. Başı bir qadının dizləri üstündə idi. Əvvəlcə nə olduğunu anlamadı, fikri aydınlaşanda dəli bir hərəkətlə dikəldi. Körpəni yanında görməyəndə vahimə ilə ətarfa baxıb:

- Oğlumu neylədiniz, hanı mənim Xəyalım? – deyərək yenidən bayıldı.

Üç gün Ağdam Şəhər Xəstəxanasında müalicə olunduqdan sonra Gülarə yataqdan qalxdı. Keçən günlər Amalı Gülarəyə nə qədər doğmalaşdırsa da, hər dəfə uşağı yedirəndə qaysaq tutmayan yaraları təzələndi, göz yaşları yalnız yanağından süzülmədi, yaralarının üstünə səpilərək övlad dağının üstünə bir acı da əlavə etdi.

Gülarənin əl çantasındakı sənədlərə əsasən xəstəxanada körpəni Xəyal adı ilə qeydə aldılar. Nə qədər ağır olsa da, gənc

ananın buna alışmaqdan başqa çarəsi qalmadı. Hər dəfə elə zənn etdi ki, südünü əmən Xəyaldır. O, laylalarını Amala çalsa da, Xəyala ünvanladı...

Bir həftədən çox vaxt ötsə də, Kamaldan heç bir xəbər yox idi. Bu isə Gülarənin əzablarını daha da artırdı. Yalqızlığı onu körpəyə daha möhkəm bağladı. Hər dəfə doyandan sonra üzünə baxıb qığıldayan Amalı bağrına basıb:

- İkimiz də yetimik, körpəm, - deyərək hönkürdü. Çox vaxt özünü günahkar saydı: "Axı niyə körpələrin ikisini də mən götürmədim?"- sualı onu ömrü boyu əzdi.

***

Düz bir aydan sonra Gülarə Kamaldan xəbər tuta bildi. Başından güllə yarası almışdı. Vəziyyəti düzəlsə də, o heç nəyi xatırlamır, heç kimi tanımırdı. Aparılan müalicələrin də elə bir təsiri yox idi: zamana ehtiyac vardı.

Kamalın yaddaşı bərpa olunana qədər Gülarə nələr çəkmədi: eyni otaqda ömür-gün yoldaşı onunla yadlar kimi rəftar etdi. O danışanda Gülarə də danışdı, güləndə güldü, qəmlənəndə qəmləndi. Uşağın yaş yarımı olan gün keçmişi xatırladı Kamal. Körpəyə diqqətlə baxıb:

- Bu, mənim oğlumdurmu, Gülarə? – dedi.

Adının məhrəmcəsinə çəkilməsi Gülarəni çaşdırsa da, bir il üç ayda ürəyinə yatan ilk sözü eşidəndə qulaqlarına inanmadı. Kamalın qarşısında durub soruşdu:

- Bir də təkrarla, sən nə dedin?

Kamal təəccüblə:

- Bu, bizim oğlumuz Xəyaldırmı? – deyəndə Gülarə çaşdı, ağzını doldurub həqiqəti demək istədi, lakin həkimin tapşırığı

yadına düşdü:

- Xəstəni həyəcanlandırmaq olmaz. Adi ehtiyatsızlıq bütün müalicələri bada verə bilər.

Çıxılmaz vəziyyətə düşən Gülarə dili dolaşa-dolaşa soruşdu:

- Xəyal yadına gəlirmi? Sən gedəndə neçə aylıq idi?

Kamal gülümsünərək:

- Deyəsən, yaddaşımın geri qayıtmasına inanmırsan. Oğlumuz üçaylıq idi. Onu sənə tapşırıb səngərə getdim, - dedi.

Gülarənin gözləri yol çəkdi:

- Üstündən düz bir il üç ay keçib, - sözləri güclə eşidildi.

Kamal bir evdə olduqları aylar ərzində ilk dəfə Xəyalı çiyninə qaldırıb:

- Mənim aslan oğlum, - deyəndə isə yanıqlı bir hönkürtü otağı doldurdu.

Gülarənin hönkürtüsü Kamalı çaşdırmadı, amma bu hönkürtüyə başqa bir ad da verə bilmədi. Gülarənin boynunu qucaqlayıb:

- Ağlama, - dedi, - nələr çəkdiyini bilirəm.

Bir anlıq Gülarəyə elə gəldi ki, Kamal olmadığı bütün müddətdə baş verən hadisələrin hamısından, hətta Xəyalın Amal olmasından da xəbərdardır. Hıçqırıq içində:

- Sən nəyi bilirsən, Kamal? – soruşdu.

- Sənin fədakarlığını, mənim yolumda çəkdiyin bütün əziyyətləri, - sözlərini eşidəndə isə yenidən hönkürdü. Oğlunu qucağından qoymayan Kamala həqiqəti deyə bilmədi, onu yeni zərbə ilə sarsıtmaq, itirmək istəmədi.

Xocalı köçkünlərinin yerləşdiyi yataqxanada onlara da müvəqqəti sığınacaq vermişdilər. Otaq balaca olsa da, səliqəli idi. Gülarə bacardıqca evdə səliqə-sahman yaradır, Kamalın və Xə-

yalın rahatlığını təmin etməyə çalışırdı. Bu balaca otaq düz iki il Gülarənin çəkdiyi sıxıntıların, əzabların şahidi oldu: Kamal Xəyalı gəzintiyə aparanda itirdiyi körpəsinə layla deyən ananın yeganə sirdaşına çevrildi. Ona görə də Gülarə sirdaşı, dərdlərinin şahidi, həm də təsəllisi olan bu kiçik otağı çox sevdi.

Xocalı əlillərinə yeni tikilmiş binada mənzil veriləndə Kamalgilin payına üçotaqlı mənzil düşdü. Qonşular Gülarəyə gözaydınlığına gələndə o sevinmədi. Hörmət xatirinə:

- Sağ olun, - dedi.

Gülarənin dilucu "sağ olun" deməsi qaraqabaq olduğu üçün onu xoşlamayan, imkan tapan kimi sancan Dilbəri hövsələdən çıxardı. Onun:

- Burda deyiblər də: "Nə yoğurdu, nə yapdı, hazırca kökə tapdı". Hələ şadlığına təpik də atır. Mənim beş ildir, bir otaqda canım çıxır, yada düşmürəm. Adamın gərək bəxti olsun, - sözləri Gülarənin yarasına duz basdı, ona cavab verməyə də taqəti olmadı. Dilbərə haqq verməyən qonşuların qınaq dolu narazı baxışlarını görəndə içəri keçib qapını örtdü, səsini eşitməsinlər deyə dəsmalla ağzını tutub için-için ağladı.

***

Təzə mənzil geniş, rahat, işıqlı idi, bütün avadanlıqlarla da təmin edilmişdi. Amma əl vurduğu hər əşya Gülarəyə ötən çağları – ilk yuvasındakı xoşbəxt anları xatırladırdı. Xocalıdan yadigar qalan əl çantasında gətirdiyi şəkillər və xatirələr idi. Evdə tək olanda o şəkillərlə o qədər danışırdı ki. Kamal evə gələndə isə şəkilləri yığışdırır, gizlədirdi. Arabir Kamal ötən günləri xatırlamağa çalışsa da, Gülarə söhbəti dəyişir, yaddaşı tam bərpa olun-

mayan ərini üzmək istəmirdi. Lakin bir gün işdən dönən Kamal süfrə yığışdırılandan sonra gözlənilmədən:

- Gülarə, Tərgül haradadır? - soruşanda rəngi avazıdı, sözlər boğazına tıxandı, yaşlı gözlərini yerə dikib susdu. Onun susqunluğu Kamalı təlaşlandırdı, həyəcanla:

- Danışsana, niyə susdun? – deyə təkid etdi.

Gülarə əzablar içində:

- Mən onu qoruya bilmədim, Kamal, - deyib hıçqırdı.

Kamal da susdu. Səngər yoldaşlarını xatırlamağa çalışdı. Dumanlı şəkildə şəhərin geridə qalan son sakinlərini xilas etmələri yadına düşsə də, fikri aydınlaşmadı...

Xəyalın birinci sinfə getdiyi gün evdə bayram əhvali-ruhiyyəsi vardı. Gülarə Xəyalın boyunu sevdi, əzizlədi. Onu Kamalla məktəbə yola salandan sonra xeyli ağladı, körpəsinin şəkillərini stolun üstünə düzüb böyüməsini, çiynində çanta məktəbə getməsini gözünün qabağına gətirdi. Əzablar içində qıvrıldı, amma canının ağrısını özündən başqa duyan olmadı. Xəyal günbəgün böyüdükcə Gülarənin uca boyu kiçildi, saçlarına ağ zolaqlar naxış vurdu. Kamal dəfələrlə saçlarını boyamağı təkid etsə də, bir bəhanə ilə təklifdən yayındı. İllər keçdikcə Xəyala daha çox bağlandı. Hərdənbir onu da itirəcəyindən qorxdu. Amma yox! Onun son ümidini əlindən almağa kimsədə cəsarət olmayacaqdı. Həyatı bahasına olsa belə, oğlunu qoruyacaqdı. Gülarə daha çox Kamaldan çəkinir, həqiqəti gizlətdiyi üçün əzab çəkirdi. Nə vaxtsa bu sirrin üstünün açılacağından, Kamalı yeni zərbə ilə üzbəüz qoyacağından qorxurdu. Bir gün Gülarə gözlədiyi ilk zərbə ilə qarşılaşdı. Kamal orta məktəbin son sinfində oxuyan Xəyalı diqqətlə süzüb birdən-birə:

- Gülarə, diqqətlə bax, Xəyal nə qədər Tərgülə bənzəyir, -

deyəndə əvvəlcə duruxdu, lakin özünü ələ alıb dilləndi:

- Bəs Tərgüllə mən bir-birimizə bənzəmirdikmi?

Kamal köksünü ötürüb:

- Hə, bənzəyirdiniz, - dedi.

Gülarə rahatlandı. Tez söhbəti dəyişdi. Xəyal tələbə biletini alanda uçmağa qanadı olmadı. Amma sevinci nə qədər böyük olsa da, xəlvətə çəkilib balasını yad elədi.

Gülarə hər səhər universitetə iki oğul yola saldı, iki oğulun qarşısına çıxdı. Qollarını açanda elə zənn etdi ki, həm Amalın, həm də Xəyalın boynunu qucaqlayır. Bəzən çaşıb süfrəyə iki dəst qab qoydu. Xəyalın təəccüblə baxdığını görəndə yeməyə iştahası olmasa da, süfrə arxasına keçdi. Günləri aylara, ayları illərə təslim etdikcə bir an da olsun Xocalını, orada qoyub gəldiyi körpəsini unutmadı. Bəzən kiçik ürəyin böyüklüyünə heyrətləndi, böyük bir dünyanın ən müdhiş sirrini necə qoruduğuna məəttəl qaldı. Bəzənsə sirrinin şahidinin olmadığına sevindi. Görəsən, sevindimi? Yox! Gecələr körpə Xəyalın qığıltısına yuxudan oyandı. Yedirmək üçün əlini yaxasına aparanda yoxluğunu qəbul etmədiyi balasına astadan ağı dedi. Amma onun yuxusuz gecələrinin də, ağılarının da şahidi bu dörd qara divar və bir ovuca sığan ürəyi idi.

Belə bir vaxtda naməlum adam tərəfindən göndərilən məktub, kamodun üstündən götürdüyü qolbağı Gülarəyə nələrisə pıçıldadı. Bu pıçıltı bəzən çox asta, sakit əsən mehi xatırlatdı, bəzənsə insanın bütün ümidlərini qıran, onu çox şeyə sürükləyən kabusa çevrildi. Xəyal iztirablar içində gözlərini qolbağıdan ayırmayan anasını görəndə:

- Ana, bu qolbağını lap unutmuşdum. O harada idi ki?- soruşdu.

Gülarə ümid dolu nəzərlərlə oğluna baxdı, xəfifcə gülümsünərək sual etdi:

- Bu hədiyyə kimdəndir?

Xəyal anasının qəlbini açmaq üçün:

- Bir qəribə qadın vardı, o verdi, - deyib ad günündə olanları coşqunluqla danışmağa başladı. Gülarənin ürəyi əsdi:

- Adını soruşmadınmı?

- Yox.

- Bəs hara getdi?

- Dəmiryol vağzalının yanında düşdü. Bu qolbağını da mənə verdi ki, sənə çatdırım.

Gülarənin sinəsi körük kimi qalxıb-endi, danışmaq istəsə də, dili topuq vurdu. Xəyal əl-ayağa düşdü, sakitləşdirici dərman gətirib, hələ də həyəcandan dişləri bir-birinə dəyən anasına içirdi. Dərmanın təsirindən Gülarənin gözləri yumuldu…

Ucu-bucağı görünməyən qar səhrası Gülarəni qoynuna almışdı. Dayanmadan gedir, arabir arxaya da boylanırdı. Qucağındakı bələyi bərk-bərk sinəsinə sıxmışdı. Hərdən büdrəsə də, özündə güc tapır, dizə qədər qarı aramla yara-yara irəliləyirdi. Bələkdən səs eşidiləndə ani dayandı. Körpənin üzünü açdı. Xəyal gülərək ona baxırdı. Gülarə də gülümsündü. Amma birdən dəhşət içində bələyi yerə tulladı. Bələkdəki Xəyal deyildi, qəribə bir məxluq idi. İstehzalı baxışlarla dişsiz ağzını müxtəlif şəkillərə salırdı. Gülarə ondan qaçmaq, uzaqlaşmaq istəyəndə yenidən Xəyalın səsini eşitdi. Geri döndü. Yox, bu onun Xəyalı idi. Dodaqlarını büzüb ağlamsınır, yemək istəyirdi. Gülarə bələyi qucağına aldı. Qorxusundan uşağa baxmaq istəmədi. Elə zənn etdi ki, yenə kabus görəcək. Birdən-birə sinəsinin istiləndiyini duydu. Körpə əmdikcə ağzından axan qan Gülarənin sinəsini

isladırdı. O, dəhşət içində körpəni sinəsindən araladı. Körpə yaralanmamışdı. Yenə də gülümsəyirdi. Ağzından axan anasının qana çevrilən südü idi. Uşaq qanı uda bilməmişdi. Gülarə inildədi və bu inilti içində də yuxudan oyandı. Oğlu da, Kamal da evdə idilər. Sakitcə Gülarənin yuxudan oyanmasını gözləyirdilər.

Hava çoxdan qaralmışdı. Televizorda Xalq hərəkatının başlanmasından bəhs edən veriliş gedirdi. Qəribə idi ki, verilişin aparıcısı müstəntiq kimi danışır, Xalq hərəkatının liderlərinə ittihamedici suallar verir, imperiyanın dağılmasında hərəkatın rolunu sıfıra endirir, 20 Yanvar faciəsinin səbəblərini liderlərin səriştəsizliyində axtarırdı. Verilişi izlədikcə həmin hadisələrin canlı şahidi kimi Kamalın bənizi gah ağarır, gah da pörtürdü. Axırda səbrini basa bilməyib dedi:

- Televizoru söndür.

Bir şey anlamayan Xəyal:

- Niyə, ay ata, gör nə maraqlı verilişdir, - deyib israr edəndə Kamal qəti şəkildə:

- Yalanın marağı da özü boyda olar, ay bala, - söylədi.

Xəyal televizoru söndürəndə Gülarə zəif səslə dilləndi:

- Qoy uşaq istədiyinə baxsın.

Gülarənin səsini eşidəndə hər ikisi ona yaxınlaşdı. Kamal qayğı ilə:

- İndi necəsən? – soruşdu.

Gülarə zorla gülümsünüb:

- Narahat olmayın, yaxşıyam,- cavabını verdi. Yerindən qalxmaq istəyəndə Xəyal:

- Ana, bu gün ev işlərinə mən baxıram axı, - deyib mətbəxə yollandı.

Yuxunun təsirindən ayıldıqca Gülarə Allaha şükür etdi.

Özünə qəti söz verdi ki, həyəcanlanmayacaq. Sağalan kimi məktub sahibini – qolbağını verən adamı axtarıb tapacaq.

***

Qışın soyuq nəfəsi duyulsa da, Gülarə həkimin məsləhəti ilə hər gün bir neçə saat dənizkənarı bulvara gəzintiyə çıxırdı. Xəyal anasını tək qoymamaq üçün onunla bərabər dəniz kənarına gəlirdi. Günlər bir-birini əvəz etdikcə Gülarənin halı yaxşılaşırdı: əsəbləri sakitləşir, nəfəs alması yüngülləşirdi. Gülarənin yaxşılaşması Xəyalı da, Kamalı da sevindirirdi. Bəzən dəniz kənarına tək gedəndə saatlarla dalğaların sahilə çırpılmasına, qağayıların nəhəng dalğalarla yarışına baxmaqdan doymur, qəlbini qəribə hislər çulğalayırdı. Bəzən nöqtə kimi görünən qağayıların ləpələrin ağuşundan sıyrılmasına heyrətlənir, bu balaca quşlardakı cəsarətə qibtə edir: "Kaş bu quşlardakı cəsarətin kiçik bir zərrəsi məndə olaydı, bu ağır yükdən xilas olmağı bacaraydım", - desə də, tezliklə bu fikri birdəfəlik başından qovmağa çalışırdı...

Yanvar ayının soyuq günlərindən biri idi. Gülarə sahil boyu uzanan məhəccərə söykənərək yenə də küləyin və dalğaların harmoniyasına uyğun rəqs edən qağayıları seyr edəndə birdən-birə narahatlıq duydu. Hiss etdi ki, üzərinə çəkə bilməyəcəyi bir ağırlıq çökür. Ətrafa boylandı. Axşamüstü olduğu üçün soyuğa davam gətirməyənlər evlərə çəkilmişdilər. Heç kim gözə dəymirdi. Dənizin uğultusundan, qağayıların qiyyəsindən başqa heç bir səs eşidilmirdi. Gülarə bulvara tək gəldiyinə peşman oldu. Xəyalın kitabxanadan qayıtmasına yarım saat qalırdı. O, özünü ələ alıb yaxınlıqdakı skamyaya tələsdi. Yerini rahatladı, çantasını açıb sakitləşdirici dərman qəbul etmək istəyəndə adını eşitdi. Ətrafa

boylandı, heç kim yox idi. Gülarə:

- Yəqin, məni qara basır, - deyib hövüllləndi.

- Ana, mən gəldim, dur gedək, - deyən Xəyalın səsi gələndə toxtaqlıq tapdı. Ayağa qalxıb qoluna girdi və ona sığındı. Asta-asta avtobus dayanacağına tərəf yollandılar. Elə bu vaxt iri şam ağaclarının altındakı skamyada əyləşən, lakin üzü aydın görünməyən qara paltarlı bir qadın Gülarənin diqqətini cəlb etdi. Öz-özünə:

- Bu haradan peyda oldu? – düşündü.

Avtobuslar bir-birini əvəz edir, amma 65 nömrəli marşrut nədənsə gecikirdi. Arxaya çevrilib baxmasa da, Gülarə kürəyinə zillənən bir cüt gözün ağırlığı altında əzilir, əzildikcə də nəfəsi təngiyirdi. Qəlbində baş qaldıran hissi özü də müəyyən edə bilmir, avtobusun tez gəlməsini arzulayırdı. Avtobus şose yolun başında görünəndə Gülarə rahat nəfəs aldı.

İndi onun bir arzusu vardı: bacardıqca buradan tez uzaqlaşmaq.

Yol boyu Xəyalı seyr edən Gülarə də Kamal kimi məhz indi duydu ki, Xəyalın bütün cizgiləri Tərgülü xatırladır...

***

- Gec, ya tez bu məsələ çözülməli, şübhələrə son qoyulmalıdır, - deyə-deyə ertəsi gün Gülarə parkı dolaşdı, dünənki qadını axtardı. Tapmayanda ümidsizləşdi.

-Yəqin, bütün ömrümü sıxıntı içərisində yaşamaq alın yazımdır, - düşündü. Qəlbində baş qaldıran çarpaşıq bir hiss onu dəmiryol vağzalına tərəf sürüklədi. S. Vurğun bağına çatanda tələbəlik illərini xatırladı. İri qovaq ağacının altında qoyulmuş skamyanı yenisi ilə əvəz etmişdilər. Metaldan düzəlmiş naxışlı

qoltuqlar oturacağa xüsusi yaraşıq verirdi. Bağda ara-sıra adamlar gözə dəyirdi. Gülarə həmişə əyləşdiyi yerdə oturdu. Tərgülün boş qalan yerinə əlləri titrəyə-titrəyə sığal çəkdi. Öz-özünə:

- Hardasan, Tərgül? Sağsanmı, ya dilim qurusun, ölmüsən? Bir insan bəndəsinə bu qədər zülmü Allah necə rəva görər? Kaş həmin gün sizi tapaydım, son dəfə balamı bağrıma basıb öləydim. Tərgül, bələkdəki uşağın Amal olduğunu görüncə dəliyə döndüm. Zorla keçdiyimiz yolları birnəfəsə yüyürdüm. Sizə çatmağa az qalmış irəli getməyə qoymadılar. Həmin gündən gözüm dağınıqdır. Hərdən fikirləşirəm ki, haradansa Xəyal qucağında gələcəksən. Axı Xəyal böyümədi, körpə qaldı. Mən isə sənin əmanətini iki gözüm kimi qorudum. Ona Xəyalın adını verəndə də susdum. İkimiz də yetim idik: mən baladan, Amal da anadan, - söylədikcə ötüb-keçənlər kino lenti kimi gözlərinin qarşısından keçdi. Ayağa qalxmaq istəyəndə çiynində ağırlıq hiss etdi. Dönüb baxdı. Qara paltarlı qadın idi. Sağ əlini Tərgül kimi belinə qoymuşdu, sol əli isə Gülarənin çiynində idi. Görüşə tam hazır olduğu üçün o oturduğu yerdən tərpənmədi:

- Əyləşin, - dedi.

Qara paltarlı qadın Tərgülün yerində oturmaq istəyəndə Gülarə kəskin şəkildə etiraz etdi:

- Burada yox, bir qədər o tərəfdə oturun.

Gülarənin etirazı qadını təəccübləndirsə də, sözə əməl etdi.

Hər ikisi susdu. Söhbətə necə, nədən başlamaq lazım olduğunu bir müddət heç biri kəsdirmədi. Nəhayət, Gülarə:

- Sən kimsən, məndən nə istəyirsən? – sualını verəndə qara paltarlı qadının gözləri yol çəkdi. Bu gözlərdə ümid və qəribə bir parıltı vardı. Qadının susqunluğu Gülarəni haldan çıxarsa da, dözdü. Keçən hər dəqiqə ona bir il qədər uzun, cansıxıcı görün-

dü. Birdən səbirsizləndi. Ağzını açıb danışmaq istəyirdi ki:

- Səndən özümü, keçmişimi, xoş həyatımı istəyirəm, - deyən qadının zəif səsini eşitdi. Bu səs nə qədər zəif olsa da, bir o qədər qətiyyətli, nə qədər yalvarışlı olsa da, bir o qədər təkəbbürlü idi.

- Mən özüm onların sorağındayam, onları mənə gətirə bilərsənmi? – deyərkən Gülarə sızıldadı. Bu sızıltıdakı acını, təəssüfü, kədəri duymaq çətin deyildi.

- Yox, bacarmaram, - cavabını eşidəndə Gülarənin bükülən qaməti düzəldi, qeyzlə:

- Bəs mən necə verim? – soruşdu.

- Sən bacararsan.

Qadının xırıltılı səslə dediyi sözlər Gülarəni duruxdurdu. İlk dəfə gördüyü qadının arxayın danışığı nələri isə yadına saldı.

Öz-özünə astadan:

- O da belə inamlı danışardı, - dedi.

- Kim? – qadın maraqlandı.

- Tanımazsınız.

- Bəlkə, tanıdım?

- Tərgül, - Gülarə çətinliklə də olsa, rəfiqəsinin adını dilinə gətirdi.

Qara paltarlı qadın yalnız indi başını qaldırıb dik Gülarənin gözlərinə baxdı:

- Məni tanımadınmı, Gülarə?- dedi.

Adının bu qədər məhrəmcəsinə çəkilməsi Gülarəni ayıltdı. Qadının üzünə diqqətlə baxdı. Yanıq dərisi üzünün almacıq sümüklərinə yapışan, gözlərinin kənarını dərin qırışlar örtən, iri çapığı alnına ayrıc salan, ovurdları arıqlıqdan az qala bir-birinə keçən, alt çənəsi qədərindən uzun görünən bu qadında Tərgülün cizgilərini axtardı, tapmadığına, deyəsən, sevindi. Sevindimi?

Yox. Sadəcə bu qadının Tərgülə bənzəməsini istəmədi.

- Yox, tanımadım, - cavabını verdi.

Qadın həzin səslə pəsdən "Qaragilə" mahnısını zümzümə edəndə Gülarə ilan vurmuş kimi yerindən dik atıldı. Bu, Tərgülün ən çox xoşladığı xalq mahnısı idi, gözlərində isə Gülarənin indiyə qədər anlaya bilmədiyi həmin qəribə parıltı vardı. Bəli, bu, Tərgül idi. Bu mahnını yalnız o, bu qədər yanıqlı , yaşayaraq oxuya bilərdi. Gülarə ayağa durdu, qara paltarlı qadını qucaqlamaq, illərin həsrətinin, ağrı-acısının qəhərini birdəfəlik hönkürmək istədi. Lakin qarşısında gözəllər gözəli Tərgülün əvəzində qarımış yanıq sima görəndə duruxdu:

- Yox, sən Tərgül deyilsən, onun yerini tutmağı hər adam bacarmaz, - dedi və çılğınlıqla əlavə etdi, - get, gəldiyin yerə get, köhnəlməyən yaralarımı göynətmə. Tərgül özü ölərdi, mənim yanıma Xəyalsız gəlməzdi. Sən Tərgülsənsə, mənim balam hanı?

Qara paltarlı qadın susdu, lakin bu susqunluq da uzun sürmədi.

- Bəs qolbağı? O da mı sənə heç nə demir? – sualını eşidəndə ürəyi əsdi, dizlərində taqət qalmadı, ağır-ağır skamyaya çökdü. İztirabla gözlərini qara paltarlı qadının üzünə dikdi. Onun gözlərində Xocalıdan qalxan alov dilimlərinin işartılarını gördü. Bu dilimlərdə gənc bir ömrün ağrıları, acıları dil açdı...

***

Ətrafa səssizlik çökmüş, hər yer qara rəngə boyanmışdı. Ulduzlar sönmüş, Ay qeybə çəkilmişdi. Tərgül üzərində ağır bir yük hiss etdi. Əvvəlcə harada olduğunu da dərk etmədi. Tərpənmək, bu yükdən birdəfəlik qurtulmaq istədi. Bacarmadı.

Sanki qollarını da, ayaqlarını da torpağa bənd etmişdilər.

Öz-özünə:

- Deyəsən, məni diri-diri torpağa basdırıblar, - düşündü. Bağırmaq, köməyə adam çağırmaq istədi, amma dili də sanki kilidlənmişdi. Ağzına dolan soyuq torpağı tüpürmək istədi, yenə də bacarmadı. Getdikcə fikri aydınlaşmağa başladı. Yaxınlığında partlayan mərminin gurultusu qulaqlarında əks-səda verdi. Sinəsinə basdığı körpəsini xatırladı.

- Allahım, mənə güc ver, - deyib hərəkət etdi. Üstündəki yükün azaldığını duydu. Növbəti cəhdi də uğurlu oldu. Tərgül zorla ayağa qalxdı. Gözləri körpəsini axtardı. Mərminin açdığı çuxurdan xeyli aralıda bir tərəfini nazik torpaq təbəqəsi örtən mavi rəngli bələyi görəndə sevindi. Partlayışın dalğası körpəni Tərgüldən bir neçə metr uzağa atmışdı. O əsə-əsə bələyin üzərindəki torpağı təmizlədi. Bələkdən səs-səmir gəlmədiyini görəndə qorxdu.Uşağın üzünü açmağa əli gəlmədi. Örtüyün altından barmaqlarının ucunu körpənin sifətinə toxundurdu, isti idi. Bir qədər sakitləşdi. Yatmış körpəni bağrına basıb ayağa qalxdı, səndələyə-səndələyə meşəyə tərəf yollandı.

Tərgül bir-birinə qarışan ayaq izlərinin onu hansı istiqamətə aparacağını, qar libasına bərk-bərk bürünmüş ağaclar aləmindən nə vaxt yaxa qurtaracağını bilmədən irəlilədi. Hava ayazlı, şaxtalı olsa da, getdikcə aydınlaşırdı. Tənha qalan Tərgül bir doğma səs, hənirti üçün darıxdı. Yaxınlıqda ulartı səsi eşidiləndə canını qorxu aldı. Bir daldanacaq axtardı. Ancaq gec idi. Bir cüt fanara bənzəyən göz getdikcə yaxınlaşırdı. Körpəsini sinəsinə basan Tərgül addım-addım geri çəkildi. Kürəyi nəyə isə toxunanda dayandı. Körpəni ağacın dibinə qoyub döyüşə hazır vəziyyət aldı. Canavarın qarşısında əliyalın duraraq körpəsini qoruya biləcəkdimi? O, ətrafa boylandı. Ayağının altında qalan palıd ağacının o

qədər də uzun olmayan budağına son ümid yeri kimi baxdı. Əyilib budağı götürdü. Marığa yataraq hücuma hazırlaşan yalquzağa diqqətlə baxdı. Yeganə xilas yolu budağın şiş ucunu hücuma keçən canavarın açıq ağzından boğazına yeritmək idi. Amma Tərgül bunu bacaracaqdımı, titrəyən dizlərində təpər, əsən əllərində güc olacaqdımı, bunu demək çətin idi.

Dişlərini qıcayıb mırıldayan yalquzaq birdən hərəkətə gəldi. Tərgül boğazı bərabərdə tutduğu budağın nəyə isə ilişdiyini hiss etdi, lakin zərbəyə davam gətirməyib arxası üstə yerə sərildi. Vahimə içində bir azdan ömrünün sona çatacağını düşündü.Vəhşi xırıltıdan özünə gəldi. Deyəsən, hədəfi düz nişan almışdı. Var gücünü toplayıb dikəldi. Ağacın şiş ucu canavarın boğazına batmışdı. Ağzından qan qarışıq köpük gələn yalquzaq son anlarını yaşayırdı. Tərgül körpəni götürdü, bu müdhiş məkandan uzaqlaşmağa çalışdı...

Meşə qalınlaşdıqca yerimək çətinləşirdi. Tərgül tez-tez büdrəsə də, dayanmaq fikri yox idi. Kiçik talaya çatanda sevindi. Yəqin ki, buradan bir çıxış yolu tapılacaqdı. Bir qədər nəfəsini dərəndən sonra ətrafa boylandı, bir cığır, iz axtardı. Tapmayanda kədərləndi. Səhəri burada qarşılamaq fikrinə düşdü, lakin tezliklə bu fikirdən də daşındı. Dayanmaq dirigözlü ölümə təslim olmaq idi. Tərgül ayağa qalxdı. Hansısa bir hiss onu irəli getməyə vadar etdi. Qarşıda heç kim görünmürdü. O, ara-sıra dayanır, yenidən hərəkət edirdi. Birdən şaqqıltı eşitdi. Səs irəlidən gəlirdi. Tərgül oraya tələsdi. Nə qədər boylansa da, heç kimi görmədi. İmdad dolu səslə:

- Burada kimsə varmı?- soruşdu. Üstünü qar basmış kolluq hərəkətə gəldi. Bir nəfər yaşlı adam:

- Qızım, deyəsən, sən də bizim kimi azıbsan. Gəl yanımıza,

hava işıqlanan kimi yola düşərik, - dedi.

Tərgül bir söz demədi. Kolluqda iki nəfər qadın da vardı. Biri, deyəsən, yaşlı, digəri gənc idi. Gənc qadın yaşlıya qısılmışdı. Bərk üşüdüyü dişlərinin şaqqıltısından bəlli idi. Tərgül də körpəsi qucağında onlara qısıldı. Körpənin ayılmaması bir tərəfdən Tərgülü qorxudur, digər tərəfdən sevindirirdi. Ayılan körpəyə vermək üçün südü yox idi. Gülarədən də uzaq düşmüşdü. Hava getdikcə aydınlaşırdı. Soyuq bir qış səhəri yolçulara yoldaşlıq edirdi. Tərgül yeridikcə ayaq barmaqları sızıldayırdı. Gənc qadın hamilə olduğu üçün yeriməkdə çətinlik çəkirdi. Qayınanası da onunla yanaşı addımlayır, büdrəyəndə tez qolundan yapışırdı. Qadınların çətinlik çəkdiyini görən qoca dilləndi:

- Siz burada gözləyin, mən gedəcəyimiz yolu müəyyənləşdirim. Heç yerə tərpənməyin.

Qoca getdi. Gəlinin üzündə dərin iztirab vardı. Yarım saatdan çox vaxt keçsə də, qocadan xəbər yox idi. Yaşlı qadının da narahatlığı aydın sezilirdi. Elə bu vaxt atəş səsləri eşidildi. Qadınların rəngi avazıdı. Nə edəcəklərini, hansı istiqamətə gedəcəklərini bilmədilər. Bir daldanacaq tapmaq ümidi də boşa çıxdı. Dörd silahlı başlarının üstünü aldı. Vahimə içində çırpınan qadınlara baxan ermənilər qəh-qəhə çəkdilər.

- Paho, mən kimi görürəm? – deyən erməniyə baxanda Tərgülün tükləri ürpəşdi. Vaxtilə oğurluq üstündə tutulan qonşuları Xoren idi. Vəziyyət kəskinləşəndə valideynləri Xocalıdan Xankəndinə köçmüşdülər. Bu adamdan Tərgülün heç vaxt xoşu gəlməmiş, görəndə ikrahla üzünü döndərmişdi.

İndi tale onu Xorenlə üz-üzə qoymuşdu. Gəlinlə yaşlı qadın qorxudan tir-tir əsirdilər. Onları necə ölüm gözləyirdi? Bunu düşünəndə Tərgülün də dişləri bir-birinə dəydi. O,

yekəpər bir ermənininin diqqətini cəlb etdi. Erməni Tərgüllə məzələnmək üçün ona yaxınlaşmaq istəyəndə Xoren mane oldu:

- Ara, ona dəymə. Xocalının gözəli bizə çox lazım olacaq, - dedi.

Növbə gəlinin idi. Yaşlı qadın onun önünə keçdi. Yekəpər erməni bir yumruqla qadını yerə sərdi, və gəlinin qolundan tutdu. Qolundan yapışan əldən gəlin var gücü ilə bir diş götürəndə ermənidən vəhşi bağırtı qopdu. O, canını qurtarmaq üçün sağ əlindəki avtomatın dəstəyi ilə gəlinin başına möhkəm bir zərbə ilişdirdi. Gəlin yıxılsa da, ermənininin əlini buraxmadı. Yaşlı qadın ayağa qalxıb ona kömək etmək istəyəndə digər erməni qarşısını kəsdi:

- Nə darıxırsan, növbə sənə də çatacaq,- deyib dişlərini ağartdı.

İkinci zərbə ermənini gəlindən xilas edə bildi. Gəlin ağzına dolan qanı hikkə ilə ermənininin üzünə tüpürdü. Yekəpər erməni:

- Ay ləçər, səni elə əzabla öldürəcəyəm ki, diz çöküb yalvaracaq, asan ölüm istəyəcəksən, - deyəndə gəlindən səs çıxmadı. Gözlərindən oxunan nifrət, qəzəb onun son silahı idi. Gəlini iri bir ağaca sarı sürüyəndə yaşlı qadın son qüvvəsini toplayıb irəli cumdu, onu xilas etməyə çalışdı.

- Sən, deyəsən, həddini çox aşdın, - söyləyən Xoren avtomatın darağını qadının bədəninə boşaltdı.

Gördüyü səhnədən dəhşətə gələn Tərgül taqətsiz halda yerə çökdü. Son anda gördüyü hələ doğulmayan balasını qorumaq üçün gəlinin qarnını qucaqlaması oldu.

***

Tərgül uşağın çığırtısına ayıldı. İşini bitirən yekəpər erməni qanlı xəncəri qadının paltarına silib qəddini dikəltdi. Uşağın səsi onu lap təbdən çıxartdı. Əlini avtomata uzatdı:

- Kəs bu küçüyün səsini, yoxsa, - sözünün davamını gətirmədi, əlinin üstündəki diş yerinə baxıb ufuldadı, gəlinin ünvanına söyüşlər yağdıra-yağdıra qəzəblə avtomatın çaxmağını şaqqıldatdı. Tərgül körpəni sinəsinə sıxdı. Uşağın səsi kəsiləndə Tərgülün qolları sustaldı. Qorxa-qorxa örtüyü qaldırdı. Gördüyü səhnədən dəhşətə gəldi. Dünyadan bixəbər körpənin dodaqları göyərmiş, rəngi qaralmışdı. Tərgüldən vəhşi bir bağırtı qopdu. Diksinən ermənilər silaha əl atdılar, ətrafda özlərindən başqa kimsəni görməyəndə Tərgülün fəryadına irişərək qəh-qəhə ilə güldülər. Xoren istehza ilə:

- Xocalının gözəli, uşağı onsuz da bir gülləyə qonaq edəcəkdik. Bizim işimizi asanlaşdırdın,- deyib onun kiçik burnuna çırtma vurmaq istəyəndə Tərgül var gücü ilə Xorenin qırmızı sifətinə bir şillə ilişdirdi. Xoren üzünü tutanda digər ermənilərin qəh-qəhi meşəni bürüdü. Birdən Tərgülün qulağına zəif bir səs dəydi. Üzünə soyuq hava dəyincə körpə ayılmışdı. O, uşağa tərəf cumdu. Bələyi yerdən qaldırdı. Heyrətdən gözləri böyüdü.

- Aman Allah! Bu ki Amal deyil, - pıçıldadı. Onun sinəsinə ağırlıq çökdü, nəfəsi təngişdi. Gözlərini üzünə zilləyən körpəyə elə sarıldı ki, sanki onları ayırmaq mümkün olmayacaqdı.

Nisbətən gənc erməni:

- Bunun nazı ilə nə çox oynadınız, işini bitirək, - deyəndə Xoren:

- Ara, dəymə. O, bizə çoxlu pul qazandıracaq, yoxsa çoxdan cəhənnəmə göndərmişdim, - söylədi.

Ermənilər Tərgülü başqa istiqamə apardılar. Yol boyu güllələnmiş, meyitlərinə işgəncə verilmiş qadınları, qocaları, körpələri gördükcə Tərgülün ayaqları yerdən üzülür, bu vəhşilikləri törədən məxluqları dünyaya gətirənləri lənətləyirdi. Əs-

gərana çatanda Xocalıya gedən yola həsrətlə boylandı Tərgül. Qəhərdən sinəsi körük kimi qabardı, ömründə ilk dəfə ağı dedi:

“Bu yerdən hara gedim?
Yaram var, hara gedim?
Eldən uzaq düşüncə
Kəfən biç, gora gedim”.

Səhərin qan qoxulu səssizliyində Tərgülün səsi əks-səda verdi. Ermənilərin bu ağıya qəh-qəhi daha sürəkli oldu. Xoren gülməyinə ara verib:

- Bu türklər də qəribə millətdirlər. Ara, günün harada xoş keçirsə, ora sənə vətəndir. Darıxma, Xocalının gözəli, sənin yerin otellər olacaq. Onda buraları heç yada salmayacaqsan. Əlbəttə, əgər ağıllı olsan, dediklərimizə əməl etsən, gözəl həyat üzünə güləcək.

Tərgülün yaşla dolu gözlərində qəzəb qarışıq nifrət alovlandı, ağız dolusu Xorenin üzünə tüpürmək istədi, lakin sinəsinə basdığı körpənin zəif səsi onu susmağa vadar etdi. Körpə ac idi, Tərgülünsə ona verəcək heç nəyi yox idi. Üzünü Xorenə tutub:

- Körpəni yedirtməliyəm, izin verirsinizmi? – soruşdu.

- Əlbəttə, əlbəttə,- Xoren “qələbə”sindən razı halda yoldaşlarına göz vurub Tərgülü çoxdan insan nəfəsi dəyməyən soyuq bir otağa ötürdü. Tərgül qapını örtüb yerə oturdu. Aclıqdan zarıyan körpənin üzünə baxa bilmədi, əlini yaxasına atıb:

- Allahım, sən özün mənə kömək ol, bu tifili ac qoyma, - deyə yalvardı. Döşünü uşağın ağzına saldı. Uşaq əvvəlcə zəif, sonra isə acgözlüklə əmməyə başladı. Tərgülə elə gəldi ki, uşaq əmdikcə ürəyi çəkilir, olan-qalan taqəti də tükənir. Amma acgözlüklə əmən uşağı sinəsindən ayıra bilmədi: “Lap canımı alsa belə, verəcəyəm”, - dedi. Gözlərini yumdu. Bütün başına gələnlərin bir yuxu olmasını arzuladı. İkiotaqlı mənzili xəyalında canlan-

dı, sevə-sevə Amalı üçün layla çaldı, Adili işə yola saldı. Xoş günlərin işartısı üzünə düşdü, gülümsündü. Marçıltı səsi Tərgülü silkələdi. Körpəyə baxdı. Dodaqlarının kənarında iz salan süd köpüklərini görəndə özü də gözlərinə inanmadı. Yalnız indi sinəsindəki şişkinliyi duydu. Göz yaşları içərisində üzünü göyə tutub:

- Sənin böyüklüyünə şükür, İlahi! – dedi.

***

Digər əsirlərlə birlikdə Yerevana gətirildiyi gün Tərgülə həyatın sonu kimi göründü. Nə qədər ki doğma yurdda idi, əsir olsa da, xilas ediləcəyinə ümidi çox böyük idi. İndi bu ümid çiliklənmiş şüşədən seçilmirdi.

Axşama yaxın əsirlərə baxmaq üçün bir neçə nəfər mülki geyimli şəxs gəldi. Yaşı 13 – 25 arası olan gənc qızları, gəlinləri digər qadınlardan ayırdılar. Üzünü körpənin bələyi arxasında gizlətməyə çalışan Tərgülü görəndə iri burunlu, yastısifət, dazbaş, lakin şıq geyimli bir ermənin gözləri parıldadı. Şəhadət barmağı ilə ondan yaxın gəlməsini tələb etdi. Yerindən tərpənmək istəməyən Tərgül kürəyindən dəyən zərbədən səndələdi, az qaldı ki, üzüstə yerə yıxılsın. Dizləri üstə düşsə də, birtəhər müvazinətini saxladı, körpəyə daha möhkəm sarılıb ayağa qalxdı. Həmin şəxs onu başdan-ayağa süzüb əcnəbi dilində digərinə nəsə dedi. Xorenin adını çəkəndə Tərgül hər şeyi anladı, beyni dumanlandı. Bundan sonrakı taleyi barədə heç nə düşünə bilmədi, gözlərinin qarşısında yalnız Xəyal canlandı...

Tərgülü digər əsirlərdən ayırıb xüsusi bir otağa gətirdilər. Otaqda hər dəqiqə ona il qədər uzun göründü. Bundan sonrakı taleyi necə olacaqdı, onu və Xəyalı nələr gözləyirdi? Suallar Tərgülü yordu. Bir küncə qısılıb uşaq qucağında mürgülədi. Hə-

nirti hiss edəndə gözlərini açdı. Üzərinə əyilən sifətdə ilk gözünə dəyən iri burun oldu. Təlaşla yerindən dik qalxdı. Otaqda səliqəli geyimdə önlüklü qadın və ağ xalatlı bir kişi də vardı. Qadın irəli gəlib Xəyalı almaq istəyəndə Tərgül bir addım geri çəkildi. Kürəyi divara dəyəndə gedəcək başqa bir yeri olmadığını ilk dəfə dərk edirmiş kimi hövülləndi. Uşağı bağrına elə basdı ki, qollarını bələkdən ayırmaq mümkün olmadı. Ağ xalatlı həkim türk dilində:

- Körpəni xoşluqla versən, çox yaxşı olar, - söyləyəndə Tərgülün iri badamı gözlərində parlayan yaş yanaqlarından üzüaşağı yuvarlandı:

- Yox, məndən bir bunu istəməyin, - deyib yalvarmaq, diz üstə çöküb amansız düşməndən mərhəmət ummaq xəyalına düşdü. Lakin gördüyü vəhşiliklər onu bu fikirdən daşındırdı. Bəlkə də, qucağındakı Amal olsa idi, Tərgül düşmən qarşısında qətiyyən sınmazdı. Amma Xəyal can dostunun əmanəti, vətəninin bir parçası idi və onu nəyin bahasına olursa-olsun qorumalı idi.

Növbəti cəhd də bir nəticə vermədi. Tərgülə bu güc, qüvvə haradan, niyə gəlmişdi, insanlıqdan uzaq can alverçiləri bunu anlamaqdan çox-çox uzaq idilər. Həkim yanındakılara nəsə deyib otaqdan çıxdı. Çox keçmədən geri qayıtdı. Bir küncdə körpəni bərk-bərk sinəsinə sıxan anaya yaxınlaşıb əlindəki parçanı onun burnuna tutdu. Tərgülün dizləri büküldü, divarın dibində yerə çökdü. Ermənilər onun hələ də boşalmayan qolları arasından körpəni zorla götürdülər.

Kənardan baxan rəngi avazımış Tərgülü ölü zənn edərdi, o isə dərin yuxuya getmişdi. Mavi səma üzünə gülür, topa-topa ağ buludlar dövrəsində rəqs edirdi. Buludların arasında qanad çalan

mələklər arabir zərif ağ qanadlarını xəfifcə onun üzünə toxundurur, tez də yuxarı qalxırdılar. Birdən mələklər də, ağ topa buludlar da yoxa çıxdı. Göyün üzü qaraldı. İndi səmada qara rəngli bir çalağan mavi bələkli körpəni qanadlarının üstünə alıb yelləyir, ovundurmağa çalışır, arabir qəzəblə qırıldayırdı. Uşaq isə var gücü ilə qışqırır, Tərgülü köməyə çağırırdı. O, çalağanı qovmaq üçün ayağa qalxmaq istəyəndə nəsə taqqıldadı. Tərgül oyandı, qucağını boş görüb dəhşətə gəldi, qışqırmaq istədi, səsi çıxmadı. Hiss etdi ki, boğulur. Paltarının yaxasını dartışdırdı. Bunun da bir köməyi olmadı. Qarşısında iri dişli insanabənzər məxluqları görəndə huşunu itirdi.

Tərgül ayılanda gecədən xeyli keçmişdi. Otağa sanki qara kabus çökmüşdü. Səs-səmir eşidilmirdi. O, bir anlıq özünü məzarda sandı. Əllərini, ayaqlarını tərpətdi. Yox, deyəsən, bura məzar deyildi. Birtəhər ayağa qalxdı, bir addım atdı, başı divara dəydi. Yadına düşdü ki, sonuncu dəfə Xəyal qucağında olarkən divara qısılmışdı. Əllərini divara sürtə-sürtə qapını axtardı. Tapanda zəif yumruqlarla döyəcləməyə başladı. Çağırışına cavab olmayanda məyus-məyus yerə çökdü, dizlərini qucaqlayıb gözlərini qara boşluğa zillədi. O, Xəyalı itirdiyinə inanmaq istəmədi. Onu tapacağına, geri qaytaracağına elə ümidli idi ki... Birdən qulağına aydınlaşdıra bilmədiyi hay-küy içərisindən uşaq səsi gəldi. Körpə ağlayır, sanki doğmalarını haraylayırdı. Tərgül elə zənn etdi ki, onu qara basır. Lakin hay-küy yaxınlaşanda o, Xəyalın səsini tam aydınlığı ilə eşitdi. Dərdin yurd saldığı qəlbində sevinc qığılcımı işardı. Qapı şaqqıltı ilə açılanda isə əllərini göylərə qaldırıb ikinci dəfə:

- İlahi, sənin böyüklüyünə min şükür! – dedi.

İçəri girən Xəyalı aparmaq üçün gələn önlüklü qadın idi.

Hələ də səsini kəsməyən körpəni Tərgülə uzadaraq erməni dilində:

- Al küçüyünü, - dedi və hikkə ilə əmr etdi, - yedirt!

Tərgül körpəni aldı, əlləri əsə-əsə yaxasını açdı. Körpə isti nəfəsdən səsini kəsdi, dodaqlarını büzüb küskün baxışlarla ona baxdı, əmmək istəmədi. Tərgülün ürəyinin başı soyuldu. Göz yaşları içində:

- Əm, körpəm, bəlkə də, bu bizə Allahın növbəti lütfüdür, - dedi və həzin səslə oxudu. Körpə ovundu, hıçqıra-hıçqıra əmməyə başladı. Bu səhnəni seyr etməyə səbri çatmayan erməni qadın ilan kimi fısıldadı:

- İt kimi iy bilir. Kökünüz kəsilsin, neçə saatdır, dinclik mənə haram olub.

Tərgül onun dediklərinə əhəmiyyət vermədən həzin səslə oxuyub körpəni əzizlədikcə önlüklü qadının hövsələsi daraldı. O, əlindəki əmziyi və boş süd şüşəsini Tərgülün üstünə atıb dişlərini qıcadı, qəzəblə:

- Nəvazişini də özünə saxla, tez ol, yedirt. Əgər İveta xanımın sifarişi olmasa idi, bu türk küçüyünü çoxdan cəhənnəmə göndərmişdim, - dedi.

Bayaqdan qadının dediklərinə əhəmiyyət verməyən Tərgülü elə bil cərəyan vurdu. Hər şeyi başa düşdü. Deməli, Xəyalı yenə ondan alacaqlar. Kim bilir, sonrakı taleyi necə olacaq? Onu haraya, niyə aparacaqlar? Dilim qurusun, bəlkə, orqan alverçilərinə satacaqlar?

Cavabsız suallar Tərgülü yordu, çıxış yolu axtardı. Hələ də hıçqırığı kəsməyən körpənin əmməsini seyr etdi. Gözləri yumulan uşaq arabir dayanır, lakin çox keçmədən yenidən ayılır, əmməyə başlayırdı. Növbəti dəfə gözləri yumulanda erməni

qadın hikkə ilə irəli gəlib uşağı almaq istədi. Tərgül aman vermədi, cəld ayağa qalxıb körpəni sinəsinə basdı. Qadın növbəti dəfə yaxınlaşıb kobudluqla bələyi dartışdıranda Tərgül var gücü ilə qadını itələdi:

- Nə qədər sağam, körpəmi sizə verməyəcəyəm, - dedi.

Gözlənilməz zərbədən səndələyən qadın yerə çöküb vəhşicəsinə bağırdı. Onun bağırtısına gələn iki erməni qadının üst-üstdən dəyən zərbələri nə qədər taqətdən salsa da, Tərgül var gücü ilə müqavimət göstərir, körpəni qoruyurdu. Elə bu vaxt önlüklü qadının gözləri ayağa qalxarkən Tərgülün qucağından yerə düşən süd şüşəsinə sataşdı. Əyilib süd şüşəsini götürdü. Divara vurub altını sındırdı, qadına yaraşmayan söyüş söyüb:

- Demək, ölmək istəyirsən, ləçər? - deyərək irəli cumdu. Tərgülün saçından tutub başını arxaya qanırdı.

Tərgül çırpındı, xilas olmaq üçün sonuncu dəfə cəhd etdi. Şüşənin sınıq iti ucu boğazına söykənəndə də Xəyalı düşündü:

- Allahım, bu tifilə özün kömək ol, - dedi və ölümünü gözlədi. Erməni qadınların öz aralarında danışığı uzun çəkmədi. Köməyə gələn qadınlardan biri nə dedisə, önlüklü qadın şüşəni Tərgülün boğazından çəkdi, nifrətlə tüpürüb:

- İveta xanıma qurban ol, yoxsa səni it kimi gəbərdərdim, - deyib saçlarını əlinə doladı, otaq boyu ardınca sürüməyə çalışdı. Tərgül nə inildədi, nə də zarıdı. Körpəni daha bərk sinəsinə sıxdı. Heyrətdən və qəzəbdən gözləri böyüyən digər erməni qadının qarnına vurduğu güclü zərbədən sonra Tərgülün dizləri büküldü, gözləri qaraldı, heç nə hiss etmədi...

***

Qara paltarlı qadın susdu. O danışdıqca bütün dəhşətləri gözünün qabağında canlandıran Gülarənin rəngi avazımışdı, hava mülayim olsa da, həyəcandan dişləri bir-birinə dəyirdi. Doğmalarından xəbər gətirən bu qadının susmasını istəmirdi. Soyuq əlləri ilə qadının damarları çıxan qurumuş balaca əllərindən yapışıb qəhər dolu titrək səslə:

- Qadan alım, danış, susma, - deyə yalvardı, - Tərgülə nə etdilər, balamın taleyi necə oldu? Sağdırlarmı? Sağdırlarsa, haradadırlar, niyə üzə çıxmırlar?

Gülarə hönkürdü. Bu hönkürtüdə illərin ağrı-acısı nalə çəkən ağıya bənzədi. Ətrafdan keçənlərin diqqətini cəlb etsə də, o, hönkürtüsünü kəsmədi. Qara paltarlı qadın onu ovundurmağa cəhd eləmədi. Alnının ortasındakı çapığın bükülməsi, qırışlar içində də gözəlliyini itirməyən iri badamı gözlərinin qıyılması həyəcanlandığından xəbər versə də, susdu. Gülarənin soyuq əllərindən bütün əzalarına xoş bir sərinlik yayıldı. Ağlamadı qara paltarlı qadın. Başını taxta çiyninə qoyub hıçqıran Gülarənin sakitləşməsini gözlədi. Gülarə başını qaldıranda qəm yüklü gözlərdə yaşanmış bir ömrün acıları yenidən dil açdı...

***

İveta uca böylu, qara saçlı, ağ bənizli incə bir qadın idi. Yaşı otuzu haqlasa da, yaşından çox gənc görünürdü. Fransada keçirilən gözəllik yarışmasında qalib gələndən sonra erməni lobbisinin səyi ilə həmişəlik Fransaya köçdü. Gözəlliyi lobbi nümayəndələrinin işinə çox yaradı. Surenlə evlənəndən sonra da şəxsi fəaliyyətini dayandırmadı. Qarabağ münaqişəsinin başlan-

ması onun gəlir mənbəyini tam müəyyənləşdirdi. Özü Fransada yaşasa da, ata-anasını, o cümlədən özündən kiçik qardaşı Harrini unutmadı. Qazandığı qələbələr onu göylə apardığı bir zamanda Qarabağda cinayətkarlıq missiyasını yerinə yetirən Harrinin ölüm xəbəri gəldi. O, müdafiəçilər tərəfindən vurulan transportyorun içində yanmışdı. İveta qardaşının üzünü görə bilmədi. Tabuta qoyulan meyitin üstü tam örtülmüşdü. Anası Siranuş lal heykələ bənzəyirdi. İvetanı görəndə ağır-ağır ayağa qalxdı, əlini tabuta uzadıb:

- Bu, Harridir. Onun qisasını səndən istəyirəm, İveta. Bir oğlumun əvəzində onlarla türk oğlunun cəsədini, mənim əzablarımı yaşayan türk analarının əzablarını gözümlə görmək istəyirəm, - dedi.

İveta and içdi:

- Qisasım amansız olacaq, ana, - sonra tabutun başına dolandı, - Harri, rahat uyu, qanını yerdə qoymayacağam!

İki gündən sonra Xocalı qətliamını bütün erməni dünyası qələbə kimi sevinclə qeyd edəndə İveta:

- Mənim həzz alacağım qisas hələ qabaqdadır, - deyə Surenə növbəti tapşırığı verdi. İvetadan xoş münasibət görmək həsrətində olan Suren üçün bu tapşırıq lap göydəndüşmə oldu. Xorenlə əlaqə yaratdı. İvetanın istəyinə uyğun qucağında körpə olan türk qadının müqabilində ona xeyli pul vəd etdi. Əsirlərin içində Tərgülü görəndə gözləri parıldadı, lakin Xorenə vəd etdiyi pulu vermədi.

İveta qardaşının dəfnindən sonra Fransaya qayıtdı. Onu orada daha böyük işlər gözləyirdi. Xocalı qətliamını növbəti erməni soyqırımı kimi bütün dünyaya yaymaq erməni lobbisinin iyrənc və hiyləgər planı idi.

İvetadan əvvəl Tərgülə mənəvi və cismani əzab vermək Surenin yalnız erməni xislətindən deyil, həm də arvadının gözündə ucalmaq istəyindən irəli gəlirdi...

***

Ertəsi gün Tərgülü libasını dəyişməyə məcbur etdilər.

Ağlına belə gətirmədiyi açıq-saçıq paltarı görəndə o, əlləri ilə üzünü qapadı, geyinməkdən imtina etdi.

Zara Tərgülün xoşluqla tabe olmayacağını görüb rişxəndlə güldü:

- Nə özünü yor, nə də bizi. Onsuz da xoş, ya zor istədiyimizi edəcəyik.

Tərgüldən səs çıxmadı. Divarın küncünə çəkildi. Qadınlar əynindəki paltarı zorla çıxarmağa cəhd etdikləri zaman qapı açıldı, önlüklü qadın deyinə-deyinə içəri girdi. Tərgülü soyundurmağa cəhd edənlər əl saxladılar. Önlüklü qadın iyrənc söyüşlərlə körpəni Tərgülün üstünə atdı. Uşaq Tərgülü görəndə qəribə səslər çıxardı. Sanki bu səsdə məsum bir qəlbin bütün olanlara etirazı, fəryadı, qınağı birləşmişdi. Bütün təhqirləri, əzabları unudan Tərgül göz yaşlarına boğuldu:

- Məni bağışla, körpəm, səni qorumağa gücüm çatmır, - deyib uşağı bağrına basdı. Körpənin səsi kəsiləndə iri burunlu dazbaş erməni – Suren qapıda göründü. İrişərək:

- İveta xanım qəzəblənsə də, uşağı anası ilə birlikdə almağa məcburam, - dedi və Tərgülü süzüb önlüklü qadına göz vurdu.

Qadınların iyrənc qəh-qəhi otağı bürüyəndə Tərgül hələ də Xəyalı yedirir, oxşayırdı.

***

İveta qarşısında dayanan Tərgülü başdan-ayağa süzdü. Çəkdiyi acıların, işgəncələrin soldura bilmədiyi gənc qadına qarşı qəlbində nifrət qarışıq bir həsəd hissi baş qaldırdı. Tərgülün mütənasib əndamı, ağ bənizi, iri badamı gözləri, qoşa qanad kimi gərilən qaşları, girdə sifətinə çox yaraşan kiçik burnu, dik yanaqları, lalə rəngli dodaqları ilə müqayisədə özünü kiçik gördü. Qəzəbi artsa da, səbrini basdı. Körpənin gətirilməsini əmr etdi. Tərgül təzəcə yatırdığı körpənin gətiriləcəyini eşidəndə diksindi. Yalvarış dolu baxışlarla qarşısındakı gözəl qadına baxdı, lakin damarlarda qan donduran qara şüşə gözlərin soyuqluğundan canına üşütmə düşdü, vücudu əsməyə başladı. Tərgülün həyəcanı İvetanın canına yağ kimi yayıldı. Uşaq gətiriləndə qara şüşə gözlərdə birdən-birə qəzəb alovları parladı. Onun əmri ilə körpəni stolun üstünə qoydular. Dünyadan bixəbər körpə mışıl-mışıl yatırdı.

İveta bələyi açmağı əmr etdi. Xidmətçi qadın əlini bələyə uzadanda Tərgülün ürəyi sancdı. İrəli gəlmək, körpəni götürmək istədi. İki nəfər qara kostyumlu kişi önünü kəsdi. Bələk açılsa da, körpə oyanmadı. Arabir dodaqlarında təbəssüm oynayan uşağa baxdıqca İvetanın kini, nifrəti aşıb-daşdı. Əlini xidmətçiyə tərəf açdı. Gözünü körpədən ayırmayan Tərgül yalnız indi ağ önlüklü xidmətçinin əlindəki balaca podnosu gördü. İveta podnosdan par-par parıldayan xəncəri götürəndə Tərgül gözlərinə inanmaq istəmədi. Gözəl bir qadında bu qədər kinin, nifrətin nədən qaynaqlandığını anlaya bilmədi. Yalvarışla əvvəlcə qollarından yapışanlara, sonra əlində xəncər dişlərini qəzəblə bir-birinə sıxan İvetaya baxdı. Qara geyimləri kimi qara gözlərinə qaranlıq çökən adamlar hissiyyatdan məhrum robotlar kimi sakit dayan-

mışdılar. Tərgülə elə gəldi ki, dişlərini bir-birinə qıcayan İvetanın siması birdən-birə tamamilə dəyişdi. İndi o gözəl qadının yerində ovunu qəh-qəhə ilə kamına çəkməyə hazırlaşan bir ifritə var idi. Tərgül vahimə içərisində çırpındı, körpəni xilas etmək üçün dartınsa da, məngənədən xilas ola bilmədi. Xəncəri başı üstünə qaldıran ifritəyə yalvardı:

- Yalvarıram, körpəmə dəyməyin, mənə hansı cəzanı istəyirsiniz verin, ona qıymayın.

İfritə daha sürəkli qəh-qəhə çəkdi:

- Səni qram-qram, zərrə-zərrə, əzabla öldürəcəyəm! – deyib var gücü ilə xəncəri bələyə tuşladı. Tərgül sinə dolusu:

- Yooox! – deyib qışqırmaq istəsə də, bacarmadı. Qara paltarlı adamların əllərindən asılı qaldı.

***

Qara paltarlı qadın tappıltı səsinə döndü. Böyründə oturan Gülarəni skamyanın qabağında yerə sərilmiş görəndə ayağa qalxdı. Onu qaldırmağa gücü çatmadı, yerdə oturub başını taxta dizlərinin üstünə aldı. Çox keçmədən ətrafını adamlar bürüdü. Yaxınlıqdakı köşkdən kimsə təcili yardıma zəng etdi. Təcili yardım gələnə qədər hamı sual dolu gözlərini qara paltarlı qadına zilləsə də, o dillənmədi. Gülarənin narın tər damcıları qonmuş alnını sildi, qanı qaçmış dodaqlarından, avazımış üzündən dönə-dönə öpdü, amma ağlamadı, qəhərini uddu, göz yaşlarını qəlbinə axıtdı.

Gülarə gözlərini xəstəxanada açdı. Ağ xalatlı tibb bacısı gülə-gülə:

- Gülarə xanım, necəsiniz? Bayaqdan oğlunuz, əriniz intizarla ayılmağınızı gözləyirlər. Maşallah, gözəl oğlunuz var.

Gülarə zəif səslə:

- Bəs o?- soruşanda tibb bacısı təəccübləndi:
- Kim?
- Qara paltarlı qadın.
- O sənin adını, ünvanını verib getdi.
- Haraya?

Tibb bacısı çiyinlərini çəkdi.

- Bəs bir söz demədi?
- Yox.

Gülarənin gözlərində yaş dalğalandı. Qanına bələnmiş körpəsi xəyalında canlandı. Əvvəlcə astadan layla dedi. Layla ağı ilə əvəz olunanda tibb bacısı həyəcanlandı. Tez qırmızı düyməni basdı. Həkim içəri girəndə Gülarənin ağısı hönkürtüyə çevrildi. Sakitləşdirici iynə təsir edənə qədər hönkürtü kəsmədi.

Həkim Kamalı çağırtdırdı. Gülarə haqqında bütün məlumatları öyrəndikdən sonra qəti hökmünü verdi:

- Xəstə fiziki cəhətdən tam sağlamdır. Özündəngetmələr onun psixoloji durumu ilə bağlıdır. Əsəbləri çox gərgindir.

Kamal həkimdən eşitdiklərinə təəccübləndi. Zahirən çox sakit, evinə, ailəsinə bağlı Gülarənin əsəblərini pozacaq elə bir hadisə də baş verməmişdi. Bəs nə üçün son dövrlərdə Gülarə haldan-hala düşür? Onun əsəblərini poza biləcək nə ola bilər? Çox düşündü Kamal. Son aylarda baş verənləri bir-bir xatırlamağa çalışdı. Hər şey yaddaşında bir-birinə qarışdı. Bir çözüm tapa bilmədi. Gülarənin sağalmasını gözlədi.

Gülarə xəstəxanada on gün qaldı. Bu günlər ərzində Xəyal da, Kamal da Gülarədən qayğılarını əsirgəmədilər. Evə gələndə isə həkimin tapşırığına tam əməl etdilər: Gülarədən heç nə soruşmadılar.

***

Sağalandan sonra Gülarə dəfələrlə Səməd Vurğun bağına getdi, həmişə oturduqları skamyada əyləşdi, qara paltarlı qadını gözlədi. Hər yerdə onu axtardı, aradı, amma gözlərinə heç bir iz, nişanə dəymədi. Özündə güc tapıb vaxtilə kirayədə qaldıqları evi də ziyarət etdi. Ev sahibi dünyasını dəyişdiyi üçün heç bir məlumat ala bilmədi. Kor-peşman geri qayıtdı. Körpəsinin ölüm xəbəri ilə razılaşmasa da, həqiqətdən qaçmağın mümkün olmadığını qəbul etdi. Bəs Tərgül? O da Gülarənin çəkdiklərini yaşamadımı? Əlbəttə, yaşadı. Gülarənin eşitdiklərini oz gözləri ilə gördü, bütün məhrumiyyətləri aşdı, onun çəkdiyi ağrıları ikiqat daşıdı. Bəzən xəyalən Tərgüllə həmsöhbət də oldu:

- Haradasan, Tərgül? Sağmısan, ya...?

Sözünün ardını gətirə bilmədi, bəzən susdu, bəzənsə Tərgülün ikiqat zülmünü gözü qarşısında canlandırıb:

- O zərif çiyinlərini bu boyda dağın altına necə verdin, Tərgül, necə dözdün? Xəyalın Amalla dəyişik düşməsinə də, bilirəm, sevinmədin. Axı əmanəti qorumaq daha çətindir. Bəlkə də, bu dözümü, cəsarəti sənə verən əmanəti qorumaq hissi oldu? Yox, yox, sən hər yerdə, mən olmasam da, Xəyalı balan kimi qoruyardın, necə ki, mən Amalı qorudum, böyütdüm. Bu, həyatın hər ikimizə sürprizimi, ya sınağımı? Bilmirəm, Tərgül. İndi arzuladığım bir şey var: səni tapmaq, ağır yük altında əzilən çiyinlərini oxşamaq, boynuna sarılmaq, son dəfə körpəmə dəyən əllərini, nəğmə deyən dodaqlarını, körpəm üçün, yox, körpəmiz üçün yas saxlayan gözlərini öpmək! Bəlkə, onda illərin ağrı-acısını unudam, Tərgül! Bu qədər insafsız olma. Qəbir evinə gözüaçıq getməyimə bilirəm ki, dözməzsən. Haradasan, Tərgül?- deyə sualları bir-birinə caladı. Bəzən qurduğu xəyalların təsiri ilə xoş

yuxular da gördü. Bu yuxuların nə vaxtsa həqiqətə çevriləcəyinə inandı. Elə bu inam da Gülarəyə yaşamaq üçün güc verdi...

İllər bir-birini əvəz etdikcə Gülarə nə qədər düşüncəli olsa da, ailənin rahatlığını təmin etdi. Xəyal sonuncu kursu bitirəndə Kamal boyun olduğu qurbanlığı sevə-sevə kəsdi. Gülarə həvəslə qurban tikələrini qonşulara payladı. Anasını ilk dəfə çox xoşbəxt görən Xəyal da neçə ildən bəri ilk dəfə ürəkdən sevindi. Gülarəni qucaqladı. Adətən, nəyəsə ehtiyacı olanda o, anasını belə qucaqlayardı. Bunu o dəqiqə hiss edən Gülarə gülə-gülə oğluna baxıb:

- Hə, deyəsən, yenə işin düşüb?- deyəndə Xəyal cavab vermək əvəzinə anasını qüvvətli qolları üstünə alıb fırlatdı. Xəyaldan bu hərəkəti ilk dəfə görən Gülarənin ana qəlbi nəsə duydu, fərəhlə soruşdu:

- Səni bu gün çox fərqli görürəm, bəlkə...

- Hə, ana, sənə deyəcəyim var, - Xəyal utanaraq qızardı, başını aşağı saldı.

Gülarənin gözləri yaşardı. Oğlunun boynunu qucaqladı:

- Məni gəlinimlə tanış edərsənmi?

- Əlbəttə, ana, - sözlərini eşidəndə elə bil Gülarəyə dünyanı verdilər. Oğlunun boyunu oxşadı, alnından öpdü, üzünü əllərinin içinə aldı, diqqətlə gözlərinə baxdı. Saf, parıltılı qara gözlərdə Tərgülü gördü. Dərindən köks ötürdü. Xəyal həyəcanlandı:

- Nə oldu, ana?

Gülarənin gözləri yol çəkdi. Ötən günləri xatırladı. Sual dolu gözlərini üzünə zilləyən oğlunu intizarda qoymamaq üçün fikirli halda:

- İllər nə tez keçdi. Elə bil hər şey dünən olub, - dedi və tez də əlavə etdi, - heç demirsən, gəlinim haralıdır, kimlərdəndir?

Xəyal anasının çiyinlərini qucaqlayaraq cavab verdi:

- Şuşadandır, ana. Eyni universitetdə təhsil almışıq.

- Şəkli varmı? Necə qızdır?

- Sənə çox oxşayır, ana.

Gülarənin gözləri güldü:

- Doğrudanmı?

Xəyal dinmədi. Kitabın arasında gizlətdiyi qoşa şəkli gətirdi. Gülarə sevincək əlini uzatdı. Gözləri zəiflədiyi üçün eynəyini taxdı. Oğlundan bir boy kiçik görünən qıza diqqət yetirəndə heyrətindən nitqi qurudu. Dillənmək istəsə də, bacarmadı, gözlərini şəkildən ayıra bilmədi. Anasının heyrətini görən Xəyalı maraq bürüdü, sadəlövhcəsinə:

- Xoşuna gəlmədimi, ana? – soruşdu.

Gülarə susdu. Gözlərinin qarşısında tanış sima - Tərgül canlandı. Şəkildən boylanan elə bil onun əkizi idi. Titrək səslə soruşdu:

- Adı nədir?

- Gülyaz.

Xəyalın cavabını eşidəndə Gülarənin canına bir hərarət gəldi, alnında tər damcıları parıldadı, otağın havası ona azlıq etdi. Xəyal əl-ayağa düşdü. Sakitləşdirici dərman gətirmək üçün digər otağa keçdi.

Gülyaz Tərgülün ən çox xoşladığı ad idi. Həmişə söz düşəndə deyərdi:

- Qızım olsa, adını Gülyaz qoyacağam. Oğlum olsa, Xəyalın adına uyğunlaşdırmaq sizin boynunuza.

Gülarə əllərini göyə qaldırdı, yalvarışlı səslə:

- Allahım, illərdən sonra hansı hədiyyənlə məni üz-üzə qoyacaqsan? – dedi. Əlində dərman qarşısında dayanan Xəyala şəfqətlə baxdı, əlləri əsə-əsə dərmanı və su dolu stəkanı aldı.

Xəyal ehtiyatla soruşdu:

- Ana, nə oldu? Səni incitdimmi?

- Yox, oğul, incitmədin. Şəkil məni uzaqlara apardı. Tərgülü yadıma saldı. Gülyaz Tərgülə çox bənzəyir.

Xəyal:

- Mənim kövrək, sədaqətli anam, - deyərək qollarını açdı.

Gülarə oğlunun geniş sinəsinə sığındı.

***

İki gündən sonra Gülarəgil Ramana qəsəbəsinə yollandılar. İlk tanışlıq hamının ürəyincə oldu. Gülyazın atası Rövşən onları gülər üzlə, çoxdan tanıdığı adamlar kimi qarşıladı. Həyətdəki tut ağacının kölgəsində açılan çay süfrəsindən sonra qonaqları yemək otağına dəvət etdilər. Stolun üstünə Qarabağ mətbəxinə aid müxtəlif yeməklər düzülmüşdü. Amma içəri daxil olanda Gülarənin də, Kamalın da diqqətini yemək süfrəsi deyil, divara vurulmuş qoşa şəkil cəlb etdi. Hər ikisi donuxdu. Gülarə ixtiyarsız şəkli divardan götürdü, gözlərinin yaşını saxlaya bilmədi. Bayaqdan qonaqları müşayiət edən Rövşən təəccübləndi, sual dolu gözlərlə Gülarəyə baxdı. Bir cavab almayanda baxışlarını Kamala yönəltdi:

- Siz şəkildəkiləri tanıyırsınızmı? – soruşdu.

Kamal sakitcə başını tərpətdi. Araya çökən sükutu yenə ev sahibi pozdu:

- Tərgül xalamdır, anamın ən kiçik bacısıdır. Anası öləndə iki yaşı olub. Məndən cəmi bir yaş kiçikdir. Mən Tərgülü bacım bilirdim. Anam onu qolları üstündə böyüdüb gəlin köçürdü. Amma taleyi heç gətirmədi. Başına müsibətlər gəldi.

Keçmişindən qalan bu toy şəklidir. Anam onu göz bəbəyi kimi qoruyurdu. Şuşadan gələndə də evdən yalnız bu şəkli götür-

dü, - Rövşən sözünə ara verdi, köksünü ötürərək sözünü tamamladı,- amma Tərgülün faciəsinə dözmədi. Dörd il bundan əvvəl dünyasını dəyişdi.

Rövşənin sözləri Gülarənin qulaqlarında əks-səda verdi: "Başına müsibətlər gəldi. Anam Tərgülün faciəsinə dözmədi. Dörd il bundan əvvəl dünyasını dəyişdi". Gülarənin ürəyi göynədi, özü ilə danışdı: "Aman Allah, dörd ildir, müsibət üstünə müsibət gətirən əzablar mənə də həmdəmdir". Nədənsə çəkinirmiş kimi hıçqırıqlar içində soruşdu:

- Tərgülün sonrakı taleyindən xəbəriniz oldumu?

Rövşənin gözləri yol çəkdi:

- Anamı Ağdam torpağında dəfn elədik, - o, Gülarənin təəccüblə baxdığını görüb əlavə izahat verdi, - öz istəyi belə oldu.

- Bəs Tərgül, onun haqqında nə məlumdur?

Hiss olundu ki, Rövşən bu barədə danışmağa çətinlik çəkir, amma qonağını da intizarda qoymaq istəmədi:

- O da anamla getdi. Saxlaya bilmədik. İmkan tapan kimi gedib yoxlayıram.

Gülarənin ürəyi sancdı. Əlini köksünə qoyub stula çökdü. Kamal cəld onun əl çantasını açdı, sakitləşdirici həblərdən birini Gülarəyə uzatdı. Gülarə dərmanı aldı, lakin əlləri əsdiyindən stəkanın suyu çalxalanıb dağıldı, dərmansa yerə düşdü. Halı xarablaşdığı üçün Gülyazın atası əl-ayağa düşdü, həkim çağırmaq istədi, Gülarə razı olmadı, astaca:

- Bir azdan keçər, - dedi.

Hamı sükut içində idi: ürəklərə qəribə bir hiss hakim kəsilmişdi. Gülyaz da sakit dayanmışdı, lakin qəlbində bir təlatüm vardı. O, xeyir işin ilk günündə axan göz yaşlarından qorxdu, ürəyində dönə-dönə Allaha yalvardı.

Gülyaz ailənin tək övladı idi: doğulandan yarım saat sonra anası Rəşidə dünyasını dəyişmişdi. Mühasirədə olan Şuşadan ağrı içində qıvrılan, ölümlə çarpışan gənc ananı Bakıya göndərmək mümkün olmamışdı. Həkimlərin cəhdi də ananı xilas edə bilməmişdi. Uşaqkən anasızlığını elə də dərk etmədi Gülyaz, amma sonralar bunun ağrısını çox çəkdi. Anası əlindən tutan qızları dünyanın bəxtəvəri sandı. Nənəsi Qızbəs, atası Rövşən onun bütün istəklərini yerinə yetirsələr də, nə qədər diqqətli olsalar da, bu diqqət bir ana sığalının yerini verə bilmədi. Bəzən yorğan altında gizlin-gizlin ağladı, amma bütün ömrünü ona həsr edən atasını da, nənəsini də çox-çox sevdi. Onların yanında həmişə şən, xoşbəxt göründü, hər hərəkəti ilə onları sevindirməyə çalışdı. Ali məktəbə daxil olanda nənəsi alnından öpərək ana yadigarı olan təkqaşlı üzüyü barmağına taxdı:

- Mənim balam, bəxtin bu üzüyün qaşı kimi parlaq olsun, yoluna işıq salsın,- dedi.

Atası Rövşən isə onu boyu bərabəri qaldırıb körpəlikdə olduğu kimi çiynində oturdu, otağın içində dövrə vurdu. Gülyaz həmin gün valideynlərinə sevinc bəxş etdiyi üçün, doğrudan da, xoşbəxt idi. Xəyalı da universitetdə gördü və gözlərini ilk dəfə rastlaşdığı gəncdən çəkə bilmədi. Onu özünə nədənsə yaxın, doğma sandı. Üzündəki tanış cizgilərdən Xəyalı kiməsə oxşatdı. Xəyal da üz cizgiləri anası Gülarəni xatırladan bu qıza isnişdi. Zaman keçdikcə Xəyalla Gülyaz arasında gözə görünməyən bir bağ yarandı. Son imtahana qədər münasibətləri dostluqdan kənara çıxmayan gənclər, nəhayət, qərar verdilər. Nə qədər utansa da, ilk danışan Xəyal oldu:

- Anama gəlin olarsanmı?

Gec-tez bu təklifi eşidəcəyinə əmin olan Gülyaz dinmədi,

cavab verməkdə çətinlik çəkdi. Atasını gözü önünə gətirdi: onu tək qoyacağını fikirləşəndə ürəyi sıxıldı. Gözlərində intizar cavab gözləyən Xəyalı da incitmək istəmədi, çiyinlərini çəkib qəribə tərzdə dodaqlarını büzdü. Xəyal:

- İki gündən sonra sizdəyik, - deyəndə yanaqlarına xəfif qızartı çökən Gülyaz gülümsündü. Gələn qonaqlara süfrəni də özü açdı. Nənəsindən öyrəndiyi ləzzətli yeməkləri, şirniyyatları xüsusi zövqlə hazırladı. Yaxın qonşularının qızı Leyla həsədlə:

- Nə gözəl əl qabiliyyətin varmış, ay Gülyaz, - deyəndə isə qürrələndi:

- Nənəmdən öyrənmişəm, - söylədi.

Qonaqlar gələnə yaxın köksü ürəyinə darlıq etdi, tez-tez küçəyə boylandı, dəqiqələri saydı. Maşın qapıda dayananda qaçıb otağa girdi. Leyla nə qədər təkid eləsə də, çayları süfrəyə apara bilmədi, Leylaya yalvardı:

- Nə olar, çayları sən apar.

İndi isə baş verənlər əvvəlki sevincin üzərinə su səpmişdi, şuxluqdan, sevincdən əsər qalmamışdı.

Xəyalın da kefi pozulmuşdu. Anasının yanından ayrılmır, intizarla yaxşılaşmasını gözləyirdi. Gülarənin vəziyyəti yaxşılığa doğru dəyişəndə hamı rahat nəfəs aldı, amma heç kim süfrə arxasına keçmədi. Gülarə üzünü Rövşənə tutdu:

- Ya məni Tərgülün yanına apar, ya da onu mənə gətir, yalvarıram. Bəlkə, onu görəndən sonra rahatlandım.

Gülarənin tövşüməyini görən Rövşən astaca:

- Sizin ora getməyiniz çətin olar, çalışıb Tərgülü buraya gətirəcəyəm, - dedi.

Qonaqlar geri qayıtdılar. Yol boyu heç kim bir kəlmə də danışmadı: danışan Gülarə və ürəyi idi:

- Bu işlərin sonu necə bitəcək?
- Allahın məsləhət bildiyi kimi.
- Tərgül məni necə qarşılayacaq?
- Sən onu qarşıladığın kimi.
- Balamdan mənə xəbər verə biləcəkmi, o, sağdırmı?
- Allahın yazısından qaçmaq mümkün deyil.

Gülarə özündən asılı olmadan bərkdən:

- Allah bütün əzabları mənim üçünmü yazıb? – deyəndə Xəyal da, Kamal da təəccüblə ona baxdılar. Kamal ehtiyatla:

– Sənə nə olub, kiminlə danışırsan? – soruşanda Gülarə ayıldı:

– Heç kimlə, - deyib əlini yellədi.

***

Rövşən üç gündən sonra Gülarəgilə gəldi. Onun Tərgülsüz gəldiyini görəndə Gülarənin əhvalı dəyişdi:

- Bəs Tərgül hanı? – soruşdu.
- Tərgül gəlmədi.
- Niyə?
- Heç kimlə görüşmək istəmir.
- Yox, onda o, Tərgül deyil, Tərgül heç vaxt məndən qaçmazdı.
- Həyat Tərgülü çox sıxıb, tamam dəyişdirib, nə gülür, nə ağlayır, nə də suallara cavab vermək istəyir.
- Bəs mənə son sözü nə oldu?
- Bax bu, - deyərək Rövşən əlində gətirdiyi kiçik bağlamanı Gülarəyə uzatdı.

Gülarə bağlamanı aldı, açmağa tələsmədi, stolun üstünə qoyub xeyli baxdı, içindəkinin nə olduğunu müəyyənləşdirmək

istədi, amma bacarmadı. Qorxa-qorxa əlini uzatdı, kağızın xışıltısından diksinən kimi oldu. Bir qədər dayandı, özündə cəsarət tapıb kağızı tamam açdı. Qarşısına növbəti bağlama çıxdı. Bu bağlama daha kiçik idi, büküldüyü kağız saralmışdı.

Nədənsə Gülarənin içindən bir sızıltı keçdi; titrək barmaqları ilə nəyisə əzəcəyindən çəkinirmiş kimi ehtiyatla kağızın qatlarını açdı. Bağlamadakı uşaq paltarı idi. Gülarə paltarı tanıdı. Xocalıdan çıxarkən Xəyala geyindirmişdi.

O, paltarı əlləri üstündə yuxarı qaldırdı, balasından qalan son yadigar kimi göz yaşları içində qoxuladı. Elə zənn etdi ki, süd qoxulu balasının ətrini duydu. Rövşən yanında olduğu üçün səbrini basdı. Amma onun bu dəqiqə tək qalmağa o qədər ehtiyacı vardı ki...

Gülarənin göz yaşına boğulması, uşaq paltarını dönə-dönə qoxulaması, öpməsi Rövşənə qəribə gəlsə də, nəzakət xatirinə heç nə soruşmadı. Çay süfrəsindən sonra yeməyi gözləmədi:

- İşim var, - deyib getdi.

Gülarə qonağı ötürüb geri qayıtdı, paltarı yenidən götürdü, qatını açdı qollarından tutub körpəsini oynadırmış kimi boyu bərabəri qaldırdı. Paltarın arasından düşən kağız parçasını isə görmədi. Paltarı gah sinəsinə sıxdı, gah öpüşlərə qərq etdi, gah da qoxuladı. Qəhər boğsa da, ağlamadı Gülarə. Kamalla Xəyalın evə qayıtmasına az qalırdı. Onları gözüyaşlı qarşılamaq, keflərini pozmaq istəmədi, özünə təsəlli verdi:

- Darıxma, Gülarə, hər şey yaxşı olacaq, toxtaq ol.

Ayağa durdu. Paltarı yataq otağındakı dolabda qolbağının yanına qoydu. Süfrəni hazırlamaq üçün yemək otağına keçəndə divanın qarşısına sərilmiş xalçanın üstündə bir kağız parçası gördü. Əyilib götürdü. Kiril əlifbası ilə yazılmış bir cümlə onu

yerindən-yurdundan elədi: “Гара палтарлы гадын һəр шеји билир, ону тап“. Gülarənin nəfəsi daraldı. Həmişə xalatının cibində gəzdirdiyi həblərdən ikisini birdəfəyə atdı. Çox keçmədən nəfəs almağı yüngülləşdi. Yerindən qalxıb süfrəni hazırladı. Fikirli olduğu üçün Xəyalın içəri nə vaxt girdiyindən də xəbəri olmadı. Oğlu astaca onun çiyinlərini qucaqlayanda da diksinmədi, başını sinəsinə qoyub dərindən köks ötürdü. Kamal ana-balanın bir-birinə qısıldığını görəndə şən səslə:

- Deyəsən, mən tamam yaddan çıxmışam, - o, qollarını geniş açdı və hər ikisini bağrına basıb, - mən nə xoşbəxtəm, İlahi! – dedi.

Süfrə arxasında da ata-oğulun nəşəsi davam etdi. Gülarə nə qədər şən görünməyə çalışsa da, daxili narahatlığı buna imkan vermədi. Gecəni də yata bilmədi. Sabahkı gün üçün planlar cızdı:

- Səhər tezdən bütün işlərimi bitirməli və S. Vurğun bağına getməliyəm. O qadını mütləq tapmalıyam. Amma nə olursa-olsun, səbirli olacağam, ixtiyarımı əldən verməyəcəyəm, - deyib öz-özünə təsəlli də verdi, - oğul itirən tək mən deyiləm ki...

Gülarə dərmanı qəbul etdikdən sonra yuxuya getdi. Onun narahatlığı Kamalın diqqətindən yayınmadı. Xüsusən də Gülarənin özünü unudaraq pıçıltı ilə dediyi son cümlədən bədəni gizildəsə də, oyaq olduğunu büruzə vermədi. Gülarənin mışıltısı eşidiləndə astaca qalxıb yatağın içində oturdu. Gecənin sakitliyini pozan mışıltıya bir xeyli qulaq asdı. Üzündə gah gülüş, sevinc, gah da kədər, qəm duyulan arvadına uzun-uzadı baxdı. Gülarənin vaxtından əvvəl yaşlandığını sanki indi gördü. Özünü qınadı:

- Vaxt tapıb sənin sıxıntılarınla heç maraqlanmadım, dərdin nədir, bilmədim. Əsəblərinin nə üçün pozulması da mənə qaran-

lıq qaldı. Səni hansı dərd bu qədər üzür? Niyə mənimlə bölüşmək istəmirsən? Sən hansı oğul itkisindən danışırsan?

Suallar bir-birini əvəz etdikcə Kamalın şübhələri artdı, amma Gülarəni oyatmağa əli gəlmədi. Səhərin açılmasını gözlədi.

***

Səhər tezdən oyanan Gülarənin simasında yorğunluqdan əsər qalmamışdı, amma evdəkilərə qarşı nə qədər diqqətli olmağa çalışsa da, gah Kamalın, gah da Xəyalın suallarını eşitmirdi. Xəyal buna əhəmiyyət verməsə də, arvadının hərəkətlərini izləyən Kamal görməzdən gələ bilmədi, sakit olduğu qədər qınaqla dolu səsinin ahəngi Gülarəni silkələdi:

- Səninlə deyiləmmi, eyni sualı neçə dəfə verməliyəm?

Gülarə günah işləmiş adamlar kimi baxışlarını yerə dikdi.

Arvadının vəziyyəti Kamalı yumşaq danışmağa məcbur etdi, nəvazişlə:

- Evə nə almaq lazımdır? – soruşdu.

Özünü zorla toplayan Gülarə asta səslə:

- Narahat olma, hər şey var, - deyib tez də əlavə etdi, - bu gün şəhərə çıxacağam, nəyə ehtiyac olsa, özüm alaram.

Gülarənin tələm-tələsik danışığı Kamalın diqqətindən yayınmadı. Lakin susmağı lazım bildi. Kamalla Xəyalı yola salandan sonra Gülarə ev-eşiyə əl gəzdirdi, yemək hazırladı, üst-başını səliqəyə saldı. O, bəzək-düzəyi gəncliyindən xoşlamazdı. Çox vaxt hədiyyə alınan ənlik-kirşanı kiməsə pay verərdi. İri bədənnüma güzgünün qabağında sonuncu dəfə nə vaxt bəzəndiyi yadında deyildi. İndi də güzgünün qarşısından etinasız halda keçmək istərkən gözü yorgun simasına sataşdı.

Ayaq saxladı, əli güzgünün qabağındakı krem qutusuna

uzandı, amma tez də fikrindən daşındı, qapını açıb çölə çıxdı.

İyul günəşi havanı isitmişdi. Gülarə hiss etdi ki, belə havada piyada çox gəzə bilməyəcək. Yaxınlıqdakı taksi dayanacağına yollandı, sərnişin gözləyən maşınlardan birinə əyləşib:

- Səməd Vurğun bağına sürün, - dedi.

Taksi hər iki tərəfində zeytun ağacları əkilmiş yolla şütüdükcə Gülarə yeni tikilən binaları seyr etdi. Xocalıda boy-boya tikilən evləri, gənc ailələri xatırladı. Ömrünün ən fərəhli, ən faciəli anlarının xatirələri bir-birini əvəz etdi. Maşın dayananda mənzil başına çatdığını zənn etdi. Qapını açıb düşmək istəyəndə sürücünün tələşlı səsini eşitdi:

- Bacım, Səməd Vurğun bağına çatmağımıza hələ xeyli var.

Gülarə yalnız indi qırmızı işıq yandığı üçün bütün maşınların dayandığını görüb hərəkətindən xəcalət çəkdi, amma bir azdan bu hiss yoxa çıxdı. Yenidən ötən günlərə qayıtdı...

Xəyal ongünlük idi. Tərgül ona bir bacı kimi qulluq edir, bütün işləri hamilə olsa da, təkbaşına görürdü. Gülarə hiss edirdi ki, Tərgül özünü o yerə qoymasa da, çətinlik çəkir, ona görə də tez-tez üzrxahlıq edirdi. Növbəti üzrxahlıqdan sonra Tərgül gözlərini uzun müddət ondan çəkmədi. Onun belə susmasını Gülarə çox gözəl anladı. Bu baxışlarda həm məzəmmət, həm də məhəbbət vardı, sanki dil açıb:"Sən etməzdinmi?"- söyləyirdi. O gündən Gülarə üzrxahlıq etmədi.

Böyük bacısı Qızbəs gəldiyi gün Tərgülün uçmağa qanadı olmadı. Uşaq kimi tez-tez qoynuna sığındı. Onun bacısına uşaq ərköyünlüyü ilə sığınmasını Gülarə bacı məhəbbətindən doğan bir hiss saymışdı.

Qızbəs gəldiyi günün səhəri geri qayıdanda Tərgülü də özü ilə Şuşaya apardı:

- Gəlinim də ağırayaqdır. Nə onu, nə də Tərgülü tənha qoya bilərəm, - dedi.

Gülarə etiraz etdi:

– Mən ki buradayam!

- Ay qızım, sənin özünə qulluq lazımdır. Zahının gərək qırx gün qulluğunu tutasan. Əgər gəlinim ağırayaq olmasaydı , qalardım. Amma o da qəribdir, anası burada deyil, qala bilmərəm.

Gülarə susdu, Tərgülün bacısı ilə getməkdən başqa çarəsi qalmadı. O, qırx beş gündən sonra geri döndü, rəngi çox solğun idi. Bacısının gəlini Rəşidə uşaq doğulandan bir neçə dəqiqə sonra Şuşa xəstəxanasında keçinmiş, qızını da, Rövşəni də yetim qoymuşdu. Tərgül də əkiz övladlarından birini – qızını doğuş zamanı itirmiş, amma oğlu sağ qalmışdı. Gülarə rəfiqəsinin halına yalnız acımadı, dərdini, ağrısını onunla bərabər çəkdi, yeri düşəndə təsəlli də verdi:

– Allahın böyüklüyünə şükür, Amal var, vaxt gələr qızın da olar.

Günlər keçdikcə Tərgül sakitləşdi, Amal az da olsa, acılarını unutdurdu.

- Bacı, çatdıq, - sözləri Gülarəni düşüncələrdən ayırdı. Sürücünün pulunu verib bağa tərəf yollandı.

Bağda dincələnlərin sayı elə də çox deyildi. Ağacların altında qoyulan skamyalar tutulmuşdu. Qovaq ağacının altındakı skamyada iki yaşlı qadın əyləşmişdi. Oturacağın bir tərəfi boş idi. Gülarə həmin yeri tutmağa tələsdi. Havaların isti keçməsindən şikayətlənən qadına müraciətlə dedi:

- Bura boşdurmu?

Özünə əlindəki qəzetlə sərinlik verməyə çalışan qadın etinasız halda bir qədər kənara çəkilib əli ilə oturmaq üçün yer göstər-

di. Gülarə əyləşdi. Hava istiləşdikcə bağdakıların sayı azalmağa başladı. Bir azdan qadınlar da skamyadan qalxıb ağır addımlarla uzaqlaşdılar. Bayaqdan ətrafda olanlara, hətta yanında bir mövzudan digərinə keçən qadınların danışığına biganə qalan Gülarə isə saatlar keçsə də, yerindən tərpənmədi. Sıx yarpaqların arasında civildəşən quşlar da birdən-birə yoxa çıxdılar. Bağdakı sakitliyi ətrafdan keçən maşınların səsindən başqa heç nə pozmadı. Amma bütün bunları Gülarə çox adi qarşıladı. Günortanın qızmar günəşi yeri-göyü qarsasa da, ona təsir etmədi. Gah saniyələri saydı, gah susdu. Qara paltarlı qadını görmək ümidi ilə gözlədi. Arabir ötənləri yada salmaq istədi, bacarmadı. İstidən nəfəsi darıxanda dənizdən əsən meh üzünü yaladı. Gülarə sinə dolusu nəfəs aldı, bir qədər yüngülləşdi. Ətrafa boylandı, skamyaların çoxu boş idi. Bağın bir küncündə qoyulmuş skamyada iki gənc qız əyləşmişdi. Nə barədəsə astadan danışırdılar. Qızlardan biri bəzən əlindəki kitabı açaraq digərinə göstərir, hər ikisi həmin hissəni diqqətlə oxuduqdan sonra yenə söhbət qızışırdı. Nəhayət, əlində kitab tutan qızın hövsələsi daraldı, səbrini basa bilməyib səsini qaldırdı:

- Bilirsən, nə var, İradə, səninlə anlaşmaq çox çətindir. Heç kim sənin yanlış düşüncələrini həqiqət kimi qəbul etməyəcək. Belə düşünürəm ki, boş mübahisə ilə vaxt itirməyə dəyməz.

- Özün bilərsən, mən də heç kimdən asılı deyiləm və sənin həqiqətlərinin də söykəndiyi bir meyar yoxdur- deyib digər qız yerindən qalxdı, tələsik addımlarla uzaqlaşdı. Çox keçmədən əlində kitab tutan qız da eyni istiqamətdə rəfiqəsinin ardınca yollandı.

Gülarə gülümsündü. Tərgüllə müxtəlif mövzuda etdikləri mübahisələri xatırladı. Ortaq məxrəcə gələ bilməyəndə Tərgül

də çılğınlıqla yerindən qalxar, küsmüş halda evə gedərdi. Gülarə də heç nə deməz, onun arxasınca yollanardı. Amma bir qədər gözləyərdi ki, Tərgülün acığı soyusun, sonra içəri girərdi. Stolun üstündə təzə dəmlənmiş çayla gilas mürəbbəsini görəndə qollarını açar, Tərgülü bağrına basardı. Tərgül də heç nə olmayıbmış kimi dil-dil ötərdi. Belə anlarda onun səsi saf bulaq suyu kimi ürəyi sərinləşdirər, aydın baxışları yalnız üzünü yox, sanki ətrafı nurlandırar, gülüşü, danışığı otağı isidər, Gülarənin qəlbinə hərarət verərdi.

Çiyninə qoyulan əl Gülarəni xəyallar aləmindən ayırdı. Dönüb baxmağa ürək eləmədi, canlı heykəl kimi sakit dayandı.

- Ana, belə havada burada niyə oturmusan? – söyləyən Xəyalın səsini eşitdikdə əvvəlcə duruxdu, sonra isə soruşdu:

- Sən burda nə gəzirsən?

- Uşaqlarla bulvara çıxmışdıq, geri qayıdarkən yolum buradan düşdü, səni gördüm. Evə gedəkmi?

- Gedək, oğul, bu qədər açıq havada olmağım bəs edər.

Gülarə Xəyalın qoluna girdi, dayanacağa çatana qədər ətrafda qara paltarlı qadından bir nişan, iz axtardı. Tapmayanda ümidsizləşdi, əllərinin keyidiyini hiss etdi. Evə kimi bir kəlmə də danışmadı. İçəri girəndə Kamalın sual dolu baxışları ilə qarşılaşdı. Salam verib mətbəxə keçdi. Yemək qızdırılmış, çay dəmlənmişdi. Gülarə yalnız indi evə çox gec gəldiyini anladı. Üzrxahlıq diləyən nəzərlərlə Kamala baxdı. Onun danışmadığını görəndə yeməyi qablara çəkib sakitcə süfrəyə gətirdi. Süfrə arxasında da heç kim dillənmədi. Evdəki sükut Xəyalı darıxdırdı:

- Bizə nə olub e, lap küsülü adamlar kimi oturmuşuq.

O ayağa qalxıb televizoru açdı, otağa həzin bir musiqi sədası yayıldı. Amma bu musiqi də evdəki gərginliyi azaltmadı.

Gülarə günah işləmiş adamlar kimi arabir gözlərini ərinin üzünə diksə də, Kamal ona tərəf gözucu belə baxmadı. Çay içiləndən sonra balkona çıxdı. Çoxdan tərgitdiyi siqaretdən birini yandırıb dodaqlarının arasında sıxdı, tüstünü ciyərlərinə çəkdi. Gülarə Kamalın susqunluğuna dözməyib balkona keçdi.

Siqaretin burula-burula qalxan tüstüsünü görəndə çaşqınlıq içərisində az qala qışqırdı:

- Nə edirsən, axı sənə olmaz, həkimin dediklərini unutdunmu?

Kamal düşüncəli halda çiyni üstündən Gülarəyə baxdı, heç nə demədən siqaretə daha dərin bir qullab vurub şəhərdə tikilən yeni göydələnləri seyr etməyə başladı. Kamalın susması, siqareti daha dərindən sümürməsi bərk əsəbiləşdiyindən xəbər verirdi. Bunu anlayan Gülarə sözünü çevirmədi. Bir qədər balkonda durandan sonra içəri girdi. Kamalı düşüncələr, şübhələr rahat buraxmadı. O, uzun müddət Rusiyada hərbi qulluqda olduğu üçün evlənməmiş, məlum hadisələr başlayandan sonra Azərbaycana qayıtmış, hərbi istehkamlar qurmaq üzrə mütəxəssis kimi döyüş bölgəsində köməyini əsgərlərdən əsirgəməmişdi. Sovet ordusunda xidmət etdiyi müddətdə əvvəl anası, sonra isə atası oğul həsrətilə gözlərini həmişəlik yummuşdu. Geri dönərkən onu bacısı Yeganə ilə əri qarşılamışdı. Bacısının evlənmək təklifinə biganə qalmamış, Gülarəni də otuz beş yaşı olanda özü bəyənmişdi. İndiyə qədər çox çətinliklərdən keçsələr də, aralarında söz-sov olmamışdı, çünki arvadına özü qədər inanmışdı. Gülarənin gecə yarısı dediyi sözlər isə onu birdən-birə ayıltdı, yuxusunu qaçırdı, amma özünü zorla inandırdı ki, bu, qarabasmadır, mürgülü vaxtında yuxusuna girib. Gülarənin səhərki şən əhvalı da onu tamam arxayın saldı. İşdən çıxandan sonra yoldaşları ilə çay içmək üçün

dəniz kənarına getməyib evə həmişəkindən tez döndü, böyük ümidlə şübhələrinin yersiz olduğunu düşündü, hətta sürpriz kimi Gülarənin çox sevdiyi qızılgüllərdən bir dəstə də bağlatdı. Evin qapısını açarla açıb içəri girəndə gülləri arxada gizlədib arvadını sevindirmək istədi. Evi boş görəndə qanı qaraldı. Gülarə Xəyalla içəri girəndə bir qədər toxtasa da, onların təsadüfən qarşılaşdıqlarını biləndə şübhələr köksünü diddi. Sakitləşmək üçün siqaretə əl atdı... Mətbəxdə qab-qacaq səsi eşidiləndə yataq otağına keçib işığı söndürdü, hava isti olsa da, mələfəyə bürünüb üzünü divara çevirdi.

Gülarə səhərə kimi yata bilmədi. Hiss etdi ki, Kamal da oyaqdır; arabir mürgüləsə də, hansısa bir qüvvə yuxunu onun da gözlərindən qovur, sanki qəsdən oyaq qalmağa məcbur edirdi. Yorğun olduğu üçün Kamal səhərə yaxın dərin yuxuya getdi. Onu oyatmamaq üçün Gülarə yerində sakitcə uzandı. Yaxınlıqdakı məsciddən azan səsi eşidiləndə yavaşca qalxdı. Güzgünün yanındakı balaca stulda oturub gözlərini divara zillədi. İndi o nə düşünə bilir, nə də keçmişi xatırlayırdı. Beynində qəribə bir sıxıntı vardı. Elə bil hər şey: evdəki əşyalar, səhərə qədər rahatlıq tapa bilmədiyi çarpayı, tənha günlərində həmdərdinə çevrilən divarlar, könül sirdaşı olan xatirələr, hətta sözlər də Kamalla birlikdə ondan üz çevirmişdi. Gülarə birdən-birə təlaşlandı. Tənhalığın ağır yükünə dözə bilməmək xofu ürəyini sıxdı. Anladı ki, sirrini gizli saxlasa da, indiyə qədər tənha olmayıb; hər nazını çəkən ömür-gün yoldaşı, baxışlarından istəklərini duyan oğlu, hər gün səliqə-sahmanına fikir verdiyi isti yuvası onun dayaq nöqtəsi, yaşam səbəbi olub. “Bəlkə, naşükürlük edirəm?” – deyə düşündü və tez də fikrindən daşındı. Üstündən illər keçsə belə, əlindəki xəncəri var gücü ilə bələyə tuşlayan İveta gözlərinin qar-

şısında canlandı. Dünyadan bixəbər mışıl-mışıl uyuyan körpənin qışqırığı qulaqlarını dəldi, bütün sinirlərinə işlədi, xəncərin ağrısını köksündə duydu. Gözlərində dalğalanan yaş ağrının təsirindən yanaqları ilə üzüaşağı diyirlənsə də, ağrı azalmadı, getdikcə artdı, bütün əzalarına yayıldı. Qalxıb yerinə keçmək istəyəndə birdən-birə hərəkəti çəkildı, tappıltı ilə yerə yıxıldı.

Kamal yuxudan oyananda Gülarəni yerində görmədi. Mətbəxdə olduğunu zənn edib digər böyrü üstə çevrildi. Yataq paltarında yerə uzanmış qadına əvvəlcə əhəmiyyət vermədi, qulağına zarıltıya bənzər səs gələndə isə cəld yerindən durdu, rəngi avazımış Gülarəni zorla qaldırıb çarpayıya uzatdı. Kamodun üstündəki dərmanlardan birini suda həll edib dinməzcə ona uzatdı. Uzanan əli havadan asılı qalanda heç nə demədən dərmanı Gülarənin əlinə vermək istədi. İnilti səsi gücləndi, barmaqlar stəkanı saxlaya bilmədi. Kamal yalnız indi onun qolunun sındığını gördü...

Qolunu gipsə qoyduqdan sonra Gülarəni xəstəxanada saxlamadılar, bir neçə ağrıkəsici dərman yazıb evə buraxdılar. Həmin gündən Gülarə evdə də qaradinməz oldu. Bir söz soruşanda cavab verdi, soruşmayanda divanın bir küncünə çəkilib özünə qapandı, evdən çölə çıxmağa da meyillənmədi. Ondakı bu dəyişiklik Kamalı da, Xəyalı da qorxuya saldı. Yalnız Gülyazı görəndə Gülarənin çöhrəsi işıqlandı, dil boğaza qoymadı, elə bil danışmadığı anların da əvəzini çıxmağa çalışdı. Gülyaz getməyə hazırlaşanda isə üzünə qonan xəfif kölgə getdikcə qatılaşaraq Gülarəni öz aləmi ilə baş-başa qoydu. Çox düşündü Gülarə, çox çək-çevir etdi, qəti bir qərara gəlmək üçün saatlarla baş sındırdı, ruhi rahatlıq tapmaq üçün çıxış yolu axtardı. Bir nəticəyə gələ bilməyəndə Allahdan ölüm arzuladı:

- Allahım, birdəfəlik canımı al, məni bu yükdən xilas elə.

Bu ağrılara, acılara dözmək üçün nə səbrim, nə də gücüm qaldı. Al canımı, qoy bu dərdi mənimlə birlikdə qara torpaqlar udsun, təki Kamalın, Xəyalın arzuları, ümidləri puç olmasın.

Divanın küncündə büzüşüb dəfələrlə eyni sözləri pıçıldayan Gülarənin göz qapaqları getdikcə ağırlaşdı, nə vaxt yuxuya getdiyindən xəbəri olmadı. Yuxuda Tərgülü gördü. O heç dəyişməmişdi, əvvəlki kimi gənc və gözəl idi. Qollarını açıb irəli getmək istədi Gülarə. Sinəsindən itələyirmiş kimi sağ əlini irəli uzadıb: "Yaxınlaşma!"- deyən Tərgülün badamı gözlərində qınaq dolu bir parıltı gördü. Bu, qəzəb idimi, sevgi idimi, ayırd etməyi bacarmadı.

-Bağışlanmaz günahamı batmaq istəyirsən, Gülarə? – sualından diksindi.

- Nə günah? – soruşanda Tərgül cavab vermədi, kölgə kimi yavaş-yavaş uzaqlaşdı. Gülarə ardınca qaçıb:

- Allah xatirinə, cavab ver, - deyə yalvaranda kölgə qeybə çəkildi. Gülarə öz səsinə ayıldı. Əlindəki dəsmalla alnında puçurlanan tər damcılarını ehtiyatla qurulayan Kamalı görəndə bir az da büzüşdü.

- Gülarə, nəyin var, məndən nəyi gizləyirsən? Dərdi gizləyəndə böyüyər, adamı məhv edər, bölüşəndə kiçilər, yoxa çıxar. Axı biz çətin günlərin həmdəmi olmuşuq, danış, yalvarıram, danış...

Bir aydan bəri Kamaldan ilk dəfə mülayim rəftar görən Gülarə kövrəldi, başını ərinin çiyninə qoyub ürəyi boşalana qədər ağladı, hıçqırıqlar içində:

- Mənə vaxt ver, Kamal, zamana ehtiyacım var, - dedi.

***

Günlər keçdikcə Gülarənin vəziyyəti yaxşılaşırdı. Evdəki ab-hava da yumşalmışdı. Kamal yenə də heç nə olmamış kimi davranır, onun hər istəyinə əməl edirdi. Amma zahirən nə qədər sakit görünsə də, Gülarə daxili bir narahatlığın Kamalı üzdüyünü qadın həssaslığı ilə duyur, bacardıqca təmkinli görünməyə çalışırdı. Yuxusu ərşə çəkilən Kamal bütün gecəni fikir burulğanında üzülür, uzun-uzadı şirin yuxuda olan Gülarəni zəif gecə lampasının işığında seyr edir, nə qədər götür-qoy etsə də, bir ipucu tapa bilmirdi. Yuxuda tez-tez sayaqlayan, bəzən gülümsəyən, bəzən hıçqırtıda boğulan arvadının rabitəsiz danışığından da heç nə başa düşə bilmir, sıxıntısı daha da artırdı. Son əhvalatdan sonra Gülarənin özünə qapanması, sirrini bölüşmək istəməməsi, evdən bayıra çıxmaması şübhələrini daha da artırmış, hamıdan gizlin elektrik xətlərinin təmiri bəhanəsilə evə çağırdığı mütəxəssisə evin girəcəyində kamera da qoydurmuşdu. Şübhələri boşa çıxanda peşman olmuş, Gülarənin sıxıntılarını duymadığına görə əzab çəkmişdi. Yuxu da qaçaq düşmüşdü Kamaldan; səhərə yaxın bir qədər mürgüləyir, hava işıqlananda yerindən qalxırdı.

Gülarənin qolundakı sarğını açmağın vaxtı idi. Kamal yenə erkəndən qalxıb süfrəni hazırladı. İştaha ilə yeməyini yedi, amma işə getməyə tələsmədi. Onun işə tələsməməsi Gülarəni təəccübləndirdi:

- İşə gecikmirsənmi?

- İcazə almışam, səninlə xəstəxanaya gedəcəyəm, - deyəndə Gülarənin duruxması Kamalın nəzərindən yayınmadı...

Xəstəxanaya çatana qədər Gülarə yol boyu bir kəlmə də danışmadı, kimisə axtarırmış kimi keçdikləri küçələrə boylandı. Kamal da dillənmədi, amma küçələrə boylanan Gülarəni gözdən

qoymadı.

Həkim sarğını açdı. Rentgen müayinəsindən sonra bəlli oldu ki, sınıq tam bitişib, sarğıya ehtiyac qalmayıb, lakin bir müddət qorunmaq lazımdır. Onlar həkimlə xudahafizləşib otaqdan çıxdılar. Kamal Gülarənin gözlərində bir həsrət qığılcımı gördü. Bu həsrət kimin üçün idi? Anlamaqda Kamal yenə çətinlik çəkdi. Yol boyu ayaqlarını onun arxasınca sürüyən Gülarə sanki evə getmək istəmir, kimisə görmək arzusu ilə vurnuxurdu.

- Kamal!

Adını eşidəndə dayandı. Ondan bir neçə addım geridə qalan arvadına tərəf döndü. Gülarənin gözlərində yalvarış vardı:

- Bir az gəzmək olarmı?

- Bu nə sözdür, əlbəttə, hara gedək? – deyə Kamal soruşdu.

- Bir qədər bağda oturmaq istəyirəm, amma burada yox, Səməd Vurğun bağında.

Gülarənin istəyi Kamala qəribə gəlmədi, əksinə, yuxudan ayıltdı. Onu bir dəfə elə həmin bağdan xəstəxanaya aparmışdılar. Sonuncu dəfə də Xəyalla təsadüfən orada qarşılaşmış və evə gəlmişdi. Kamalın düşüncəli görünüşü Gülarəni sıxdı:

- İstəmirsən, getməyək, - dedi.

- Yox, niyə ki, gedək.

Kamal taksi saxlatdırdı. Bağa çatınca heç biri dillənmədi. Gülarə həmişə oturduğu skamyaya yaxınlaşdı, öz yerində əyləşdi. Kamal Tərgülün yerini tutdu. Aradakı sükutu pozmağa heç biri cəsarət etmədi. Kamalın yol boyu ürəyində götür-qoy etdiyi sualları Gülarə onun gözlərindən oxudu, gözləri ilə də cavabını anlatmağa çalışdı:

- Səni bura çəkən nədir, Gülarə?

- Unuda bilmədiklərimdir, Kamal.

- Səni sıxan nədir?

- Həqiqəti aça bilməməyim.

- Həqiqətdən qorxmaq acizlikdir.

- Acizlik deyil, Kamal, sevdiklərimi yenidən itirməmək cəhdidir.

- "Şirin yalandan acı həqiqət yaxşıdır", - deyib babalarımız.

- Bəzən babalar da məsələyə birtərəfli yanaşıblar. Bizdən asılı olmayan məqamları, taleyin oyununu unudublar.

Kamalın gözləri yol çəkdi. Gülarənin dil açan baxışlarından çox mətləbləri oxuya bilmədi. Ürəyi sıxıldı. Sakitləşmək üçün siqaretə ehtiyac duydu. Heç bir söz demədən yaxınlıqdakı köşkə yollandı. Satıcı siqaret satılmadığını söyləyəndə yolun qarşı tərəfindəki marketə tərəf yönəldi. Uzaqdan onun hərəkətlərini müşahidə edən Gülarə anladı ki, Kamal çəkmək üçün siqaret axtarır. Ayağa qalxıb arxasınca getmək istəyəndə çiyninə bir əl toxundu. Gözlərinə inanmadı, gələn həmin qadın idi. Gülarə heyrətdən içini çəkdi. Qara paltarlı qadın astadan:

- Gec də olsa, gələcəyini bilirdim, vaxtım çox deyil. Bu gün yola düşürəm, yaxşı ki, səni gördüm, - dedi, - başına gələnlərdən də xəbərim var. Sənə çatacaq əmanət məndədir. Əgər bu gün də gəlməsəydin, evinizə göndərəcəkdim.

Qadın danışmaq üçün Gülarəyə imkan vermədi. Bir bükülünü onun qucağına qoyub, qəfil gəldiyi kimi qəfildən ayağa durdu:

- Bir də məni axtarma, bütün istədiklərin bunun içindədir, - deyib cəld uzaqlaşdı.

Gülarə hələ də heyrət içində idi. Qəfil verilən sual onu bir yuxu kimi görünüb anidən yoxa çıxan qara paltarlı qadının sehrindən ayırdı:

- O qadın kim idi? Səndən nə soruşurdu?

Qadının oturduğu yerdə Kamalı görən Gülarə diksindi. Əvvəlcə elə zənn etdi ki, yəqin onu qara basıb, elə Kamal da yuxulu olub. Amma qucağındakı bükülünü görəndə bunun yuxu olmadığına inandı. Bağlama Kamalın da diqqətini çəkdi, astadan:

- Bunu o verdimi? – soruşaraq bükülünü əlinə almaq istəyəndə Gülarə mane oldu:

- Evdə açarıq, Kamal, - dedi.

Səsindəki titrəyiş onun həyəcanlı olduğundan xəbər verirdi. Kamal yavaşca əlini çəkdi, gözlərini bir nöqtəyə dikərək xəyala daldı. Bağlamadakının gizli bir əhvalatın açarı olduğunu dərk etdi. Bu gizlinə Gülarə onu şərik edəcəkdimi, ya yenə də tənhalığa qapanıb sirli dünyasına baş vuracaqdı? "Oğul itirən bir mən deyiləm ki", - sözləri qulaqlarını deşdi, beynində bir uğultu yarandı. Əgər Gülarə oğul itiribsə, bəs Xəyal kimdir? Əgər Xəyal mənim oğlumdursa, onun itirdiyi oğul kimdir? Cavabsız suallar Kamalı yordu. Növbəti siqareti çıxarmaq istəyəndə Gülarə əlindən tutdu, günah işləmiş adamlar kimi gözlərini yerə dikərək:

- Evə çatana qədər döz, bir də bunu çəkməyə ehtiyacın olmayacaq, - dedi.

Kamal onun sözünü yerə salmadı. Qutunu cibinə qoydu, Gülarənin oturduğu yerdən qalxmağını həmişə olduğu kimi səbirlə gözlədi. Bir neçə dəqiqənin içində siması dəyişən qadının gözlərindən iztirabları oxumağa çalışsa da, heç nəyə müvəffəq olmadı. Anladı ki, danışmaq üçün Gülarəyə vaxt, imkan, dözüm lazımdır. Digər tərəfdən isə hansısa bir hiss ona: " Nə durmusan, imkan düşmüşkən hər şeyi öyrən", - deyirdi. Bu hislərlə çarpışdığı zaman Gülarə ayağa qalxdı, ağır-ağır avtobus dayanacağına tərəf yönəldi. Onun hərəkətsiz addımları, yeriyərkən ləngər vurması Kamalı qorxutdu. Yaxınlıqdan keçən boş taksiyə əl etsə də,

sürücü görmədi. Növbəti taksinin gəlməsini gözlədi. Gülarənin rəngi getdikcə daha çox boğulurdu. İndi onun ən yaxın adamının verəcəyi təsəlliyə o qədər ehtiyacı vardı ki... Elə bil Kamal da bunu duydu. Onun qolundan yapışıb gözlərinin içinə diqqətlə baxdı.

- And içirəm, Gülarə, sənə hər yerdə dayaq olacağam, yetər ki, toxtaq ol, sakitləş.

Gülarə uçundu, eşitdiklərinə inanmaq istəmədi, gözlərinə dolan yaşı saxlaya bilmədi.

Evə qədər heç biri dillənmədi. Qapını açmaq üçün açar çıxartmağa da ehtiyac olmadı. Onları gözləyirmiş kimi Xəyal qapının astanasında dayanıb gülümsəyirdi, əlində kağız vardı. Onun xoşbəxt siması hər ikisinə sirayət etdi, sanki bir saat əvvəlki gərginlik heç olmamışdı.

- Magistraturanı qazandım! – deyərək bir qolu ilə anasının, digəri ilə atasının boynunu qucaqladı.

Kamal fəxrlə dilləndi:

- Bilirdim ki, qazanacaqsan. Oğul belə olar ey, – sonra üzünü Gularəyə tutdu, - bunu hökmən qeyd etməliyik, hazırlaşın, “Sahil” restoranına gedirik.

***

Külək əsdikcə yarpaqların xışıltısı həzin musiqini xatırladırdı. Mehin təsirindən başını eyni istiqamətə uzadan ağaclar rəqsini bütün incəlikləri ilə ifa edən rəqqasa bənzəyirdi. Nərmənazik sərv ağacı başını dik tutub pərəstişkarlarına naz satan gözəllər kimi arabir başını yana əysə də, çox keçmədən qamətini düzəldir, sanki küləyə acıq verirdi. Külək də səngimir, sərvin qalın yarpaqlarının arasından keçməyə cəhd edir, yaşıl tellərini pırt-

laşdırırdı. Gülarə ilk dəfə görürmüş kimi təbiətin ecazkar gözəlliyinə daldı. Süfrədəki ləziz yeməklər də diqqətini çəkmədi. Arabir Kamal qoluna toxunub yeməyi soyutmamağı məsləhət görsə də, Xəyal uşaqlıq xatirələrinə baş vursa da, Gülarəni düşüncələrindən ayırmaq çətin oldu. Uzun müddət özünü hər şeydən məhrum edən Gülarənin təbiət gözəlliklərini duymaq, oxşamaq üçün sanki sümükləri də acmışdı. Onun üzündəki qeyri-adi ifadə Kamalın nəzərindən yayınmadı. İşarə ilə Xəyala da susmağı məsləhət bildi. Restoranın həyətində açılmış stollarda oturanların sayı artanda Kamalgil ayağa qalxdılar. Dənizkənarı bulvarda xeyli dolaşdıqdan sonra oturmaq üçün boş skamya axtardılar. Kölgədə olmadığı üçün gündüzlər boş qalan skamyada axşam sərinində də heç kim oturmamışdı. Üzü dənizə qoyulan skamyadan ətrafı seyr etmək çox maraqlı idi. Külək səngisə də, dənizin sərin havası insanın ruhunu dincəldir, mənəvi rahatlıq gətirirdi. Gecə Xəzərin mavi sularına qara tüldən don biçmişdi. Sərin külək donun ətəklərini tərpədir, arabir yuxarı qaldırmağa cəhd edirdisə də, dəniz utancaq gəlin kimi qırçın ətəklərini o dəqiqə aşağı endirir, sanki naməhrəm baxışlardan gizlənməyə çalışırdı. Bir tərəfi azacıq batmış Ay da bu tamaşadan doymur, şəfəqlərini dənizə salama göndərirdi. Çox yüksəklikdə sayrışan ulduzlar sevgilisinə göz vuran şama bənzəyirdi. Gülarə təbiətin sehrindən ayrıla bilmir, bu sehrin içində ərimək istəyirdi.

- Ana evə gedəkmi?- sualı onu düşüncələrdən, daha doğrusu, yenidən doğulduğu dünyadan ayırdı. Könülsüz halda ətrafa boylandı, yalnız indi havanın çoxdan qaraldığının fərqinə vardı. Ayağa qalxıb oğlunun qoluna girdi. Yol boyunca da dinib-danışmadı. Kamal Gülarənin susqunluğunun səbəbini qara paltarlı qadının verdiyi bağlamadakı sirlə əlaqələndirirdi. Amma Gülarə

uzun illərdən bəri ilk dəfə idi ki, özünü bu qədər rahat, azad hiss edirdi. Nəhayət, bütün məsələlərin çözülməsinə imkan yaranmışdı. Xəyalınsa heç nədən xəbəri yox idi. Çox yorğun olduğu üçün ata-anası ilə xudahafizləşib öz otağına keçdi, başını yastığa qoyan kimi yuxuya getdi. Araya çökən sükutu nə Gülarə, nə də Kamal pozmağa cəhd etdi. Nəhayət, Gülarə yerindən qalxıb yataq otağına keçdi, dolabın alt gözünə qoyduğu bükülünü götürdü, amma açmağa cürət etmədi. Qonşu otaqda onu intizarla gözləyən Kamalın yanına tələsdi.

Kamal da çox düşüncəli idi. Restoranda nə qədər şən görünsə də, qəlbinin dərinliklərində yurd salan şübhə əsəblərini tarıma çəkir, rahatlığını əlindən alırdı. Süfrə arxasında Gülarənin heç nəyə əhəmiyyət verməməsi, öz aləminə qapanması, qəribə görünüşü onu əsəbiləşdirsə də, səbrini basaraq susmağa üstünlük verdi. Bu səbəbdən evdə də ondan heç nə tələb etmədi. Gülarə bir söz demədən yataq otağına keçəndə üzərinə bir ağırlıq çökdü. Bu ağırlıqdan xilas olmağa gücü çatmadı. Bir neçə addımlıq məsafə ona minlərlə kilometr qədər uzaq, bir neçə dəqiqə illərə bərabər göründü. Ümidsizləşdi. Elə zənn etdi ki, geriyə gedən bütün yollar qapandı, hər şey bununla bitdi.

Stolun üstünə qoyduğu siqar qutusuna əlini uzatmaq istəyəndə bükülünü ona uzadan Gülarənin yalvarış dolu baxışları ilə qarşılaşdı. Əlini geri çəkdi, gah bağlamaya, gah da Gülarəyə baxdı. Gülarə titrək səslə:

- Aç, görək içindəki nədir? – deyəndə Kamal özünü saxlaya bilmədi, göz yaşları içində qəhərdən boğula-boğula:

- Mənim vəfalı dostum, sirr dolu xəzinəm, - dedi və onu bağrına basdı.

Gülarə də kövrəldi, amma ağlamadı, ərinin sinəsinə sığındı.

Aylardan bəri soyuq münasibət gördüyü üçün qadınlıq qürurunu sındırmayan, günahsız olduğunu isbata çalışmayan Gülarə bütün olub-keçənləri etiraf etməyə özündə güc tapdığı üçün, Kamalı yenidən qazandığı üçün xoşbəxt idi.

Divanda yanaşı əyləşdilər. Kamal bağlamanı əlinə aldı. Yapışqanla yapışdırılmış kağızı səliqə ilə açdı. Kağızın içindəki qalın ümumi dəftəri vərəqlədi. Kiril əlifbası ilə titrək xətlə yazılmış yazını görəndə gülümsündü:

- Bu ki xatirə dəftəridir, - dedi.

Gülarə etiraz etdi: - Ola bilməz, yaxşı bax.

Kamal dəftəri ona uzatdı. Doğrudan da, xatirə dəftəri idi. Amma kimin? Bu suala cavab tapmaqda çətinlik çəkdi. Yazı da tanış gəlmədi. Gülarə ümidsizləşdi. İndi Kamala nə deyəcək, nəyi açıqlayacaq? Bütün hadisələrin çözümü kimi ümidini bu dəftərə bağlamışdı. Gülarə çılğınlaşdı:

- Ola bilməz, Kamal, o qadın dedi ki, hər şey – bütün sualların cavabı bu bükülüdədir. Ola bilməz, burada nəsə var. Bu gecə yuxuma haram qatacağam, amma dəftərdə yazılanları oxuyacağam. Mənim bütün acılarımın, sıxıntılarımın açarı buradadır. İstəyirsən, sən yat. Sabah işə getməlisən. Mənsə, - Gülarə doluxsundu, sözünün davamını gətirmədi.

Kamal dinmədi. İndi onun nə düşündüyünü üzündən anlamaq çox da asan deyildi. Bu sakitliyin arxasında nə dayanırdı? Növbəti qəzəbmi, inamsızlıqmı, ya mərhəmət hissimi? Dəqiqələr bir-birini əvəz edir, cansıxıcı mühit isə bitmirdi. Gülarə bayaqdan hərəkət etmədən bir nöqtəyə baxan ərindən cavab almadıqca ümidsizləşdi. Elə zənn etdi ki, Kamalın ona olan inamının üstünə qara bir kölgə düşdü və bu kölgəni qovmağa heç bir işığın gücü çatmayacaq. Onu itirmək qorxusu qəlbinə elə doldu ki, körpə

uşaq kimi əllərindən tutdu. Kamal bu təmasdan qəlbinə bir hərarət yayıldığını hiss etdi, Gülarənin əlini ovcunun içində sıxdı:

- Birlikdə oxuyacağıq, Gülarə, bir də səni tənha qoymayacağam, - dedi və dəftəri əlinə aldı. İlk vərəqləri səssiz oxudu, simasında heç bir dəyişiklik duyulmadı. Lakin birdən duruxdu, qaşları çatıldı, dəftərdən gözünü çəkib:

- Bu bizim Tərgüldürmü? – soruşdu.

Gülarənin kədərli gözləri yol çəkdi, başını tərpətdi, qəhərli səslə:

- Oxu, Kamal, amma xahiş edirəm, toxtaq ol, - deyib başını onun çiyninə söykədi. Kamal oxuduqca səsi qulaqlarında əks-səda verdi...

***

Göz gözü görmürdü: hər tərəf qaranlıq idi. Bir səs-səmir də duyulmurdu. Bu sükut içində ayılan Tərgül havanın qaraldığını zənn etdi. Öz-özünə: "Bura haradır, mən buraya necə gəlmişəm?"- sualını versə də, heç nəyi xatırlamadı. Hiss etdi ki, ayaqlarında xoşagəlməz bir gizilti var. Əlini yerə dayayıb durmağa çalışdı. Başı nəyə isə toxunanda gizilti daha da artdı. İndi onun bütün vücudu giziltiyə əsir düşmüşdü. Tərgül tərpənmədi, uyuşan ayaqlarının, qollarının açılmasını gözlədi. Bədəninin keyi açıldıqca olaylar yadına düşdü. Əlindəki xəncəri körpəyə tuşlayan İvetanın nifrət saçan baxışları, qəzəblə qıcanan dişləri yenidən gözlərinə göründü. Körpənin harayı qulaqlarında əks-səda verdi. Tərgül canının ağrısını unutdu, fəryad dolu qışqırıqla yerindən qalxdı, buradan qurtarmaq, körpəsindən xəbər tutmaq, heç olmasa son dəfə bağrına basıb doyunca öpmək, onunla bir yerdə gömülmək üçün bir çıxış yolu axtardı, amma hansı tərəfə

qaçdısa, qarşısını soyuq divarlar kəsdi. Əlləri ilə kələ-kötür divarlara sığal çəkib qarşısında diz çökdü, yalvardı, aman istədi. Rütubətdən mamır basan, rəngini çoxdan itirən divarlar keşikçisi olduğu zülmət kimi lal idi. Tərgül əyilib üzünü torpaq döşəməyə sürtdü, bir möcüzə gözlədi, yox yerdən açılan bir qapı istədi Allahdan. Səs-səda gəlməyəndə ümidsizləşdi, zəif yumruqları ilə dizlərini, sinəsini döyəclədi:

- Allahım, bu qədər zülmü çəkməyə nə taqətim, nə də dözümüm qalıb. Birdəfəlik canımı al, məni əzabdan qurtar!

Birdən Tərgül elə zənn etdi ki, səsi divarlarda əks-səda verdi. Onu yamsılayan divarlar qəh-qəhə çəkdi. Bu vahiməli gülüşdən bayılmaq dərəcəsinə gələn Tərgül əlləri ilə qulaqlarını qapadısa da, səs kəsilmədi, beyninin dərinliklərinə işlədi. Qəh-qəhə qəfil başladığı kimi birdən-birə də yoxa çıxdı. Yenə divarların, qara zülmətin sükutu hər tərəfə hakim kəsildi. Hər şeydən əli üzülən Tərgül torpaq döşəmənin üstündə oturub dizlərini qucaqladı. Özünü bir anlıq qapısı, pəncərəsi olmayan məzarda zənn etdi. Diriykən ölüyə çevrilməyin vahiməsi ruhuna hakim kəsildikcə süstləşdi, taqətdən düşdü, dizlərini qucaqlamış halda sağ böyrü üstdə yıxıldı...

Torpaq döşəmənin soyuğu Tərgülü ayıltdı. Gözlərini açdı, heç nə seçə bilmədiyi üçün kirpikləri sanki göz qapaqlarına ağırlıq etdi, gözləri yenidən yumuldu. Şuşanın aylı-ulduzlu gecələrindən biri yadına düşdü...

Rövşən eyvanda sərilmiş xalçanın üstündə arxası üstdə uzanmışdı, üzündə Tərgülün indiyə qədər sezmədiyi bir ifadə vardı. Gözlərini qırpmadan sayrışan ulduzları seyr edirdi. On dörd gecəlik Ayın haləsi, elə bil ki, bütün səmanı qucmuşdu. O da xalçanın üstündə oturdu, barmaqlarının ucu ilə xalçanın saçaqlarını

daradı. Bakıya gedəndən bəri Rövşənlə həmsöhbət olmamışdı. Hər ikisi susdu. Sükutu Rövşən pozdu:

- Sən heç aylı gecələri seyr etmisənmi?

Tərgül gülümsündü:

- Əlbəttə.

- Nə duymusan?

- Sualın çox qəliz oldu, necə yəni nə duymusan?

Rövşən mütəkkəyə dirsəkləndi, üzündə xəfif təbəssüm oynadı:

- Göyə bax.

- Baxdım, nə var ki? Həmişə gördüyümüz ulduzlar, yerində yuvarlanan Aydır da.

- Yox, bu, həmişəki gecələrdən deyil. Bax ulduzlar çox parlaqdır. Ayın şöləsi adama "gəl-gəl" deyir, düşündürür, insanı öz duyğuları ilə baş-başa qoyur. Gecənin bitməsini istəmirsən, özünü nağıllar aləmində zənn edirsən. Ürəyində qəribə hislər baş qaldırır, hər şeydə gözəllik axtarırsan.

Rövşən danışdıqca gözlərində elə bil ulduzlar sayrışırdı. Bayaqdan onu diqqətlə dinləyən Tərgül uşaq şıltaqlığı ilə əllərini bir-birinə vurdu, gülərək:

- Vallah, sən aşiq olmusan, - dedi və ona bir az da yaxın oturdu, astadan pıçıldadı, - aşiq olduğun Qayanadırmı?

Qayana Rövşənin sinif yoldaşı idi, birinci sinifdən orta məktəbi bitirənə kimi eyni partada oturmuşdular. Evdən çantalarına qoyulan yeməyi bir-birilə bölüşmüşdülər. O vaxt çoxları bu iki uşaq arasındakı ünsiyyəti müxtəlif cür yozmuşdu. Qayananın anası Nayruhi Şuşa ermənilərindən, atası Vaqif isə azərbaycanlı idi. Çox cəlbedici idi Qayana. Məktəbdəki oğlanların çoxu onunla həmsöhbət olmağa çalışsa da, o əhəmiyyət verməz, təkəbbürlə

yanlarından ötərdi, gözü yalnız Rövşəni görərdi. 1988-cı il hadisələri başlayandan sonra anası Nayruhi Şuşanı tərk edəndə əri Vaqif ona çox yalvardı:

- İsti yuvamıza su calama, gül kimi balamız var, getmə, - desə də, faydası olmadı. Qızını aparmağa da cəhd eləmədi Nayruhi. Qayana da onun arxasınca ağlamadı. O, Şuşada tibb texnikumunu bitirib xəstəxanada işə başlamışdı.

Qayananın adı çəkiləndə Rövşən xəfifcə gülümsündü, başını buladı:

- Düz tapmadın, - dedi. Tərgülün təəccübünü görəndə əlavə etdi, - mənimlə Qayana arasında heç vaxt məhəbbət olmayıb, ola da bilməz.

Tərgül duruxdu, badamı gözləri böyüdü. Rövşən onu intizarda qoymadı:

- Mən onun anasının bizə olan nifrətini üçüncü sinifdə oxuyanda bildim. Qayana ilə məktəbdən qayıdırdıq, əl-ələ tutmuşduq. Gözlənilmədən anası qarşımıza çıxdı. Hikkə ilə qızının əlindən tutub dartdı:

- Sənə bunlarla yoldaşlıq etmə, deməmişəmmi? – söyləyib mənə tərəf nifrətlə tüpürdü və qəzəblə əlavə etdi, - hər tərəfdən türk qoxusu gəlir.

Tərgül eşitdiklərinə inanmaq istəmədi. “Axı niyə?” sualını zorla uddu. Onun susduğunu görən Rövşən həmişə olduğu kimi Tərgülün burnunu sıxdı, zarafatla dedi:

- Bəs gəlinbacının kim olduğunu bilmək istəmirsənmi?

Tərgül eşitdiklərinin təsirindən çıxa bilməsə də, gülümsündü:

- Əlbəttə, bilmək istəyirəm, adı nədir? Kimlərdəndir?

- Yaxşı, sual atəşinə tutma məni. Sabah sizi tanış edərəm. İndi get yat, gecə keçir.

***

Tərgül gecəni yata bilmədi. Rövşəndən eşitdiklərini çox götür-qoy elədi. Bir qadında türklərə qarşı sonsuz nifrətin nədən qaynaqlandığını çözmək istədi, amma bacarmadı, ürəyi sıxıldı. Xəyalında yaxşı şeylər canlandırmağa çalışdı. Xəyallar içində də yuxuya getdi.

Qızbəsin səsi eşidiləndə Tərgül yuxudan oyandı. Cəld yataqdan qalxdı. Yır-yığışla məşğul olan bacısına kömək etməyə tələsdi. Səhər yeməyini bitirəndən sonra sual dolu baxışlarını Rövşənin üzünə dikdi. Rövşən işarə edən kimi qalxıb geyindi. Birlikdə yola düşdülər. Məktəbə gedən yola dönəndə Tərgül ayaq saxladı, təəccüblə soruşdu:

- Sənin iş yerinə getmirikmi?

- Yox, Rəşidə müəllimdir. Əslən Şuşadan olsalar da, Bakıda boya-başa çatıb, buraya təyinatla gəlib.

Tərgülün ürəyi atlandı, bacısı oğlunun seçdiyi qızı görməyə tələsdi. Məktəbin həyətində çox gözləməli olmadılar. Zəng vurulan kimi uşaqların səsi ətrafı bürüdü. Bir gənc müəllim uşaqların əhatəsində həyətdə görünəndə Rövşən Tərgülün qolundan dartdı, işarə ilə onu göstərdi. Diqqətlə gənc müəllimə baxan Tərgül Rövşənin seçiminə heyrətləndi. Ortaboylu, qarabuğdayı, saçlarını tən ortadan ayırıb hörüyünü başına dolayan qızdan gözünü çəkə bilmədi, ürəyindən yüngül addımlarla onlara tərəf gələn qızı qucaqlamaq, bağrına basmaq istəyi keçdi, amma utandı.

- Sizi görməyimə şadam, - sözlərini eşidəndə anladı ki, Rəşidə, qiyabi də olsa, onu yaxşı tanıyır, Rövşəndən hər şeyi öyrənib. Çox keçmədən aradakı uzaq məsafə yoxa çıxdı. İndi Tərgülü sehrləyən Rəşidənin yalnız zahiri görünüşü deyildi, həm də danışığı, danışarkən xəfifcə gülümsəməsi idi...

Tərgüllə Rövşən eyni ildə nişanlandılar, eyni ildə də toyları oldu. Rövşənin toyunda uçmağa qanadı olmadı Tərgülün, gəlinin başına pərvanə kimi dolandı. Toy evində gülümsər baxışlarla Rəşidəni süzən Qayana da nəzərindən yayınmadı, amma buna çox da əhəmiyyət vermədi.

Tərgül dədə-baba yurduna - Xocalıya gəlin köçdü. Atadan qalma evin işıqlarını yenidən yandırdı. Uzun illər baxımsız qaldığı üçün uçmaq təhlükəsi olan evin əvəzində aldıqları mənzildə keçirdiyi xoş anları xatırlayanda gözləri doldu, sinəsindən qopan ah elə bil bütün vücudunu qarsaladı. Cismini saran gizilti bu alovun içində bir andaca əridi, yoxa çıxdı. Yenidən divarların “Lal-dinməz” oyunu başladı. Tərgül birtəhər ayağa qalxdı, əllərini kələ-kötür daşlara sürtə-sürtə divar boyu gəzdi, amma nə bir künc, nə də tin rastına çıxmadı. Ona elə gəldi ki, ucu-bucağı olmayan bir mağaradadır. Nə qədər yol getdiyindən xəbəri olmadı. Hiss etdi ki, taqəti tamamilə çəkilir, ayaqları sözünə baxmır. Divara söykənib dincini almaq istədi, amma titrəyən dizləri yavaş-yavaş büküldü, divara sürtünə-sürtünə yerə çökdü...

Üzünə düşən zəif gün işığı Tərgülün gözlərini qamaşdırdı. Əvvəlcə elə bildi ki, yuxu görür. Bu zəif işıq da ağ qoçun nurudur, onu qaranlıq dünyadan qurtarmağa gəlib. Amma şaqqıltı ilə açılan qapı onu gözlərini açmağa məcbur etdi. Səs yuxarıdan gəlirdi. Uzun müddət qaranlıqda qaldığı üçün o, işığa baxa bilmədi. İçəri tam aydınlaşanda gözlərini açdı. Tərgül başa düşdü ki, salındığı yer anbar məqsədilə dairəvi şəkildə qazılmış bir quyudur. Çoxdan istifadə edilmədiyi üçün nəmişlikdən divarları mamır basmışdı. Körpəsindən xəbər tutmaq ümidilə Tərgül yuxarı boylandı. Qələbəsini qeyd edən rəqiblər kimi İveta quyunun ağzında dayanmışdı. Çiynində kamera olan bir gənc onun əmrinə hazır

vəziyyətdə idi. Tərgül bir əlini yerə dayaq verib ayağa qalxanda İvetanın işarəsi ilə kamera işə salındı. Elə bu vaxt qana bulaşmış uşaq paltarı zərblə üzünə dəyib yerə düşdü. Tərgül əvvəlcə heç nə anlamadı, gözünü dolandırıb yerə baxdı: bu, körpəsinə sonuncu dəfə geyindirdiyi paltar idi. İvetanın düşündüyünün əksinə olaraq Tərgül fəryad qoparmadı, yerə düşmüş paltarı götürüb qoxuladı, astaca dodaqlarına toxundurub bayraq kimi başı üzərinə qaldırdı, zəif, lakin qətiyyətli səslə:

- Şəhid anası ağlamaz, - dedi, - and içirəm, Şəhid balamın ruhuna and içirəm, sağ qaldıqca bu əllər, öləndə isə ruhum balamın qisasçısı olacaq.

Tərgülün səsi getdikcə gücləndi, ona elə gəldi ki, çağırışına minlərlə Şəhid anası qoşuldu. Başı üzərində dalğalanan isə minlərlə şəhidin kəfəninə çevrilən üçrəngli bayraqdır. (Həmin gündən Tərgül o köynəyi uzun müddət qoynunda gəzdirdi) Onun məğrur duruşu, əsirlikdə olsa da, ləyaqətini qoruması, balasından ötrü diz çöksə də, öz canından ötrü düşmən qarşısında boyun əyməməsi İvetanı mənən əzdi, daha da quduzlaşdırdı, qəzəblə:

- Onu mənim yanıma gətirin! - əmrini verdi.

Tərgülü meydançaya gətirdilər, İvetanın əmri ilə ayaqlarına zəncir vurdular. Bir-birinə keçən dördkünc halqalı polad zəncir çox nazik idi. Baxan elə zənn edirdi ki, onu bir həmlədə qırmaq mümkündür. Tərgül də zəncirə diqqət yetirdi: dördkünc halqaların ağzı ülgüc kimi iti idi.

İveta meydançada qoyulmuş yumşaq kresloda əda ilə oturmuşdu: istehza ilə gah əsirinə, gah da zəncirlərə baxırdı. O, Tərgülə yürüş əmrini verdi. Tərgül tərpənmədi, qəzəbli baxışlarını gözəlliyi qədər insanlıqdan uzaq olan İvetadan çəkmədi. Filmlərdə gördüyü ifritə gözəllər yadına düşdü. Həyatda belə insanların

olacağına vaxtilə inanmadığına təəssüfləndi. İvetanın məqsədi Tərgülə aydın idi: onun son görüşdə dediyi sözlər qulaqlarında cingildədi: " Səni qram-qram, zərrə-zərrə, əzabla öldürəcəyəm!" Öz-özünə pıçıldadı:

- Zərrə-zərrə ölməkdənsə biryolluq məhv olmaq daha gözəl! Balamdan sonra əsirlikdə yaşamanın bir anlamı varmı?

Birdən gözləri əlində kamera tutan gəncə sataşdı. Baxışlarını ağasından ayırmayan oğlana yazığı gəldi. O, erməniyə oxşamırdı. "Yəqin ki, ehtiyac onu bütün cinayətlərin şahidinə çevirib. Görəsən, bu videolar İvetanın nəyinə gərəkdir?" – sualına cavab axtardı. Tərgül öz düşüncələri ilə əlbəyaxa ikən qulağına səs gəldi. Əvvəl əhəmiyyət vermədi, lakin daxilindən gələn bir hiss onu əks istiqamətə baxmağa vadar etdi.

Gördüyünə inanmadı. Ondan əlli-altmış metr aralıda ağ önlüklü xidmətçi qucağında uşaq dayanmışdı. Ağlayan o idi: Tərgülün körpəsi – Şəhidi idi. Əmr gözləmədən uşağa tərəf getmək istəyəndə qarşısını kəsdilər. Hündür boylu kişilərin çiyni üstündən qarşını görmək mümkün deyildi. Tərgül çırpındı, körpəsini görmək üçün irəli boylandı, heç nə görmədisə də, ürəyində bir sakitlik, rahatlıq duydu: körpə sağ idi. Qarşısındakı divar birdən-birə yarıldı. Tərgül gördüyü mənzərədən dəhşətə gəldi. Uşağı yerə qoyan xidmətçi bələyi açmışdı, uşağın çılpaq ayaqları, qolları aydın seçilirdi. O, zəif səslə ağlayır, çabalayırdı. Qarşı tərəfdən yekəpər bir it hürə-hürə sürətlə körpəyə tərəf götürüldü. Tərgülün sinəsindən tükürpədici bir fəryad qopdu, var gücü ilə körpəyə tərəf qaçdı. Topuqlarını zəncir doğrasa da, ağrını hiss etmədi. İtdən əvvəl körpəyə çatdı, qamarlayıb yerdən qaldırdı, bağrına basdı, balasından ötrü növbəti döyüşə hazırlaşdı...

***

Gülarənin təngnəfəs olduğunu görən Kamal oxumağına ara verdi. Dolçadakı sudan bir stəkan töküb onun dodaqlarına yaxınlaşdırdı. Gülarə bir neçə qurtum içsə də, sakitləşmədi, canını üşütmə aldı. Onun titrədiyini görən Kamal ürək ovudan bir söz demək istədisə də, bacarmadı, dəftəri örtüb bir tərəfə qoydu:

- Bugünlük bəsdir, qalanını sabah oxuyarıq, - deyib ayağa qalxmaq istəyəndə Gülarə qolundan tutdu, dişləri bir-birinə dəysə də, titrək səslə yalvardı:

- Oxu, xahiş edirəm, qoy bu əzabdan biryolluq qurtarım.

Kamal kədərlə Gülarəyə baxdı, təsəlli üçün dedi:

- İnan, mənim üçün də bu hadisələr çox ağırdır, amma özümü ələ almağa məcburam, dözürəm. Elə zənn etmə ki, Tərgülün, dilsiz-ağızsız körpənin taleyinə biganəyəm. Əsla! Oxuduqca ürəyim göynəyir, körpəyə əzab verən qadına nə ad verim, bilmirəm. Gözlərimin qarşısında erməni əsirliyində əzab çəkən, təhqir olunan Tərgüllər, hədəfə çevrilən yüzlərlə körpələr canlanır...

Kamal bir anlıq susdu və birdən qeyzlə əlini stola çırparaq:

- Bizsə isti otağımızda oturub vaxt öldürmək üçün əyləncə gəzirik, məclis qururuq, qeyrətdən danışıb qürrələnirik. Niyə də qürrələnməyək? “Şuşa”mız, “Laçın”ımız, “Kəlbəcər”imiz, “Füzuli”miz, “Zəngilan”ımız – bütün itirilən torpaqlarımız paytaxtda köç salıb,- deyərək başını tutdu. Onun bu vəziyyətdə nə qədər qaldığını demək çətin idi. Gülarə hələ də titrəyən əlini çiyninə qoyanda Kamal başını qaldırdı, onun gözlərinə qan sağılmış, rəngi boğulmuşdu. Hiss olunurdu ki, qəhərlənib, amma ağlamağı qüruruna sığışdırmırdı. Gülarə boynuna ağırlıq edən başını Kamalın çiyninə söykədi, üzüntülü bir səslə:

– Səni yaxşı anlayıram, Kamal. Oxu, nə qədər çətin olsa da,

oxu. Dözəcəyəm, göz yaşlarımı ürəyimə axıdacağam, - dedi.

Kamal səsi getdikcə üzülən, taqəti tükənən, bənizi ağaran Gülarənin son sözlərini zorla eşitdi:

- İndiyə kimi hər şəhid körpədə balamın izini axtardım, əlimi hər şeydən üzmüşkən onu yenidən tapdım. Tapdığım andan da qismətimə hər gün ölüb-dirilmək düşdü.

Gülarə susdu. Yumulu gözlərinə baxan onu yatmış sonardı. Eşitdiyi son sözləri yuxuda sayıqlama zənn edən Kamal astaca onun başını çiynindən götürüb ayaq üstə qalxmaq istəyəndə Gülarə hərəkətsiz halda divana söykənib başını yana əydi. Kamal dəftəri açdı...

... Körpə doğma nəfəsi duyan kimi səsini kəsdi. Tərgül onun gözlərində bir məyusluq, yorğunluq duydu. Elə zənn etdi ki, keçən bir gün ərzində balası həyatın bütün zərbələrini dadıb, bələkdə ikən qocalıb. Bu gözlərdə məsumluq, paklıq qədər giley-güzar da vardı. Saralmış bənizində, zəif səsində sanki yanan şamın son şölələri titrəşirdi. Tərgül kövrəldi, qəhərli həzin səslə balasına nəğmə oxudu. Gözlərini ondan ayırmadı. Nəğmə oxunduqca körpənin bənizindəki sarılıq çəkildi, hərəkətə gəldi, ağzını dolandırıb yemək istədi. Tərgül hər şeyi unudub yaxasını açdı, südü olmasa da, döşünü körpənin ağzına verdi. Əmdikcə üzündə xoş ifadə yaranan, əvvəlki əzabdan əsər qalmayan körpənin üzündə həyat işartıları, gülüş duyuldu.

Arabir yorulub dayansa da, yenidən aramla əmməyə başladı.

İndi Tərgül dünyanın ən xoşbəxt anası idi. Oxuyurdu Tərgül... Başına gələn müsibətləri unudaraq oxuyurdu. Əlində kamera onu izləyən gənc də verilən əmri unutmuşdu. Tərgülün qarşısında yerə çökərək onun səsindəki sehri anlamağa çalışırdı. Ətrafda hər şey susmuşdu. Elə bil təbiət də bu saf, yanıq-

lı səsin sehrinə düşmüşdü. Dilini bir qarış çıxararaq ləhləyən it də dal ayaqları üstdə oturaraq qabaq ayaqlarını irəli uzatmışdı. Nəzərləri arabir balasına nəğmə oxuyan Tərgülə sataşsa da, sanki ona çəkdirdiyi acıdan utanaraq baxışlarını tez də yerə endirirdi. Gördüyü mənzərədən qəzəbi aşıb-daşan İvetanın bağırtısı nə kameranı yerə qoyan gəncə, nə də köpəyə təsir etdi. Onlar sanki Tərgülün oxuduğu nəğmənin bitməsini istəmirdilər. Qucağındakı körpə yatanda Tərgül susdu. Gənc oğlan ayağa qalxıb öz dilində nə isə söylədi və ona təzim etdi, kameranı gözləri qəzəbdən hədəqəsindən çıxan İvetanın qarşısında yerə qoyub sərt şəkildə dedi:

- Xanım, əyləncənizə alət ola biləcək başqa birini axtarın!

İvetanın bağırtısı ətrafı bürüdü, pozuq əcnəbi dilində ağzı köpüklənə-köpüklənə nə isə qışqırdı, lakin gənc arxaya baxmadan tələsik addımlarla oradan uzaqlaşdı.

Köpəyin cəzası daha ağır oldu. İveta onu qəfəsə saldıraraq ölənə qədər ac saxlamaq əmrini verdi...

***

Bir neçə gün idi ki, nə İveta, nə də ağ önlüklü erməni qadın gözə dəyirdi. Digər xidmətçilərin rəftarında yumşaqlıq vardı. Gələn qonaqları qarşılayan sarışın, ucaboylu nərmənazik qızın münasibəti isə tamamilə fərqli idi. O, Tərgülün doğranmış topuqlarını görəndə içini çəkdi, bir xeyli donuq vəziyyətdə qaldı. Uşağın səsi eşidiləndə sanki yuxudan ayıldı, cəld sarğı, dərman gətirdi, Tərgülün yaralarını təmizlədi, tənziflə sarıdı. Xeyli qan itirdiyi üçün bənizi saralan əsirə yemək verdi. Bu yemək də fərqli idi, hər dəfə ağ önlüklü erməni qadının gətirdiklərindən deyildi. Tərgül o yeməkləri körpəsi ac qalmasın deyə, zorla da olsa,

yemək məcburiyyətində idi. Göstərilən şəfqət onu kövrəltdi, insanlığın tam ölmədiyinə bir daha əmin oldu.

İvetanın geri dönməsi on gün çəkdi. Bu günlər ərzində Tərgül xeyli dirçəldi, rəngi duruldu. Körpənin də halı yaxşılaşdı.

Ermənistana "əliboş" yollanan İveta bir türk qadınına və uşağına verdiyi işgəncəni film kimi lentə tam ala bilmədiyi üçün özünü müqəssir sayırdı. O, anasının sərt baxışları ilə üzləşəndə gözlərini yayındırdı.

- Qisasımı aldınmı? – sualını eşidəndə qulağa zorla çatan bir səslə:

- Sənin qisasını hər gün alıram, ana,- söylədi.

- Amma mən görmürəm!

Anasının amiranə səsi, qəzəbli baxışı İvetanı duruxdurdu. Bir qədər susub inamsız halda mızıldandı:

- Türklər qəribə millətdir. Onları sındırmaq mümkün deyil. Ən ağır cəza belə onları dizə gətirmir, mən nə edim?

İlk dəfə qızının çarəsizliyini görən Siranuşun gözləri qıyıldı, xəyalı onu ötən illərə sürüklədi. Tanımadığı şəxslər tərəfindən təcavüzə məruz qalan köhnə qonşuları yadına düşdü. Rüsvayçılığı qəbul etməyən gənc türk qızının alovlara bürünən silueti gözləri qarşısında canlandı, simasında kinayəli bir gülüş göründü:

- Sən türkləri bilməzsən, - dedi, - onların bir zəif damarı var: NAMUS! Yalnız bu yolla onları dizə gətirmək, yalvartmaq olar. Mən ayaqlar altında sürünən türk qadınını görmək istəyirəm, İveta, eşitdinmi?!

İveta anasının qəzəbindən qurtardığına sevindi. Geri qayıdanda həyata keçirəcəyi növbəti planı götür-qoy etməyə başladı. Malikanəsinə çatan kimi Tərgülü gətirməyi əmr etdi, qarşısında dayanıb gözlərinə baxdı. Bu gözlərdə nə yazıqlıq, nə də yalvarış

vardı, əksinə, qətiyyət və qəribə bir inam hiss olunurdu. Anasının sözləri qulaqlarında əks-səda verdi: "Sən türkləri bilməzsən, onların bir zəif damarı var: NAMUS!" İveta yalnız indi Tərgülün məğrurluğunun, yenilməzliyinin səbəbini anladı. Gözlərində kin qarışıq bir sevinc parladı, rişxəndlə əynindəki paltarı göstərib:

- Bununlamı qonaqlarımı əyləndirəcəksən? – dedi.

Tərgül onun nə demək istədiyini əvvəlcə anlamadı, təəccüb dolu baxışlarla ətrafa göz gəzdirsə də, İveta və erməni xidmətçidən başqa kimsəni görmədi. Qadınların üzündəki rişxənd dolu ifadədən məkrli niyyətlərini anladı. Birdən-birə xoflandı, qarşılaşacağı səhnəni gözünün qabağına gətirib həyəcanlandı. İvetanın göstərişi ilə gətirilən paltarı görəndə isə dəhşətə gəldi. Yerevandan çıxdıqları sonuncu günü xatırladı. Onda da bu paltarı zorla geyindirməyə cəhd göstərmişdilər. Amma Tərgül buna imkan verməmişdi. Salınacağı çirkabdan qurtarmağın yalnız bir yolu vardı: ölmək! Ömrü boyu ləkəli yaşamaqdansa...

Tərgül birdən diksindi: qulağına körpə səsi gəldi. Sustaldı, bayaqkı şahanə duruşu sanki qeybə çəkildi, balacalaşdı. Öz-özünə pıçıldadı:

- Bəs səni nə edim, körpəm? Səni kimə tapşırım, kimin ümidinə qoyum?

Tərgülün haldan-hala düşdüyünü görən İveta qələbəsinə qəh-qəhə çəkdi. Bu qəh-qəhə qulaqbatırıcı top gurultusu kimi evi titrətdi, ayaqları sözünə baxmayan Tərgülün dizləri yavaş-yavaş büküldü. İndi o, İvetanın bir neçə addımlığında dizləri üstə düşəcək, düşməninə arzuladığı zövqü verəcək, onu sevindirəcəkdi. Öz-özünə: "Qalx, Tərgül, qalx!"- əmrini verib yumruğunu yerə dayadı, nəfəsini dərib asta-asta ayağa qalxdı, qəddini düzəltdi, kinli baxışlarla onu süzən qadına məğrur duruşu ilə meydan oxu-

du.

Dişlərini qıcayan İveta yaxın gəldi, sağ əlini qaldırıb Tərgülün üzünə tərs bir şillə vurmaq istədi, lakin hansısa bir güclü əl onun biləyini havadaca tutdu. Tərgül əsir düşdüyü ilk vaxtlarda balasının naminə düşmənə belə müqavimət göstərmişdi. Onun gözlərində İvetanın ömrü boyu unutmayacağı qəzəb vardı. Bu qəzəbə tab gətirməyən İveta baxışlarını yayındırdı, biləyini Tərgülün əlindən qurtarmağa çalışdı, amma bacarmadı. Bir qadında bu qədər cəsarətin nədən qaynaqlandığını da anlamadı. Arxada duran qadına gözləri ilə nəyisə göstərdi. Barmaqları məngənə kimi İvetanın biləyini sıxan Tərgül alnından aldığı zərbədən səndələdi, barmaqları boşaldı, tappıltı ilə döşəməyə sərildi. Xidmətçi qadın içki ilə dolu şüşə butulkanın ovuntularını döşəmədən yığmağa başladı. Tərgülün alnında dərin bir kəsik vardı. Yaradan axan qan yerdə göllləndi. İveta nifrətlə qanın üstünə tüpürüb əsirin aparılmasını əmr etdi. Ucaboylu iki gənc Tərgülü qollarından tutub sürüyə-sürüyə otaqdan çıxartdı. Alnından axan qan döşəmədə iz saldıqca ayaq barmaqlarının ucu qanı silsə də, ləkələr döşəmədə aşkar göründü. Arxadan İvetanın hikkəli səsi eşidildi:

- Ləçər, mənə əl qaldırmağın cəzasını bundan sonra görəcəksən.

***

Üzünə dəyən hənirdən Tərgül gözlərini açdı. Əvvəlcə heç nə seçmədi. Alnına dəyən nəm əskinin istisini duydu. Qəribə idi: ona bu ürəyiyananlığı edən kim idi? Bədənindəki gizilti azalanda gözlərini ovuşdurmaq istədi, əlləri heyvan tükünə toxunanda əti ürpəşdi, gözləri yumuldu, hərəkəti tamam çəkildi. Qurbanlıq

kimi vəhşinin onu nə vaxt parçalayacağını gözlədi. Bu anlarda onun nə düşündüyini demək çətin idi. Gözünün qabağından filmə baxırmış kimi çox şey keçdi. Bu filmin bitməsini arzulamadı. Birdən lent qırıldı. Hər şey bir-birinə qarışdı; torpaq qarışıq qar topası üstünə ələndi, körpə səsi qulaqlarını dəldi. Bu səs onu yoxluqdan aldı, dirçəltdi, başının ağrısı da yoxa çıxdı. Vəhşidən qurtarmaq üçün yollar aradı. Alnına yenidən yumşaq nəm əski toxundu, ardınca zingilti eşidildi. Tərgül gözlərini açdı, dal ayaqları üstə oturmuş yekəpər iti görəndə bir anlıq qorxdu, necə davranacağını müəyyən edə bilmədi. Anladı ki, İvetanın məqsədi onu günlərlə ac saxlanan itə parçalatmaq imiş. İt ovunu görəndə zorla ayağa durmuş, amma Tərgülün alnından axan qanı yalamaqla kifayətlənmişdi. Tərgülün yumşaq nəm əsgi sandığı da itin dili idi. O, birtəhər qalxıb oturdu. Buradan çıxmaq üçün yollar aradı. Hava qaralmadığı üçün ətrafı aydın görmək mümkün idi. Qəfəsin qapısı rəzə ilə bağlı olsa da, nədənsə üstündə qıfıl yox idi. Bu, təsadüfmü idi, ya taleyin qisməti - anlamaq çətin idi. O, rəzəni çəkmək istədi, gücü çatmadı. Ümidsiz halda dizlərini qucaqladı. Gözlərini yerə dikib qulaqlarını sallayan, taleyi ilə barışan itə yazığı gəldi, titrək barmaqları ilə itin başını sığallamaq istədi, amma nədənsə əti ürpəşdi, əlini geri çəkdi...

Hava getdikcə qaralır, zülmət ağuşunu açıb hər tərəfi qoynuna alırdı. Bir azdan bütün ağaclar da qaranlıqda əridi, göz-gözü görmədi. Zülmət bir kabus kimi hər şeyə meydan oxudu.

Bu gecə nədənsə həyətdəki lampalar da yandırılmamışdı. İvetanın nura qərq olan malikanəsindən arabir küləyin qovub gətirdiyı erməni musiqisi, bəzən də cingiltili qadın gülüşləri eşidilirdi. “Sarı gəlin” mahnısı çalınanda Tərgül qəzəbdən dişlərini bir-birinə necə sıxdısa, xırçıldadı. Nifrətlə: “ Həm torpaq-

larımıza, həm də musiqimizə sahib çıxmağa çalışırlar!” – dedi, düşmənə kini aşıb-daşdı. Rəzəni necə dartdısa, qəfəsin qapısı şaqqıltı ilə açıldı. Birtəhər qəfəsdən çıxdı. Ayağa qalxıb yerimək istəyəndə başı hərləndi, şiddətli ağrıdan nəfəsi daraldı. Qəfəsin dəmirindən yapışıb başının toxtamasını gözlədi.

Ertədən başlayan aprel küləyi getdikcə güclənirdi. Əyin paltarı nazik olduğu üçün Tərgül üşüyürdü. Külək yaraya dəydikcə alnına sanki tikan batırırdılar. Yaradan axan qan kəsilsə də, ağrı səngiməmişdi, əksinə, daha da artmış, baş nahiyəsini tamam bürümüşdü. O, əlini ağrıyan nahiyəyə toxunduranda alnının tən ortasında dərin bir şırım duydu. Şırımın kənarları hamar deyildi, didilmişdi. Tərgül olub-keçənləri xatırlamağa çalışdı, yadında qalan İvetanın biləyini tutanadək olanlar idi. Başına kim vurmuşdu, nə ilə vurmuşdu, xatırlamadı. Həm də bunu bilməyin nə əhəmiyyəti vardı ki! O, düşmən əlində idi. Tərgül bir neçə addım da atdı, hiss etdi ki, bir tərəfdən ağrı, digər tərəfdən külək yeriməsinə mane olur. Bir daldanacaq axtardı, amma qaranlıqda heç nə görmədi. Sanki hər şey, hətta Ay da, ulduz da bu zülmət gecənin içində yoxa çıxmışdı. Gözləri öz-özünə qapandı, aylı-ulduzlu bir gecədə Adillə olan söhbətləri yadına düşdü. Doğulacaq övladlarına ad fikirləşirdilər. Adil:

- Oğlumuz olsa, adını mən qoyacağam, - deyəndə Tərgül gözucu onu süzdü, dodaqlarını qəribə tərzdə büzüb şıltaqcasına:

- Bəs qızımız olsa? – soruşdu və tez də əlavə etdi, - Qoy qızımızın adı Gülyaz olsun.

Adil Tərgülün sözlərinə gülümsündü. Bu gülüşün hərarəti elə bil sayrışan ulduzlaracan çatdı. Ay da küləyin qovub gətirdiyi buludların arasından çıxdı. Bəyaz bir gecə bəxtəvər cütlüyün üzünə güldü...

Əlinə dəyən hənirti Tərgülü diksindirdi, zarıltıya bənzəyən zingiltini eşidəndə isə bir qədər sakitləşdi. Ayaqları bir-birinə dolaşan köpəyin arıqlıqdan pırtlaşan tüklərini tumarladı. Nəvazişdən büzüşən itin kimsəsizliyinə kövrəldi. İnsan cildinə girmiş düşmənə lənət oxudu. İndi o heç nə fikirləşə bilmirdi, çünki gedəcək bir yeri, sığınacaq bir kimsəsi yox idi. Tərgül birdən-birə özünü qınadı:

- Necə yəni kimsəm yoxdur? Bəs körpəm? Bu sözü işlətməyə dilin necə gəldi? Yox, onu hökmən xilas etməliyəm! Bu yad ölkədə yeganə təsəllim, ümid yerim odur.

Yenidən ayağa durdu, malikanəyə tərəf addımlamağa səy göstərdi, bacarmadı. Ağrıdan beyni dumanlandı, taqətsiz halda yerə oturdu. Öz-özünə:

- Hə, Tərgül, bu da son. Deyəsən, İveta istədiyinə çatır,zərrə-zərrə, qram-qram başlayan böyük ölüm lap yaxındadır.

Bir azdan həyatın sona yetəcək, hər şey: təhqirlər də, əzablar da arxada qalacaq, əbədi bir sükut sənə layla çalacaq. Bu yuxudan səni oyadan da olmayacaq, - dedi və bəyaz bir dünya onu asta-asta ağuşuna aldı, ayaqları yerdən üzüldü, qolları sınıq qanad kimi aşağı sallandı, dişləri kilidləndi, dili keyidi və hər şey bu bəyazlıqda itdi...

***

Kamal oxumağına ara verdi. Ağır-ağır əlini siqaret qutusuna uzatdı. Bir siqar götürüb balkona çıxmaq istəyəndə elə bildi ki, kimsə qolundan dartdı. Geri döndü, arxada heç kimi yox idi. Gülarə sakit halda başını divana söykəyib uyumuşdu. Arabir dodaqları səyriyir, qaşları çatılırdı. Kamal yerinə qayıtdı. Siqarı qutusuna qoydu. Nə qədər ağır olsa da, Tərgülün faciəli həyat

hekayəsinin davamını oxumağa başladı...

...Yarıqaranlıq otaqda əlini çənəsinə dayayıb gözlərini küncə zilləyən ağsaçlı qadının üzü elə də aydın seçilmirdi Oğlu Mişel dörd il idi ki, ondan ayrılmış, birdəfəlik şəhərə köçmüşdü. İlk vaxtlar anasına tez-tez baş çəksə də, son zamanlar işinin çoxluğundan ayda bir dəfə gəlib ehtiyacları ilə maraqlanır, yenidən şəhərə qayıdırdı. Onun gəlişi hər dəfə Anna üçün toy-bayrama çevrilir, gedişini arzulamasa da, oğlunun həyatına qarışmaq istəmirdi. On gün əvvəl Mişel yenə də gəldi, həmişəkindən fərqli olaraq, onu elə hərarətlə bağrına basdı ki, Anna təəccüblə soruşdu:

- Sənə bu gün nə olub, Mişel?

Qarşısında diz çökən Mişel onun əllərini dönə-dönə öpdü, üzünü bu əllərin içində gizlətdi, amma heç nə demədi. Oğlunun son görüşdəki hərəkəti ananı çox düşündürsə də, cavab tapa bilmədi...

Gecənin yarısı qapı astaca döyüləndə Anna yerindən qalxdı. Taqqıltının ahəngindən gələnin Mişel olduğunu anladı. İşığı yandırıb qapıya yaxınlaşdı:

- Kimdir? – soruşmağa macal tapmadı. Qapının arxasından:

- Ana, mənəm! - sözlərini eşidən kimi qapını açdı. O,

Mişelin qolları üstündə huşunu itirmiş yaralı qadını görüb qorxdu, geri çəkilib oğluna yol verdi, qapının ağzında dayanan ucaboylu sarışın qızı içəri dəvət etdi. Yaralını divana uzadan Mişel astadan:

- Ana, mənim çarpayımı xəstə üçün hazırlayarsanmı? – soruşdu.

- Bizim ki boş çarpayımız var! – deyərək Anna içəri otaqda uzun illərdən bəri sahibsiz qalan yatağı səliqə ilə açdı.

Çarpayıya uzatmazdan əvvəl sarışın qız ılıq su ilə xəstənin əllərini yudu, üzünü nəm pambıqla təmizlədi, qana bulaşmış paltarlarını dəyişdi. Yaralının hərarəti getdikcə artırdı. Sarışın qız həkimə ehtiyac olduğunu bildirdi və Mişellə birlikdə getdi. Anna uzun müddət qara saçlı yaralını seyr etdi. Elə zənn etdi ki, nağıllar aləminin yatmış şahzadəsi evinə qonaq gəlib. Ağır-ağır nəfəs alan xəstənin alnındakı dərin çapıq da bu gözəlliyi soldura bilməyib. O, qızdırmadan sayıqlayan xəstənin boyun-boğazını yaş tənziflə sildi, sözlərini anlamaq üçün xəstənin üzərinə əyildi, amma heç nə başa düşə bilmədi. Arabir saata baxaraq həkimin nə vaxt gələcəyini səbirsizliklə gözlədi...

***

Luiza bir neçə dili mükəmməl bildiyi üçün keçirilən bir məclisdə Surenin diqqətini cəlb etmiş, işə dəvət olunmuşdu. Evində təşkil etdiyi görüşlərdə İveta ingilis, fransız, italyan dilində danışanlarla ünsiyyəti Luizanın vasitəsilə qururdu. Belə görüşlər tez-tez keçirildiyi üçün o, son vaxtlar bu evdə daha çox olur, İveta evdə olmayanda bəzi görüşlərin keçirilməsi planını da hazırlayırdı. Luiza Tərgülü də burada gördü və erməni gözəlinin mübarizəsinin əsl mahiyyətini bundan sonra anladı. Bu vaxta qədər o, İvetanı vətənpərvər, xalqının vurğunu kimi qiymətləndirir, “zavallı” ermənilərin qəhrəmanı sayır, qibtə edirdi. Mişeli də İveta ilə bu səbəbdən tanış etmişdi. Malikanədə keçirilən bütün tədbirləri Mişel videoya alır, müxtəlif telekanallarda yayımlayırdı. İvetanın vəhşi əməllərini Mişel hamıdan əvvəl duydu və insanlığa sığmayan işgəncədən dəhşətə gəldi. Elə həmin gün kameranı yerə qoydu, başqasının alətinə çevrildiyi üçün özünü lənətlədi, bir ananın övladı üçün həyatını təhlükəyə atmasından, yaraları-

nı unudub balasını ovundurmaq üçün oxuduğu həzin nəğmədən təsirləndi, ona təzim etdi, düşündü: ”Övlad hansı yaşda olursa-olsun, anaya borcludur”. O, səhəri gün anasının ziyarətinə getdi, lakin ona olan məhəbbətini dillə deyə bilmədi, qarşısında diz çöküb əllərini öpdü. İvetanın əməlindən Luizanı da xəbərdar etdi. Eşitdiklərinə inanmaq istəməyən Luiza topuqları doğranmış Tərgülü görəndə bir andaca özünə ideal sandığı İvetanın “vətənpərvərliy”i də, “zavallı” xalqı üçün “qəhrəmanlığ”ı da buz kimi əriyib yoxa çıxdı və: “Bir anaya, günahsız körpəyə dözülməz əzab verən xalqını sevə bilməz!” – qənaətinə gəldi. And içdi ki, Tərgülü bu əzabdan qurtarmağa çalışacaq. O, malikanədə növbəti tədbirin keçiriləcəyi vaxtı gözləməyə başladı.

Malikanədəki tədbirlər, adətən, səhərəyaxın bitirdi. Rəsmi hissədən sonra növbəti “qələbə”ni qeyd etmək adət halını almışdı. Luiza işini bitirən kimi evinə gedərdi. Bu gecə isə malikanənin həyətini tərk etmədi. Ertədən ağlayan uşağın üstünə qışqıran erməni qadının danışığından, söyüşlərindən anladı ki, Tərgül ac saxlanan itə yem edilib. Mişellə görüşəcəyi ağaclıqda gözləməyə başladı. Birlikdə qəfəsin qoyulduğu yeri tapdılar. Qapını açıq görəndə çox sevindilər, səslərini çıxarmadan əsiri axtardılar. Köpəyin zarıltını andıran zingiltisi onlara kömək etdi. Tərgül özünü bəyaz dünyaya təslim edərkən onu yerdən qaldıran Mişel idi. Yaralını maşına qoyandan sonra Mişel sürünə-sürünə onların ardınca düşən köpəyi də xilas etmək qərarına gəldi.

***

İveta hikkəsindən yerə-göyə sığmırdı. Axşamkı nəşədən əsər belə yox idi. O bağırır, sıra ilə qarşısında dayanıb başını aşağı salan xidmətçiləri yamanlayırdı. Tərgülün də, köpəyin də birdən

yoxa çıxması onun xidmətçilərinə, xüsusən də qoca bağbana inamını yelə verdi, qəzəblə əlini qapıya doğru uzadıb bağırdı:

- Hamınız buradan rədd olun, işdən azad olunursunuz!

Nisbətən gənc xidmətçilərin simasında məmnunluq duyulsa da, qoca bağbanla, aşpaz qadının kefi pozuldu. Onlar üçün yeni iş yeri tapmaq o qədər də asan olmayacaqdı. Amma xanımın qəzəbini yumşalda bilməyəcəklərini anlayıb hər ikisi digər xidmətçilərin ardınca malikanəni tərk etdi. İveta fısıldayaraq otaqdan-otağa keçdikcə ağ önlüklü erməni qadın da onu qarabaqara izləyir, amma bir kəlmə də söz demirdi. Bir azdan İvetanın səsi kəsildi. İti addımlarla pillələri enib qəfəsin qoyulduğu yerə getdi. Qəfəsin kilidi yox idi, qapısı tam açılmışdı. O, qəfəsin ətrafını nə qədər gəzsə də, bir iz tapa bilməyib kor-peşman geri döndü. Xidmətçiyə körpəni gətirməyi əmr etdi.

Körpə şirin yuxuda idi. Arabir yanaqları səyriyir, üzünə xoş bir ifadə qonurdu. İveta onu xeyli seyr etsə də, daxilindəki qəzəb yumşalmadı, kinli-kinli körpəni süzdü. Uşağın üzündə təbəssüm oynadıqca dişlərini bir-birinə sıxdı, yalnız özünün eşidə biləcəyi tərzdə:

- Kökünüz kəsilsin, - dedi.

Körpənin gülümsər çöhrəsi birdən-birə dəyişdi, dodaqlarını büzdü, lakin simasını bürüyən ilahi nur azalmaq əvəzinə daha da artdı. İveta isə hələ də susurdu. Bu susqunluğun arxasında nə dayanırdı? Ağ önlüklü erməni qadın üçün də bu, müəmma idi. Xanımın bayaqdan kilidlənmiş dodaqları əvvəlcə titrədi, lakin çox keçmədən gözlərində parıltı göründü. Surenə zəng edib Yerevana bilet almaq sifarişini verdi.

***

Tərgül iki gündən sonra ayıldı. Harada olduğunu dərk etməyə çalışdı. Bura hara idi, onu bura kim gətirmişdi? Bu, yuxu idimi, ya həqiqət? Suallar bir-birinin ardınca düzüldükcə darıxdı, son hadisələri xatırlamağa çalışdı. Zərbə endirmək üçün əlini qaldıran İvetadan başqa heç nəyi xatırlamadı. O, yerindən qalxmaq istədisə də, bacarmadı, sanki başı bədəninə ağırlıq etdi, asta-asta yastığın üzərinə endi. Üzünə işıq düşəndə gözlərini açdı. Ona baxıb gülümsəyən ağ saçlı qadını görəndə yuxuda olmadığına inandı. Qadın yaxınlaşıb nəsə dedi, amma Tərgül heç nə anlamadı. Maddım-maddım onun üzünə baxdı. Ona nəsə anlatmağa çalışan qadının Anna olduğunu başa düşdü. Tez-tez təkrarlanan Mişel və Luiza sözlərindən anladı ki, ev sahibi onu buraya gətirənlərin adlarını çəkir. Tərgül minnətdarlıq əlaməti olaraq göz qapaqlarını endirib başını tərpətdi:

- Allah razı olsun! – dedi.

Tərgülə öz danışığı yad gəldi: əvvəlki cingiltili həlim səsi dərin quyunun dibindən güclə eşidilən xırıltılı bir səs əvəz eləmişdi. O, ev sahibinin gətirdiyi çayı içməyə çalışsa da, zəiflikdən əlləri əsdi, fincanı podnosa qoydu. Anna mərhəmətlə gülümsündü, onun başının altını bir qədər dikəldib fincanı dodaqlarına yaxınlaşdırdı. Tərgül ilk qurtumu içdi, kəmşirin çay ona dünyanın ən dadlı neməti kimi göründü. Dalbadal içdiyi bir neçə qurtum onu cana gətirdi. Digər otaqdan gələn səslər diqqətini cəlb edəndə də gözlərini üzündən təbəssüm çəkilməyən Annadan ayırmadı. Çox keçmədən əvvəl Luiza, sonra Mişel qapı ağzında göründü. Tərgül yalnız indi xilaskarlarının kim olduğunu bildi. Əllərini hər şeydən üzmüşkən xilaskarlarının İvetanın evinə bələd adamların olmasına sevindi. Ümid dolu baxışları-

nı Luizanın gözlərinə dikdi. Luiza isə termometri ona uzadaraq rus dilində hərarətini ölçməyi xahiş etdi. Tərgül içində nəyinsə qırıldığını duydu, narahatlıqla gah termometrə, gah da sakitcə onu seyr edənlərə baxdı. Birdən üstündəki adyalı kənara atıb dik qalxdı, lakin addım ata bilmədi, kökündən kəsilmiş ağac kimi yerə sərildi. Anna başını buladı, yaşadığı məkanda əsir həyatı keçirən Tərgülə yazığı gəldi. Onu təzədən çarpayıya uzatdılar. Oğluna narahatlıqla baxan Anna:

- Hökmən xəstəni xəstəxanaya yerləşdirmək lazımdır, - deyəndə Mişel etiraz etdi və astadan cavab verdi:

- Xəstənin heç bir sənədi yoxdur, necə yerləşdirə bilərik?

Bir az özünə gələndən sonra ya səfirlik, ya da beynəlxalq təşkilatlar vasitəsilə onu xilas etmək olar.

Otaqdakılar susdular. Vurulan iynədən sonra Tərgülün üzündə həyat əlamətləri göründü. Hamı rahat nəfəs aldı. Hərarəti bir qədər ensə də, xəstənin durumu ciddi idi. Onu gözdən qoymaq olmazdı. Anna cidd-cəhdlə üzərinə düşən vəzifənin öhdəsindən gəlməyə çalışdı. Mişel də anasını tək qoymadı.

Keçən bir həftə ərzində Tərgül fransız dilində bəzi sözləri öyrəndi, ev sahibini anlamaq bir qədər asanlaşdı.

***

İvetanın malikanəsindən xəbər tutmaq mümkün deyildi. Bir həftə idi ki, Luiza da gözə dəymirdi. Gözlərini qapıdan ayırmayan Tərgülsə ümidini üzməmişdi, bu sarışın fransız qızının müjdə ilə qapını açacağı anı gözləyirdi.

Luiza gəldi, amma gətirdiyi xəbər ürəkaçan deyildi. O bacardıqca gözlərini Tərgüldən yayındırır, bu müdhiş xəbəri ona deməkdən çəkinir, yad ölkədə həyatın ağır zərbələrinə sinə gərən

bir ananın övlad itkisinə dözə biləcəyinə inanmırdı.

Tərgülün:

- Oğlumu gördünüzmü? – sualına cavab verməkdə çətinlik çəkdiyi üçün başını yırğaladı. Tərgülün ürəyindən bir göynərti keçdi, özünü zorla toplayıb yalvarışla:

- Məni ora götürün, mən körpəmi yad əllərdə tənha qoya bilmərəm, - dedi.

Luiza heyrətləndi: ölümlə əlbəyaxa bir ananın övlad sevgisindən kövrəldi, gözləri yaşardı, yalnız bunu deyə bildi:

- Oğlunuz haqqında hər şeyi öyrənməyə çalışacağam.

Tərgül uçundu, indi ona bir şey aydın idi: uşaq İvetanın evində deyil. İnildədi Tərgül... Luizaya elə gəldi ki, bu inilti otağın yalın divarlarını yaladı, qana çevrilib divar boyu axmağa başladı. İndi o bu səsdən qaçmaq, bacardıqca uzaq olmaq istəyirdi. Annanın da halı yaxşı deyildi: astadan nəsə deyir, əlindəki yaylıqla gözlərini qurulayırdı.

Luiza getdi və Tərgülün qırılan ümidlərini də özü ilə apardı...

***

Malikanədə hər şey öz axarında idi: yeni qulluqçular vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışırdılar. Onların burada baş verənlərdən, demək olar ki, xəbərləri yox idi. Ağ önlüklü qadından isə özü danışmasa, söz almaq çətin idi. Növbəti görüşü planlaşdırmaq üçün Luiza məsləhətə ehtiyac duydu və İvetanın nə vaxt gələcəyini soruşanda xidmətçi qadın gözlənilmədən:

- Artur Muradyanı yerləşdirəndən sonra gələcək, - dedi və sürəkli qəh-qəhə çəkdi.

Luizanın çaşqınlığını görəndə isə yarı erməni, yarı fransızca məsələyə aydınlıq gətirdi:

- Xanım sənədləri düzəldəndən sonra türk küçüyündən ötrü ikinci dəfə Yerevana getməli oldu. Uşağı da oraya aparacaqlar. Luiza özünü biganə göstərsə də, ilk məlumat bəlli oldu: uşaq sağdır. "Bəs nə üçün Yerevana aparılacaq?"- sualının cavabı isə müəmma olaraq qaldı.

***

İvetanın dönüşü bir həftə çəkdi. Heç nə olmamış kimi yenə də fəaliyyətə başladı. Müxtəlif xarici ölkələrin ictimai birlikləri ilə əlaqələri daha da artırmaq, onları erməni soyqırımına inandırmaq üçün müxtəlif vasitələrə əl atdı. Malikanədən ayrıldıqdan sonra onun əməllərinə inanmayan Mişel məsələnin əsl mahiyyətini başa düşmək üçün bir jurnalist kimi araşdırmalar apardı. Dövri mətbuatda Xocalı soyqırımına aid fotoşəkilləri görəndə insan vəhşiliyinə inanmaq istəmədi. Şəkilləri Luizaya da göstərdi. Növbəti tədbirdə İveta Xocalıda qətlə yetirilən körpələrin şəkillərini erməni soyqırımının sübutu kimi təqdim edəndə Luiza heyrətdən donub qaldı, lakin səsini çıxarmadı. Hamıya mələk cildində görünən bu qadının saxta vətənpərvərliyinə qəlbən nifrət etdisə də, onu tərk etmədi. Tərgülə verdiyi sözü yerinə yetirmək üçün səbirlə gözlədi.

Son vaxtlar İvetanın əhvalı xeyli yaxşı idi. Bu, Luiza ilə rəftarında daha çox nəzərə çarpırdı. Belə günlərdən birində o, söhbət zamanı gözlənilmədən soruşdu:

– Luiza, Ermənistanı görmək istəyirsənmi?

Luiza əvvəlcə gözlənilməz təklifdən duruxdu, lakin birdən gözlərində parıltı göründü:

- Əlbəttə, - dedi.

- Onda hazırlaş, iki gündən sonra Yerevana uçuruq, - təklifini eşidəndə isə quş kimi yerindən qalxdı, hazırlıq görmək üçün evinə döndü...

***

Onları Yerevanda İvetanın qohumları qarşıladı. Luizaya elə gəldi ki, qarşılamağa gələnlərin üzündə indyə qədər heç kimdə görmədiyi bir ifadə var. Bu ifadədə kök salan sünilik qəlbini sıxsa da, dözməkdən başqa əlacı yox idi. Luizagil üçün oteldə xüsusi otaq ayrılmışdı. Onlar bir qədər istirahət etdikdən sonra Yerevanı gəzməyə çıxdılar. Şəhərin ən görməli yerlərini, abidələrini seyr edən Luiza Sasunlu Davidin heykəli qarşısında xeyli dayandı. Atın belində qılıncından qan daman erməni obrazı gözlərinin qarşısında canlandı, günahsız körpələrin, anaların naləsi qulaqlarında əks-səda verdi. Onun heykələ diqqətlə baxdığını görən İveta məmnun halda qımışdı və heykəl haqqında məlumat verməyə başladı. Sonra Yerevanın mərkəzi küçəsi ilə addımladılar. Teatr meydanına çatdıqda yenə ayaq saxladılar. Ətrafda təkəm-seyrək adamlar gözə dəyirdi. Çox keçmədən ermənilər dəstə-dəstə meydana axışdılar. Luizanın təəccübünü görən İveta daha həvəslə izahat verdi:

- Biz Qarabağ uğrunda mübarizə aparırıq. Ona görə də sovet rəhbərlərinə bizim xeyrimizə qərarlar qəbul etdirmək üçün hər gün buraya yığışırıq.

Luiza heç nə deməsə də, başını tərpətdi. Meydan adamla dolandan sonra mitinq başlandı. Tribunada çıxış edənlər alqışlanır, uğultudan deyilənləri aydın eşitmək mümkün olmurdu. Luiza çox yorulmuşdu. İndi ona sakit bir yer lazım idi ki, dincəlsin.

Elə bu vaxt İveta onun qoluna toxundu: bu getmək üçün işarə idi. Meydandan xeylu aralansalar da, uğultu aydın eşidilirdi. Şəhərin ortasından axan kanalın (əslində bu, kanal deyildi, Zəngi çayı idi) üstündən keçəndə kəskin iy Luizanın üz-gözünü turşutmasına səbəb oldu, o, cib dəsmalını burnuna tutdu. Bu, İvetanın nəzərindən yayınmadı, amma susmağa üstünlük verdi. Yolun kənarı ilə bir-birini təkrarlayan evlər yeknəsəqlik yaradırdı. Buraya gələnə qədər xəyalında canlandırdığı Yerevandan bir əlamət görməsə də, Luiza peşman deyildi. Onu buraya gətirən körpəni tapmaq arzusu idi, amma nədənsə bu mövzu İvetanın yadına düşmür, heç nə olmayıbmış kimi susurdu.

Ertəsi gün İveta görüşlərini bitirib anasını yoxlamağa gedəndə Luizanı da özü ilə apardı. Dar dalanlardan keçib həyətə daxil oldular. Qapını 14-15 yaşlı bir qız açdı. Bu, İvetanın xalası qızı idi. Harrinin ölümündən iki ay keçməmiş arvadı Lyuba Rusiyaya gedən bir gəncə qoşulub Yerevanı tərk etmişdi. Həmin vaxtdan da kiçik xalasının qızı Sonya Siranuşa qulaq yoldaşı olmuşdu. Pəncərələrə tünd rəngli pərdələr tutulduğu üçün içəri yarıqaranlıq idi. İveta otağa girən kimi baş tərəfdə qoyulan kresloya yanaşdı. Luiza yalnız indi kresloda oturan qadını gördü. Qapqara paltar geyinmiş bu qadın heykələ bənzəyirdi. İveta onun qarşısında əyilib əvvəlcə təzim etdi, qadının tərpənmədiyini görəndə bir qədər də əyilib əlindən tutmaq, dodaqlarına yaxınlaşdırmaq istədi, lakin cəhdi boşa çıxdı. Qadın onu sinəsindən itələdi:

- Oğlumun qisasını almayınca sənə qızım deməræm, - söyləyib üzünü yana çevirdi.

- Ana, mən bacardığımı elədim, oğlunun qisasını almaq üçün sənə türk uşağı da göndərdim, anasına heç kimin ağlına gəlməyən əzablar yaşatdım. Məgər bu, azdırmı? – İveta özündən

razı halda xidmətlərini sadaladı.

Siranuş istehza ilə soruşdu:

- Hm... Türk uşağı... Hansı türk uşağı? Mənə gəlib çatan cəsədimi deyirsən?

- Nə cəsəd? Mən diri uşaq göndərmişəm. O ölə bilməzdi! – İveta israrla təkrarladı, - Yox, ölə bilməzdi, mən bunun axırına çıxacağam.

Sonya podnosdakı qəhvə fincanlarını stolun üstünə qoyanda cingilti səsinə İveta duruxdu və təəssüflə Luizanın da otaqda olduğunu xatırladı. Amma çoxillik təcrübəsi ona vəziyyətdən çıxmağa imkan yaratdı. Qonağın qabağına qəhvə dolu fincanı qoyub kədərli səslə dedi:

- Anamı heç cür sakitləşdirə bilmirəm. Görürsənmi, otağa gün işığını düşməyə də qoymur. "Mənim günəşim də Harri ilə batdı", - deyir. Harrinin qisasını almayınca mənə də arxa çevirəcək. Mən anamı çox sevirəm, üzünün gülməsi üçün hər nə desə, yerinə yetirməyə hazıram.

İvetanın gözləri yol çəkdi, beynində qarma-qarışıq fikirlər bir-birini əvəz etdi, Yerevana sonuncu gəlişini xatırladı. Uşaq üçün hazırlatdırdığı saxta sənədlər işinə yarasa da, anasının arzuları yerinə yetməmişdi. Surenin onun iradəsi əleyhinə addım atacağına inanmasa da, ürəyinə erməni xislətindən doğan bir şübhə hakim kəsildi.

Ertəsi gün İveta ilə Luiza geri döndülər. Onları qarşılamağa gələn Suren gülə-gülə nəsə deyərək maşının qapısını açdı, lakin İveta açılan qapıdan içəri girmədi, digər qapını açıb sükanın arxasına keçdi, Luizaya yanındakı boş oturacağı göstərdi. Surenin mat-mat baxdığını görüb sərt səslə dedi:

- Yaxşı fikirləş.

Yazıq görkəm alan Suren dili topuq vura-vura:

- Uşağı mən öldürmədim, onu qohumunuz Maho ilə anana göndərdim, amma o mənə zəng edərək uşağın öldüyünü xəbər verdi, - Suren daha fağır görkəm aldı və məsələyə aydınlıq gətirməyə çalışdı, - yəqin ki, uşaq acından ölüb.

İvetanın gözlərində qəzəb parladı:

- Necə edirsən, et, uşağı tap! – deyərək bağırdı və maşın qəfildən uğuldayaraq bir göz qırpımında gözdən itdi.

Luiza eşitdiklərindən şoka düşsə də, səsini çıxarmadı. İndi onun qarşısında daha böyük vəzifə dururdu: Maho Muradyanı tapmaq. O, bir jurnalist kimi tez-tez xarici dövlətlərə, o cümlədən SSRİ-yə gedən Mişellə bu məsələni çözəcəyinə ümid etdi.

***

Tərgülün vəziyyəti yaxşılaşmaq əvəzinə getdikcə ağırlaşırdı.

Yarası üzə gəlsə də, bəzən günlərlə dilinə heç nə vurmur, zəiflikdən tez-tez huşunu itirir, ev sahibini həyəcanlandırırdı. Anna bəzən onunla eyni otaqda tək qalmaqdan qorxur, yanında kiminsə olmağını arzulayırdı. Son vaxtlar Mişellə Luizanın gec-gec görünməsi bu sıxıntını artırırdı.

Günlər bir-birini əvəz etdikcə Tərgül ümidsizləşir, həyatdan doyaraq yaşamağın bir anlamı qalmadığı qənaətinə gəlirdisə də, əllərini uzadaraq isti qucaq, isti nəfəs həsrətində olan körpəsinin xəyalı onu yenidən həyata bağlayır, ölümü yaxın buraxmırdı. Belə vaxtlarda onun üzündə təbəssüm görünür, ağzını açıb yemək axtaran körpəsini yedirmək üçün əlini yaxasına aparanda xəyaldan ayılır, göz yaşları yanaqlarından süzülərək yaxasını isladır, əlləri sustalıb yanına düşürdü. Bəzən udmaq istədiyi tikə boğazında ilişir, bir qurtum su içməyincə çörəyi ötürə bilmirdi.

İki həftə ərzində tanımadığı adamların ona olan diqqətindən də utanır, verdiyi əziyyətə görə dəfələrlə üzrxahlıq edirdi. Bəzən qısa vaxt kəsiyində olanları yuxu sanır, nə zamansa bu yuxunun bitəcəyinə özünü inandırmağa çalışır, lakin günəşin ilk şəfəqləri pəncərədən süzüləndə bunun yuxu olmadığını bütün çılpaqlığı ilə duyunca ümidləri yoxa çıxırdı. Körpəsinin ölümünü də həzm edə bilmirdi: heç bir günahı olmayan körpəyə necə qıymaq olardı?

Bəzən yuxusunda Tərgülə körpə erməni uşağı verərək: "Öldür, oğlunun qisasını al!"– desələr də, məsumluq yağan bir cüt qara gözü görəndə qolları sustalır, ürəyi sızıldayır: "Yox, yox, bacarmaram!" – deyə qışqırır, gecəyarı öz səsinə yuxudan oyanırdı.

***

Tərgülün yarası tam yaxşılaşanda Mişellə Luiza Qırmızı Xaç Komitəsinin Fransadakı nümayəndəliyinə məlumat verdilər. Komitədə çalışan Jan Mişelin yaxın dostu idi. O, Azərbaycandakı Qırmızı Aypara Cəmiyyəti ilə əlaqə yaradaraq Tərgülün sənədlərinin qaydaya salınması üçün xeyli çalışdı. Sənədlər hazır olanda Luizanın da, Mişelin də üzündə məmnun ifadə göründü: heç olmasa, bir nəfəri xilas edə bilmişdilər. Tərgül isə sevinmirdi, ona edilən əmanəti qoruya bilmədiyi üçün ürəyindən qara qanlar axırdı. "O torpağa necə ayaq basacaqsan, insanların üzünə necə baxacaqsan? Hər nəfəs aldığında cəsədini belə görmədiyin itkin körpənin xəyalını necə unudacaqsan?"- sualları qəlbini didir, yuxusunu ərşə çəkirdi.

Fransadan ayrıldığı gün qəbul etdiyi qərar qəti idi: körpədən xəbər bilməyincə geri dönməyəcəkdi.

Mişel Moskvada yaşayan tanışı moldovan Mikola ilə də əlaqə yaratmışdı: hava limanında Tərgülü o qarşılayacaq, lazımi yardım edəcəkdi.

Təyyarə havaya qalxanda Tərgül son dəfə pəncərədən ətrafa tamaşa etdi. Bir azdan torpaq görünmədi, mavi boşluq təyyarəni ağuşuna aldı. Tərgülə elə gəldi ki, təyyarə hərəkət etmir, bir yerdə havadan asılı qalıb, adicə bir meh onu ləngərlədə bilər. Salondakılar da danışmırdılar. Sərnişinlərə xidmət edən xüsusi geyimli bələdçi qızlar heç nə demədən kiçik podnoslarda gətirdikləri qəlyanaltını hər kəsin qarşısına qoyub xəfifcə gülümsəyir, astadan nə istədiklərini soruşurdular. Bu ucaboylu sarışın rus qızları Tərgülə Luizanı xatırlatdı: o da asta danışar, gözlərindən mehribanlq yağar, üzündən təbəssüm əskik olmazdı.

Tərgül qarşısına qoyulanlara əl vurmadı, başını oturacağa dayayıb gözlərini yumdu. Nə alnındakı çapıq, nə solğun bənizi, nə də xeyli sınıxması gözəlliyini ört-basdır edə bilmir, üzünə zillənən baxışlar onu xeyli narahat edirdi. Birdən Tərgülün qulağına tanış ağlamaq səsi dəydi. Səs lap yaxınlıqdan, ondan bir neçə metr kənardan gəlirdi. Uşaq ağlayır, anası nə qədər ovundurmağa çalışırdısa da, səsini kəsmirdi. Tərgül hövülləndi: ağ önlüklü qadının qucağında ovunmayan körpəsi gözlərinin qarşısında canlandı. Elə zənn etdi ki, ağlayan ciyərparasıdır, acıb, yemək istəyir. O ayağa qalxmaq, körpəni anasından alıb ovundurmaq niyyətinə düşsə də, bacarmadı, hərəkətsiz halda kresloya çökdü...

Tərgül gözünü açanda özünü xüsusi otaqda gördü. Əvvəl bir şey anlamadı, amma tibb bacısının əlindəki iynəni görəndə fikri aydınlaşdı, qalxıb oturmaq istədi, tibb bacısı mane oldu. Bəlli oldu ki, təzyiqi çox aşağıdır, bir qədər uzanmalıdır. Bir-birinin

ardınca vurulan iynələr, içirilən kofe vəziyyəti normallaşdırdı. İndi o, yerinə qayıda bilərdi. Salona qayıdanda üzünə zillənən baxışlardan Tərgül sıxıldığını hiss etdi. Yenə də salonda sakitlik idi: uşaq da susmuşdu. Amma bu sakitliyin içində hələ də onun qulaqlarını dələn bir səs vardı: körpəsinin səsi. Bu səs onu bütün ömrü boyu təqib edəcək, əzab verəcəkdi, ondan qurtarmaq mümkün olmayacaqdı. Əslində Tərgül özü də bu səsdən qurtarmağa çalışmır, bəlkə də, yaşam səbəbi bilirdi.

Bələdçi qızın xəbərdarlığı ilə hamı kəmərləri bağladı. Çox çəkmədən Tərgülün vücudunu qəribə bir hissiyyat bürüdü, elə zənn etdi ki, təyyarə aşağı endikcə ayaqları döşəmədən üzülür. Ona görə də özündən asılı olmadan ayaqlarını döşəməyə daha bərk sıxdı. Atasına qısılmış on-onbir yaşlı qızın gözlərindəki qorxunu görəndə isə bir neçə ay əvvəl Xocalıdan vahimə içində qaçan körpələri xatırladı. Birdən-birə gurultu, uğultu, atəş səsləri bir-birinə qarışdı, hər tərəf qırmızı rəngə büründü. Tərgül gözlərini yumdu, qırmızı qardan qurtarmağa çalışdı, amma bütün səylərinin boşa çıxdığını hiss etdi.

Təyyarənin təkərləri yerə toxunanda yaranan yüngül təkan Tərgülü silkələdi, ətrafına boylandı. Sərnişinlər tələsmədən təyyarənin dayanmasını gözləyirdilər. Atasının qoynuna sığınan qız da sakitləşmişdi, gözləri gülürdü. Əşyalarını yığışdırıb hazır vəziyyətdə dayananlar qapı açılan kimi pilləkənlərə tərəf yönəldilər. Tərgül də ayağa qalxdı, qapıya tərəf getmək istəyəndə qucağındakı körpəni bərk-bərk sinəsinə basan sarışın gənc qadını gördü. Qəribə idi ki, hava isti olsa da, qadın uşağın üzünü örtmüşdü. Nəfəsi darıxdığı üçünmü, ya nədənsə uşaq vurnuxdu, üzündəki örpəyi dartışdırdı, amma qadın imkan vermədi. O, Tərgülün:

- Uşağa isti olar, üzünü niyə örtürsünüz? – sözlərini də eşitməzliyə vurdu.

Uşaq bir də vurnuxanda isə özünü saxlaya bilmədi, əlini uzadıb örpəyi götürmək istədi. Qadın sərt bir şəkildə əlindəki balaca çanta ilə onu sinəsindən itələdi, əsəbi halda:

- O mənim oğlumdur, heç kimə toxunmaq üçün icazə vermərəm, - dedi.

Tərgül duruxdu, boğazına tıxanan qəhəri zorla uddu, kövrək səslə rus dilində:

- Bağışlayın,- dedi və pilləkənə tərəf yönəldi. Körpəsi gözlərinin qarşısında canlandı. O da bu uşaq boydadır, artıq bələkdən çıxan vaxtıdır. Kövrəlsə də, gözlərini tez-tez qırparaq yaşın yanaqlarından süzülməsinə mane oldu, pilləkəndən enə-enə geriyə boylandı: qadın örtüyü qaldırıb diqqətlə uşağın üzünə baxırdı.

Tərgül pillələrdən enib axına qoşuldu, onu qarşılamağa gələn Mikola çıxış qapısında dayanmışdı, alnındakı çapığı görən kimi Tərgülə yaxınlaşıb özünü təqdim etdi. Mikola tək deyildi, xurmayı saçlı həyat yoldaşı Sofiya da onunla gəlmişdi. Sofiya ilk baxışdan Tərgülün ürəyinə yatdı.

***

İyun ayının əvvəli olsa da, hava həm sakit, həm də sərin idi. Moskva çayının üstündən keçəndə üzünə dəyən meh yenə Tərgülü ötənlərə apardı. Taksi Moskvanın geniş küçələri ilə şütüdükcə gah Mikola, gah da Sofiya bəzi tikililər haqqında məlumat verərək onu söhbətə cəlb etməyə çalışdılar. Mənzilbaşına çatanda Mikola sürücünün pulunu verib qapını açdı. Əvvəl Sofiya, sonra isə Tərgül maşından endi. Birlikdə liftlə yeddinci mərtəbəyə qalxdılar. Üçotaqlı mənzil çox səliqəli və işıqlı idi. Yüngül

qəlyanaltıdan sonra söhbətə başladılar. Tərgülün həyat hekayəsi ilə tanış olan Mikola onu kövrəldəcək söhbətlərə imkan yaratmadı, amma baxışlarındakı ağır yük gənc qadının qəlbindəkilərdən xəbər verirdi. Mətləbə dəxli olmayan söhbətlər birdən-birə Tərgülü yordu və qəfildən dedi:

- Mən Azərbaycana qayıtmayacağam, - ev sahiblərinin təəccübünü görəndə isə sözünə qətiyyətlə davam etdi, - körpəmi tapmadan oraya qayıda bilmərəm.

Tərgülün gözlərində parlayan yaş yanaqları ilə üzüaşağı yuvarlandı. Sofiyanın da gözləri doldu, amma təsəlli vermək üçün deyə biləcəyi söz yox idi.  Satıcı tələb olunan bir universamda Tərgül işə düzəldi. İlk günlər Mikolagildə qalsa da, onların təkidinə baxmayaraq, həmin binada yaşayan bir qoca rus qadının evinə köçdü. Qadın çox deyingən idi, amma Tərgülə tez alışdı, hətta bəzən darıxanda onu görmək üçün universama da getdi...

Artıq bir aya yaxın idi ki, Tərgül Moskvada idi, amma körpədən hələ də bir xəbər yox idi. Arabir körpənin xəyalı onu ətraf aləmdən alır, deyilənləri eşitmir, yalnız kimsə qoluna toxunanda iş başında olduğunu anlayıb üzrxahlıq edir, müştərilərin istəklərini yerinə yetirirdi. Universama müxtəlif xalqların nümayəndələri gəlirdilər, amma işlədiyi müddət ərzində bir nəfər də azərbaycanlı dükana girməmişdi.

Birdən Tərgülə elə gəldi ki, kimsə adını çəkdi. O, ətrafa boylandı, içəridə adam çox olduğu üçün çağıranın kim olduğunu görmədi. Elə zənn etdi ki, qulaqları səsdədir, yenə öz işi ilə məşğulkən bir əl ehmalca qolundan tutdu. Çiyni üstündən boylananda diksindi, yuxulu adamlar kimi gözlərini yumub-açdı, yanında dayanan gənc qıza bir də diqqətlə baxdı. Yox, yanılmamışdı: çağıran o idi - vaxtilə bütün məktəb oğlanlarının kəlmə

kəsmək üçün fürsət axtardığı Qayana qarşısında dayanmışdı. Heç dəyişməmişdi, qara parlaq gözləri, çoxlarının həsrətində olduğu dalğalı saçları yenə də çox cazibədar idi. Tərgül bir anlıq nə edəcəyini kəsdirmədi: sevinsinmi, ya ağlasınmı? Birdən-birə ürəyindən Qayananı qucaqlayıb öpmək arzusu keçdi, elə zənn etdi ki, Şuşanın kiçik bir parçasına qovuşub. Amma qolları qalxmadı. Arxa tərəfdə donuq gözlərini üzünə zilləyərək istehza ilə gülümsəyən qadını görəndə İvetanı xatırladı. Onun da baxışları belə idi. Qadın Qayananı geri çəkdi, ermənicə:

- Sən hələ də özünə gəlməmisən? Axı dəfələrlə tapşırmışam ki, bu soysuzlardan uzaq ol, - deyə qızına çəmkirdi.

Qayana sərt şəkildə dilləndi:

- Ana, deyəsən, damarlarımda axan qanı unutmusan. Əvvəllər baş verənlərin fərqində deyildim, amma indi çox şey dəyişib. Kimin kim olduğunu yaxşı bilirəm.

Eşitdikləri Nayruhini duruxdurdu:

- Gedək, səninlə evdə danışacağam, - deyib qızının qolundan çəkə-çəkə aparmağa cəhd etdi. Qalmaqal yaratmaq istəməyən Qayana Tərgülə xoş bir nəzər salıb:

- Yenə gələcəyəm, - dedi və anasının arxasınca yönəldi.

Tərgül hələ də özünə gəlməmişdi. Qayananın birdən-birə burada peyda olmasını bir xeyli anlaya bilmədi. Axı anası Şuşanı tərk edəndə Qayana onunla getməmişdi, atası ilə qalmışdı. Əgər Qayana buradadırsa, atası haradadır?

Damarlarında türk qanı axsa da, erməni qadının südünü əmən bu qıza güvənmək olardımı? Cavabsız suallardan bezdi Tərgül. İşdən çıxan kimi Mikolagilə yollandı. Sofiya qollarını geniş açaraq onu gülər üzlə qarşıladı. Bir xeyli söhbətdən sonra Mikola da gəlib çıxdı. Onun gətirdiyi xəbər ümidverici olsa da,

həm təpər, həm dözüm, həm ağıl, həm də cəsarət tələb edirdi. Mişelin verdiyi məlumata görə körpə Moskvaya gətirilmişdi. Amma bu boyda şəhərdə dilsiz-ağızsız bir uşağı tapmaq asan deyildi. Tərgül ümidsizləşdi, əhvalı dəyişdi. Sofiya ona təsəlli vermək istəsə də, bacarmadı. Özü ana olmasa da, qarşısındakı qadının iztirabları qəlbini sıxdı, ümidlə ərinə baxdı. Mikola da başını aşağı salmışdı, fikirli idi, lakin araya çökən sakitliyi yenə də o pozdu:

- Biz tez-tez köçkünlərlə görüşürük, jurnalistlərin arasında müxtəlif millətlərin nümayəndələri var. Bəlkə, nəsə öyrənə bildim. Uşağın şəkli varmı?

Tərgül başını buladı.

- Mənə uşağı təsvir edə bilərsinizmi?

- Əlbəttə, - Tərgül dərhal cavab verdi, - yeddiaylıqdır, ağbənizdir, çənəsinin sol tərəfində, sol çiynində və kürəyində qəhvəyi xal var.

Mikola yenə susdu. Özlüyündə isə: "Nə çox çənəsində, çiynində, kürəyində qəhvəyi xal olan ağbəniz uşaq", - düşündü.

Tərgül onun sözlərinin təsəlli üçün deyildiyini qəbul etsə də, bir işıq ucunun tapılacağına inandı. Bu inamla da qaldığı evə döndü. Ev sahibəsi bənizi solğun Tərgülü xəstə hesab edib qarşısına mürəbbəli çay qoydu. Qarının bu qayğıkeşliyi ona bacısı Qızbəsi xatırlatdı: bacısı da eynən belə edər, üstəlik küpə salar, ya da keçi piyi ilə kürəyini möhkəm ovuşdurardı. Tərgül özünü nə qədər tox tutmaq istəsə də, gözləri yaşla doldu, qadının boynunu qucaqlayıb:

- Nadya xala, mən xəstə deyiləm, - dedi və Moskvaya gələndən bəri ilk dəfə hönkürtü ilə açıq-aşkar ağladı.

Onun hönkürtüsü Nadyanı da kövrəltdi. Uzun illərdən bəri heç kimə yovuşmayan, hamını acılayan bu qadın nədənsə elə ilk

gündən Tərgülü sevdi. İndi də bir ana kimi onun saçını tumarladı, alnındakı dərin çapığı öpdü. Bir ay müddətində ilk dəfə kirəkeşinin taleyi ilə maraqlandı. Ağlasığmaz faciələri dinlədikcə gah göz yaşlarına boğuldu, gah da hiddətləndi, insan dəllallarının vəhşiliyi ilə barışmadı:

- Bunlar faşistlərdən də qəddardırlar. Bu hökumət hara baxır, niyə cinayətkarlar cəzalanmır? Niyə bütün dünyanı erməni vəhşiliyindən xəbərdar etmirsiniz?

- Nadya xala, bizi eşidən yoxdur, haqlıykən haqsıza, yurdsuz-yuvasız didərginlərə çevrilmişik, - deyib Tərgül göz yaşlarını sildi, - yox, daha ağlamayacağam, döyüşəcəyəm, körpəm üçün, yurdum üçün vuruşacağam.

Onun səsində bir qətiyyət, qələbəsinə inam vardı.

***

Günlər adi qayda ilə ötsə də, ictimai vəziyyət Moskvada da sabit deyildi. Müxtəlif siyasi qüvvələr arasındakı çəkişmələr cəmiyyətə də sirayət etmişdi. Tez-tez nümayişlər, etiraz aksiyaları həyata keçirilir, hüquqlarını tələb edən qeyri millətlərin nümayəndələri də Moskvadakı səfirliklərin vasitəsilə səslərini dünya ictimaiyyətinə çatdırmağa çalışırdılar. Belə vaxtlarda meydanlarda adam əlindən tərpənmək olmurdu. Qələbəliyi sevməyən Nadya qarının bu etirazlara münasibəti birmənalı şəkildə yaxşı deyildi. Ona görə də tez-tez dodaqaltı deyinir, sakitliyin pozulmasının səbəbkarı kimi Boris Yeltsini və tərəfdarlarını lənətləyirdi. O nə qədər deyinsə də, Tərgül beynində dolaşan fikirlərin qırılacağından qorxurmuş kimi susur, dillənmirdi.

Üstündən bir həftə keçməsinə baxmayaraq, Qayana da gözə dəymirdi. Arabir yadına düşsə də, Tərgül Nayruhinin qara şüşəni

andıran baxışlarını xatırlayır, bacardıqca onlardan uzaq olmağa çalışırdı. Digər tərəfdən, daxili bir hiss onu rahat buraxmır: "Balana qovuşmaq üçün Qayana ilə görüşməlisən", - deyirdi...

Bu gün nədənsə universama gələnlərin sayı o qədər də çox deyildi. Satıcı qızlar müştəriləri yola salıb olub-keçənlərdən danışmağa vaxt da tapdılar. Tərgül, adəti üzrə, yenə tək dayanmışdı, qızların söhbətini, demək olar ki, eşitmir, ondan danışıldığını duymurdu: qulaqlarında körpəsinin səsi cingildəyir, ona çala bilmədiyi laylalar göz yaşı kimi qəlbinə axırdı. Elə bu vaxt içəridəki səs-küy birdən kəsildi, hər tərəfi sakitlik bürüdü. İndiyə qədər heç yerdə eşitmədikləri həzin bir nəğmə bütün salona yayıldı: bayaqdan Tərgülə baxıb zarafatla atmacalar atan sarışın rus qızları elə bil sehrli bir aləmə düşdülər. Bir andaca gülüşlər dodaqlarda dondu, mavi, qonur gözlər heyrətdən böyüdü, hamı bu əsrarəngiz səsin əsirinə çevrildi. Oxuyurdu Tərgül... Bütün xoşbəxt anlarının sevinci, ağır günlərinin acıları bu nəğmədə qovuşmuşdu və Tərgül oxuya-oxuya yenidən o anları yaşayırdı: üzündə gah sevinc, gah da ölçüyəgəlməz əzabların kölgələri rəqs edirdi. O, üzü pəncərəyə dayanmışdı, gözləri yumulu idi, amma sevdiyi başı qarlı dağlar, laləli yamacalar, isti yuvası qonağı idi... Birdən-birə hönkürdü Tərgül: qızlar onun başına yığışdılar, bəzilərinin gözləri yaşarmış, bəzilərininsə üzünə çaşqınlıq ifadəsi qonmuşdu. Adamayovuşmaz zənn etdikləri bu gənc qadındakı sehr hamını ovsunlamışdı. Həyat hekayəsini bilmədikləri üçün heç kim Tərgülün sıxıntısından xəbərdar deyildi, amma bu nəğmə onlara çox şey anlatdı... Ondan heç nə soruşmadılar: nə alnındakı dərin çapığın (ilk vaxtlar bu çapıq bütün işçilərin diqqətini cəlb etsə də, sonralar buna adət etdilər), nə də aramsız süzülən göz yaşının nədən qaynaqlandığını öyrənməyə ehtiyac

qaldı. Ovundurmağa, təsəlli verməyə də heç kim cürət etmədi və bir aydan bəri dilə gətirə bilmədiyi acılarına doyunca ağladı Tərgül... Nəğməsi bitəndə onun göz yaşı da dayandı, yalnız indi ətrafdakıların ona zillənən baxışlarını görüb başını aşağı saldı, hissə qapılıb başqalarını narahat etdiyi üçün utandı. Adını eşidəndə başını qaldırdı: Qayana idi, o da ağlayırdı, amma bu ağlar gözlərdə yenə qəribə bir ifadə vardı. Bu dəfə o, tək gəlmişdi...

Tərgül işdən çıxanda yaxınlıqdakı parka yollandılar. Axşamüstü olduğu üçün hava sərinləşmişdi. Xeyli susdular: söhbətə başlamaq hər ikisi üçün çətin idi. Nəhayət, Qayana sükutu pozdu:

- Kiminlə qalırsan?

Tərgül hüznlə cavab verdi:

- Nadya xala ilə.

Qayana çaşqınlıqla:

- O kimdir? Axı sizin ruslarla bir qohumluğunuz yoxdur? Bəs Adil, oğlun? – soruşanda Tərgülün gözləri yol çəkdi, kədərlə:

– Adili ermənilər öldürdü, - dedi və gözlərini tez-tez qırparaq ağlamamağa çalışdı, - oğlumdansa xəbərim yoxdur.

Qayana dillənmədi, dərindən köks ötürdü və araya növbəti üzücü bir sükut çökdü. Bu dəfə sükutu Tərgül pozdu:

- Bəs sən buraya necə gəlib çıxıbsan?

Deyəsən, cavab vermək Qayana üçün də asan deyildi: elə bil kimdənsə ehtiyat edirdi. O, ətrafa boylandı, ətrafdakıların onlara əhəmiyyət vermədiyinə arxayın olandan sonra sözə başladı:

- Bəlkə də, mənə inanmayacaqsan və buna haqqın da var: erməni qadının südündən mayalanmışam (bu sözləri deyərkən Qayana dişlərini bir-birinə sıxdı), günahım da budur. Hansı tərəfə

dönsəm, anamdır: məni dünyaya gətirib, böyüdüb. Ona qarşı çıxa bilmərəm, amma...

Qayana yenə susdu. Tərgül danışmağın onun üçün ağır olduğunu başa düşüb heç nə demədi, baxışlarını bir nöqtəyə zillədi. Qayana gözlərini qurulamaq üçün cib yaylığını çıxartdı, asta-asta sözünə davam etdi:

– Amma mən heç vaxt erməniləri sevmədim... Anam nə qədər qadağalar qoysa da, erməni uşaqlarına yovuşa bilmədim, dostlarım özümüzkülər oldu. Dəfələrlə cəzalandım, bəzən atam evə gələnə qədər ac da saxlandım... Anamı mənə sevdirən atamın ona sonsuz məhəbbəti idi. Atamı isə çox, lap çox sevirdim. Həyatımı onsuz təəsəvvür etmirdim...

Qayana köksünü ötürdü, bir qədər susandan sonra söhbətinə davam etdi:

- Atamı öldürdülər, Tərgül...

Tərgül təəccüblə ona baxdı.

- Hə, öldürdülər! Bilirsənmi kim?- Tərgüldən cavab gözləmədən sözünə davam etdi, - Xoren öldürdü, anamın dayısı oğlu Xoren...

Qayana yenə susdu. Tərgül hiss etdi ki, o danışdıqca həyatının ən müdhiş səhifələrini təkrarən yaşayır. Yenidən Qayananın yorğun səsi eşidildi:

- Bir gecə qapımız döyüldü, atam gələnin kim olduğunu soruşdu. Anamdan xəbər gətirdiyini söylədi. Xorendən xoşu gəlməsə də, anama görə qapını açdı. O, tək deyildi, yanında bir nəfər də vardı. Mən könülsüz şəkildə çay hazırladım. Ərim evdə deyildi: mühüm işlə bağlı qərargaha çağırılmışdı, oğlumsa yatırdı, - Qayana yenə yaylığının ucu ilə gözlərini quruladı, - Şuşanın nə vaxtsa təslim olacağı heç ağlımıza gəlmirdi. Xoren atamı dilə

tutaraq ərimin vasitəsilə məxfi sənədləri ələ keçirməyə çalışdı. Atam qəzəblə qapını göstərəndə o, həyasızcasına hırıldadı... Atam yerdə qıvrılırdı, son anlarını yaşayırdı, amma mən ona kömək edə bilmirdim. Xorenlə gələn adam məni qucaqlayaraq ağzımı bərk-bərk tutmuşdu. Növbə mənim idi...

Xoren ağzımı tutan adama işarə edib sözə başladı:

- Çığır-bağır salma, fəxr elə ki, Nayruhinin qızısan, onun südü ilə böyümüsən. Həm də ağlamağa dəyməz, düşmənimizin biri azaldı. Bilirəm ki, sən bizə arxa çevirməzsən, ərini razı sala bilərsən.

Gözüm saata sataşdı: Arifin gəlməyinə lap az qalırdı, geriyə isə yol yox idi, sözümü deməli, ailəmi qorumalı idim. Özümdən asılı olmadan səhvən: "Bacarmaram!" - sözünü işlətdim. Xoren oğlumun yatağına yaxınlaşdı, əlindəki tapançanı uşağa tuşladı. Gördüklərimdən dəhşətə gəlmişdim, dilim tutulmuşdu; nə bir söz deyə bilirdim, nə də hərəkət etməyə taqətim vardı. Xoren tapançasını cibinə qoyanda ümidləndim, amma o...

Qayana əlləri ilə üzünü tutdu, onun bütün vücudu əsirdi. Tərgül onu sakitləşdirməyə cəhd eləmədi, çünki yaxınlarının faciəsini yaşamış insanlara təsəlli verməyin mümkün olmadığını gözəl bilirdi. Bir qədər sakitləşəndən sonra Qayana dili dolaşa-dolaşa sözünə davam etdi:

- Xoren uşağın başının altındakı yastığı götürəndə dalağım sancdı, yalvarmağa başladım. O isə mənə rişxəndlə gülərək:

- Bu türk küçüyündən ötrümü yalvarırsan?- dedi və yastığı uşağın ağzına basdı. Sonra nə baş verdiyindən xəbərim olmayıb.

Ayılanda bütün əzalarımda gizilti duydum, başım bərk ağrıyırdı. Elə bildim ki, məni də vurublar, yaralıyam, amma paltarımı cırılmış görəndə dünya başıma fırlandı... Birtəhər ayağa

qalxdım, uşaq yataqda yox idi, cəsədini aparmışdılar... Səndələyə-səndələyə qapıya yaxınlaşanda ayağım nəyəsə ilişdi: bu, Arifin cəsədi idi...

Qayana təngnəfəs idi: danışdıqca cürbəcür hallara düşür, rəngi gah ağarır, gah boğulurdu:

- Şuşanı bizimkilər iki gündən sonra tərk etdilər, mənsə qaldım, ölmək üçünmü, qisas üçünmü, bilmirəm...

Mayın 10-da qapımız açıldı. Bilirdim ki, ermənilərdir, kəlmeyi-şəhadətimi dedim, ölümü sevərək qəbul etməyə hazırlaşsam da, qismət olmadı: gələn anam idi.

Yerimdən tərpənmədim, laqeyd-laqeyd bir nöqtəyə baxdım. Gözümdə heç nəyin qiyməti qalmamışdı. O anda məni öldürmək üçün tətiyin çəkilməsini arzulayırdım: tətiyi çəkənin kimliyi də önəmli deyildi. Anam tərpənmədiyimi görüb mənə yaxınlaşdı, çənəmdən tutub başımı yuxarı qaldırdı: gözlərində yaş parlayırdı...

Anamı heç vaxt ağlayan görməmişdim. O, həmişə acıdil, təkəbbürlü, daşürəkli bir adam kimi yadımda qalmışdı. Elə zənn edirdim ki, bu gözəl qadın heç mənim anam deyil, onun sinəsində döyünən ürək yox, bir metal parçasıdır. Arabir zahirən anama bənzədiyim üçün özümdən də zəhləm gedirdi, hətta bəzən Allaha yalvarır, yuxudan ayılanda üz cizgilərimi dəyişik görmək istəyirdim... İndi isə o ağlayırdı... Anam boynumu qucaqladı, ağlım kəsəndən ilk dəfə alnımdan öpdü...

Mən yenə tərpənmədim, onu sinəsindən itələmək, özümdən uzaqlaşdırmaq istədim, amma bacarmadım, taqətsiz idim. Bütün itirdiklərimin səbəbkarları ilə eyni millətdən olan qadını necə qəbul edə bilərdim? Gərginlikdən içimdə qaynayan qəzəbin necə püskürdüyündən də xəbərim olmadı: hiss etdim ki, var gücümlə

qışqırıram, nəsə deyirəm, amma nə dediyimi anlamırdım... Ayılanda başımı anamın dizləri üstündə gördüm:saçlarımı sığallayır, məni oxşaya-oxşaya atamın xoşladığı mahnını oxuyurdu. Bir anlıq elə zənn etdim ki, əvvəlki xoşbəxt günlərimizdir... Anam oxuduqca ağlayırdı, səsində vaxtından əvvəl dəfn etdiyi məhəbbətinin, dağıtdığı yuvasının qəhəri nalə çəkirdi... Yavaş-yavaş özümə gəldim, başımı onun dizlərindən qaldırdım, ağlamadım, sakitcə dünyamızı qaraldanlarla bir cərgədə addımlayan bu qadını seyr etdim...

Nəğməni bitirəndən sonra anam atamın məzarını soruşdu. Əvvəl göstərmək istəmədim, amma yalvarış dolu baxışlarını görəndə ürəyim dözmədi, onunla birlikdə qəbiristanlığa yollandım. Təzə qəbirlər çox idi, aralarından keçərək qoşa qəbirə çatdıq. Əvvəlcə körpə uşaq məzarını ziyarət etdim, anam təəccübləndi, sorğu ilə üzümə baxdı, açıqlama istədiyini anladım. Məzarı oxşadıqca heç kimdən eşitmədiyim laylalar dilimi ovladı. Anam elə bil heykələ dönmüşdü, bir kəlmə də dinib-danışmır, mənim cavabımı gözləyirdi. Birtəhər özümü ələ aldım:

- Bu mənim oğlumun məzarıdır, cəsədini nə vaxt tapsam, burada dəfn edəcəyəm, - dedim.

Anamın baxışlarında nigarançılıq hiss etdim, havalandığımı düşünürdü. Ona əhəmiyyət vermədim: atamın qəbrini ziyarət etdikdən sonra Arifin məzarının üstündə dayandım, küskün, qəmli halda qəbirlərə xeyli baxdım. Orada olduğum müddətdə anam dillənmədi: bildim ki, tək qalmaq, ürəyindən keçənləri söyləmək istəyir. Ağır addımlarla uzaqlaşdım, bir kənarda dayandım... Əsən sərin meh istəmədiyim halda anamın astadan dediyi bütün sözləri mənə çatdırdı. Mən anamı tanıya bilmirdim, o ağlayır, atamdan dönə-dönə üzr istəyir, bütün ailəsini, xoşbəxtliyini

qurban verdiyinə isə təəssüflənmirdi. Məni bütün zərbələrdən qoruyacağına söz versə də, Ermənistan naminə mübarizədən əl çəkməyəcəyini xüsusi vurğulayırdı.

Anam atamın da, Arifin də məzarının üstünü düzəltdirdi. Əsir düşmüş bir mollanı evimizə gətirdib hər cümə axşamı “Yasin” surəsini oxutdu (o bizim adətləri gözəl bilir).

Qırx günün tamamında isə ehsan bişirdi. Ehsanı bilirsənmi kimlər yedi?... Şuşada əsir saxlanan bizimkilər...

Qayana “bizimkilər” sözünü ürək ağrısı ilə dilinə gətirdi və bu, Tərgülün diqqətindən yayınmadı: gözünün qabağına hər gün işgəncə görən, öz evində dustağa çevrilən, aclıqla imtahana çəkilən soydaşları gəldi,dərindən köks ötürdü.

- Hə, Tərgül, o vaxtdan buradayam, üzümə baxanlar məni ən xoşbəxt adam sayır, mənsə xoşbəxt deyiləm, çünki bütün xoşbəxtliyim çalınıb... Anam qaldığımız sığınacağa erməni gətirmir, mənsə, - Qayana dişlərini qıcadı, - məqam axtarıram...

Əgər öz başına gələnlər olmasaydı, Tərgül elə zənn edərdi ki, hansısa filmin məzmununu dinləyir, amma bu heç bir yazıçı tərəfindən qələmə alınmayan, aktyor seçiminə, rejissor göstərişinə ehtiyac olmadan “oynanılan”, yaddaşlara çəkilən həyat həqiqəti idi. Gözləri məchulluğa zillənən Tərgülün deməyə sözü yox idi: qarşısında özü kimi bala dağı, itirdiyi doğmalarının, dağılmış yuvasının acısını yaşayan bir ana dayanmışdı. “Dərdli dərdi tez anlar”, - deyənlər, doğrudan da , müdrik olublar. O, əlini Qayananın çiyninə qoydu: qəzəbdən titrəyən qadının bədəni soyumuşdu. Tərgül onun soyumuş əllərini ovxaladıqca barmaqlarının rəngi dəyişdi, bədəninə hərarət gəldi. O öz həyat hekayəsindən heç nə danışmadı. Halı tez-tez dəyişən qadını əlavə acılarla yükləmək, yenidən sarsıtmaq istəmədi. Qayananı yaxın-

lıqdakı kafeyə dəvət etdi:

- Bəlkə, bir fincan kofe içək, sənin də vəziyyətin düzələr, bir qədər toxtayarsan.

Qayana etiraz etmədi, birlikdə kafeyə girdilər, pəncərə ağzındakı boş stolun arxasına keçdilər. Səliqəli geyimli rus qızının gətirdiyi kofeni qurtum-qurtum içdilər. Acı olduğu üçün Tərgül arabir üz-gözünü turşutsa da, kofeni sonuna qədər içdi. Qayananın da rəngi üstünə gəlmişdi, qolundakı saata gözü sataşanda o, cəld ayağa durdu:

- Anam evə gəlməmiş qayıtmalıyam, yoxsa bir də heç vaxt məni evdə tək qalmağa qoymaz. Mən imkan tapan kimi yenə gələcəyəm. Deyəsən, talelərimiz bizi daha çox yaxınlaşdıracaq.

Qayana getdi, amma dünya boyda ağrı-acı ilə Tərgülü baş-başa qoydu. O, yenidən parka qayıtdı, boş skamyalardan birində oturub əllərini çənəsinə dayadı, beynində qarışan fikirləri çözməyə çətinlik çəkdi, lakin qəlbində rahatlıq duydu: tezliklə bir ipucu tapacağına inandı. Havanın qaraldığını görüb yerindən qalxdı, asta-asta yoluna davam etdi. Qapını açan Nadya xala bu gün nədənsə xeyli nəşəli görünürdü. Stolun üstündəki dəm-dəsgahı görəndə Tərgül təəccüblənməsə də, tutuldu, öz-özünə: “Yəqin ki, Nadya xalanın doğum günüdür, mənsə bundan heç xəbər tutmamışam”, - dedi. Nadya xala onu stolun baş tərəfində əyləşdirdi. Üstü şamlarla bəzədilmiş tortu qarşısında stolun üstünə qoydu. Tərgül qırmızı rənglə yazılmış “22” rəqəmini görəndə duruxdu, gah torta, gah da yaşlı qadına baxdı.

- Səni təbrik edirəm, qızım. Axı bu gün sənin doğum günündür!

Tərgül qulaqlarına inanmadı, döyükdü:

- Siz bunu necə bildiniz?

- Çox asan. Mikola ilə Sofiya gəlmişdilər, tortu da, çiçəkləri də onlar gətiriblər.

- Bəs nədən gözləmədilər?

- Sofiya bir az rahatsız idi, ona görə də gözləyə bilmədilər.

Tərgül hələ də heyrətdə idi: başına gələn faciələr ona hər şeyi, hətta doğum gününü də unutdurmuşdu. Sonuncu dəfə 20 yaşını Şuşada qeyd etmişdilər. O vaxtdan ad günü keçirmək heç yadına da düşməmişdi. Nadya xalanın mavi gözlərindən yağan gülüş elə bil evi nurlandırmışdı. Yanan şamların işığı bu gözlərdə bir-biri ilə bəhsə girib sanki rəqs eləyirdi. Tərgülün səssiz dayanması, üzündə sevinc şölələri əvəzinə qəm kölgəsinin görünməsi Nadya xalaya da sirayət etdi, gözlərindəki gülüşün şölələri öləziyən şama bənzədi. Tərgülün çiyinlərini qucaqladı, saçlarından öpdü:

- Darıxma, qızım, oğlunu tapacaqsan, doğma yurduna da qayıdacaqsan. Bir az da dözümlü ol, özünü hər şeydən məhrum etmə, həyat mübarizədir, əl-qolunu sallayıb oturmaqla qələbə qazanılmaz, mübarizə aparmaq üçün yaşamalısan.

***

Mikola düşüncələrə qərq olmuşdu: axtarışlarının heç bir nəticəsi yox idi. Bəzən yorulur, bu üzücü işdən uzaqlaşmaq istəyir, lakin Tərgülün iztirabları gözü önünə gələndə fikrindən daşınırdı. Köçkün düşərgələrində istədiklərini tapmaq da mümkün deyildi. "Nə edim, körpəni harada axtarım?"- sualı Mikolanı yorduğu bir zamanda Sofiya dilləndi:

- Mikola, uşaq evlərinə baxmısınızmı?

Mikola fikirli halda:

- Yox, heç ağlımıza da gəlməyib, - dedi.

- Onda Tərgüllə uşaq evlərinə gedin.

Mikola bir qədər düşünüb:

- Tərgüllə yox, səninlə gedəcəyəm, həm övladlığa uşaq götürərik, həm də itmiş körpəni axtararıq.

Sofiya gülümsündü:

- Birlikdə getməyimizə bir söz demirəm, amma...

- Nə? – Mikola həyəcanla onun üzünə baxdı, - bəlkə?...

- Hə. Bu gün xəstəxanaya getmişdim, həkim dedi ki, ana olacağam, baş ağrıları, ürək bulanması, halsızlıq da buna görədir.

Mikola həyəcanlandı:

- Bu, dəqiqdirmi? Axı qəzada ilk körpəmizi itirəndə həkim bir daha ana ola bilməyəcəyini söyləmişdi?

Sofiya başı ilə təsdiqlədi, sonra ağlamsınıb:

- O günləri yadıma salma, çox pis oluram, Mikola, - dedi və əlavə etdi, - sabah uşaq evlərinə gedək, imkanımız çatan qədər axtaraq. Tərgül getməsə də, olar. Axı o hər körpə qığıltısında, hər uşaq geyimində oğlunu görür, bunun xəyal olduğunu biləndə isə... Mikola, mənə elə gəlir ki, Allah bizi Tərgülə kömək etdiyimizə görə sevindirdi.

Mikola razılaşdı, rahat nəfəs aldı. Televizoru açıb çoxdan bəri izləməyə vaxt tapmadığı “Baharın on yeddi anı” filmini seyr etməyə başladı.

Səhəri gün Mikola uşaq evlərindən reportaj hazırlamaq üçün redaktora müraciət edəndə arzusu rəğbətlə qarşılandı. Ezamiyyət vərəqini də tezliklə əldə edən Mikola bir jurnalist kimi bütün uşaq evlərinin qapısını açmaq ixtiyarına malik idi.

İlk cəhdlər heç bir nəticə vermədi. Amma Mikolanı sıxan yalnız bu deyildi. Müxtəlif yaş qruplarına bölünmüş uşaqların

simasında bir solğunluq, xiffət, nigarançılıq duyulurdu. Pəncərə qarşısında dayanıb valideyninin gələcəyini ümidlə gözləyən körpələrin gözlərinə baxmaq insandan ürək istəyirdi. Mikolanın suallarına bəzən həvəssiz, bəzənsə inamla verilən cavablarda uşaq təxəyyülünün rəngarəngliyi öz əksini tapırdı. Onlarla danışmaq nə qədər çətin idisə, ayrılmaq ondan da ağır idi..

İkinci iş günündə Mikola son dövrlərdə uşaq evinə gətirilən körpələrlə maraqlandı. Qəribəsi bu idi ki, gətirilən uşaqlar içində nə erməni, nə gürcü, nə də Azərbaycan türklərinin adı yox idi. Mikolanın sorğusuna cavab olaraq uşaq evinin müdiri bir neçə günə yeni körpələrin gətiriləcəyini vurğuladı. Müdirdən böyük ümidlə ayrılan Mikola həftəsonu yenidən oraya getməyi planlaşdırdı.

***

İyul ayının son günləri idi. İş vaxtı bitən kimi Tərgül libasını dəyişib küçəyə çıxdı. Günəş son tellərini şəhərin üzərindən yığırdı. Tərgül əvvəldən qürub çağını sevməzdi, onu son anlarını yaşayan insan ömrünə bəzədər, ürəyi sıxılar, evə tez çatmağa çalışardı. Ona görə də addımlarını yeyinlətdi, şose yolun bağlanmasını gözləməyə səbri çatmadı, addımını səkidən aşağı qoymaq istəyirdi ki, bir əl qolundan möhkəm yapışdı, rus dilində qışqıra-qışqıra dedi:

- Səni tapacağımı sanmırdınmı?

Tərgül çaşqınlıqla qolundan yapışan qadına baxdı, gözləri önündə tanış sima canlansa da, həyəcandan xatırlaya bilmədi, yenidən qadının gözlərinə diqqət yetirdi. Heyrətləndi... Bu həmin acıqlı baxışlar, körpəni üzünü örtərək hamıdan gizlətməyə

çalışan qadının gözləri idi. Tərgülün ürəyi sancdı: bu qadın ondan nə istəyir? Bəlkə... Düşünməyə imkan verməyən qadın onu qolundan çəkə-çəkə yoldan uzaqlaşdırdı, aman vermədən:

- Mənim uşağımı niyə qaçırdın? Haraya aparmısan, yerini de. Yoxsa, milis bölməsində cavab verməli olacaqsan. Bilirsənmi, uşaq oğurluğunun cəzası nədir? – deyə qışqırdı.

Eşitdiyi ittihamları qəbul etməyən Tərgül həyəcandan əsir, qadına heç nə deyə bilmirdi. Lakin anlamadığı bir sual vardı: onu bu qədər adamın içərisində məhz Tərgüldən yapışmağa nə vadar edib?

Tərgül dartındı, qadının əlindən qolunu zorla qurtara bildi, ətrafa yığılanlara əhəmiyyət vermədən var gücü ilə qaçmağa başladı. Qarşıdan gələn milis işçisini görüncə çaşqın halda dayandı. Onu haqlayan qadın eyni sözləri üyüdüb tökdükcə ətrafdakıların hay-küyü artırdı. Ünvanına deyilən sözlər Tərgülü lap çaş-baş salmışdı...

Milis şöbəsində bir saatdan sonra hər şey aydınlaşdı: ruhi xəstə olan qadın övladının ölümünü qəbul etmədiyi üçün şübhələndiyi hər adamı uşaq oğrusu sanırmış. Milis leytenantı narahat etdiyi üçün Tərgüldən üzr istəyib yola saldı, xəstə qadını isə əri gələnə qədər şöbədə saxlamağı qərara aldı.

Düşüncələr yol boyu Tərgülü rahat buraxmadı: təyyarədə ağlayan uşağın səsi qulaqlarında əks-səda verdi. Elə zənn etdi ki, ağlayan öz körpəsidir, lakin sarışın gəlini görəndə yanıldığını düşündü.Bacısının sözlərini xatırladı: “Körpələrin gülüşü də, ağlaması da bir dildə olur, ayırmaq çətindir”. Düşüncələrin əsiri olan Tərgül gözünə düşən güclü işıqdan diksindi, bir an geciksə idi, ləngər vura-vura sürətlə gələn sarı rəngli jiqulinin ovuna çeviriləcəkdi. O, divara söykənib nəfəsini dərdi, maşın çoxdan

uzaqlaşmışdı. Tərgül eyni gündə başına gələnlərin təsadüf olduğuna inanmaq istədi, axı burada onu tanıyan kimdir ki? Bu fikirlər içərisində çarpışarkən, Mikolagilin qapısının ağzında dayandığını fərq etdi. Gec olduğu üçün onların rahatlığını pozmaq istəmədi və qaldığı evə yollandı. İntizarla gözləyən Nadya xala qapını açan kimi məzəmmətə başlamaq istəyirdi, lakin Tərgülü rəngi avazımış görəndə bir addım geri çəkildi, astadan soruşdu:

- Sənə nə olub?

Tərgül bir qədər toxtayandan sonra başına gələnləri danışdı. Maşın əhvalatını eşidəndə Nadya ehtiyatlandı:

- Qızım, bunlar təsadüf ola bilməz. Bəlkə də, bir-biri ilə bağlı olaylardır. Sən sabah hökmən Mikolanı gör, onunla məsləhətləş.

Yay gecəsi o qədər uzun olmasa da, bitmək bilmir, Tərgülün gözlərinə yuxu getmirdi. Təyyarədə eşitdiyi səs qulaqlarını dəlirdi. Hövlündən qalxıb yerin içində oturdu, kamodun üstündəki lampanı yandırdı. Köhnə qəzetləri nəzərdən keçirməyə çalışdı. Erməni soyqırımından bəhs edən yazını görən kimi əlləri əsdi, qəzeti yerinə qoydu, qulaqlarında mərmi gurultusu, güllə vıyıltısı bir-birinə qarışdı. Bu səslərdən qurtarmaq üçün başını yastığın altında gizlətdisə də, mümkün olmadı. Mətbəxdə su şırıltısı eşidiləndə gurultu da, vıyıltı da yoxa çıxdı. (Nadya xalanın adəti idi: gecənin yarısı durub bir stəkan su içər, yenidən yatardı.) İndi güllə vıyıltılarını sərin bulaqların həzin nəğməsi əvəz etmişdi. Bu nəğmə torpağın dərin qatlarından süzüldükcə ana laylası kimi Tərgülü qoynuna aldı, sirli nağıl dünyasına götürdü...

Gözəl bahar günlərindən biri idi: Rövşən sevimli qonaqlarını – Adillə Tərgülü İsa bulağına aparmışdı. Baş-başa verən hündür ağaclardan göyün üzü görünmürdü. Arabir günəşin qızılı

şüaları yarpaqların arasından şütüyərək ağacların altındakı çoxillik xəzəllərə zolaqlı naxışlar vurur, parıltısı göz oxşayan yaşıl yarpaqlarsa günəşə naz satırdı. İsa bulağının suyundan içən Adil:

- Vallah, dünyanın ləzzəti bu sudadır, - deyib ovcunu bir də doldurdu.

Tərgül xəfif mehin təsirilə pıçıldaşan yarpaqlara baxmaqdan doymurdu. Meşədə qəribə bir xışıltı vardı: təbiətin "xor kapellası" "dirijor"un sehrli çubuğunun müşayiəti ilə əsrarəngiz nəğmə oxuyurdu. Nəğmənin səsi qəfildən endi, şaqraq bir cəh-cəh eşidildi. Bu səs meşənin dərinliklərində əks-səda verdi, hər ağacı cana gətirdi. Nəğməyə uyan Tərgül də qeyri-ixtiyari axına qoşuldu, bir də onda ayıldı ki, hər şey: quşlar da, yarpaqlar da susub, oxuyan təkcə özüdür.

"Nədən hər yerin əlvandır, köksün altı sarı, bülbül"- oxuduqca başının üstündə halay vuran bülbüllərin gözəlliyinə heyran oldu. Çiyninə qonan bülbülü tumarlamaq istədi, lakin onun gözlərində parlayan alov Tərgülün əllərini, üzünü qarsaladı, başının üstünü qara tüstü bürüdü, iki əl qüvvətlə boğazından yapışıb onu boğmağa başladı. Qara tüstünün içindən əvvəlcə göy gurultusuna bənzər qəh-qəhə səsi eşidildi, az keçmədən dişlərini ağardan Xorenin əcaib siması göründü. Tərgül boğazını onun əlindən qurtarmaq üçün Adili haraylamaq istədi, səsi çıxmadı, əlini yerdə gəzdirdi, xəzəllərin altından tapdığı daşı Xorenin başına endirdi...

Ayılanda Tərgülün başı bərk ağrıyırdı, yuxunun təsirindən hələ də özünə gəlməmişdi, dili-ağzı qurumuşdu. Qalxıb əl-üzünü yudu, bir neçə qurtum su içdi, bir qədər sakitləşdi. Nadya xala da oyanmışdı, amma heç nə demirdi. Hər səhər Tərgüllə gülər üzlə salamlaşan qarıya, görəsən, nə olmuşdu?

Səhər yeməyi hazır olanda o, Tərgülün üzünə baxdı, baxışlarından sözlü adama oxşadığı bəlli idi: nəhayət, dilindən qıfıl götürüldü:

- Nə gözəl oxuyurdun? Düzdür, sözlərini başa düşmürdüm, amma çox həzin musiqisi vardı, - qarı bir qədər susdu və ağır-ağır əlavə etdi, - sonra kiminləsə dalaşmağa başladın, hətta saatı da yerə çırpdın.

Tərgül başa düşdü ki, qarının rahatlığını pozub, üzrxahlıq elədi, yuxuda xəzəllərin altından tapıb Xorenin başına vurduğu "daş"ın kamodun üstündəki saat olmasından isə xəcalət çəkdi:

- Nadya xala, mən yenisini alaram, - söylədi.

- Narahat olma, o saat davamlıdır, heç nə olmayıb, yenə də işləyir, - deyərək Nadya xala onu arxayınlaşdırdı.

Tərgül işə getmək üçün evdən çıxmaq istəyəndə qapıda Mikola ilə qarşılaşdı. Onun üzündəki məmnun ifadə Tərgülü ürəkləndirdi, yavaşca soruşdu:

- Bir xəbər varmı?

- Hələ ki yox, amma bu gün uşaq evinə yeni körpələr gətiriləcək, onlara baxmalıyıq, bəlkə, sizin oğlunuz da onların arasında olacaq?

Tərgülün ürəyi atlandı, uşaq evinə tez çatmağa tələsdisə də, Mikolanın saat onda gedəcəyini eşidəndə məyus oldu, amma bir söz demədi, iş yerinə yollandı. Xalatını geyinib müştərilərə xidmət etməyə başladı. Müdirin köməkçisi mavi gözlü Mariya ona yaxınlaşdı (Bu gün nədənsə bu mavi gözlərdə təbəssüm yox idi) Tərgülün üzünə baxmadan dedi:

- Sizi Nikita Abramoviç yanına çağırır.

Tərgül heç nə soruşa bilmədi, Mariya xeyli uzaqlaşmışdı. O da Mariyanın arxasınca yollandı, astadan qapını döydü.

- Gəl, - sözünü eşidincə içəri girdi, qapının ağzında dayandı. Qarşısındakı kağıza diqqətlə baxan Nikita Abramoviç nəzərlərini vərəqdən ayırıb Tərgülün üzünə dikdi, ilk dəfə görürmüş kimi onu başdan-ayağa süzdü, gözlərinin içinə zənlə baxdı. Onun baxışlarından narahat olan Tərgül dilə gəldi:

- Məni nə üçün çağırtdırmısınız?

Nikita başını bulaya-bulaya cavab verdi:

- Sizin haqqınızda şikayət var, - o, Tərgülün donuxduğunu görəndə sözünü təkidlə təsdiqlədi, - bəli, bəli, şikayət var. Bir vətəndaş alıcılarla kobud rəftar etdiyinizdən şikayətlənir. Hətta ruhi xəstə olan arvadını təhqir etdiyinizi, itələdiyinizi də yazır.

Bir neçə şahidi də var.

Ruhi xəstə sözlərini eşidən kimi Tərgülə hər şey aydın oldu, astaca soruşdu:

- Ərizəyə baxmaq olarmı?

- Buyurun,- deyib müdir şikayət ərizəsini uzatdı.

Əyri-üyrü xətlə pozuq rus dilində yazılmış yazını oxuyub qurtaranda yazanın imzası Tərgülə çox şeyi anlatdı: deməli, onu burada da rahat buraxmayacaqdılar. O, fikir içərisində üzülərkən Nikita Abramoviç ağ vərəqi uzadaraq:

- Xahiş edirəm, işdən könüllü şəkildə çıxmağınız haqqında ərizə yazın, nə sizin başınız ağrısın, nə də mənim, - dedi.

Tərgül bir söz demədi, daha doğrusu, deməyə ehtiyac duymadı. Vərəqi alıb ərizəni yazdı, stolun üstünə qoyub arxasına baxmadan qapıdan çıxdı. Çantasını yığışdıranda bəzi satıcıların işarə ilə bir-birinə nə isə anlatdığına da əhəmiyyət vermədi, buradan dərhal uzaqlaşmaq qərarına gəldi.

Evə tez qayıtması Nadya xalanı çaş-baş saldığı üçün olanları bir-bir danışdı. Qarı heyrətdənmi, çaşqınlıqdanmı, özü üçün

hazırladığı kofeni əlləri əsə-əsə Tərgülün qabağına qoydu və bir xeyli düşündükdən sonra dilləndi:

- Qızım, sözlərimi qəribliyə salma, öz elinə-obana dön, orada səni, yəqin ki, dostların, qohum- əqrəban çoxdan gözləyirlər.

Tərgül gözlənilmədən sərt şəkildə yerindən qalxdı:

- Siz nə danışırsınız, Nadya xala, mən oğlumu tapmayınca heç yerə getməyəcəyəm. Artıq tam əmunəm ki, körpəm, -Tərgül doluxsundu, - sağdır. Onu qurtarmayınca gecələr yuxu, gündüzlər istirahət mənə haramdır. Ölümüm bahasına olsa belə, balamı xilas etməliyəm. Dünəndən başıma gələnlər yeni mübarizənin ilk halqalarıdır.

***

Mikola saat onda uşaq evinin qabağında olmalı idi. Vaxta bir saat qalsa da, Tərgülün səbri çatmadı, oraya çatmağa tələsdi. Uşaq evinin xarici görünüşü çox səliqəli, həyəti abad və yaşıllıq idi. Darvazaya çatanda Tərgül ürəyinin sıxıldığını hiss etdi: gözlərinin önündə ata-ana sığalına həsrət körpələr canlandı. Yaxınlıqdakı skamyada oturub əlləri ilə başını tutdu, yanında əyləşmək üçün icazə istəyən səsi də duymadı. Çox keçmədən darvazadan qucağında körpə olan bir kişi çıxdı, qadın onu görən kimi ayağa qalxdı, birlikdə yola düşdülər. Qulağına dəyən səsdən Tərgül ayılan kimi oldu, ondan uzaqlaşan qadınla kişi körpədən danışırdılar. O, cəld ayağa qalxıb gedənlərin arxasınca yürümək istədi, lakin cütlük yaxınlıqdakı taksiyə mindi. Tərgül kor-peşman geri qayıdıb gözləməyə başladı. Mikola dəqiqliyi sevən adam olduğu üçün saat onda uşaq evinin həyətinə gəldi: o artıq Tərgülün işdən çıxarıldığını da öyrənmişdi. Elə o an da ağlına gəlmişdi ki, mümkün olsa, Tərgülə burada bir iş də tapsın.

Uşaq evinin müdiri onları gülər üzlə qarşıladı. Üz-gözündən mülayimlik yağan bu qadınla anlaşmaq o qədər də çətin olmadı. Yeni uşaqlarla bağlı suallardan bəlli oldu ki, vəziyyətlə bağlı uşaqların gətirilməsi təxirə salınıb. Mikola müdirin Tərgülə diqqətlə baxdığını görüb fürsətdən istifadə etdi: övlad acısı yaşayan bir ana kimi onun həyat hekayəsini qısaca danışdı. Övladının qoxusunu körpələrdən aldığını söyləyəndə qadının üzünə kədər çökdü, gözlənilmədən:

- Bizim uşaq evində işləmək istəyərsinizmi? Buradakı uşaqların ana nəvazişinə o qədər ehtiyacları var ki, - dedi.

Mikola Tərgülün üzünə baxanda heç vaxt unuda bilməyəcəyi bir an yaşadı: iri badamı gözlərdə gülüşə bələnmiş göz yaşları çağlayır, yanaqlarında naxış salırdı. O başa düşdü ki, övladını tapmaq şansı əldə etdiyi üçün bu gənc qadın indi özünü dünyanın xoşbəxti sanır.

Uşaq evinin müdiri Darya Alekseyevna Tərgülün kirayə evdə qaldığını bilən kimi boş otaqlardan birini onun üçün ayırdı.

Nadya xala Tərgülün evdən köçəcəyini eşidəndə doluxsundu, kədərli səslə:

- Məni unutma, arabir gəl, - dedi.

Tərgül qarının boynunu qucaqladı:

- Gələcəyəm, Nadya xala, oğlumu tapan kimi səni də özümlə Azərbaycana aparacağam.

Yır-yığış elə də uzun çəkmədi, çünki Tərgülün bir-iki dəst paltarından başqa toplayacağı əşyası yox idi. Qapıdan çıxmaq istəyəndə Nadya xala ona dayanmaq işarəsi verdi, mətbəxdən qara rəngli kiçik bir torba gətirdi:

- Bu, yəqin ki, sənindir, - deyərək Tərgülə uzatdı. Tərgül duruxdu, əlini sinəsinə atdı, nə torba, nə də torbanı boynundan

asan nazik qaytan var idi. Təəccüblə soruşdu:

- Bunu haradan tapmısınız?

Qarı gülümsündü:

- Çarpayının altına düşmüşdü, təsadüfən gördüm. Yəqin ki, yuxuda dalaşanda boynundan çəkib qırıbsan. Onun içində nə var? Açmağa əlim gəlmədi.

Tərgül torbanı açdı, içindən Adilin toy hədiyyəsi olan quran ayəsi yazılmış kiçik medalyonu və uşaq qolbağısını çıxartdı, astadan dodaqlarına yapışdırıb öpdü, göz yaşları içərisində dilləndi:

- Bunlar əzizlərimdən qalan son yadigarlardır.

O, qarıya təşəkkür edərək torbanı çantasına qoydu, qaldığı otağa, gecələri dirigözlü açdığı dəmir çarpayıya son dəfə nəzər yetirdi, Nadya ilə xudahafizləşib yeni məkana köçdü.

***

Otaqdan çıxmaq yasaq ediləndən sonra Qayananın iztirabları daha da artdı. Tərgüllə olan son görüşdən xəbər tutan Nayruhi onun hər hərəkətini nəzarətə götürdü. O, qızını hamıdan qorumaq üçün yeni bir məhəllədə ev kirələdi, işini bitirən kimi Qayananın yanına tələsdi ki, tənhalıqdan bezməsin. Evə həmişə əlidolu gəldi, qızının sevdiyi şirniyyatlar, meyvələr hər gün stolun üstündəki qablarda təzələndi. Amma bu etdiklərinə rəğmən Qayana gündən-günə geri getdi: rəngi saraldı, gözlərinin parıltısı öləzidi. Təlaşa düşən ana evə həkim də gətirdi. Xəstəni yoxlayan həkim başını buladı: Qayananın əsəbi gərginlikdən düşdüyü vəziyyətin yaxşı bir şey vəd etmədiyini söylədi. Hər ehtimala qarşı sakitləşdirici dərmanlar yazıb qədərindən artıq qəbul etməməyi məsləhət gördü. Nayruhi dərmanları almağa tələsdi, yaxınlıqda-

kı aptekdən bütün pereparatları alıb evə dönəndə gördüyü səhnədən başı hərləndi: Qayana atasının aldığı gəlinciyi bağrına basıb layla çalır, döşünü almayan "uşağ"ı dilə tutur, yedirtməyə çalışırdı. Nayruhi əlindəki bağlamanı bir tərəfə atıb qızını qucaqladı, göz yaşları görünməsin deyə üzünü onun sinəsində gizlətdi və qızının ürək döyüntülərini ilk dəfə bu qədər aydın eşitdi: ürəyinin başı sızıldadı, hıçqırıqlar içində yalnız bunları pıçıldaya bildi:

- Mən yaxşı ana ola bilmədim, qızım... O duyğunu məndə sən oyatdın... İndi anlayıram ki, əsl ana necə olurmuş... Sənə səcdə edirəm, mənim balam... Atanı nə üçün çox sevdiyini də indi başa düşürəm: mənim sənə göstərə bilmədiyim nəvazişi, məhəbbəti ondan duydun... Oğlunu isə tapacağam, söz verirəm.

- Sən onu necə tapa bilərsən? Oğlumu Xoren öldürdü, - Qayana fəryad etdi.

Eşitdiklərini yuxu sanan Nayruhinin dəhşətdən gözləri böyüdü, başını qaldırıb inildədi:

- Xorenmi?

- Hə, Xoren! Atamı da, Arifi də o öldürdü, mənim namusumla oynadı. Bilirsənmi, niyə sağ qaldım? Anam sən olduğun üçün! – Qayana düyünlənən yumruqları ilə onun sinəsinə döyəcləyə- döyəcləyə, - Hə, sən, sən olduğun üçün! Kaş mənim əvəzimə bir qara daş doğaydın... Mənə bu acıları yaşadan soydaşlarına nifrət edirəm.

Nayruhi qulaqlarını tutdu, vaxtilə məhəbbətini rədd etdiyi üçün Xorenin əlinə fürsət düşən kimi intiqam alacağını yaxşı bilirdi, amma bu dərəcədə əclaflıq edəcəyini ağlına belə gətirmirdi. Bir tərəfdən övlad acısı ərməğan edilmiş, digər tərəfdən izzəti-nəfsi təhqir olunmuş qızının qarşısında özünü günahkar

saydı. Ərinin məzarı üstündə verdiyi sözlərin boğazdan yuxarı olduğuna xəcalət çəkdi. Axı o, Vaqifi sevib ailə qurmuşdu, gənc yaşlarından qoşulduğu gizli erməni təşkilatının aşıladığı "Böyük Ermənistan" planının şovinist mahiyyəti də onun məhəbbətinə mane ola bilməmiş, müxtəlif yollarla gətirilən kitablar onu türklərə qarşı nifrətlə nə qədər silahlandırsa da, bir o qədər Vaqifə yaxınlaşdırmış, bağlamışdı. Vəziyyət gərginləşəndə isə hər şeyin: səadətinin, xoş həyatının, sevdiklərinin, isti ocağının üstündən xətt çəkib dönüşü mümkün olmayan bir peşmançılığa imza atdı. Kimin, nəyin xatirinə, özü də bilmədi. Sən demə, verilən vədlər də, "böyük" ideallar uğrunda mübarizə də kimlərinsə xeyri üçün imiş.

O, indi anlamağa başlayırdı ki, vətən vəd edilmir, o, nəsillərdən nəsillərə ötürülən yurddur, yuvadır. Qarabağda Marağadan köçürülən ermənilərin şərəfinə ucaldılan abidənin üstündəki "Marağa – 150" xatirə-yazının sökülməsini vaxtilə o da ürəkdən alqışlamışdı. Onda heç fərqinə varmamışdı ki, minlərlə yazını pozub minlərlə abidəni məhv edə bilsən də, sənə məxsus olmayan torpağın enişi də, yoxuşu da, dağı da, dərəsi də məzarıstanı xatırladacaq. Bu məzarıstanı nə külək, nə qar, nə dolu, nə də leysan yağışları yer üzündən silə biləcək, sənin olmayan hər şey, əgər vicdanın varsa, sənə meydan oxuyacaq, gecələr yuxun, gündüzlər gülüşün ərşə çəkiləcək.

"Böyük"lərin əlində oyuncağa çevrildiklərini, "böyük" idealların süniliyini xatırladıqca Nayruhi mənən əzildi, bu məngənədən qurtulmaq, sıxıntıdan xilas olmaq istədi. Birdən-birə onu sanki kimsə silkələdi: "Bu axmaq fikirlər beynimə haradan doldu? Məqsəd yolunda irəliləmək əvəzinə geri çəkilmək, ruhdan düşmək yarayarmı? Qalx, Nayruhi, hissiyyata qapılmaq

məğlubiyyətin başlanğıcıdır, sona qədər döyüş, qələbə günü yaxındadır". O, cəld ayağa qalxdı, əl-üzünü yuyub üst-başını səliqəyə saldı. Növbəti yığıncağın başlanmasına az qalırdı. Evdən çıxanda Qayananın üzünə baxdı. "Körpə"sini bağrına basan qızının halına qəlbən acıdı, necə olursa-olsun, Xoreni tapmaq qərarına gəldi.

***

İlk günlər Tərgül üçün o qədər də asan olmadı: ağlayan hər uşağın yanına qaçdı, başına sığal çəkəndə öz körpəsi sandı, üzünə diqqət yetirəndə isə məyuslaşdı, əlləri qoynunda dəfələrlə fikrə getdi, amma ümidini üzmədi. Qəlbinin dərinliklərindən hansısa hiss inamla pıçıldayırdı:

- Sən oğlunu tapacaqsan, mütləq tapacaqsan!

Belə məqamlarda gözlərində ümid işığı parlayır, üzünə təbəssüm qonur, xoşbəxt günlərində olduğu kimi sevimli mahnısını oxuyurdu. Onun həzin zümzüməsi bəzən yana-yana ağlayan körpənin də ovunmasına səbəb olurdu. Bir gün bu səs uşaq evinin müdiri Darya Alekseyevnanın da diqqətini çəkdi, xeyli qulaq asdı. Bayaqdan tükürpədici səslə ağlayan bir yaşlı körpə də susmuşdu, diqqətlə Tərgülün üzünə baxırdı. Mahnı bitəndə o, yerindən qalxdı, yıxılmamaq üçün əllərini qabağa uzadaraq titrək addımlarla irəlilədi və heç kimin anlamadığı dildə nə isə deyə-deyə onun qucağına sığındı. Tərgül göz yaşlarını saxlaya bilmədi; imkanı olsa idi, anaya ehtiyacı olan bu uşaqların hamısını bağrına basardı.

Tərgülün hər hərəkətini izləyən Darya Alekseyevnanı qəribə maraq bürümüşdü: ona adi görünən hər şeydə bir qeyri-adilik tapan bu azərbaycanlı qadını daha yaxından tanımaq istəyirdi. Bir

gün buna imkan yarandı. Uşaq evinin arxivini sahmana salmaq üçün o, Tərgüldən kömək istədi. Müxtəlif illərdə yetimxanaya gətirilən uşaqların sənədləri ayrı-ayrı rəflərdə səliqə ilə düzülmüşdü. Bütün qovluqların tozu silinib yenidən rəflərə qoyulmalı idi. Üstündə 1991-ci il yazılmış qovluğu görəndə Tərgülün ürəyi atlandı. Qovluğu açmaq üçün icazə istədi, amma Darya Alekseyevna icazə vermədi:

- Vaxt itirməyə dəyməz, orada Azərbaycandan gətirilən uşaqların adı yoxdur, işimizi bitirməliyik, körpələrin yuxudan oyanan vaxtına az qalır.

Tərgül israr etmədi, Darya Alekseyevna onun simasındakı dəyişikliyi sezsə də, özünü o yerə qoymadı. Arxivdəki iş bitənədək körpələr oyanmışdılar: hamı onların yanına tələsdi.

Ərindən ayrılandan sonra Darya Alekseyevna arabir gecəni də uşaq evində qalırdı. Bu gün də evinə getmək fikri yox idi: məqsədi körpələri yatırandan sonra Tərgüllə söhbət etmək idi. Növbədə qalan bütün xidmətçilər işlərini bitirib istirahət otağına keçmişdilər, Tərgül isə hələ də uşaqların arasında idi. Digər uşaqlar yatsa da, bir yaşlı Kolya başını onun çiyninə qoyub mürgüləyirdi. Bir neçə dəfə yatağına uzatmaq istəsə də, uşaq gözlərini açaraq boynuna elə sarılmışdı ki, Tərgül göz yaşlarının saxlaya bilməmişdi. Bir azdan Kolyanın mışıltısı eşidildi, boynuna sarılan qollar boşalanda əmin oldu ki, uşaq dərin yuxuya gedib. O, körpəni yatağına uzadaraq üstünü nazik mələfə ilə örtdü və digər otağa keçdi. Darya Alekseyevnanı otaqda tək görəndə təəccübləndi:

- Bu gün növbədə sizmi qalacaqsınız?- deyə sual etdi.

Darya gülümsünərək:

- Deyəsən, elədir. Gəlin əyləşin, - o, qarşıdakı stulu göstər-

di,- görürəm, çox yorğunsunuz, elə mən də yorğunam, amma sizinlə söhbətə ehtiyacım var.

Tərgül əyləşdi, Daryanın nə barədə danışacağını təxmin etsə də, dillənmədi. Araya çökən sükut bir neçə dəqiqə çəkdi, nəhayət, Darya Alekseyevna gözlərini zillədiyi nöqtədən çəkməsə də, sözə başladı:

- Tərcümeyi-halınızdan oxuduqlarım haqqınızda məlumat versə də, sizi daha yaxından tanımaq istəyirəm.

O, gözlərini məchulluqdan ayırıb Tərgülə baxdı, hiss etdi ki, müsahibi otüb-keçənlər haqqında danışmağa çətinlik çəkir: rəngi gah boğulur, gah bozarır, vücudunda titrəyişlər hiss olunur. Darya da susdu, amma sövq-təbii ilə anladı ki, nə qədər çətin olsa da, Tərgül danışacaq...

Aradan nə qədər vaxt keçdiyi bəlli deyildi: dəhşətdən Daryanın gözləri böyümüşdü. Tərgül danışdıqca müharibə illərindən bəhs edən filmlərin ən faciəli fraqmentləri gözü önündə canlanır, eşitdiklərinin həqiqət olmasını qəbul edə bilmirdi. Almanlar tərəfindən analarından zorla alınıb vaqonlara doldurulan uşaqların fəryadı qulaqlarında cingildəyir, ürəyi sıxılırdı. Söhbət əsnasında özünə gəlmək üçün bir neçə dəfə susan, bəzən də sakitləşdirici həblərdən istifadə edən gənc ananın taleyinə acıyırdı. Tərgülün son sözləri onu daha çox riqqətə gətirdi:

- Əminəm ki, oğlum sağdır, məni yaşadan, həyata bağlayan da budur. Onu tapmalıyam, üç aylığından bəri çəkdiyi acıları ona yalnız sevgimlə unutdura bilərəm. İndi doqquz aylıqdır.

- Oğlunuzun adı nədir?

- Amal Muradov. Atasının adı isə Adildir.

Darya fikrə getdi: bu ad, deyəsən, ona tanış gəldi. Amma əmin olmadan Tərgülə heç nə demək istəmədi. Həmin gecəni

nə Tərgül yata bildi, nə də Daryanın gözünə yuxu getdi: yalnız-səhərə yaxın hər ikisi bir qədər mürgüləyə bildi.

Səhər tezdən uşaqların səs-küyü bir-birinə qarışmışdı. Xidmətçilər lap başlarını itirmişdilər. Uşaqları geyindirib yedirincə bu hal davam etdi. Qarnı tox uşaqlar əyləncə otağına aparılan kimi əvvəlki səs-küydən əsər qalmadı. Müxtəlif oyuncaqlarla onların başını qatmaq çətin deyildi. Kolya öz oyuncağını bir tərəfə atdı, yaşca böyük uşağın əlindəki maşını almağa çalışdı, ala bilməyəndə haray-qışqırıq saldı: özü ayaq üstdə zorla dayansa da, digər uşağı ikiəlli itələdi, uşaq yerə yıxılınca maşının təkərindən yapışıb arxasınca sürüməyə başladı. Yaşca böyük uşaq yerdən qalxıb Kolyanın üstünə cumdu, bir əli ilə onun baş-gözünə döyəcləyib digər əli ilə maşını almağa çalışdı. Tərgülü görüncə hər ikisi kirimişcə dayandı. Tərgül gülərək hər kəsin oyuncağını özünə verdi, onlarla birlikdə oyuna qoşuldu...

Darya Alekseyevna otağında lazım olan sənədlərə imza atıb bəzi göstərişlər verəndən sonra arxivdən 1991-ci ildə uşaq evinə gətirilən körpələrin siyahısını nəzərdən keçirməyə başladı. Siyahıda Muradov Amal Adil oğlu adına rast gəlməyəndə təəssüfləndi və bu barədə susmağa üstünlük verdi. Sənədləri qovluğun arasına yığarkən təsadüfən Muradyan familiyasını gördü, ancaq erməni familiyalı bu uşağın axtardığı ilə bir əlaqəsi olmayacağına da əmin oldu. O bu gün daxilən ehtiyac duysa da, Tərgülün gözünə görünmək istəmədi: iş vaxtı bitən kimi xidmətçilərə növbəti tapşırıqları verib evinə yollandı. Ertəsi gün də adi iş günlərindən biri kimi sona çatdı. Darya Alekseyevna aralarında olan söhbətin yükündən uzaqlaşmaq üçün bəzən özünü çox soyuqqanlı, laqeyd göstərir, hər şeydən xəbərsiz kimi davranır, Tərgüllə, demək olar ki, kəlmə kəsmir, danışmırdı. Lakin bir gün gördüyü

mənzərə onu çox duyğulandırdı. O qədər körpənin arasında gözlərini ağbəniz, şabalıdı saçlı bir uşaqdan ayırmayan gənc qadının haldan-hala düşməsi diqqətini cəlb etdi. Özü də bilmədən ona yaxınlaşdı, əlini çiyninə qoydu. Qəfil təmasdan diksinən Tərgül üzrxahlıq edərək:

- Bağışlayın, sizi görmədim,- deyəndə Darya dilləndi:

- Çox sevimli uşaqdır.

- Elədir, mənim Amalıma çox bənzəyir, - Tərgül göz yaşlarını gizlətmək üçün üzünü yana çevirdi.

Darya öz otağına qayıtdı, qovluqdan götürüb stolun siyirməsinə qoyduğu sənədə bir də diqqət yetirdi. Anketin üstündəki şəklə diqqətlə baxdı, gözlərinin qarşısında tanış sima canlandı: bir ay əvvəl anası havalandığı üçün bir neçə günlük onlara əmanət edilən uşağı xatırladı. Beş-altı aylıq uşağa bənzəyən körpənin doqquz ayı tamam idi. Tanımadığı adamların üzünə baxaraq sanki kimi isə axtarırdı. Tərgülü işə götürdüyü gün atası gəlib uşağı aparmışdı. Darya dərindən köksünü ötürdü və bərkdən:

- Heyif, sənə kömək edə bilməyəcəyəm, - dedi. Otağa girən köməkçisi içəridə adam görməyəndə təəccüblə soruşdu:

- Darya Alekseyevna, kiminlə danışırsınız?

- Heç kimlə, - Darya əlini yellədi və otaqdan çıxdı.

***

Mülayim avqust günlərindən birində uşaq evinin sakinləri yenə də həyətdəki əyləncə meydançasında oynayırdılar. Xidmətçilərin bəzisi onlara maşın sürməkdə, bəzisi sürüşməkdə, bəzisi yellənməkdə kömək edirdi. Bir neçə dəfə üzüaşağı sürüşəndən sonra Kolya bu oyundan bezdi, Tərgülün xalatının ətəyindən

dartıb balaca qollarını uzatdı. Körpənin qucaq istədiyini başa düşən Tərgül onu boyu bərabəri qaldırdı, Kolyanın gözlərindəki gülüşü görəndə qolları sustaldı, uşağı yerə qoyub yaxınlıqdakı skamyaya çökdü. Kolya yenə əl çəkmədi, ayaqlarını yerə möhkəm basa-basa skamyaya yaxınlaşdı, toppuş əlləri ilə Tərgülün soyuq əllərindən tutub başını dizinin üstünə qoydu. Uşağın bu hərəkəti onu daha da kövrəltdi:

- Səni buraya atan valideynə nə deyim?- sözləri dilini yandırdı, körpəsi gözünün qabağına gəldi, - Bəlkə, o da kiməsə beləcə sığınıb, bəlkə, onu da atılmış uşaq sayırlar, ata-anasını yamanlayırlar! Sus, Tərgül, buraya gətirilən hər uşaq atılmış deyil, taleyin qurbanına çevrilən anaların, ataların son ümid, pənah yeridir. Bəlkə, onlar da elə sənin kimi hər körpə gülüşündə, körpə qığıltısında, körpə yerişində öz övladlarını axtarırlar. Fikirlər bir-birini əvəz etdikcə o yorulduğunu hiss etdi. Uşağı qucağına alıb dizinin üstündə oturtdu. Gəldiyi gündən ona bu qədər isnişən uşağın sirrini aça bilmədi. Onlara yaxınlaşan Darya Alekseyevna da Kolyanın başını tumarladı, mavi gözlərini bir nöqtəyə zilləsə də, təəssüf və kədər dolu səslə kimsəsiz qalan uşaq haqqında bildiklərini söylədi:

– Kolyanın ata-anası müəmmalı şəkildə yoxa çıxıb; nə diriləri tapılır, nə də ölüləri. Uşaq dayənin evində olduğu üçün salamat qalıb. Hə, Tərgül belə-belə işlər... Anası Zoya Don kazaklarından olub. Bəlkə də, uşağın sənə bir belə isnişməsinin səbəbi də budur, anasına bənzədir.

Tərgülün həyəcanlı baxışlarını görən Darya sözünə davam etdi:

- Bəli, əzizim, çox şey dəyişib, Moskva müxtəlif mafioz qruplaşmaların sığınacağına çevrilib. Sabah nə olacağı barədə

heç kim təminat verə bilmir. İndi elə dövrdür ki, başını salamat saxlamaq üçün susmağı bacarmalısan...

Son illərdə baş verən hadisələr: Topxana meşəsində ağacların ermənilər tərəfindən kəsilməsi ilə gizli şəkildə planlaşdırılan münaqişənin aşkara çıxması, Bakıda ilk mitinqlər, verilən ədalətsiz qərarlara qarşı Azərbaycanı bürüyən etiraz aksiyaları, 20 Yanvar faciəsi, müxtəlif şəhər və rayonlarda: Lənkəranda, Neftçalada ordu tərəfindən törədilən qırğınlar, kütləvi həbslər, DTK-nın gecələr evlərdə qeyri-qanuni şəkildə müxtəlif adlarla apardığı axtarışlar, Ermənistandan bütün soydaşlarımızın zorla qovulması zamanı azərbaycanlılara qarşı törədilən vəhşiliklər, Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə edilən erməni basqınları, Qarakənd xəyanəti, ən nəhayət, Qaradağlı, Xocalı qətliamları, Şuşanın işğalı Tərgülün yadına düşdükcə bir həqiqəti dərk etdi: hərc-mərcliyə, hətta Moskva kimi bir paytaxtda mafioz qruplaşmaların at oynatmasına səbəb yuxarıların idarəetmə qabiliyyətinin olmamasıdır. Baş verən faciələr isə onların səpdiyi toxumların – müxtəlif millətlər arasındakı ayrı-seçkiliyin bəhrəsidir. Hər dəfə küçə yürüşlərinə etirazını bildirən Nadya xala yadına düşdü. Ürəyindən onu görmək arzusu keçdi. İki həftə müddətində ona baş çəkə bilməmişdi. İş saatı bitən kimi yır-yığış edib kiçik əl çantasını götürəndə Darya Alekseyevna təəccüblə ona baxdı. Xəfifcə gülümsünən Tərgül:

- Nadya xalanı görməyə gedirəm, - deyəndə Darya rahat nəfəs aldı:

- Çox yubanma, xahiş edirəm. Sən burada olanda mən uşaqlardan tam arxayın oluram.

Yubanmamaq üçün yaxınlıqdakı taksi dayanacağına yollanan Tərgül Nadya xalanın xoşladığı şirniyyatlardan almağı da

unutmadı.

Qapını Nadya xala açdı. İki həftə müddətində qarının çox arıqladığı gözlərinin çuxura düşməsindən aydın hiss olunurdu. Tərgül onu qucaqlayanda qarıda özünə qarşı bir soyuqluq duydu, ani olaraq vücudunu xəfif bir üşütmə bürüdü, iki həftədə nə baş vermişdi, Nadya xaladakı bu biganəlik nədən yaranmışdı? Baş sındırsa da, cavab tapa bilmədi. Onun sual dolu baxışları altında qarı daha da büzüşdü, yalnız bunları deyə bildi:

- Geriyə tez qayıt, qızım, bir də buralara gəlmə, özünü qoru.

Tərgül yenə də heç nə başa düşə bilmədi, səbəbini soruşmaq istəyirdi ki, qarı ayağa qalxdı, onun yanından ötüb qapını açdı. Bu getmək üçün işarə idi.

Heç nə anlamayan Tərgül astaca yerindən qalxdı, qapıdan çıxanda qarı gətirdiyi şirniyyatları da ona uzatdı, ağzını açmağa imkan vermədi, iki barmağını dodaqlarının üstünə qoyub susmağı məsləhət bildi. Hələ də bir şey başa düşməyən Tərgül heyrətdən donmuş halda qarı ilə xudahafizləşməyi belə unudub məhəccərdən tuta-tuta pillələri aşağı endi, fərqinə varmadan giriş qapısında dayanan taksiyə əyləşib ünvanı söylədi.

Nadya xala Tərgülə heç nə deyə bilmədi. Deyə bilmədi ki, sən buradan köçən gündən həmişə eyni vaxtda – saat yeddidə qapısını döyüb ondan Tərgülün yerini soruşurlar, bu barədə milisə xəbər verərsə, öldürməklə hədələyirlər, hətta telefon nömrəsi də qoyublar ki, gələn kimi onları xəbərdar etsin. Qarı Tərgülü görmədiyi müddətdə onun üçün nə qədər darıxırdısa, gəlib çıxmadığına bir o qədər sevinirdi. Elə ilk gündən gələn adamları gözü tutmamışdı. Özünü Tərgülün qardaşı kimi qələmə verən adamı görəndən sonra zənnində yanılmadığını duydu, çünki qarı bilirdi ki, Tərgülün qardaşı yoxdur, yalnız bir bacısı var. Qarı qapını

örtəndən sonra divara söykəndi, naməlum adamların növbəti gəlişinə bir neçə dəqiqə qalırdı. Amma dəqiqələr bir-birini əvəz etsə də, qapı döyülmədi: qarı xoflandı, mətbəxin pəncərəsindən həyətə boylandı. Həmişəki taksini binanın qarşısında görəndə adamların nə üçün yuxarı çıxmadıqlarına təəccübləndi, eynəyini taxdı, elə bu vaxt maşının qapısı açıldı, içərideki qadın özünü yerə atmaq istəyəndə güclü bir əl onu maşının içinə çəkdi. Qarşıdan gələn milis işçisi onlara yaxınlaşınca maşın uğultu ilə yerindən qalxdı. Nadya divardan tuta-tuta telefona yaxınlaşdı, əlləri əsə-əsə milis idarəsinə zəng edib Tərgül Muradovanın naməlum şəxslər tərəfindən oğurlandığını söylədi, gülləri bozarmış yaylığını gözlərinə basıb çarəsizlikdən için-için ağladı. Qarı qorxub heç yerə məlumat vermədiyi üçün əzab çəkir, Tərgülün tutulmasında özünü günahkar sayırdı.

***

Darya Alekseyevna ertəsi gün uşaq evinə gələndə Tərgülün qayıtmadığını eşidib əndişələndi. Əvvəl milis idarəsinə zəng vurmaq istədi, amma tezliklə də fikrindən daşındı. Mikolanın verdiyi telefon nömrəsini tapıb ona zəng etdi. Dəstəyi qaldıran Sofiya Mikolanın üç günlük ezamiyyətə getdiyini söyləyəndə Darya zəng etməsinin səbəbini açıqlamadı, lakin qayıdan kimi

Mikolanın uşaq evinə baş çəkməsini dəfələrlə xahiş etdi.

Həmin gün Daryanın əli işə yatmadı, tez-tez nəzərləri qapıya tuşlandı: elə zənn etdi ki, Tərgül bu dəqiqə içəri girəcək, uşaqların gözlərində gülüş parlayacaq, Kolya qollarını irəli uzadıb ona tərəf qaçacaq. Lakin nə Tərgül gəldi, nə də Kolya ona tərəf qaça bildi.

Mikola Darya Alekseyevnanın sifarişini eşidən kimi uşaq

evinə gəldi. Hadisədən xəbər tutub milis orqanlarına müraciət etdi. Şöbədə bu barədə material olduğunu eşidəndə isə təəccüblənmədi, o dəqiqə Nadya xalanın yanına yollandı. Qarı Mikolanı görəndə əvvəl özünü sakit aparmaq istəsə də, birdən-birə hönkürdü, qırıq-qırıq səslə Tərgül gedəndən sonra evinə müxtəlif adamların gəldiyiyni, hədə biçdiklərini söylədi:

- Evin nəzarətdə olduğunu bilmirdim. Yoxsa, sənə xəbər verərdim, bu işlər də baş verməzdi. Tərgülü gələn kimi geri qaytardım ki, onlarla üzləşməsin, amma... Bacarmadım, onu gizlədə bilmədim, Mikola, - deyərək qarı az qala zarıdı, - kim bilir, başına nələr gətirəcəklər, bəlkə də, öldürüblər? İndi hər tərəfdə qarışıqlıqdır.

Mikola söhbət əsnasında öyrəndi ki, Nadyanın ev ünvanını Tərgülün əvvəl işlədiyi mağazanın müdirindən alıblar. Arvadı erməni olan Nikita Abramoviç ünvanı məmnuniyyətlə gələnlərə verib. Qarıya təsəlli verən Mikola:

- Dünya dərəbəylik deyil, yəqin ki, bir ipucu tapılacaq,- desə də, söylədiyinə özü də inanmadı. Ertəsi gün yenə də uşaq evinə yollandı: Darya Alekseyevnadan bəzi məlumatları öyrənmək işə yaraya bilərdi.

Mikolanın budəfəki gəlişdən məqsədi 1991-ci ildə imtina edilən uşaqlarla bağlı araşdırma aparmaq idi. Qovluq yenidən açıldı, sənədlərin arasında axtardığını tapmayanda təəssüf dolu baxışlarla Daryaya baxdı.

- Bir dəqiqə dayanın, - sözlərini eşidəndə stolun siyirməsində nə isə axtaran qadının əlində yeni bir anket gördü. Anketə baxanda onun üzündə elə bir ifadə yarandı ki, heyrətdən Darya da çaşdı. Mikola həyəcanla:

-Bu, Tərgülün oğludur! Adını, soyadını dəyişiblər, amma

anasının bundan xəbəri yoxdur. Çənəsindəki xala baxın, eynən Tərgülün təsvir etdiyi kimidir.

Darya bildiyi bütün məlumatları, hətta uşağın hansı ünvana aparıldığını da söylədi. Mikola anladı ki, "havalanmış" qadının hücum çəkməsi, Tərgülün işdən çıxarılması, nəhayət, Nadyanın evinə gələrkən oğurlanması eyni zəncirin halqalarıdır. O, yenə milis rəisinə müraciət etdi. Tədbir görmək üçün xüsusi göstəriş verildi, lakin gedənlər əliboş döndülər. Həmin ünvanda yerləşən köhnə tikililərin sökülməsi barədə bir il əvvəl göstəriş verilmiş və sakinlər evlərdən çoxdan köçürülmüşdülər. Müvəqqəti qeydiyyata düşən Maho Muradyanın barəsində isə heç bir məlumat almaq mümkün olmadı: o, Moskvada deyildi.

Mikolanın əli hər yerdən üzüldü. Tərgül də, onu aparan adamlar da sanki qeybə çəkilmişdilər.

***

Tərgül gözünü pəncərələrinə qalın örtük çəkilmiş qaranlıq bir otaqda açdı, buraya necə gəlib düşdüyünü xatırlamağa çalışdı. Taksiyə oturması yadına düşdü: tanış səsə çevriləndə həminki iyrənc sima gözləri qarşısında canlandı, yalnız dəhşətlə: "Xoren!" - deyə bildi. Maşından düşməyə cəhd eləsə də, bacarmadı, çünki ağzına dəsmal tutulandan sonra nə baş verdiyindən xəbərsiz idi. Tərgül buraya nə üçün gətirildiyini anlamağa çalışdı və bir həqiqəti qəbul etdi: düşmən harada olsa, düşməndir!

İndi o, başına gətiriləcək növbəti əzablara tam əmin halda ağır-ağır döşəmədən qalxdı, yerimək istəyəndə ayağı nəyə isə ilişdi, tappıltı ilə yerə yıxıldı, bir də ayağa qalxmağa cəhd edəndə qapıdan süzülən işıq içərini aydınlatdı. Gələn Xoren idi. İrişə-irişə Tərgülü süzərək rişxəndlə:

- Hə, Xocalının gözəli, pis yaşamayıbsan, görünür, səni kifayət qədər əyləndiriblər, daha da gözəlləşibsən, - dedi.

Tərgül ikrahla üzünü çevirdi, bu adamın üzünü görəndə ürəyinin bulandığını hiss etdi, bir-iki ağız öyüdü. Bir qədər toxtadıqdan sonra acıqla dilləndi:

- Məndən indi nə istəyirsiniz? Bu torpaqlara da mı sahib çıxacaqsınız?

Xoren qollarını geniş açıb:

- Yalnız bu torpaqlara yox, bütün dünyaya sahib olacağıq, görürsən, bütün dünya bizi eşidir, sizi isə dinləyən də yoxdur, - dedi və qəh-qəhə çəkərək sözlərinə davam etdi, - düzdür, dünya bu gün yalnız eşidir, dəstəkləyir, amma sabah təzim edəcək, Böyük Ermənistan dünyanın ağası olacaq.

Onun qəh-qəhəsi boş otaqda şaqqıldadı. Qəzəbini boğa bilməyən Tərgül cavabı ləngitmədi:

- Yavaş ye, boğazında qalar. Bizdə belə bir məsəl var: ”İt ağac kölgəsində yatar, elə bilər ki, öz kölgəsidir”. Gec-tez həqiqət yerini tapacaq, bax o vaxt tökdüyünüz qanda özünüz boğulacaqsınız!

Xoren ağzını doldurub nəsə demək istəyirdi ki, qapı açıldı. Nayruhini görəndə Tərgül təəccüblənmədi, özünü növbəti təhqir və hədələrə hazırladı. Onu başdan-ayağa süzən Nayruhi nifrətlə kənara tüpürdü (əslində buna kənara tüpürmək də demək olmazdı, tüpürcək düz Xorenin qarşısında yerə düşdü). O, Tərgülə bir qədər də yaxınlaşdı, alaqaranlıq otaqda qara badamı gözlərinin içinə diqqətlə baxdı, sanki bu gözlərdəki kinin, qəzəbin ölçüsünü öz qəlbindəki yanğı ilə müəyyən etmək istədi, amma bacarmadı. Əlində gətirdiyi sellofan torbanı onun üstünə tulladı, amiranə tərzdə:

- Üstünü dəyiş! – dedi.

Tərgül torbaya gözucu da baxmadı, sakitcə cavab verdi:

- Əynimdəkilər özümə bəsdir.

Nayruhi sözünü bir də təkrarlamadı. Xorenlə birlikdə otağı tərk etdi. Dizlərini qucaqlayıb oturan Tərgül heç nə düşünə bilmədi, bundan sonra üzləşəcəyi dəhşətləri gözünün qabağına gətirdi. Beləcə düşünə-düşünə vaxtın necə keçdiyindən də xəbəri olmadı, oturduğu yerdəcə mürgülədi...

İçəri düşən zəif işıqda Qayana göründü, gülə-gülə yaxınlaşıb:

- Mən oğlumu tapdım, Tərgül, İnşallah, sən də taparsan, - dedi və qucağındakı körpəni ona göstərdi. Uşaq onu görən kimi qollarının irəli uzatdı, qığıldadı. Tərgül təlaşla yerindən qalxdı:

- Oğlum,- deyərək uşağı almaq istəyəndə Qayana qəfil yoxa çıxdı. Tərgül qan-tər içində yuxudan ayıldı. Otaqda tam sakitlik hökm sürürdü. Növbəti addım səsləri eşidiləndə o hər ehtimala qarşı ayağa qalxdı, Nayruhini görəndə üzünü yana çevirdi. Hər ikisi susdu. Yalvarış dolu səsi eşidəndə qulaqlarına inanmadı:

- Mən də anayam, Tərgül, nə çəkdiyini gözəl anlayıram, bilirəm ki, yaralarını heç nə ilə sarımaq mümkün deyil. Üzüm qarşında qaradır, amma sənə bir ana kimi yalvarıram, mənə kömək et. Qayananı mənə qaytarmaqda kömək et. Onun yeganə təsəllisi sən ola bilərsən. Sənə söz verirəm, bütün istəklərini yerinə yetirəcəyəm.

Tərgül çılğınlıqla cavab verdi:

- Bütün istəklərimimi? Qaytar mənə yurd-yuvamı, ailəmi, körpəmi qaytar! Bacararsanmı?

Nayruhi başını aşağı saldı, haqlı sual qarşısında nə qədər aciz olduğunu hiss etdikcə daha da əzildi, özündən asılı olmadan

diz çökdü:

- Məni rədd etmə, Tərgül. Bir şeyi anla ki, Qayana da sənin kimi türk qanlıdır. Mən ona ermənilər sevdirə bilmədim, bu səbəbdən ondan uzaqlaşdım, amma... Bacarmadım. Canımın bir parçasından imtina edə bilmədim. Onun əzablarını görməmək üçün Allahdan ölüm diləyirəm, vermir...

Nayruhi üzünü əlləri ilə qapadı, hönkür-hönkür ağladı. İndi o elə yazıq, elə miskin görünürdü ki...O ağladıqca anaların ah-naləsi, fəryadı Tərgülün qulaqlarında cingildədi, gözündən axan yaş dayanmaq bilmədi. Qayana ilə son görüşü yadına düşdü. Onunla eyni dərdi daşıyan soydaşına kömək etmək qərarına gəldi. Nayruhiyə yaxınlaşdı, çənəsindən tutub başını yuxarı qaldırdı:

- Qayanaya kömək edəcəyəm, ancaq bizim işlərimizə qarışma.

Nayruhi hönkürə-hönkürə onun əllərini öpmək istəsə də, Tərgül imkan vermədi. Torbadakı paltarları açdı, üst-başını dəyişib Nayruhi ilə yola düşdü.

***

Onlar içəri girəndə Qayana yatmışdı. Yarıqaranlıq otaqda bir çarpayıdan və stoldan başa heç nə yox idi. Ağ yastığın üzərinə yayılmış qara saçları Qayananın üzünü buluddan çıxan ay qədər gözəl göstərirdi. Nə qədər sınıxsa da, o, yenə gözəl və cazibədar idi. Ömrünün ən gözəl çağlarını – gəncliyini əzablar içərisində keçirən Tərgülün onunla eyni taleyi paylaşan Qayanaya yazığı gəldi. Gözlərini qızının avazımış simasından çəkməyən qadına ikrahla baxaraq:

- Buyurun, heç bir yazıçının yaratmadığı, rəssamın çəkə bilmədiyi əsərinizin qəhrəmanına baxın. Göstərişsiz-filansız öz

rolunu görün necə də gözəl oynayır, sünilikdən əsər belə yoxdur,- dedi və əsir düşdüyü gündən bəri üzləşdiyi faciələri sanki yenidən yaşadı. Yataqda hissiz bədəni xatırladan Qayananı oyatmaq, onunla qucaqlaşmaq, olub-keçənləri unutdurmaq üçün Allahdan güc, dözüm istədi. Vurulan ağır pereparatların təsirindən xəstənin ayılması xeyli çəkdi. Gözlərini açanda ürkək-ürkək ətrafa baxdı, birdən-birə sanki dirçəldi, gözlərinə nur gəldi, əlini çarpayıya dayayıb dikəldi, əzizini görmüş körpə kimi qollarını irəli uzatdı. Göz yaşlarını saxlaya bilməyən Tərgül onu bağrına basdı, həyəcandan ürəyi tez-tez döyünən Qayananı sakitləşdirməyə çalışdı.

- Tərgül, söz ver ki, məni tərk etməyəcəksən, bunların ümidinə qoymayacaqsan. Hər dəfə ermənicə danışıq eşitdikdə o dəhşətli gecə gözlərimin qarşısında canlanır, həmin anları gün ərzində dəfələrlə yaşayıram. Al məni bunların əlindən, gedək, öz yurdumuza qayıdaq, - sözlərini eşidəndə isə inamla:

- Qayıdarıq, Qayana, qayıdarıq, - dedi.

***

Nayruhi bacardıqca qızının gözünə görünməməyə çalışır, oyaq olduğu müddətdə evə də gəlmirdi. İndi onun bir istəyi vardı: qızını salamat görmək! Qayananın vəziyyəti tam düzəlməsə də, əvvəlkindən xeyli yaxşı idi. O, Tərgüldən bir an da olsun ayrılmaq istəmir, körpə uşaq anasına sığınan kimi onun böyrünə qısılırdı. Anasının bir həftəlik Yerevana getmək xəbərini eşidəndə isə sevincinin həddi-hüdudu olmadı, sinə dolusu nəfəs alaraq:

- Heç olmasa, bir həftə erməni sifəti görməyəcəyəm, - dedi. Qayananı anasına düşmən edən bala məhəbbəti idi, ona görə də anasının göstərdiyi nəvazişləri saxta sayır, səmimiyyətinə inan-

mır, lap hövsələdən çıxırdı.

Tanımadığı rayona gətirilməsi, əlaqə saxlamaq üçün telefonun olmaması Tərgülün planlarını alt-üst etmişdi. Bir həftəlik azuqə evə yığılandan sonra Nayruhi qapını arxadan kilidləyərək yola düşdü. Arabir pəncərədən Moskva gecələrini seyr edəndə Qarabağın ulduzlu səması, Ay işığında görünən seyrək buludların bir istiqamətdə axını Tərgülün xəyalında canlanır, amma köks ötürməkdən başqa çarəsi qalmır, Qayana yaxşılaşandan sonra azad buraxılacağı ümidilə hər çətinliyə dözürdü...

***

Nayruhi nədənsə vaxtından tez qayıtdı. Onun əvvəlki şəstindən, amirliyindən bir əsər yox idi. Rəftarı da dəyişmişdi. Evdə danışarkən qətiyyən erməni sözləri işlətmir, çox mülayim davranır, xəcalət çəkirmiş kimi gözlərini hamıdan yayındırırdı. Bunu Qayana da hiss etmişdi. Təəccüb dolu baxışlarla anasını süzür, lakin heç nə soruşmurdu. Çünki vaxtilə anası onun çox sorğularını cavabsız buraxmışdı. Hətta başına gətirdiklərini danışandan sonra da heç nə olmamış kimi Xorenlə əlaqə saxlaması Qayananın heysiyyətinə toxundu, daha böyük sarsıntı keçirməsinə səbəb oldu. O, həmin gündən tənhalaşdı, anasının heç bir sualına cavab vermədi, dəli olmaq dərəcəsinə çatdı. Amma indi hiss edirdi ki, deməyə utandığı hansısa bir məsələ anasını üzür. Qayana qisas alırmış kimi oz-ozünə: “Qoy üzülsün, üzülməyin dadını bilsin, bəlkə, onda haqq yolunda olmadığını dərk edər”,- pıçıldadı. Qəribəsi bu idi ki, anasını sıxıntılı görəndən bəri Qayana daha çox dirçəlmişdi.

Yerevana son səfərindən sonra Nayruhi get-gedə evə bağlanır, bəzən edilən zənglərə cavab verməmək üçün mobil telefonu

söndürür, saatlarla düşüncələrə qərq olur, nələri isə xatırlamağa, nələrəsə aydınlıq gətirməyə çalışırdı. O, bir gün gözlənilmədən Qayananın saçlarını tumarlayaraq soruşdu:

- Qızım, nə istəyirsən?

Qayananın gözlərində atəş parladı, sanki ətrafda nə varsa, yandırıb-yaxmaq, anası ilə bərabər külə döndərmək üçün bir himə bənd idi. O, gözlərini qırpmadan:

- Oğlumu, oğlumu istəyirəm, gətirə biləcəksənmi?

Nayruhi susdu, qızına bir az da yaxınlaşdı, Şuşada bağrına basdığı kimi qucaqladı, boğuq, qəhərli səslə dedi:

- Yox, gətirə bilməyəcəyəm, onu yatdığı torpaqdan ayıra bilmərəm, öz beşiyində elə rahat uyudu ki...

Özünü saxlaya bilməyən qadın hönkürdü. Onun hönkürtüsü Qayananı da ağlatdı. Tərgül də yanaqlarından süzülən göz yaşını sakitcə sildi. Bir qədər toxtadıqdan sonra Xorenin vasitəsilə körpənin cəsədini tapdığını və Şuşadakı məzarında dəfn etdiyini bildirdi. Qayana heyrətləndi:

- Sən Şuşayamı getmişdin?

Nayruhi başı ilə təsdiqlədi.

– Xoren balamı haraya gömmüşdü?

- Yerevanda yaşayan bacımın – Siranuşun həyətinə... Öz əllərimlə üstünü açdım, - Nayruhi əllərini çarpayının taxtasına döyəcləməyə başladı, - bax bu əllərimlə də dəfn etdim.

Qayana gözlənilmədən anasının əllərini qamarladı, oğluna toxunan barmaqlarını, balasını görən gözlərini dönə-dönə öpdü.

- Qızım, qisasını səni bu günə qoyanlardan bir-bir alacağam,- sözlərini Nayruhi elə pıçıltı ilə dedi ki, sanki kiminsə eşidəcəyindən qorxdu.

***

Tərgülün birdən-birə yoxa çıxması, Mikolanın narahatlığını daha da artırdı. Uşaq evindən götürülən Artur Muradyan haqqında isə əlavə məlumat öyrənə bilmədi. Ümid etdiyi yerlərin heç birində axtardığını tapmayanda Mahonu İNTERPOL-a vermək üçün aidiyyatlı orqanlara müraciət etdi. Mahonun cinayətkar olması haqqında dəlil kimi Mişelin göndərdiyi məlumatları, uşaq evinə Artur Muradyan adı ilə verilən və qısa müddətdən sonra götürülən oğurluq uşağı göstərdi. Onun fikrincə, Tərgülün yoxa çıxması da bu məsələ ilə bağlı idi.

Maho Muradyan axtarışa veriləndən sonra Mikola bir qədər sakitləşdi. Son vaxtlar Sofiya ilə maraqlana bilmədiyinə görə gileylənməsə də, arvadının diqqət istədiyinin fərqində idi. Özünə söz verdi ki, bundan sonra boş vaxtlarını evdə keçirəcək. Lakin naməlum ünvandan gələn hədə dolu zəng onu ehtiyatlı olmağa vadar etdi. O özünə görə deyil, Sofiyaya görə narahat idi. Ölkədə qarışıqlığın hökm sürdüyü bir zamanda onu təhlükəyə ata bilməzdi. Ona görə də arvadını Kişinyovda yaşayan valideynlərinin yanına göndərmək qərarına gəldi. Bəhanə tapmaq o qədər də çətin olmadı. İşi ilə əlaqədar bir aylıq xarici ölkəyə ezam olunduğunu söyləyən kimi Sofiya Moldovaya getməyə razılıq verdi. İndi o, rahatca işlərini davam etdirə bilərdi. İşlədiyi redaksiyadan öz istəyi ilə Yerevana ezam olunmasını xahiş etdi. Mikola oradakı uşaq evlərindən reportaj hazırlamalı, sənədli film çəkməli idi. Yerevanda onu qarşılayacaq tanışı olmadığı üçün təyyarədən enən kimi taksiyə əyləşərək Kütləvi İnfiormasiya Agentliyinə gedəcəyini söylədi. Sürücü onun sözlərinə əhəmiyyət vermədi. Bu qarabəniz adamın rus dilində danışması, deyəsən, ona xoş gəlməmişdi. Əlacsız qalan Mikola vəsiqəsini göstərib jurnalist

kimi Moskva telekanallarından biri üçün reportaj hazırlamağa gəldiyini bildirəndə isə sürücünün üzündə məmnun ifadə yarandı. Mənzil başına çatana qədər erməni ləhcəsində türklərin vəhşiliyindən, ermənilərin başına gətirdikləri faciələrdən danışdı. Maşının saxlancında gizlətdiyi qəzeti də göstərməyə ərinmədi. Öldürülmüş uşaqların, qocaların şəkillərini görəndə heyrətdən Mikolanın gözləri böyüdü:

- Bu şəkillər harada çəkilib?- deyə boğuq səslə soruşdu.

- Harada çəkiləcək? Əlbəttə ki, Qarabağda. Türklər bizim soyumuzu qurutmaq istəyirlər, - sürücü yumruğunu qəzəblə sükana vurdu, bir qədər sakitləşəndən sonra qəzeti Mikolaya uzatdı, - bu qəzeti də götürün, sizə, yəqin ki, lazım olar.

Mikolanın nitqi qurudu, Xocalı faciəsindən bəhs edən şəkilləri erməni soyqırımı kimi təqdim edən bir millətə nə ad verəcəyini bilmədi. Sərnişinin susduğunu görən sürücü yazıqlıq maskasını soyunmaq istəmədi, Qarabağ müharibəsində əzizini itirənlər kimi yol boyu yana-yana danışdı.

***

İki-üç yaşlı yetim körpələrlə görüş Mikolanın ömrü boyu unuda bilməyəcəyi səhnə idi, çünki qapıya dikilən baxışlarda öləziyən ümidlər daşı belə dilləndirməyə qadir idi...

Körpələr valideynləri Qarabağ savaşında həlak olmuş erməni uşaqları kimi təqdim edilsə də, içdən gələn bir səs Mikolaya deyilənlərin yalan olduğunu söylədi. Çünki başlarına sığal çəkmək üçün xidmətçilərin uzanan əllərini görəndə körpələrin boyun qısması onlara verilən cəzadan, ermənicə deyilən sözləri anlamamaları isə uşaqların erməni olmadığından xəbər verirdi. Xidmətçilərin müraciətləri də cavabsız qalırdı: adını tanımayan Xaçik, Aşot, Serj və onlarla başqa uşağın mülayim rəftardan do-

nub qalması kənardan baxan adama çox şey deyirdi. Təbii ki, uşaqlar Mikolanı da anlamadılar, amma ilk dəfə gördüklərindənmi, ya simasındakı mehribanlıqdanmı, iki-bir, üç-bir şəkillərini çəkəndə bir qədər ümidləndilər, üzlərində təbəssüm oynadı.

Bu uşaqların gələcəyi barədə danışan müdir Ermənistan ordusu üçün ləyaqətli əsgərlər yetişdirəcəklərini iftixarla qeyd etdi.

Mikola Tərgülün körpəsini bunların arasında tapmayacağını bilsə də, ümidini itirmədi, növbəti uşaq evinə yollandı. Yatmaq saatı olduğu üçün körpələri görmək yasaq idi. O, uşaqların siyahısı ilə tanış olmağa imkan verməyən müdirdən öyrəndi ki,- son aylarda gətirilən uşaqların balacası altı aylıq, böyüyü isə yaş yarımlıqdır. Müxtəlif görüşlərdə iştirak edən Mikola iki günlük ezamiyyət vaxtı bitəndə dərindən nəfəs aldı və növbəti addım atmaq üçün özünü daha güclü saydı.

***

Mikolanın Yerevandakı uşaq evlərindən hazırladığı reportaj redaksiyada bomba kimi partladı. Bu reportajın efirə olduğu kimi verilməsinin əleyhinə çıxanlar qalmaqalın böyüyəcəyini bəhanə gətirərək ermənipərəst mövqelərini açıq-aşkar nümayiş etdirdilər. Qayçılandıqdan sonra "Xəbərlər" proqramında Mikolanın reportajından müəyyən fraqmentlər efirə verildi.

Baş redaktor müəllifin etirazlarına, haqlı tələbinə məhəl qoymadı.

Mikola özünü çox əzilmiş hesab edir, çəkdiyi zəhmətin hədər getməsi, həqiqətin pərdələnməsi onu ruhən sıxırdı. Ona görə də bir qədər istirahət etmək, daddığı haqsızlığı az da olsa, unutmaq üçün Moskvadan uzaqlaşmaq, daha sakit bir guşəyə çəkilmək istəyirdi. O, evə gələrək yol çantasını hazırladı, videokameranı,

fotoaparatı xüsusi çantada qablaşdırdı. Qatarın yola düşməsinə xeyli qaldığı üçün divanda uzanıb bir qədər mürgüləməyə çalışdı. Mikola Moldovaya təyyarə ilə də gedə bilərdi, amma qatarla polad təkərlərin ahəngdar taqqıltısını dinləyə-dinləyə yol getmək, bir-birini əvəz edən, meşələri, dağları, düzləri seyr etmək xoşuna gəldiyi üçün bu zövqdən özünü məhrum etmək istəmədi. Divanın mütəkkəsinə dirsəklənib gözlərini yumdu, xəyalında yenə yetim uşaqların solğun çöhrələri canlandı. Elə bu vaxt telefon zəngi onu düşüncələrdən ayırdı. Dəstəyi qaldırınca cingiltili qadın səsi otağı doldurdu. Qadın vacib məsələ ilə bağlı onunla görüşmək istədiyini bildirəndə Mikola duruxdu və tərəddüd etmədən:

- Mən bu gün Moskvadan uzaqlaşıram, - dedi.

- Nə vaxt qayıdacaqsınız?

- Bəlli deyil.

Qadının səsində az qala yalvarış duyuldu:

- Xahiş edirəm, görüşməkdən imtina etməyin. Bu həm sizin üçün, həm də mənim üçün çox vacibdir.

Mikolanın susduğunu duyan qadın bir daha israrla:

- Görüşmək arzum sizin reportajınızla bağlıdır, - deyəndə Mikolanın ürəyinə sərinlik yayıldı, Qızıl meydana yaxın parklardan birində görüşməyə razılıq verdi.

***

Yay fəsli son günlərini yaşasa da, yerini payıza verməyə tələsmirdi. Havada xoşagələn bir hərarət vardı. Parkdakı ağaclar yamyaşıl yarpaqlarını günə sərmişdi. Arabir zərif mehdən qımıldanan yaşıl yarpaqlarda günəş şüası sanki payıza göz vurur, ona acıq verirmiş kimi yenidən gizlənirdi. Skamyada oturub təbiətin

bu sehrinə dalan Mikola elə bil buraya nə üçün gəldiyini unutmuş, onu düşüncələrindən ayırmaq istəməyən qadının skamyanın bir tərəfində sakitcə oturduğunu da görməmişdi.

- Deyəsən, təbiəti çox sevirsiniz?- sualı onu xəyaldan ayırdı.

Mikola:

- Bağışlayın, gəlişinizi duymamışam, - deyə üzrxahlıq etdi, - elədir, fəsillərin içində payız mənə təbiətin müdrik çağını xatırladır. Bəzən çətinliyə düşəndə ən yaxın məsləhətçim də sanki o olur, -dedi.

Mikola susdu, müsahibini dinləməyə hazır olduğunu bildirmək üçün sual dolu baxışlarla onun üzünə baxdı. Bunu anlayan qadın sözə başladı:

- Əvvəlcə tanış olaq, mən sizin yaratdığınız Müstəqil Jurnalistlər Birliyinə onun əsas müddəaları ilə tanış olandan sonra qatılmışam. Qarabağ ermənilərindən sayılıram və Nadejda imzası ilə tanınıram.

Nadejda imzasını eşidən kimi Mikola sevinclə:

- Sizi tanıdığıma çox şad oldum, yazılarınız çox maraqlı və cəlbedicidir. Hiss olunur ki, siz də həqiqət axtarırsınız,- dedi.

- Elədir, nə qədər ki sağam, onu tapana qədər mübarizə aparacağam, - Nadejda bir qədər sözünə ara verib əsl mətləbə -keçdi, məni sizin son reportajınız maraqlandırır. Bilirəm ki, efirdə tam göstərilməsinə icazə verilməyib.

Mikolanın qaşları çatıldı, təəccüblə soruşdu:

- Nədən duydunuz?

- Mən də jurnalistəm və aktual mövzudan bəhs edən reportajın çox üzdən verilməsinin səbəbləri də aydındır. Fikri əsas məsələdən yayındırmaq üçün reportajın “qayçılan”ması göz qabağındadır. Sizin reportajdan ən çox hansı hissələri kəsdilər? Axı

məni də Qarabağ məsələsi, Xocalı soyqırımı çox maraqlandırır.

Mikola müsahibinə sınayıcı nəzərlərlə baxdı, onun nə düşündüyünü gözlərindən oxumaq istədi.Bunu anlayan qadın səmimiyyətlə:

- İnanın, sizə qarşı heç bir başqa niyyətim yoxdur. Sadəcə, bu məsələdə, bəlkə də, bir köməyim dəyə bilər. Sizi oraya getməyə ən çox vadar edən nə idi?

Mikola yenə susdu. Qadın da fikrə getdi və yenidən sözə başladı:

- Məni itkin düşən bir uşağın taleyi maraqlandırır. Bu barədə mənə Darya Alekseyevna məlumat verdi, sizin telefon nömrənizi də ondan aldım. Siz həmin uşaqla rastlaşdınızmı?

Darya Alekseyevnanın adını eşidəndən sonra Mikolaya hər şey aydın oldu. Cibindən çıxardığı bloknotun arasından fotoaparatla üzünü köçürdüyü bir şəkil götürüb qadına uzatdı. Qadın şəklə diqqətlə baxdı, birdən heyrətlə:

- Mən bu uşağı haradasa görmüşəm. Sakitləşdirmək mümkün deyildi, anası bir həbi suya qarışdırıb içirəndən sonra dərin yuxuya getdi. Amma harada gördüyümü dəqiq xatırlamıram, - dedi və gözlərini sonsuz üfüqlərə zillədi, itirdiyini tapmış adamlar kimi tələsə-tələsə ,- hə, xatırladım, Moskvaya uçan təyyarədə onunla rastlaşmışam, anasının da qəribə baxışları vardı. Yanaşı oturmuşduq, uşağa baxmaq üçün heç kimə icazə vermirdi.

Mikola dərindən nəfəs alıb sözə başladı:

- Yox, bu uşaqla qarşılaşmadım, amma əvəzində adı, soyadı dəyişdirilmiş, gələcəkdə azərbaycanlılara qarşı döyüşə göndərmək üçün ata-analarından zorla qoparılmış iki-üç yaşlı əsir körpələr gördüm. Simaları çox solğun idi, ermənicə heç nə başa düşmürdülər, hətta adlarını belə bilmirdilər...

Mikola susdu, hiss olunurdu ki, bu barədə danışmağa çətinlik çəkir, amma müsahibini də intizarda saxlamaq istəmədi:

- Xidmətçilərin saxtakarlığı lap dözülməz idi. Reportaj xatirinə nə qədər zahirən humanist, canıyanan görünmək istəsələr də, onların nəvazişinə uşaqlar boyunlarını qısdılar, kiçik əlləri ilə başlarını tutdular. Çox ağır səhnə idi. Bu uşaqlar döyülə-döyülə böyüdüləcək, ata-anası öldürülmüş erməni uşaqları kimi öz həmvətənlərinə qarşı döyüşə göndəriləcəklər... Mən müharibələr, əsirlər haqqında çox oxumuş, hətta döyüş bölgələrində də olmuşam, amma belə qisasçılığı heç yerdə görməmişəm. Bu ermənilərdən nə istəsən: oğurluq, yalançılıq, yaltaqlıq - bir sözlə, insanlıqdan uzaq hər şey gözləmək olar.

Mikola danışdıqca qadın haldan-hala düşür, bəzən havası çatmadığı üçün köks ötürürdü. Müsahibinin vəziyyətindən xəbəri olmayan gənc jurnalist isə qəlbindən keçən nə varsa, elə bil birdən-birə hamısını danışmağa tələsirdi. O, barmağı ilə şəkli göstərərək sözünə davam etdi:

- Bu uşaq isə talesiz bir ananın övladıdır. Əsirlik həyatı, işgəncələr, təhqirlər... Nələr görməyib bu qadın! Ancaq oğlunu itirməsi bütün bunların qarşısında daha fəlakətlidir. Adının dəyişdirilərək Artur Muradyan qoyulduğundan xəbəri olmayan ananın Amal Muradovu – körpəsini tapmaq üçün tanımadığı şəhərdə döymədiyi bir qapı qalmayıb.

Mən bu şəkli Darya Alekseyevnanın işlədiyi uşaq evindən tapmışam. Amma onu tapdığım gün anasını kimlərsə oğurlamışdı.

Mikola sözünü bitirib ayağa qalxdı. Qadın da onunla bərabər yerindən durdu, şəkli qaytararaq:

– Mən də bu uşağı axtaracağam, - dedi.

***

Artıq Qayana, demək olar ki, sağalmışdı, amma nədənsə Tərgüldən qopmaq istəmir, yanından ayrılmasına imkan vermirdi. İndi o, Tərgülün başına pərvanə kimi dolanır, buludlu simasını açmağa çalışır, lakin heç nəyə nail ola bilmirdi. Bir gün gecəyarı eşitdiyi həzin səsə yuxudan ayılan Qayana Tərgülün yuxuda sayıqladığını, kimisə əzizlədiyini, bəzən oxuduğunu eşidəndə yarıaçıq gözlərinə duman çökdü, onu yanında saxlamağa cəhd etdiyi üçün özünü danladı. Ertəsi gün anasına heç kimə ehtiyacı olmadığını söylədi. Bu,Tərgülün sərbəst buraxılmasına işarə idi. Nayruhi diqqətlə qızına baxdı, heyrətlə soruşdu:

- Sən, doğrudanmı, tam sağaldığına əminsən?

- Sağalmasam da, o bir anadır, balasının ardınca getməlidir. Tərgülün kədəri məni daha çox əzir. Əlimdə imkan olsa, ona kömək edərəm, amma, təəssüf ki, buna imkanım yoxdur.

- Sən ona kömək edə bilərsən, qızım. Ehtiyatla onu danışdır, təsəlli ver. Bəlkə də, dərdi bir qədər yüngülləşər.

- Əgər kömək edə bilməyəcəyəmsə, təsəlli nəyi dəyişər, ona nəyi qaytara bilər?

- Sən cəhd elə, bəlkə, xeyri oldu.

Nayruhi yenə də iş dalınca getdi. Axşamdan başı bərk ağrıdığı üçün yata bilməyən, yalnız səhərə yaxın yuxuya gedən Tərgül qapının taqqıltısına oyandı, onun rəngi avazımış, gözlərinin altı şişmişdi. Qayana süfrə başına dəvət etsə də, iştahası olmadığını söyləyib yenidən yatağa uzandı. İndi onun ən böyük arzusu buradan ayrılmaq, oğlunu tapmaq üçün hər tərəfi aramaq idi. Onun nisgilini gözlərindən oxuyan Qayana inamla dedi:

- Sənin oğlunu birlikdə axtaracağıq, Tərgül.

Tərgülün gözlərində bir ümid şöləsi parladı, amma tezliklə

də bu parıltını sönməkdə olan ocağın zəif işartısı əvəz etdi. Onu inandırmağın çətin olduğunu duyan Qayana susmaq istəmədi:

- Tərgül, bütün olanları mənə anlat.

Simasında xəfif istehzalı gülüş görünən Tərgül kədərlə:

- Bunu dinləməyə sənin gücün çatmaz, Qayana, təzə sağalıbsan, səni yeni bir dərdlə yükləyə bilmərəm, - dedi.

Qayana əl çəkmədi:

- Əgər zərrəcə sənə köməyim toxunacaqsa, mən hər şeyə hazıram. Övlad itkisinin nə olduğunu gözəl bilirəm, amma bu gün onu qollarımda gəzdirməsəm də, doğma beşiyində uyuması mənə təskinlik verir, rahatlandırır. Danış, başına gələn bütün faciələri söylə. Hər şeyə dözəcəyəm.

Tərgülün iri badamı gözlərində yaş gilələndi. Əlinin arxası ilə yanaqlarına süzülən yaşı sildi, xeyli susdu və nəhayət, gözlərinin qarşısında bütün olub-keçənlər canlandı...

Qayana Tərgülü qucaqlayıb hönkürdü. Bu hönkürtüdə, bəlkə də, insanlığın indiyə qədər duymadığı acı bir fəryad, sərhədlərə sığmayan bir üsyan vardı. Tərgül də ağlayırdı, onun gözündən düşən hər damla közə çevrilərək qaysaq tutmayan yaralarını yandırırdı.

Çiyinlərini qucaqlayan zərif qadın qolları onları diksindirdi. Başlarının üstündə Nayruhini görəndə hər ikisi təəccübləndi. Nayruhi:

- Mənim bir yox, artıq iki qızım var,- deyərək onları bağrına basanda heyrətdən Tərgülün göz yaşları da qurudu. Bir erməni qadından eşitdiyi bu sözləri növbəti hiylə zənn etdi, yavaşca onun qolunu boynundan açdı, ayağa qalxıb digər stulda oturdu. Onun bu hərəkəti Nayruhini sındırsa da, qətiyyən təəccübləndirmədi. Bir ananın faciəsini dinlədikcə elə xəcalət çəkmişdi ki,

ifadə etməkdə söz də aciz idi. Tərgülün:

- Məni azad buraxın, - sözlərini eşidəndə başını qaldırıb:

- Yolun açıq olsun, qızım, bil ki, arxanda dayanan bir anan var, - dedi.

Tərgül ona çəpəki baxaraq sərt şəkildə dilləndi:

– Sizdən mənə ana, məndən sizə övlad olmaz.

O, Qayananı bağrına basdı, Nayruhiyə ötəri nəzər salıb:

- Əlvida! – dedi və çantasını götürüb ona alınan paltarların heç birinə əl uzatmadan qapıdan çıxdı. Arxasınca hönkürən qadının səsinə belə geri boylanmadı. Bu, Nayruhi idi.

***

Tərgül yaxınlıqda dayanan taksiyə əyləşib ünvanı söylədi. Bir saatdan sonra o, Darya Alekseyevna ilə üz-üzə oturmuşdu. Darya yenidən işə başlamaq üçün ona izin verdi. Balaca Kolya da qollarını açaraq dabanlarını tappıldada-tappıldada onun üstünə yürüdü. Tərgül uşağı boyu bərabəri qaldırıb toppuş yanaqlarından öpdü, astaca yerə qoyub ətrafını bürüyən uşaqlarla da görüşdü. Körpələrin sevinci hədsiz idi, hələ də aydın danışmağı bacarmayan Kolya nə isə deyə-deyə özündən bir yaş böyük uşağa düyünlənmiş balaca yumruğunu göstərdi. Tərgül gülümsündü, hər ikisinin başını tumarladı, rus dilində “Cırtdanın nağılı”nı danışmağa başladı. Onun həlim səsini eşidən körpələrin səs-küyü kəsildi, hamı ətrafına toplaşdı...

Darya nədənsə nə şəkil barəsində, nə də Mikola haqqında ona heç bir məlumat vermədi. Tərgül isə balasından xəbər tutacağına əmin halda imkan tapan kimi digər uşaq evləri ilə əlaqə saxlayır, Amal Muradov adlı uşaqla maraqlanır, amma hər dəfə də ümidi boşa çıxırdı. Bu günlərdə nədənsə Mikola da yoxa çıx-

mış, ev telefonuna dəfələrlə zəng etsə də, dəstəyi qaldıran olmamışdı. Tərgül onların evinə getmək qərarına gəldi. İş vaxtı bitən kimi paltarını dəyişib Mikolagilə yollandı. Zəngin düyməsini basıb həyəcanla gözləməyə başladı. Qapını açan olmayanda Sofiyanın balkonda olduğunu düşündü və yenə bir neçə dəfə zəngin düyməsini basdı. Ümidsiz halda aşağı enəndə Nadya xalanı xatırladı, ona baş çəkmək fikrinə düşdü, qarının onu görərkən sevinəcəyini düşünüb gülümsündü. Bu da həmişə üzünə açılan qapı... Ehtiyatla zəngin düyməsini basdı. Çox keçmədən iti addım səsləri eşidildi, qapını 30-35 yaşlarında bir qadın açdı, Tərgülə maraqla baxıb soruşdu:

-Kimi istəyirsiniz?

- Nadya xalanı.

- Siz onu haradan tanıyırsınız?

- Evində kirayə qalırdım.

Qadın bu sözləri eşidən kimi əlinin birini belinə qoyub istehza ilə:

- Demək, siz həmin qadınsınız?- soruşdu.

Tərgül döyükdü:

- Anlamadım, nə demək istəyirsiniz?

- Daha nəyi anlamaq istəyirsiniz? Siz oğurlanandan iki gün sonra Nadya xala ürək tutmasından xəstəxanaya yerləşdirildi, amma xilas etmək mümkün olmadı. Ölərkən də sizin adınızı sayıqladı. İndi siz sağsınız, o isə...

Qadının dodaqları əsdi, gözləri yaşla doldu. Tərgülün də gözləri yaşarmışdı, titrək səslə soruşdu:

- Siz onun nəyisiniz?

- Bacısının qızıyam. Nadya xalanın övladı yox idi. Başı səs götürmədiyi üçün mən də gələ bilmirdim. Kirəkeş saxladığını

eşidəndə çox sevindim, tək qalmayacağını düşündüm. Bu da sonu...

Tərgül deyəcək bir sözü olmadığı üçün geri döndü. Hava qaralmağa başlasa da, qəbiristanlığa gedib qarının qəbrini ziyarət etdi, üstünə çiçək dəstəsi qoyub şam yandırdı, onun ölümündə özünü təqsirkar bilib astadan pıçıldadı:

- Bundan sonra balamı tək, heç kimə əngəl olmadan axtaracağam.

Amma günlər bir-birini qovsa da, Tərgül ümid qapısına açılan yolu tapa bilmədi.

***

Qonaqları qarşılamaq üçün uşaq evində hazırlıq işləri gedirdi. Müxtəlif ölkələrdən, həmçinin köhnə SSRİ məkanının ayrı-ayrı bölgələrindən qonaqların gəlişi gözlənirdi. Görüş dekabrın 15-ə təyin edilmişdi. Bu tarix Tərgülün yaddaşında ömürlük bir iz buraxmışdı: Adillə həmin gün evlənmiş, düz bir ildən sonra oğlu və qızı dünyaya gəlmişdi, amma qızını əcəl elə həmin gün əlindən almış, oğlunu isə üç ayı tamam olmadan ağır günlər ağuşuna çəkmiş, həyatını zindana döndərmişdi.

Gələn qonaqların içində Mişeli və Mikolanı görəndə Tərgülün sevincdən gözləri yaşardı, amma bunu heç kimə sezdirmədi: öz düşüncələri ilə çarpışarkən tribunada bir qadın göründü. O, cingiltili səslə uşaq şəxsiyyətinin formalaşması üçün körpəlikdən verilən düzgün tərbiyənin (xüsusən də yetim uşaqlar üçün) əhəmiyyətindən, milliyyətindən asılı olmayaraq uşaqlara göstəriləcək xüsusi qayğıdan söz açdı. Onun alovlu nitqi alqışlarla qarşılananda Tərgül qulaqlarında dəhşətli bir uğultu duydu. O, uğultudan qurtarmaq üçün əlləri ilə qulaqlarını qapayıb bu səsi boğmaq istədi...

Tərgül gözlərini açanda hər tərəfdə sakitlik idi. Tərpənmək istədikdə qolunda ağrı duydu, damarına qoşulan iynəyə və başının üstündə asılmış içi maye ilə dolu kapron balona baxanda xəstəxanada olduğunu anladı. İçəri girən tibb bacısından nə olduğunu soruşanda qız gülə-gülə:

- Təhlükəni adlatdınız, təzyiqiniz çox düşmüşdü, - dedi.

Ertəsi gün Tərgülün xəstəxanadan çıxmasına icazə versələr də, həkim yazılan dərmanları vaxtlı-vaxtında qəbul etməyi dönə-dönə tapşırdı.

Darya onu gülər üzlə qarşıladı. Qonaqların tədbirdən razı qaldıqlarını da söylədi və əlavə etdi:

- Uşaqları çox gözəl hazırlamışdın, təşəkkür edirəm. Gələnlərdən bir neçəsi səninlə maraqlandı, xəstəxanada olduğunu biləndə heyifsiləndilər. Amma qonaqlar üç gün Moskvada qalacaqlar, Mikolanın vasitəsilə onlarla əlaqə saxlaya bilərsən.

Tərgül elə həmin gün Mikolaya zəng etdi. Mişellə bir yerdə olduğunu öyrənəndə həyəcanlandı, aylardan bəri görmədiyi xilaskarı ilə görüşmək, körpəsi haqqında yeni bir məlumat öyrənmək üçün tələsdi. Görüş yerinə də hamıdan əvvəl çatdı. Səbirsizlikdən parkın içində var-gəl etməyə başladı. Narın qar dənəciklərinin sakit havada dövrə vurmasına xeyli baxdı. Uzaqdan gələn adamları görüncə onlara tərəf addımladı. Yaxınlaşanda gözlərinə inanmadı: gələnlərdən biri dünən çıxış edən qadın idi. Tərgül əvvəlcə duruxdu, xalqına düşmən olan bu qadınla Mikolanı, Mişeli bir sırada görmək ona çox dəhşətli göründü. Özünü birtəhər toxtadıb Mişel və Mikola ilə salamlaşdı, amma qadına tərəf üzünü çevirmədi. Tərgülün jurnalist qadına arxa çevirməsi nə Mikolanın, nə də Mişelin nəzərindən yayındı. Onların sual dolu baxışlarını görən Tərgül:

- Mən millətimin qanını axıdan, körpələri diri-diri yerə gömən bir xalqın nümayəndəsi ilə görüşə bilmərəm, - dedi və əlavə etdi, - əgər söhbətimizdə o da iştirak edəcəksə, mən yoxam.

Jurnalist qadın heç nə demədən çevrilib getdi. Tərgül qəzəbini boğa bilmədi:

- Milliyyətindən asılı olmayaraq bütün uşaqların sağlam ruhda böyüdülməsindən danışmağa, görəsən, bunun haqqı varmı? Heç olmasa, qanında boğduqları körpələri yada salsın, evi dağıdılmış, yurdu viranəyə çevrilmiş, övladı bətnində doğranmış qadınları, dinc əhaliyə tutduqları divanı xatırlasın, sonra danışmağa haqqı olub-olmadığını müəyyənləşdirsin.

Həyəcandan Tərgülün dişləri bir-birinə dəyirdi, rəngi də avazımışdı. Mikola söhbəti sabaha saxlamağı lazım biləndə Mişel də etiraz etmədi. Onlar Tərgülü qaldığı yerə - uşaq evinə qədər ötürüb geri döndülər. Mikolanın izə düşdüyü bir vaxtda hər şeyin alt-üst olması Mişeli ümidsizləşdirdi, amma o, yenə də mübarizədən əl çəkməyəcəyini söylədi. Tərgülə, körpəsinə əzab verilərkən çəkdiyi bütün materialları İvetada olduğu üçün əldə etmək asan deyildi. Güman yalnız Luizaya qalırdı: o, hələ də İvetanın yanında çalışır, bütün tədbirlərin planını hazırlayırdı. Lakin Tərgül qaçırılandan sonra İveta Luiza ilə də ehtiyatla davranır, hətta bəzən şübhələrini büruzə vermədən ondan söz qoparmağa çalışırdı. Ona görə də Luizanı yenidən bu işə qoşmaq böyük risk idi. Söhbətin sonunda qərara gəldilər ki, Tərgüldən xəbərsiz jurnalist qadınla əlaqə saxlasınlar. Amma Tərgülün məlum davranışından sonra onun razılıq verib-verməyəcəyi də müəmmalı idi.

Ezamiyyət vaxtı bitdiyi üçün Mişel geri qayıtdı. Mikola növbəti görüşdə Daryadan aldığı şəkli göstərəndə Tərgülün hey-

rətdən gözləri böyüdü, sualları bir-birinə caladı:

- Bu şəkli kim verdi? Balam sağdırmı? Sağdırsa, haradadır?

Mikolanın susduğunu görəndə gözlərindən süzülən yaş solğun yanağında bir neçə yerdən cığır saldı. Mikola onu sakitləşdirməyə çalışsa da, Tərgül doyunca ağladı. O sakitləşən kimi Mikola məsələyə aydınlıq gətirdi:

- Tərgül, axtarmadığımız, baş vurmadığımız yer qalmayıb. Uşağın adını dəyişdiklərinə görə işimiz çətinləşib. Tərgül çılğınlaşdı:

- Necə yəni dəyişiblər? Mən bir şey anlamadım.

- İndi körpənin adı Artur Muradyan, atasının adı isə Mahodur. Amma biz Maho Muradyan adlı şəxsin heç bir yerdə qeydiyyatda olmadığını da öyrəndik. Bu adam ya qaçaq yaşayır, ya da Maho onun gizli adlarından biridir.İNTERPOL-a da müraciət etmişik, yəqin ki, bir ipucu tapılacaq, - deyə Mikola sözünü bitirdi.

***

Bir neçə gün idi ki, Qayana yenə qaşqabaqlı idi: nə dinir, nə danışırdı. Onun bu halı Nayruhini çox qorxudur, təşvişə salırdı, nə edəcəyini bilmir, aciz halda qızını seyr edir, başını qatmaq üçün yollar axtarırdı. Buna görə də rəfiqələrindən birini evlərinə çay süfrəsinə dəvət etdi. Rəfiqəsi vəd olunan vaxtda, düz saat səkkizdə qapını döydü. Nayruhi qapını açanda Qayana təəccübləndi: qapının ağzında qucağında uşaq bir rus qızı və qadın dayanmışdı. Nayruhi onları mehribanlıqla qarşıladı. Gözlərini uşaqdan çəkməyən Qayana ixtiyarsız qollarını uşağa sarı açdı, uşaq gülə-gülə onun qucağına atıldı. Qadınlar elə bil möcüzə ilə qarşılaşmışdılar, sanki Qayana uşağı sehrləmişdi. Məclis maraqlı

və şən keçdi. Qadınlar xeyli deyib-güldülər, Oayana isə körpəni qucağından yerə qoymadı, onu sevə-sevə oynatdı. Qızının kefinin durulması Nayruhinin də üzünü güldürdü. Ancaq bu nəşə uzun sürmədi, gələnlər getməyə hazırlaşanda Qayananın gülər üzünə kədər çökdü, heç nə demədən qonşu otağa keçib çarpayıya üzüqoylu uzandı. Qonaqlar gedəndən sonra Nayruhi onu dilə tutmaq istədi, xeyri olmadı, o, gözlərini bir nöqtəyə zilləyib hərəkətsiz qaldı. Səhəri dirigözlü açan ana qızından nə istədiyini soruşdu. Nəhayət, axşamdan bəri danışmayan Qayananın ağzından qıfıl götürüldü:

- Ana, mən övlad istəyirəm, özü də oğul övladı. Onu mənim üçün tap, ancaq eləsi olsun ki, bizlərə oxşasın, yəni bizlərdən olsun. Onu sevə-sevə böyüdəcəyəm, əsl ana olacağam, atamın, balamın, yurd-yuvamın qisasını alan bir oğul yetişdirəcəyəm.

Qayananın "bizlərdən olsun" kəlməsini xüsusi vurğulaması ananın diqqətindən yayınmadı, sinəsi qalxıb-endi,amma onun sinəsinin nə üçün qalxıb-endiyini anlamaq çox müəmmalı idi.

Əlacsız qalan Nayruhi növbəti işbirliyi üçün Xoreni axtardı. Xoren ondan bu sözü eşidən kimi razılaşdı:

- Bibiqızı, puluna minnət. Neçə uşaq istəyirsən, gətirim.

Nayruhi üz-gözünü turşutdu:

- Elə biri bəsdir, amma türk uşağı olsun.

- Axı türk uşağını neynirsən?

- İntiqam almaq üçün. Onu elə yetişdirəcəyəm ki, türklərə nifrət etsin.

- Bax buna varam, bibiqızı. Hiss olunur ki, damarlarından əsl erməni qanı axır. Bir həftəyə uşağı məndən istə.

Xoren ayrılıb getdi, Nayruhi onun ardınca xeyli baxdı, gözü saata sataşanda cəld ayağa qalxdı: Qayana evdə tək idi.

***

Xoren verdiyi sözə əməl etdi və uşağı gətirdi. İstədiyi məbləği Nayruhidən qoparıb dişlərini ağartdı:

- Anası ölmüş əsirlərdən birinin övladıdır. Amma uşağın sənədləri yoxdur, onu düşərgədən zorla çıxarmışam. Qeydiyyata alınıb-alınmadığı haqqında da heç nə bilmirəm. Sənədləri hazırlamaq sizin işinizdir, amma izinə düşüb uşağı axtarıb tapsalar, nə mən sizi tanıyıram, nə də siz məni, - dedi və tez də oradan uzaqlaşdı...

Körpənin gəlişi evdəki ab-havanı tamamilə dəyişdi. Qızının üzünün gülməsi, qəlbində həyat eşqinin aşıb-daşması Nayruhini çox sevindirdi, uşağın üz cizgilərində tanış xətlər axtardı, bəzən elə sandı ki, qəbrinə öz əlləri ilə qoyduğu nəvəsi torpaq altda qalmaqdan bezib, anası üçün darıxıb və buraya gəlib.

Uşağa sənəd düzəltməyə ehtiyac qalmadı, Qayana gələrkən oğluna məxsus hər şeyi, hətta doğum şəhadətnaməsini də gətirmişdi. İndi o hər gecə körpə Ayxanını qolları üstündə yatırır, uzun müddətdən bəri susan laylaları otağa yayıldıqca özü də mürgüləyirdi.

Qayana sevincini Tərgüllə bölmək fikrində olsa da, anası buna icazə vermədi, son olaylar: Tərgülün: "Əlvida!"- deyərək geriyə baxmadan evdən çıxması, başqalarının yanında ona arxa çevirib bütün acılarını (əslində Nayruhi onun hərəkətlərinə haqq qazandırırdı) üstünə tökməsi bir-bir xəyalında canlandı, sakitcə:

- O, buralara gəlməz, qızım, nahaq əziyyət çəkmə, - dedi.

Ürəyində anasına inanmasa da, Qayana susdu.

***

Axtarışların heç bir fayda verməməsi Tərgülü üzür, məsafə onu övladından cismən nə qədər uzaqlaşdırsa da, qəlbən daha çox

bağlayır, əhatəsində olduğu uşaqlar boy atdıqca onun da balası boy atır, dil açdıqca ilk kəlmələrini deyir, başqaları kimi kövrək addımlarını qollarını irəli uzadaraq qorxa-qorxa atır, balaca top-puş əlləri ilə onun ətəyindən yapışırdı. Əlini hər dəfə ətəyindən yapışan uşağın başına çəkəndə ayılır, öz körpəsi olmadığını du-yanda sinəsindən qopan ah ürəyinə köz basırdı. Günlər keçdikcə Tərgül şam kimi əriyir, şəvə kimi qara saçlarında təkəm-seyrək ağ dənlər görünürdü. Moskvaya gəlişi bir ildən çox olsa da, o ötüb keçən hadisələri qətiyyən unutmur, hər şey: Xocalını tərk etdiyi o məşum gecə, gözünün qarşısında qanlı bıçağı öldürdüyü hamilə qadının paltarına silən erməni yaraqlısı, Xorenin eybəcər irişməsi, Surenin yaltaq və qorxaq siması, İvetanın cinayətkar hərəkətləri elə bil bir addımlıq məsafədən ona əl edirdi. Gecələr yuxusu ərşə çəkilən Tərgül yenə də ümidini üzmür, köməyi Al-lahdan diləyirdi.

***

Bazar günü zəngin cingiltili səsi Mikolanı yuxudan ayıltdı. Yeni doğulan körpə gecəni narahat olduğu üçün Sofiya ilə bəra-bər uşağa baxan gənc ata vaxtında oyana bilməmişdi. O, gözucu saata baxdı, cəld yerindən qalxdı, geyinib görüş yerinə tələsdi. Nadejda imzası ilə tanınan erməni jurnalist qadın Mikolanın gəl-diyini görüb oturduğu skamyadan qalxdı. Onun gətirdiyi məlu-mat elə də ürəkaçan olmadı. Nadejdanın öyrəndiyinə görə, Maho Muradyan Suriya əsilli erməni Vartan Gevorkyanın ikinci adıdır. O, saxta sənədlə Qarabağa gəlib və Xocalı faciəsində qəddarlı-ğı ilə seçilən xüsusi dəstənin üzvü olub. Amma çox müəmmalı şəkildə öldürülüb, kiminsə uzaqdan atdığı xəncər hamının gözü qarşısında ürəyinə sancılıb, heç yardıma da ehtiyac qalmayıb.

Cəsədi Yerevandan Suriyaya göndərilib.

Mikola düşüncəli halda soruşdu:

- Bəs uşaq?

- Ondan heç bir məlumat ala bilmədim. Bəlkə də, bu gün kimsə Maho Muradyanın adından istifadə edir. Çünki Suriyalı Maho mart ayında öldürülüb.

Mikola birdən ayıldı:

- Elədir ki, var. Çünki Tərgülün uşağının adı may ayında dəyişdirilib. Deməli, biz ikinci Maho Muradyanı tapmalıyıq,- deyərək sağ əli ilə alnını ovuşdurdu, elə bil nəyi isə yadına salmağa çalışdı. O, Nadejdanın üzünə nüfuzedici nəzərlərlə baxdı:

- Bizə yenə də kömək edə bilərsinizmi?

Nadejda susdu. Onun dillənmədiyini görəndə Mikola sözünə davam etdi:

- Bilirəm, bu məsələ sizin üçün o qədər də ürəkaçan deyil, amma biz jurnalistik, həqiqətin carçısıyıq. O həqiqətin ki insanları nə milliyyətinə, nə də dövlətinə görə çeşidləyir. Əgər arxalandığımız həqiqət bir ananı sevindirəcəksə, onu bu sevincdən məhrum etməyə heç birimizin haqqı yoxdur.

Mikolanın sonuncu cümləsindən sonra Nadejda güclə eşidiləcək bir səslə soruşdu:

- Mən nə etməliyəm?

Onun səsindəki kədər Mikolanın diqqətindən yayınmasa da, sözünə davam etdi:

- Vaxtilə Fransada gözəllik yarışmasının qalibi seçilən İveta Qukasyanın Yerevanda yaşayan anasının evinə bir jurnalist kimi gedə bilərsinizmi?

- Nə üçün? – Nadejda bir qədər həyəcanlandı.

- Çünki uşağı Maho Muradyana onlar təhvil veriblər. Bəlkə,

bu barədə nəsə öyrənə bildiniz. Nadejda başını tərpədib razılıq verdi.

***

Nayruhi gecədən xeyli keçsə də, evə gəlməmişdi. Başı körpəyə qarışan Qayana pəncərədən çölə baxanda havanın çoxdan qaraldığını gördü və ürəyinə səksəkə doldu. Axı anası heç vaxt bu qədər gecikməz, onu tək qoymazdı. Canına qorxu düşdüyü üçün telefona yaxınlaşdı (Nayruhi uşaq evə gələndən sonra yaşayış yerini yenə dəyişmişdi), əlləri əsə-əsə dəstəyi qaldırdı, anasının cib telefonuna zəng etdi. Telefon qapadıldığı üçün həyəcanı daha da artan Qayananın yadına Tərgül düşdü. Onun verdiyi telefon nömrəsini çox axtardı, amma haraya qoymuşdusa, tapmadı, xatırlamağa çalışdı, yadına sala bilmədi. Körpəni bağrına basıb evin içində var-gəl etməyə başladı. Dəqiqələr saatlara çevrildikcə Qayananın qorxusu daha da artdı, bayırdan gələn hər çıqqıltıya həyəcanlandı. Qapının rəzəsini də keçirdikdən sonra özündə bir az rahatlıq duydu, divanın böyründəki kresloda oturub körpəni yırğalamaq istədi. Şirin yuxuda olan körpə dünyadan bixəbər kimi uyuyurdu. O, başını kreslonun qoltuğuna söykəyib körpəsi ilə keçirdiyi günləri xatırladı. Şirin xatirələr qoynunda da yuxuya getdi...

Məhəllədəki bulaq başını yenə qızların səs-küyü bürümüşdü.

Balaca Ayxanı görən kimi hərəsi bir tərəfdən onu əzizləməyə başladı. Qızların səs-küyündən körpə dodaqlarını büzdü, üzünü anasının sinəsində gizlətdi. Qayana sinəsinin istiləndiyini duydu, qızlardan uzaqlaşıb, körpəni ovundurmaq istəyəndə iri burunlu yastısifət erməni balta dişlərini ağardaraq qarşısını kəsdi,

əlindəki tapança ilə onu hədələyərək uşağı tələb etdi. Onun qəribə ləhcəsi ermənicə yaxşı bilmədiyini göstərirdi. Qayana geri dönüb addımlarını yeyinlətdi, bütün gücünü toplasa da , ayaqları sözünə baxmadı, iri gövdəli bir ağacın arxasında gizlənmək istəyəndə digər tərəfdən gələn Xoren qarşısını kəsdi. Elə bu vaxt göy guruldadı, iri dolu dənələri hər tərəfi döyəcləməyə başladı, ildırım dəhşətlə şaqqıldadı. Səsdən qorxan uşaq daha ucadan ağlamağa başladı. Hər yerdən əli üzülən Qayana qışqıraraq kömək istədi... Elə öz səsinə də ayıldı. Qapı şiddətlə döyülürdü. O, yerindən qalxdı, gözcükdən baxanda anasının yanında üzünü əks tərəfə çevirən bir kişi gördü. Hələ də yuxunun təsirindən çıxmadığı üçün titrək səslə:

- Ana, - dedi.

- Qapını aç, qızım, qorxma, - sözlərini eşidəndə isə taqətdən düşmüş əlləri ilə qapının rəzəsini zorla çəkə bildi.

Nayruhi içəri girəndə yanındakı adama məhəl qoymadan:

- Ana, bir də evə gec gəlmə, - deyib hönkürdü və anasının boynuna sarıldı.

Anasının:

- Qızım, bir imkan ver. Gör kim gəlib?- sözlərini də hönkürtüdən eşitmədi. Sakitləşəndən sonra arxada dayanan yaşlı adamı gördü, heyrətindən bağırmaq: “Ata!”- deyərək boynuna sarılmaq istədi, lakin həmin gecəni xatırlayanda sevinci bir anda yoxa çıxdı, qolları yanına düşdü. Qonaq Bakıda yaşayan böyük əmisi Raqif idi.

Söhbət zamanı məlum oldu ki, əmisi Qayananı aparmağa gəlib. Qayana tərəddüdlə gah əmisinə, gah da anasına baxdı. Əvvəllər anasından nə qədər qaçmağa çalışmışdısa, son olaylar onu Nayruhiyə daha artıq bağlamışdı. O, yataqda uyuyan körpəyə

yaxınlaşdı, üzünə uzun-uzadı baxdı, gəlib yenidən anasına qısıldı. Nayruhi onun saçlarından öpərək:

- Qızım, getməyin məsləhətdir. Mən özüm üçün yox, səndən, Ayxandan ötrü narahatam. Sizi burada tənha qoya bilmirəm, hər anın bir hökmü var. Burada tək mən varam, orada isə bütün doğmaların, vətənin var, - deyərək Qayananı razı salmağa çalışdı.

- Ana, bəs sən?

Boynuna sarılan qızını çiçək kimi qoxulayan Nayruhi ona ürək-dirək verdi:

– Mənim üçün narahat olma, görüləsi işlərim var, onları bitirəndən sonra qəbul etsələr, mən də sənin yanına gələcəyəm.

Nayruhi lazım olan əşyaları iri yol çantasında qablaşdırdı. Taksi həyətdə dayananda Qayana bir daha görməyəcəkmiş kimi anasının boynuna sarıldı, ömründə ilk dəfə onu öpüşlərə qərq etdi, gözlərindən axan yaşı silib:

- Səni gözləyəcəyəm, ana, - dedi və körpəsini bağrına basıb pillələri ağır-ağır endi. Taksi yerindən tərpənəndə pəncərədən baxan Nayruhinin üzünü göz yaşları yuyurdu.

***

Qayana getdi. Gedişi ilə evin düzənini, hərarətini, sevgisini də apardı. Özünü heç vaxt bu qədər tənha saymamışdı Nayruhi. Nə qədər başını qatmağa çalışsa da, daxilində nəyinsə qırıldığını dərk edir, var gücü ilə bu sıxıntıdan qaçmağa can atsa da, bacarmırdı. İndi onun gedə biləcəyi yalnız bir yer vardı: üzvü olduğu təşkilat. Amma son vaxtlar təşkilatın üzvləri ilə də bəzən sözü düz gəlmir, onun hərəkətlərini başa düşməyənlərlə arasında narazılıq yaranırdı. Təşkilatın rəhbəri çoxdan tanıdığı Nayruhidəki

düşkünlüyü hadisələrin gərginliyi ilə əlaqələndirib (Qarabağda Azərbaycan ordusunun irəliləyərək bir sıra obyektləri, o cümlədən Ağdərəni azad etməsi, Laçın koridorunun getdikcə daralması, strateji yüksəkliləri geri alması ermənilərdə ruh düşkünlüyü yaratmışdı) ona bir müddət dincəlmək üçün Yerevana, qohumlarının yanına getməyi məsləhət bildi. Bu təklif Nayruhi üçün göydəndüşmə oldu, tərəddüd etmədən razılıq verdi. Bir neçə dəqiqədən sonra o, taksi ilə qaldığı evə qayıtdı.

Evdə gözünə dəyən əyin paltarlarından bir neçəsini və bacıları üçün aldığı hədiyyələri yol çantasında səliqə ilə yerləşdirdi.

Qabaqcadan sifariş verdiyi üçün axşam reysinə bilet də ala bildi.

Təyyarə Yerevan hava limanında yerə enəndə səhər saat dörd idi. Bu vaxt heç kimi narahat etmək istəmədiyi üçün Nayruhi səhəri aerovağzalda qarşıladı. Hava işıqlaşan kimi taksilərdən birinə əyləşib bacısı Siranuşun ev ünvanını söylədi. Taksi həyətdə dayananda ətrafda heç kimi görmədi və tez gəldiyi üçün təəssüfləndi. Havada bərk sazaq vardı. Üşüdüyünü hiss edən Nayruhi əlacsız qalıb dar döngədən həyətə buruldu. Alaqapını açıb içəri girən kimi gözləri ayaqyoluna gedən cığıra dikildi. Cığırın bir hissəsi çökmüşdü. Xoren nişan verdikdən sonra Nayruhi Siranuşdan xəlvət tapdaq altında basdırılmış nəvəsinin meyitini məhz oradan çıxartmış, gecə ilə də Şuşaya yollanmış və həmin vaxtdan qəlbində mərhəmət hissindən məhrum bacısına özünün də anlamadığı qəribə bir nifrət hissi oyanmışdı. Səhər açılanda cəsədin "oğurlandığını" bilən Siranuş hay-həşir qoparmış, amma Nayruhidən şübhələnməmişdi, çünki bir gün əvvəl onu Şuşaya özü yola salmışdı.

Nayruhi astadan qapını döydü. Çox çəkmədən addım səs-

ləri eşidildi. Başdan-ayağa qara geyimli Siranuş müqəvva kimi qarşısında dayandı. Hiss olundu ki, çağırılmamış qonağın gəlişi onun ürəyincə deyil. Könülsüz halda qapının ağzından çəkilib bacısını içəri dəvət etdi.Səhər açılsa da, otaq qaranlığa qərq olmuşdu, yalnız evin yuxarı başından televizorun ekranı işıldayırdı. Bacısının səhər tezdən filmə baxması Nayruhiyə qəribə gəldi. Yerinə keçib gözlərini ekrandan ayırmayan Siranuş filmi dayandırıb lenti bir qədər geri fırlatdı. Ekran işıqlananda əvvəlcə açıq bələkdə yerə qoyulmuş uşaq Nayruhinin diqqətini cəlb etdi. Körpə ağlayır, sanki kimdənsə imdad diləyirdi. Elə bu vaxt bir tərəfdən hürə-hürə körpəyə çatmağa az qalan vəhşi itin qorxunc səsi, digər tərəfdən isə uşağa tərəf qaçan ayağı zəncirli qadının naləsi otağı doldurdu. Qadın yürüdükcə zəncirlərin doğradığı yaralardan süzülən qan yaşıl otların üzərində "naxış"salırdı. Uşağı qamarlayan qadının sehrli səsi birdən Nayruhini ayıltdı, qulaqlarına inanmadı, gözlərini silib ekrana bir də diqqətlə baxdı. Bəli, bu, Tərgül idi – başı bəlalı Tərgül. O, başına gələnləri Qayanaya danışanda da Nayruhi çox təsirlənmişdi, amma gözü ilə gördükləri əsl dəhşət idi.

Siranuş televizoru söndürdü, dönüb bacısının üzünə diqqətlə baxdı, sanki filmin onda necə təəssürat oyatdığını gözlərindən oxumaq istədi. Nayruhinin bir söz demədiyini görüb soruşdu:

- Maraqlı idimi?

- Maraqlımı? Bu ki dəhşət idi! – Nayruhi hiddətlə cavab verdi.

- Mənim çəkdiyim əzabdan çoxmu dəhşətli idi?- sualı Nayruhini ayıltdı, səsinə bir qədər yumşaqlıq qatdı:

- Əziz bacım, bilirəm, dərdin böyükdür, amma bu, müharibədir, hər şeyi gözə almağı bacarmaq lazımdır. Bax mən bütün

ailəmi itirdim, tənhayam, amma dözürəm. Arabir sizləri görəndə göynəyimi unuduram.

- Sən göynəməməlisən. Əslində sən heç kimi itirməmisən, sadəcə düşmənlərimiz iki-üç nəfər azalıb. Düşmənə yas saxlamazlar. Amma mən, - Siranuş dəsmalını gözünə basaraq bağırdı, - Harri kimi bir oğul itirmişəm... Oy, Harri, Harri, sən qara torpaqda necə yatırsan? Günəşi görmədən o qaranlıq məzarda necə dözürsən? Hö-hö-hö!

Nayruhi bacısını sakitləşdirmək istədisə də, Siranuş susmadı. İvetaya dediyi sözləri yenidən təkrarladı:

- Bir oğlumun əvəzinə min türkün başını kəssəm, uf deməərəm, bütün türk qadınlarını zavallı görsəm, yaralarım qaysaq bağlamaz. Xorenin gətirdiyi türk çocuğunu da mənə çox gördülər, lənətə gəlmişlər gecə ilə oğurladılar. Hər dəfə onun cəsədini tapdalayıb keçəndə yaralarımın sızıltısı cüzi də olsa, azalırdı.

Siranuş susdu, gecəni yatmadığı üçün keçib yerində uzandı. Nayruhi də yorğun idi, oturduğu kürsüyə dirsəklənib yuxuya getdi.

***

Azərbaycan ordusunun irəliləməsi, kəndlərin bir-bir azad edilməsi ermənilərі qəm dəryasına qərq etmiş, aman istəməkdən başqa çarələri qalmamışdı. "Böyük qardaş" da, deyəsən, onlara dərs vermək qərarına gəlmişdi. Üzünü Avropaya, Amerikaya tutan erməni diasporu ordumuzun torpaqlarımızı azad etmək niyyətini "işğalçılıq" siyasəti adlandıraraq canfəşanlıq edir, Azərbaycan əleyhinə müxtəlif qərarların verilməsinə nail olmaq üçün dəridən-qabıqdan çıxır, hətta bəzən məqsədinə də asanlıqla çatırdı. Ancaq qoyulan embarqolara baxmayaraq, ordumuz irəliləyir,

ermənilərin kürkünə birə salırdı. Ermənilər Qarabağ hadisələrinə "azadlıq" hərəkatı donu geyindirsələr də, dünyanın əksər ölkələri zaman keçdikcə bunun "böyük"lərin oyunu olduğunu da dərk edir, lakin yenə seyrçi mövqedən əl çəkmirdi. Dünyanın gözləmə mövqeyi tutması erməniləri nə qədər arxayınlaşdırsa da, Qarabağda partizan hərəkatının başlanması bir o qədər qorxudurdu. Ona görə də onlar necə olursa-olsun, vəziyyətdən çıxış yolu tapmağa çalışır, hər tərəfə qarmaq atırdılar. Köhnə imperiya məkanını bərpa etmək üçün müxtəlif görüşlər keçirən, birliklər yaradan Rusiya da öz maraqlarını güdərək "Qarabağ" kartını əldən vermək istəmədiyi üçün ermənilərə növbəti köməyi vəd etdi...

Nayruhi iki gün idi ki, Şuşada idi. O, buraya yalnız qəbirləri ziyarət etmək üçün gəlməmişdi, mühüm bir tapşırıq da onu gözləyirdi. Vəziyyətlə bağlı Şuşada zahiri sakitlik hökm sürürdü, lakin əsirlərin birdən-birə yoxa çıxması, gediş-gəlişin kəsilməsi , küçələrin yetimləşməsi bu sakitliyin müvəqqəti olduğuna işarə idi."Laçın koridoru"nun daralması yaxınlarda çox böyük dəyişikliklər olacağından xəbər verirdi. Yaraqlılara verilən içkilər, müxtəlif uyuşdurucu maddələr də qorxunu unutmaq üçün idi. Nizamsız, sərxoş ermənilər keçmiş "qələbə"lərini əsirlərə müxtəlif işgəncələr verməklə, qadınlara, azyaşlı uşaqlara, qızlara zorakılıq tətbiq etməklə yad edir, qarşılaşdıqları məğlubiyyətin keçici olduğuna inanmağa çalışırdılar. Ermənilərin sərxoşluğu vaxtilə bir əsir qıza edilən zorakılığı Nayruhinin gözləri qarşısında canlandırdı...

Sərxoşluqdan gözləri qızmış erməni yaraqlıları gözəlliyi ilə könülləri ovsunlayan əsir qızı əvvəlcə sındırılmış butulka şüşələrinin üstündə musiqi sədaları altında oynatmağa çalışdılar. Əsir götürülərkən paltarı bir neçə yerdən cırılmış qız əndamını ört-

məyə səy göstərəndə vəhşi qəh-qəhə ətrafı bürüdü. "Tərəkəmə"-nin oynaq sədası eşidiləndə qız ayağa qalxdı, başını dik tutaraq şüşələrin üstündə addımlamağa başladı. Onun məğrur yerişlə sərxoş ermənilərə meydan oxuması Sado ləqəbi ilə tanınan yaraqlıya xoş gəlmədi, qızın ayaqları altına avtomat güllələrini yağdırdı. Qızsa dayanmadı, şüşələrin üstü ilə yeridikcə ayaqlarının qanı döşəməni qırmızı rəngə boyadı. Musiqi birdən kəsildi, Sado kobud hərəkətlə onun qolundan tutub kənara fırlatdı. Başı divara dəyən qız yenə də cınqırını çıxarmadı, divarın dibinə çökdü. Özünə gələndən sonra əlini yerə dayayıb ayağa qalxdı. Sado onun qarşısında dayanıb kobud səslə:

- Deməк, oynamadın,- o, birdən- birə əlinin arxası ilə alnını döyəclədi, - ara, necə də unutmuşam, axı siz türklərin oynamaqdan xoşu gəlmir. Allah sizi oxumaq üçün yaradıb. "Qarabağ" şikəstəsini oxusan, səni mükafat gözləyir, - o, qarşısındakı saqqallını göstərəndə yenə də sərxoş qəh-qəhələr gecənin səssizliyini pozdu, - bax bu oğlan səni əyləndirəcək, cənnətə qovuşacaqsan, - dedi və iyrənc-iyrənc irişdi.

Qız yenə də dinmədi, asta-asta otağın ortasına gəlib aşağı əyildi, döşəmədən götürdüyü şüşə parçasının iti ucunu boğazına dayadı və nifrətli baxışlarla Sadonun qarşısında dayandı:

- Mən ölümü qəbul edərəm, amma soyu, əsli olmayana əyilmərəm, sizə muğam yox, bu, layiqdir,- deyib onun üzünə tüpürdü. Üzünün tüpürcəyini silən Sadonun silaha əl atmağına ehtiyac qalmadı, qızın boğazından fışqıran qan yerdə göllənirdi.

Nayruhi donub qalmışdı, əsir qızın cəsarətinə, aman istəməməsinə heyrətlənmişdi. Ölüm ayağında belə əsirin gözlərində yanan həyat eşqi onu ovsunlamış və o vaxtdan yaddaşında dərin iz buraxmışdı...

Müharibənin ilk vaxtlarında buna o qədər də əhəmiyyət verməyən Nayruhinin bu hadisəni nə üçün xatırlaması çox qəribə idi. O, yaraqlılardan ayrıldı, dəstənin başçısı Sərkisdən lazımi məlumatları alıb kazarmadan çıxdı. İndi onun yolu Şuşa qəbiristanlığına idi...

***

Şuşa qəbiristanlığı əvvəlki görünüşünü itirmiş, müharibənin ağrı-acısını daha çox dadmışdı: mərmər başdaşıların çoxu sökülüb aparılmış, qəbirüstü abidələr uçurulmuşdu. O, xarabanı xatırladan məzarlıqda axtardığını tapanda sevindi: böyür-böyürə düzülmüş qəbirlərə heç nə olmamışdı.. Nayruhi əvvəlcə Vaqifin, sonra isə üzünü bir dəfə belə görmədiyi kürəkəninin məzar daşını sildi, nəvəsi Ayxanın kiçik torpaq beşiyinin qarşısında yerə çökdü, donmuş torpağı yalın barmaqları ilə tumarladı, ürəyində səslənən ağını dilinə gətirməsə də, pıçıltı ilə: “Rahat uyu, mənim balam”,- deyib hıçqırdı.

Nayruhi vaxtın necə keçdiyini bilmədi, bir-birini çağıran xatirələr onunla əl-ələ tutub mehribancasına həmsöhbət oldu. Üzünü dağların soyuq küləyi yalayanda o, qəbiristanlıqda olduğunu xatırladı, oturduğu yerdən qalxdı, lakin ayaqları uyuşduğu üçün addım ata bilmədi. Donmuş barmaqları ilə bir neçə dəfə baldırlarını döyəclədi və ayaqlarının keyinin açılmasını gözlədi, lakin nədənsə birdən-birə vahimələndi: hava qaralmamış qəbiristanlıqdan uzaqlaşmağa çalışdı. Uçurulmuş qəbirlərin arası ilə irəlilədikcə elə zənn etdi ki, dörd tərəfdən ətəyindən yapışmağa çalışan əllər onu geri çəkib qisas almaq istəyir. Arxasınca sürünən bir kabus isə evə çatana qədər ona rahatlıq vermədi. Nayruhi özünü zorla evə çatdırdı, qapını

arxadan bağladıqdan sonra bir qədər sakitləşdi. Üşüdüyü üçün sobanı yandırıb çoxdan unutduğu yatağına girdi, başını yorğanın altında gizlətdi, canı isinən kimi dərin yuxuya getdi... Göyün üzü bozarmışdı, qar havası adamın iliyinə işləyirdi. Yəqin ki, tezliklə qar hər tərəfi bürüyəcəkdi. Lopa-lopa qarın yağmasından xüsusi ləzzət duyan Nayruhi qollarını geniş açaraq göyə baxır, sanki adda-budda düşən bütün qar dənəciklərini qucmağa çalışırdı, amma dənəciklər ondan qaçır, başının üstündə hərlənsə də, hamısı bir istiqamətə uçur, yarıçılpaq bədənini örtməyə çalışan əsir qızın üstünə qonurdu. Nayruhi heyrətləndi, soyuqdan dodaqları göyərib əsim-əsim əsən qıza yaxınlaşdı və vahimə içində soruşdu:

- Sən kimsən?

Qızın göyərmiş dodaqları aralandı, inci dişləri şaqqıldadı. Bu şaqqıltı birdən göy gurultusuna çevrildi:

- Mən sənin hər addımını izləyən kabusunam, nə qədər ki bu torpaqlardasınız, sizə rahatlıq verməyəcəyəm, yaxşı bax, tanımadınmı?

Qorxudan dili topuq vuran Nayruhi ağzını açıb: "Yox", - demək istəyəndə qızın boğazından axan qan üstünü örtən qarı qırmızı rəngə boyadı. Bir anda hər tərəfi al-qırmızı rəng bürüdü, indi onun üstünə qırmızı qar yağırdı. Nayruhi qızı tanıdı, sərxoş ermənilərin məclisini lentə aldığı anı xatırladı, özünə haqq qazandırmağa çalışsa da, səsi çıxmadı, qırmızı qar topasının altından uzanan əl onun boğazından yapışdı. O hiss etdi ki, boğulur, boğazından tutan əli zorla qoparmağa çalışdı, gücü çatmadı, can verən adamlar kimi xırıldadı... Nayruhi öz xırıltısına yuxudan oyandı, boğulduğunu, havasının çatmadığını hiss edib zorla ayağa qalxdı, lampanı yandıranda üst-başını, yatağını qan içində

gördü. Burnundan açılan qanı kəsmək üçün alnına soyuq suda islatdığı əsgini qoydu. Qanaxma dayanandan sonra əl-üzünü yuyub üst-başını dəyişdi və özündən başqa heç kimin yerini bilmədiyi divar içində düzəldilmiş seyfi açdı. Evi təmir etdirəndə bu gizli seyfi qoca bir erməni ustaya düzəltdirmişdi. Seyfdə hər şey yerində idi. O, əlləri əsə-əsə kasetlərdən birini çantasına qoydu...

***

Günlər ayları qovsa da, aylar illəri doğsa da, ətrafındakı uşaqlar onu sevsə də, qəlbindəki nisgil azalmaq əvəzinə daha da artır, Tərgülü damla-damla əridirdi. Neçə vaxt idi ki, heç kimdən xəbər tuta bilmir, bütün axtarışları hədər gedir, Darya Alekseyevnanın ümidverici sözləri çox əhəmiyyətsiz səslənirdi.

Tərgül işinə yenə məsuliyyətlə yanaşırdı, yenə həzin səsi ilə körpələri ovudurdu, amma hamı duyurdu ki, bu səsdə qərib bir ananın böyük kədəri gizlənib. Ümidsizlik içində ümid axtaran ananın faciəsini anlamaq bu həzin səsin şirinliyi qədər acı idi.

Qarlı qış çoxdan arxada qalmışdı, yenə yaz gəlmişdi. Tez-tez yağan yağışlar yaşıl yarpaqları dünyanın "toz-torpağ"ından təmizlədikcə təbiət gülürdü. Tərgül iki ildən çox idi ki, Novruz süfrəsi açmırdı, xonça tutmurdu. İndi onun Novruzu da, tutacağı xonçası da ata-ana həsrəti çəkən körpələr və hələ də yoxluğuna inanmadığı iki yaş yarımlıq ciyərparası idi. Mikoladan da bir xəbər yox idi. Son dəfə görüşərkən vəziyyətlə bağlı reportaj hazırlamaq üçün Şərq ölkələrinə müxbir kimi göndəriləcəyini söyləmişdi. Onun dediyindən bir ildən çox vaxt keçmişdi. Hamı tərəfindən unudulduğunu güman edən Tərgül başqa çıxış yolu da tapa bilmir, düşünməkdən baş ağrıları getdikcə şiddətlənirdi.

Günortaya yaxın Darya Alekseyevna gülər üzlə ona yaxın-

laşdı. Tərgül onun sözlü adama oxşadığını o dəqiqə hiss etdi, təlaşla:

- Yeni xəbərmi var? – soruşdu.

Darya məmnun halda dilləndi:

- Əlbəttə, Mikola bu gün qayıdıb, bayaq zəng eləmişdi. Uşaqla da maraqlanıb, deyəsən, təzə məlumat bilir.

Həyəcandan Tərgülün dişləri bir-birinə dəydi, Darya onun əllərindən tutdu:

- Nə olub, üşüyürsənmi?

Tərgül özünə toxtaqlıq verib:

- Yox, bir az həyəcanlandım, - dedi və əlavə etdi,- yəqin ki, bir azdan keçib-gedər.

Darya daha dillənmədi, o, Tərgülün üfüqlərə zillənib yol çəkən gözəl gözlərinin seyrinə daldı. Bu gözlərdəki saflıq, dərinliklərdən süzülüb gələn nisgilli ümid onu qəhərləndirdi. Hiss etdi ki, kövrəlir, Tərgülün əllərini buraxdı, gözlərini yerə dikib sükutu pozdu:

- Mikola sabah gələcək.

Sabah sözü Tərgülü səksəndirdi:

- Sabahmı?

Darya bu sualda illərin ağır yükünü çiyinlərində daşıyan bir ananın yorğunluğunu duydu. Təsəlliverici bir səslə:

- Hə, sabah. Dəqiqləşdirilməli bəzi məqamlar və görüşəcəyi adamlar var, işlərini bitirən kimi buraya gələcək, - dedi.

Tərgül susdu, sabahı gözləmək onun üçün çox uzun göründü. Bu "bir il"də üç yaşına qədəm qoymuş körpəsini xatırlamağa çalışdı, amma ağbəniz sifətindən, gülüşə həsrət gözlərindən və çənəsindəki xaldan savayı simasında hansı dəyişikliklərin olacağını xəyalında canlandıra bilmədi. Günü birtəhər başa vursa

da, səhərin açılması ona sonu görünməyən nabələd yollar qədər uzun göründü - bu yolun axırında onu nə gözləyir: sevincmi, kədərmi, gülüşmü, qəhərmi? Ayırd edə bilmədi Tərgül: dəfələrlə gözü dolub-boşaldı, bəzən dodaqlarına xəfif təbəssüm qondu. Bu təbəssüm ona balasından xəbər verən sözləri havadaca öpdü, əlləri bu kəlmələrin boyunu sevdi, oxşadı. Gecə isə tükənmək bilmədi ki, bilmədi...

Gurultu səsi Tərgülü xəyallardan ayırdı. Gurultunun ardınca sanki havada fişəng parladı. Bir azdan iri yağış damcıları pəncərələri, səkiləri, gediş-gəlişin hələ də kəsilmədiyi yolları, təzəcə pardaqlanan gül kollarını döyəcləməyə başladı. Tərgül yenidən xatirələrə baş vurdu: belə yağışlı günlərdə Qarqar çayının bəzən hay-küy qopara-qopara məcrasından çıxması gözlərinin qarşısında canlandı. Yağış qəfil başladığı kimi birdən də kəsdi, adda-budda gecikərək evin damını döyəcləyən, amma səsi öz içində boğulan damcılar dəstəsindən ayrı düşən əsgərin inamsız addımlarını xatırlatdı. Ulduzlar göyün dərinliklərində sayrışmağa, yuxulu gözlərini ovuşdurub bir-birinə göz vurmağa başlayanda Tərgül göz qapaqlarının ağır-ağır endiyini hiss etdi...

Saatın zəngi onu yuxudan ayıltdı. Başındakı zəhlətökən küt ağrılara baxmayaraq, Tərgül yerindən qalxdı, əl-üzünü yuyan kimi uşaqların yanına tələsdi. İş gününün sonuna yaxın Darya Alekseyevna onu otağına çağırdı: Mikola gəlmişdi. Tərgül xoş xəbər gözləməkdən yorulan gözlərlə Mikolaya baxdı, onun üzündəki təbəssümdən ümidləndi. Hiss etdi ki, müsahibi əliboş gəlməyib. Doğrudan da, Mikola mühüm bir material gətirmişdi: o, Tərgülün yanına erməni əsilli jurnalist Nadejdanın hansı yollasa əldə etdiyi mühüm bir dəlillə - İvetanın malikanəsində Mişelin çəkdiyi kasetlə gəlmişdi.

Mikola əvvəlcə kaseti nümayiş etdirmək istəmədi, amma Tərgülün gözlərindəki yalvarışı görəndə başqa çarəsi qalmadı.

Videonu izlədikcə Darya göz yaşlarını saxlaya bilmədi, Tərgül isə sakit-sakit vaxtilə yaşadığı erməni vəhşiliyini indi kənardan seyr edirdi. Lakin buna sadəcə seyr demək də doğru deyildi, o, həmin həyatı yenidən yaşayırdı, ayaqlarını doğrayan zəncirlərin acısını indi duyurdu. Video bitəndə Mikola ilə Daryanı dəhşət bürüdü: Tərgül boş qollarının üstündə körpəliyi əlindən alınmış balasının xəyalını yırğalayır, "ovutmağ"a çalışırdı...

Bu səhnə dilsizi dilə gətirər, qayaların bağrını sökərdi. Göz yaşlarını sevməyən Mikola özünə hakim ola bilmədi, bu səhnəni qəhərlənərək seyr etdi. Darya arxadan çiyinlərini qucaqlayanda Tərgül xəyaldan ayrıldı və doyunca ağladı.

Mişellə əlaqə yaradandan sonra Mikola kaseti Sərhədsiz Jurnalistlər Birliyinin vasitəsilə lazımi orqanlara çatdıracağını və cinayətkarlara Beynəlxalq Hüquq normalarına əsasən dava açdıracağını söylədi. Cinayətin cəzasız qalmayacağına, nə vaxtsa haqq-ədalətin yerini tapacağına inanan Tərgülün gözlərində yeni ümid şöləsi parladı, üzünü xoş bir ifadə - indiyə qədər nə Mikolanın, nə də Daryanın görmədiyi bir nur bürüdü.

***

Xocalı soyqırımının üçüncü ildönümü yaxınlaşırdı. Azərbaycan mətbuatına məxsus video-materiallar, foto-albomlar, dünyanın əksər KİV-lərinə göndərilir, yayımlanması üçün qızğın hazırlıq gedirdi. Əsirlərə verilən işgəncələri, tükürpədən səhnələri görən jurnalistlər gözlərinə inanmaq istəmirdilər. Dinc əhaliyə XX əsrin ən böyük faciəsini yaşadanlara lənətlər oxunur, cinayətkarların cəzalanması tələb olunurdu. Cinayətkarlar sıra-

sında keçmiş sovet ordusunun moto-atıcı 366-cı alayının adının çəkilməsi keçmiş SSRİ-nin varisi Rusiya dövlətinin yüksək rütbəli məmurlarının etirazına səbəb olsa da, fakt danılmaz idi. Bu faciə rus hərbçiləri ilə erməni yaraqlılarının birgə fəaliyyətinin XX əsrə "töfhə"si idi. Materiallar içində sərxoş erməni yaraqlılarının əsir qıza verdiyi işgəncəni əks etdirən video çoxlarını maraqlandırsa da, ad gizli saxlanıldığı üçün müəllifi heç kim tanımadı. Lakin hamı bir həqiqəti dərk etdi: bu video montaj deyil və bunu çəkən şəxs ermənilərin öz içindəndir.

Mişelin çəkdiyi film nümayiş etdiriləndə isə salondakılar körpə uşağa, gənc anaya edilən zorakılığa sadəcə seyrçi kimi qala bilmədilər; qəhərini udmağa çalışan kişi jurnalistlərdən fərqli olaraq qadınların göz yaşları XX əsrin faciəsinə yas tutdu, günahsız körpənin, fədakar ananın acı taleyi insanlığın alnına basılan qara ləkəyə bənzədildi.

Mikola ilə bərabər Sərhədsiz Jurnalistlər Birliyinin Xocalı faciəsinə həsr olunmuş yığıncağında iştirak edən Nadejda ittihamları eşitdikcə cılızlaşır, gizlənməyə yer axtarırdı. Bəlkə də, o, erməni olduğuna bugünkü qədər heyifsilənməmişdi. Onun susması, heç nəyə münasibət bildirməməsi gördüklərindən dəhşətə gələn jurnalistlərin diqqətini, demək olar ki, cəlb etmədi. Yığıncaq bitən kimi Nadejda hamıdan əvvəl salonu tərk etdi.

Xocalı faciəsi ilə bağlı materiallar tezliklə müxtəlif ölkələrin mətbuatında işıqlandırıldı. Faciə zamanı əsir düşmüş bir qıza verilən işgəncə: sındırılmış şüşə parçaları üzərində rəqsə məcbur etmə, qızın düşmən qarşısında yenilməzliyi, gözlərində parlayan həyat eşqi ilə özünə qəsdi müharibənin acılarını duyan hər bir jurnalistin erməni vəhşiliyinə, barbarlığa etirazı kimi dünyanı oyandırdı.

***

Xocalı soyqırımı haqqında Sərhədsiz Jurnalistlər Birliyinin yayımladığı materiallar erməni mətbuatının üstünə su çilədi. Bir müddət səsləri eşidilmədi. Lakin onları bir sual maraqlandırdı: materialları bu qədər yaxın məsafədən lentə alan, beynəlxalq səviyyədə paylaşan kim ola bilər? Suala heç bir cavab tapa bilmədilər. Fikirlər yenidən Mikolaya yönəldi. Onu ələ keçirmək, gizli əli tapmaq ümidi ilə müxtəlif yollara baş vurdularsa da, "zəhmət"ləri bəhrə vermədi, Nadejda imkan tapıb həmkarını məsələdən xəbərdar etdi və Mikolanın xarici ölkələrə növbəti ezamiyyəti iki gün içərisində reallaşdı. Ermənilər onunla maraqlanmağı, tanış olmağı Nayruhiyə həvalə etdilər, çünki onun bacarığına, istedadına yaxşı bələd idilər. Nayruhi canfəşanlıqla Mikolanın izinə düşmək üçün fəaliyyətə başladı, hətta onun işlə bağlı ezam olunduğu xarici dövlətin adını da öyrəndi, lakin erməni əks-kəşfiyyatının Mikolaya əli çatdığı bir zamanda o, yenə də "yoxa" çıxdı.

Mikolanı tapmaq çətinləşdikcə erməni jurnalistlərin də vəziyyəti ağırlaşırdı. Çəkilmiş videoların Haaqa məhkəməsinə təqdim edilməsini əngəlləmək, erməni lobbisinin Fransadakı ən fəal üzvlərindən sayılan İvetanı qorumaq indi onların qarşısında duran ən mühüm vəzifə idi. Necə olursa-olsun, bu işin təşkilatçıları tapılmalı, onlarla işbirliyi qurulmalı idi. İndiyə qədər sudan min bir yolla quru çıxmağa adət edən ermənilər bu təhlükəni də asanlıqla adladacaqlarına inanırdılar. Pulun çox şeyi həll etdiyi dünyada onlar nələrə nail olmamışdılar! Lakin Mikolanın "yaxa ələ verməməsi" bütün planları alt-üst edirdi. Evinə edilən zənglərin cavabsız qalması onun Moskvada olmadığından xəbər versə də, hər ehtimala qarşı evinin ətrafında güdükçü qoyaraq mənzili

nəzarətə götürmüşdülər. Mikola özü Moskvada olmadığı üçün, adəti üzrə, Sofiyanı, bir yaşı təzə tamam olmuş oğlunu Moldovaya göndərmişdi. O, Moskvanın göbəyində yurd salmış mafioz qruplaşmalardan, qələminin cırnatdığı şəxslərdən ailəsini yalnız bu yolla qoruya bilirdi. Son vaxtlar ermənilər haqqında çəkdiyi reportajlar əleyhdarlarının daha da artmasına səbəb olmuşdu...

Bir gün gözlənilmədən Moskva televiziyasının "Xəbərlər" proqramı ermənilərin diqqətini çəkdi.. Rusların Əfqanıstanı tərk etməsinin ildönümü münasibətilə reportaj hazırlayan Mikola əfqan əsirliyində olan, lakin azad edildikdən sonra da geri dönmək istəməyən keçmiş sovet əsgərlərinin arasında idi və onlardan müsahibə alırdı. Müxtəlif millətlərin nümayəndələrindən ibarət olan bu döyüşçülər Əfqanıstana gəldikdən sonra SSRİ-nin azadlıq, bərabərlik şüarı altında işğalçılıq siyasəti yürütdüyünü anlamış və əksəriyyəti sovet ordusundan qaçıb əfqanlara könüllü əsir düşmüşdülər. "İtkin" düşən bu əsirlərin "meyit"i içərisinə daş qoyulmuş taxta tabutlarda valideynlərinə "hədiyyə" edilmiş, amma "hədiyyə"lər açılmadan torpağa tapşırılmışdı.

Ekrandan gözlərini ayırmayan ermənilər Mikolanın nəinki danışığını, hətta bütün üz cizgilərini, hərəkətlərini yadda saxlamağa çalışırdılar. Onlar dərhal Əfqanıstanda yerləşən gizli agentlə əlaqə yaratdılar və ona necə olursa-olsun, Mikolanı ələ keçirmək tapşırığı verildi. Ertəsi gün aldıqları məlumat isə onları yenə də ümidsizləşdirdi: Mikola Əfqanıstanı tərk etmişdi və onun növbəti səfəri haqqında heç bir məlumat yox idi.

Hər yerdə axtarıldığını bilən Mikola Nadejdanın köməyi ilə bütün təqiblərdən ustalıqla yayınır, bu isə erməniləri daha çox qıcıqlandırırdı. Onlar aralarında heç kimdən şübhələnməsələr də, Mikolaya təcrübəli bir şəxsin yol göstərdiyinə əmin idilər.

Onun hədəfdən yayınması, yaxa ələ verməməsi İvetanın məhkəməyə cəlb edilməsini gerçəkləşdirirdi. Bu səbəbdən növbəti görüşdə erməni icmasının Moskvadakı mərkəzində təşkilatın rəhbəri çılğıncasına bağırdı:

- Bu işi belə qoymaq olmaz, hansı yolla olursa-olsun, biz İvetanı qorumalıyıq, onu itirə bilmərik, Mikolanın nazı ilə çox oynadıq, deyəsən. Onu dizə gətirmək üçün ən zəif yerindən vurmalıyıq!

Hamının sual dolu baxışları onun üzünə zilləndi. Bunu duyan Xaçatur səsinə bir az həlimlik verərək sözünə davam etdi:

- Hər bir insanın ən zəif nöqtəsi ailəsidir. Yəqin ki, məni anladınız.

Bu sözdən sonra nəzərlər Xorenə çevrildi: belə işlərdə o, çox istedadlı idi. Xoren ona yönələn baxışları görəndə daxilən qürrələndi, təklif gözləmədən ayağa qalxdı, Xaçaturun qarşısında baş endirib dedi:

- Mən hazıram. Günü sabah bu işlə məşğul olacağam.

Ertəsi gün səhər açılmamış Xoren Mikolanın yaşadığı mənzilə getdi. Evdə heç kimin olmadığını bildiyi halda, hər ehtimala qarşı bir neçə dəfə zəngin düyməsini basdı. Səs-səmir duyulmayanda ətrafa diqqətlə göz gəzdirdi. Sakitlik idi. Yəqin ki, istirahət günü olduğu üçün qonşular şirin yuxuda idilər. Köhnə peşəsi (bağlı kilidləri ustalıqla açmaq və iz buraxmadan evlərdən qiymətli əşyaları oğurlamaq) işinə yaradı. İki yerdən kilidlənmiş qapını asanlıqla açıb içəri girəndə qapının ağzında qoyulmuş yol çantası ayağına ilişdi, müvazinətini zorla düzəldib cibində hazır saxladığı maskanı geyindi, qulağına su şırıltısı dəydi. Vanna otağında kimsə yuyunurdu. Xoren təəccübləndi, gecə saat ona qədər evi nəzarətdə saxlayan güdükçülər ona evdə heç kimin

olmadığını söyləmişdilər. Bəs bu kim idi? O, çaşqınlıq içində dəhlizdən birinci otağa keçdi, diqqətini çəkən bir şey olmayanda geri qayıtdı, vanna otağına açılan qapının arxasında dayanıb gözləməyə başladı...

Sofiya gecə reysi ilə Moskvaya Mikoladan xəbərsiz gəlmişdi. Uşaq narahat olduğu üçün geri qayıtmağa məcbur olmuşdu. Səhərə yaxın evə çatmış, yol yorğunluğunu çıxarmaq üçün uşağı yatırandan sonra vanna otağına keçmişdi.

Suyun şırıltısı kəsiləndə Xoren hazır vəziyyətdə dayanıb qapının açılmasını gözlədi. Hamam xalatında içəridən çıxan Sofiya böyrünə söykənən silahdan diksinib qışqırmaq istəyəndə güclü bir əl ağzını qapadı. O nə qədər çırpınsa da, məngənə kimi belini sıxan qoldan xilas ola bilmədi...

Ayılanda özünü divanda uzanmış gördü, qarşısındakı maskalı adamın vahiməsi altında açılmış üst-başını örtməyə çalışdı. O özünü səliqəyə salana qədər Xoren səsini çıxarmadı. Qadın bir qədər özünə gələndən sonra ilk sualını verdi:

- Mikola haradadır?

Sofiya:

– Bilmirəm, - deyəndə Xoren silahı ona tərəf tuşladı və istehza ilə:

- Ölməyi necə, bilirsənmi? – deyəndə qadın qorxudan titrəməyə başladı. Elə bu vaxt yataq otağından körpənin səsi eşidildi. Xorenin gözləri parıldadı. Amiranə bir tərzdə:

– Onun səsini kəs, yoxsa ikinizi bir gülləyə qurban edərəm, - dedi.

Qadın əsə-əsə içəri otağa keçdi, uşağı qucağına götürüb bağrına basdı. Onun titrəməsi Xoreni daha sərt addım atmağa sövq etdi:

- Oğlunun sağ qalmağını istəyirsənmi?

Sofiya başı ilə təsdiqlədi.

- Onda bizimlə işbirliyi qurmalısan.

- Nə işbirliyi?

- Mikolanın çəkdiyi materialları bizə verməlisən.

- Mən onun işlərinə qarışa bilmərəm.

Bu sözü eşidəndə Xoren sakitcə çaxmağı şaqqıldadıb tapançanı uşağın gicgahına dayadı. Sofiya yalvarış dolu səslə inildədi:

- Yox, yox!

O, ikiqat əyilib bütün vücudu ilə körpəni gizlətməyə çalışdı. Tapança öz gicgahına dayananda da qamətini açmadı. Xoren qorxudan ikiqat bükülən qadına rişxəndlə gülərək otağa göz gəzdirdi. Küncə qoyulmuş yazı masası diqqətini cəlb etdi. Masanın üstündə müxtəlif qəzetlər üst-üstə səliqə ilə qoyulmuşdu. Mikolaya məxsus qələmdan, bəzi vərəqlərində xüsusi işarələr çəkilmiş dəftərçə və bir sıra başqa materiallar ona gərəksiz əşya kimi göründüyü üçün masanın siyirməsini dartdı. Siyirmə bağlı idi.

- Açarlar haradadır?- sualına cavab gəlməyəndə Xoren istehza ilə gülümsündü, cibindən çıxadığı şiş uclu əşya ilə kilidi asanlıqla açdı. Siyirmədə bir neçə kaset vardı. Xoren tələsmədən kasetləri stolun üstündəki qəzetlərdən birinə büküb qoynunda gizlətdi. İndi onu nə səsi kəsilən uşaq, nə də dizləri üstə çöküb ikiqat qalan qadın maraqlandırırdı. O gəldiyi kimi səssizcə geri döndü, qapını örtməyi də lazım bilmədi, amma yol boyu Sofiyanın saçının ətri onu tərk etmədi.

Günortaya yaxın erməni icmasının nümayəndəliyində böyük bir canlanma var idi: Xorenin gətirdiyi kasetlər işə yaramışdı.

Rahat nəfəs almaq olardı, çünki İvetanı məsuliyyətə cəlb etmək üçün Mikolanın əlində dəlil qalmamışdı.

***

Geri qayıtmasına dair redaksiyadan çağırış gələndə Mikola hələ də Əfqanıstanda idi. Vaxtından əvvəl geri çağırılması onu təəccübləndirsə də, etiraz etmədi, bileti sifariş verildiyi üçün hava limanına gəldi. Ətraf sakit idi, sərnişinlər bir-bir qeydiyyatdan keçir və təyyarə meydanına yola düşürdü. Mikoladan qabaq orta boylu, beli azacıq donqar, sarı saçlı, ətli burnu olan bir kişi dayanmışdı. O, arabir geri çevrilir, Mikolanın üzünə ötəri nəzər salıb kimi isə gözləyirmiş kimi tez-tez saata baxırdı. Sənədlərini təqdim edərək yoxlamadan keçəndə o, yenə də geri döndü, Mikolanın əhəmiyyət vermədiyini görüb dodaqaltı nə isə deyərək kiçik yol çantasını götürüb sürətlə təyyarə meydanına yol aldı.

Təyyarədə yerini rahatlayandan sonra o, nəhayət, Mikolanın diqqətini cəlb etdi. Qonşu oturacaqlarda yanaşı oturmuşdular. Səbri tükənən sərnişin əlini uzadaraq:

- Tanış olaq, mən Leonid Andreyevəm, - dedi.

Mikola da əlini uzatdı, adını deməyə hazırlaşırdı ki, müsahibi dillənməyə aman vermədi:

- Mən sizi çoxdan tanıyıram, müxbirsiniz, ən qaynar nöqtələrdən reportajlar hazırlayırsınız, - Mikolanın təəccübünü görüb o, bir qədər də həvəsləndi, - materialları ustalıqla seçməyi bacarırsınız, ən qəribəsi isə budur ki, heç nədən qorxmursunuz.

Mikola təəccübləndi:

- Nədən qorxmalıyam ki?

- Hm. Nədən? Həqiqətdən.

- Bizim vəzifəmiz həqiqəti yazmaqdır.

- Hansı həqiqəti? Sonu ölümə aparan həqiqətimi?

Müsahibinin sərt danışığı Mikolanı həyəcanlandırdı, amma özünü o yerə qoymadı:

- Ölümə də aparsa, jurnalistin qələmi həqiqəti yazmalıdır, geriyə yol yoxdur.

Leonid səsinə bir az həlimlik qatdı:

- Evlisinizmi?

- Əlbəttə, bir oğlum və varlığım sandığım, çox sevdiyim qadınım var.

- Onları qoru, - deyərək müsahibi üzünü yana çevirdi: bu, danışığın kəsilməsi demək idi.

Mikola başını oturacağa söykəyib gözlərini yumdu, oğlunu, Sofiyanı yadına saldı: üzündə təbəssüm göründü.

Təyyarənin təkərləri yerə toxunanda ilk təkan Mikolanı ayıltdı. Mürgülədiyi üçün mənzil başına nə vaxt çatdıqlarını duymamışdı. O, yüngül addımlarla pillələri endi. Kimsənin gözləmədiyinə əmin halda aerovağzaldan çıxıb taksi dayanacağına getmək istəyərkən adını eşidib dayandı, ətrafa boylandı, bir kənarda dayanan Nadejdanı görəndə sevindi, amma onun üzündəki hüzn Mikolanın simasındakı təbəssümü tezliklə dondurdu. Taksidə də danışmadılar. Geniş prospektlə şütüyən maşın iri bir binanın qarşısında dayananda Mikola düşüncələrdən ayrıldı, təəccüblə həmkarına baxdı, baxışlarını ondan gizlədən qadından yenə də heç bir xəbər öyrənə bilmədi.

Xəstəxanada həkimin verdiyi başsağlığının da mahiyyətini anlamadı: nə olmuşdu, onu buraya niyə gətirmişdilər? Ölüxananın qapısına çatana qədər suallar Mikolanı yordu. Hara getdiklərini də fərq etmədi. Ağ mələfəyə bükülmüş meyitin üzü açılanda Mikola ilan vurmuş kimi geri çəkildi, gördüyünə inanmaq istəmədi: bu onun Sofiyası idi. Nəfəsinin təngişdiyini, bütün vücudunun keyidiyini hiss etdi...

Sofiyanın dəfninə Mikolanı tanıyan bütün jurnalistlər gəl-

mişdilər. Dəfndən sonra yaxın dostlarından və qohumlarından başqa, hamı dağılışdı. Sofiyanın anası körpəni bağrına basaraq naməlum şəkildə vəfat edən qızı üçün göz yaşı axıdır, atası isə hələ də eşitdiklərinə, gördüklərinə inanmayacaq tərzdə ətrafa boylanır, haradansa Sofiyanın gülə-gülə gəlib boynunu qucaqlayacağı anı gözləyirdi. Lakin dərk edəndə ki, öz əlləri ilə torpağa tapşırdığı qızını bir daha görməyəcək, qeyri –ixtiyari hönkürdü. Onun hönkürtüsü mat-mat otaqdakılara baxan körpəni diksindirdi, o, dodaqlarını büzüb üzünü nənəsinin qoynunda gizlətdi.

Mikola Sofiyanın müəmmalı ölümünü qəbul edə bilmir, bunun arxasında naməlum adamların gizləndiyini təxmin edirdi. Yaxın qonşuların danışdığı əhvalat da bunu sübut edirdi. Bazar günü olduğu üçün balıq ovuna getməyə hazırlaşan qonşu dəhlizə çıxanda Mikolagilin evinin qapısını açıq görür, bir neçə dəfə Mikolanı səsləyir, çağırışına cavab gəlməyəndə isə polis şöbəsinə zəng edir. Evə daxil olan polislər yataq otağında Sofiyanın cəsədini görəndə lazımi tədbirlərə əl atırlar. İkiqat bükülən cəsədin qolları arasından körpəni xilas edirlər. Araşdırma zamanı heç bir əşyada əl izi tapılmır, döşəmədə zorla seçilən iri qadın ayaqqabılarının naxışları yeganə dəlil kimi götürülür. Meyiti ekspertlərin müayinəsinə verirlər, heç bir zorakılıq, təcavüz əlaməti qeydə alınmayanda müəmmalı ölümün sirrinin açılması üçün cinayət işi başladılır və Mikola geri çağırılır.

***

On gündən çox vaxt keçməsinə baxmayaraq, cinayət işini araşdıranlar bir nəticə əldə edə bilməmişdilər. Vaxt uzandıqca Mikolanın da səbri tükənirdi. Bəzən ona elə gəlirdi ki, Sofiyanın ölümündə son hadisələrin böyük rolu var, onun qatillərini tanıyır, bəlkə də, onlarla hər gün görüşür. Bəlkə, dəfn günü onu təh-

did edənlər də cənazənin arxasınca gediblər? Amma bu şübhələri o, tezliklə beynindən qovur, dostları içində qatil axtardığına görə özünü danlayırdı...

Mikola gecədən xeyli keçmiş evə döndü. Prokurorluqda araşdırmaların nəticəsiz qalması ümidsizliyinə səbəb oldu. O, fikirli halda yazı masasına yaxınlaşdı: hər şey yerində idi. Cibindən kiçik bir açar çıxarıb stolun siyirməsini açdı, çox təəccübləndi: siyirmə boş idi, bütün kasetlər aparılmışdı. Mikolaya indi çox şey aydın oldu. Son aylarda edilən ünvansız zənglər, hədələr qulaqlarında cingildədi. Gecəni səhərə qədər yata bilmədi, gözlərinin qarşısında Sofiya ilə tanışlığı, toyları, məsud ailə həyatı canlandı. Körpənin doğulduğu gün Sofiya dünyanın ən xoşbəxt qadını kimi: “On illik ailə həyatımın ən böyük müjdəsini yetirdiyin üçün sənə təşəkkür edirəm, Allahım!” – deyəndə iri gözləri sevinc yaşları ilə dolmuş, ətrafdakıları da kövrəltmişdi. Mikola anladı ki, son nəfəsində də o, Allahın bu töhfəsini öz canı bahasına qorumağı bacarıb. İndi Sofiya onun üçün yalnız bir qadın yox, canını bala yolunda fəda edən qəhrəman ana idi.

Birdən-birə Mikolanın gözləri qarşısında Tərgül canlandı. Əgər onu tanımasa idi, doğranmış topuqlarının acısını unudaraq balasını vəhşi itdən qurtarmağa çalışan qadını bir film qəhrəmanı sanar, duyğulansa da, yazıçı təxəyyülünün məhsulu hesab edib bir qədər toxtaqlıq tapa bilərdi. Amma seyr etdiyi bir filmin fraqmenti deyil, erməni vandalizminin real görüntüləri idi. Məqsədlərinə çatmaq üçün heç kimə rəhm etməyən, qadınların analıq hissi ilə oynayan insanların olacağına, bəlkə də, Mikola heç vaxt inanmazdı, lakin faktlar ermənilərin zahiri “parıltı”sını onun gözlərində tamamilə heçə endirdi. Aldığı ən böyük zərbə isə ona həyat dərsi verdi. Bir millətin içində əks qütblərdə dayanan iki

qadını: İveta və Nadejdanı gözləri qarşısında canlandırdı. Gec də olsa, əli telefona uzandı, qısa çağırışdan sonra xətdə cingiltili qadın səsi eşidildi:

- Alo, kim lazımdır?

Mikola əvvəlcə duruxdu, nə üçün zəng etdiyini xatırlamağa çalışdı. Nəhayət, özünü toparlayıb cavab verdi:

- Nadejda xanım, bağışlayın ki, sizi gecənin bu vaxtında narahat edirəm. Sabah görüşə bilərikmi?

Mikolanı səsindən tanıyan Nadejda razılıq verdi:

- Nə vaxt istəsəniz, görüşməyə hazıram.

***

Ertəsi gün Mikola cinayət işi ilə bağlı əlavə məlumat vermək üçün müstəntiqin yanına yollandı. Onu yenidən qapı ağzında görən müstəntiqin üzündə narazı ifadə göründü:

- Axı mən sizə dedim ki, istintaq davam edir, cinayət işi gizli saxlanılır, buraya tez-tez gəlməyin heç bir əhəmiyyəti yoxdur.

Mikola nəzərlərini müstəntiqin üzündən ayırmadan soyuqqanlı tərzdə dilləndi:

- Mən sizə cinayət işi ilə bağlı yeni fakt gətirmişəm.

Müstəntiq eşitdiyinə inanmırmış kimi soruşdu:

- Faktmı?

- Bəli, fakt.

- Hm. Çox maraqlıdır. Buyurun, sizi dinləyirəm.

- Axşam yazı masasını nəzərdən keçirərkən çəkdiyim video-materialların yoxa çıxdığını gördüm. Mən onları masanın siyirməsində saxlayırdım.

- Həmin kasetlərdə nə vardı ki?

- Xocalı faciəsi ilə bağlı təkzibolunmaz faktlar vardı.

- Sizcə, bunu kim etmiş olar?

- Mən ermənilərdən şübhələnirəm.

Erməni sözünü eşidəndə müstəntiq üz-gözünü turşutdu və Mikolaya sərt şəkildə cavab verdi:

- Tanımadığınız millət haqqında ittihamla danışmaq sizə baş ucalığı gətirməz, sözlərinizə diqqət edin.

Müstəntiqin erməniləri müdafiəyə qalxması Mikola üçün gözlənilməz olmadı. O, çox yerdə erməni barmağının izi olduğunu onillik jurnalistlik fəaliyyətində az görməmişdi; ona görə də anladı ki, əsl həqiqəti yalnız onun qələmi söyləyəcək...

Mikolanın yolu şəhər qəbiristanlığına idi. Hava soyuq olsa da, o, qətiyyən üşümürdü. Çiçək mağazasından bir dəstə tər zanbaq alıb qəbirlərin arası ilə irəlilədi. Sofiyanın məzarının üstünə iki gün əvvəl qoyduğu çiçəklər tam solmasa da, onları yeniləri ilə əvəz etdi. Bir xeyli dayandı, cinayətkar tapılmadığı üçün danışmağa, ürək sirdaşının məzarı ilə dərdləşməyə də elə bil sözlər qaçaq düşdü. O, ağır addımlarla qəbiristanlığı tərk etdi: bir saatdan sonra Nadejda ilə görüşməli idi.

Görüş yerinə çatanda Nadejdanın həmişəki skamyada oturub onu gözlədiyini gördü, tez saata baxdı, vaxt tamam idi.

Nadejda onun simasındakı üzüntüdən anladı ki, Mikola Sofiyanın yanından gəlir və söyləyəcəyi bütün sözlər onun kədərini ovutmaqda acizdir. Hər ikisi susdu. Nəhayət, Mikola dilə gəldi:

- Qəbiristanlıqdan gəlirəm.

Nadejda məchulluğa baxaraq başını tərpətdi.

- Bilirsənmi, mən ona heç nə deyə bilmədim, - müsahibinin susduğunu görən Mikola sözünə davam etdi, - hə, heç nə deyə bilmədim. Deyə bilmədim ki, səni qorumaq üçün əlimdən bir iş gəlmədi, əslində sənin qatilin mənəm.

Bu sözdən Nadejda diksindi:

- Anlamadım, siz niyə?

Mikola köksünü ötürdü, onu eşitmirmiş kimi sözünə davam etdi:

- Ona deyə bilmədim ki, hazırladığım materiallar, məqalələr sənin ölüm fərmanın oldu və mənim yerimə sən bu gün qara torpaq altındasan, - sonra üzünü Nadejdaya tutdu, - bunu əvvəldən də hiss edirdim, amma bu gecə hər şeyi dəqiqləşdirdim: masamdan bütün video-materiallar yoxa çıxıb.

Nadejda eşitdiklərinə təəccüblənmədi, çünki bu, fakt idi və sevdiyini itirən bir şəxsin dilindən deyilirdi. Ani sükutdan sonra hüznlü səslə soruşdu:

- Nə etmək fikrindəsən?

- Məni susdura bilməyəcəklər. Həqiqəti ortaya çıxarana qədər çarpışacağam, çünki itirəsi heç nəyim qalmadı.

- Bəs oğlun?

- O, əmin əllərdədir, inanıram ki, məndən də yaxşı qoruyacaqlar. Amma mənə yenə də sizin köməyiniz lazımdır.

Nadejda başı ilə razılığını bildirdi.

***

Bir aydan sonra Mişelin çəkdiyi materiallar birliyin qərarı ilə Beynəlxalq Haaqa məhkəməsinə təqdim edildi. Fransada fəaliyyət göstərən erməni lobbisinin fəallarından İveta Qukasyanın cinayətkar əməllərinə hüquqi qiymət verilməsi, cinayətə cəlb olunması haqqında vəsatət qaldırıldı...

Moskvada məsələdən xəbər tutan erməni nümayəndəliyinin qələbə sevinci uzun sürmədi: Beynəlxalq Haaqa Məhkəməsi təqdim olunan materiallar əsasında təhqiqat aparılmasına dair qərar qəbul etmişdi.

Cinayəti barədə qaldırılan vəsatət tezliklə İvetaya da çatdırıldı. Əvvəlcə bunu əvəzsiz zarafat sayan İveta diaspor rəhbərinin bozarmış simasını görəndə vəziyyətin ciddiliyini anladı, qorxudan rəngi avazıdı, yalvarış dolu baxışlarını həmkarına dikdi. İveta ilə birlikdə olmaqdan xüsusi zövq alan diaspor rəhbəri yad adamlar kimi bu baxışlardan gözlərini ustalıqla yayındırdı, əllərini yana açaraq:

- Bizim əlimizdən bir şey gəlməz, - dedi və qapını arxasınca örtüb tələsik addımlarla uzaqlaşdı. İveta anladı ki, indiyə qədər çalışdığı, bütün məclislərini yola verdiyi təşkilat üçün arzuolunmaz birinə çevrilib və dilucu alınan, ya da "eşidilməyən" salamlar ona :"Elə get ki, izin-tozun da qalmasın", - deyir. İveta çantasını götürüb binanı tərk etdi. Onunla əylənmək, restorana dəvət etmək üçün həyətdə növbə gözləyən diaspor nümayəndələrindən heç biri maşının qapısını açıb:

- Lütfən, mənim maşınıma əyləşin,- demədi.

İveta taksi dayanacağına getdi, sürücüyə ev ünvanını söylədi. Yol boyu düşündü, bütün tanıdığı, evinə dəvət etdiyi şəxsləri bir-bir xəyal süzgəcindən keçirdi. Ətəyindən yapışa biləcəyi sanballı adam axtardı, lakin gümanına heç kim gəlmədi. Çarəsizlikdən yazıqlaşdığını hiss etdi. Ona elə gəldi ki, çox cılızlaşıb, maşının pəncərəsindən ətrafı seyr etməyə boyu çatmır. Sürücü maşını çox ustalıqla idarə edir, arabir güzgüdən iri qara gözlərini naməlum nöqtəyə zilləyən sərnişinə baxmağı da unutmurdu. O, sərnişinin xəyala getdiyini görüb radioqəbuledicinin düyməsini basdı, həzin bir musiqi maşının salonunu doldurdu. Musiqinin gözəlliyi İvetanı əvvəlki düşüncələrindən ayırdı. İndi onun gözləri qarşısında gözəllik müsabiqəsinin son günü canlandı. Bütün salon ayaq üstdə idi, hamı onu alqışlayır, səhnəyə gül-çiçək ya-

ğışıələnirdi. İvetanın üzündə xoş bir ifadə yarandı. Musiqinin xoş sədaları altında yolun sonsuza qədər uzanmasını arzuladı. Elə bu vaxt birdən-birə qaranlıq otaqda qapqara paltar geyinən anası xəyalına gəldi, üzündəki xoş ifadə çəkildi: "İndi bu qaranlıq mənim taleyimə biçilir, ana, mən də Harri kimi sənin iddialarının qurbanına çevrilirəm",- deyə köks ötürdü. Bayaqdan dayanaraq İvetanın düşüncələrdən ayılmasını gözləyən sürücü, nəhayət, səbrini basa bilmədi:

- Xanım, biz, deyəsən, mənzil başına çatmışıq,- dedi.

Sürücünün səsi onu xəyaldan ayırdı, heç nə demədən pulu oturacağın üstünə qoyub maşından düşdü, qapıya yaxınlaşıb zəngin düyməsini basdı.

Xanımın vaxtından əvvəl qayıdışı, qaşlarının düyünlənməsi, rənginin boğulması yaxınlaşmaqda olan fəlakətdən xəbər verirdi. Buna görə də xidmətçilər səslərini çıxarmır, evdə kölgə kimi hərəkət edirdilər. Bilirdilər ki,cüzi səhv İvetanın qəzəbinə, qab-qacağın ətrafa səpələnməsinə səbəb olacaq. Tezliklə qorxduqları başlarına gəldi: İveta boş yerə hay-küy qoparıb zəhərini evdəki qulluqçuların üstünə tökdü, Surenin evdə olmadığını bilib daha da kükrədi, onun geri dönməsini səbirsizliklə gözlədi. Gizli video-materialların yad əllərə keçməsində indi o hamıdan, hətta əri Surendən də şübhələnirdi. O, əhatəsində olan adamların puldan ötrü nələr edə biləcəyini çox gözəl anladığı üçün bəzi materialları gizli saxlayaraq üzə çıxarmırdı. Bu video da gizli saxlananlardan idi. Görəsən, onun gizli saxlancına kim əl uzatmış, kaseti oğurlamışdı? O, qəzəbindən gözünə dəyən ev əşyalarını qarşısına çıxanlara tolazlayır, dəli olmaq dərəcəsinə gəlirdi. Qəzəbdənmi, ya qorxudanmı birdən-birə halsızlaşan İvetanın rəngi avazıdı. Ağ önlüklü erməni qadın onun qolundan

tutaraq divanda oturmasına kömək etdi. Çox keçmədən gətirdiyi sakitləşdirici dərmanı və suyu ehtiyatla ona uzatdı. İveta kəskin hərəkətlə dərmanı da, stəkandakı suyu da geri itələdi. Su xidmətçinin üstünə dağıldı. O heç nə demədən sakitcə bir tərəfdə yenə əmrə müntəzir dayandı. Bir neçə dəqiqədən sonra İveta az da olsa, sakitləşmişdi. O, qırğı kimi yerindən qalxıb pillələrlə yuxarı çıxdı, pilləkənlə üz-üzə divara vurulmuş bədənnüma güzgüyə baxanda özünü tanımadı, bir də diqqətlə baxdı. Yox, bu onun özü idi - arxasız, sındırılmış, ətri çəkilib atılmış, düzənsiz İveta idi. O, yataq otağına keçib qapını içəridən bağladı, rəqəmləri yadına salıb seyfi açdı: hər şey yerində idi, heç nəyə toxunulmamışdı. Birdən Mişeli xatırladı, öz-özünə düşündü:

- Bəlkə, Mişelin işidir? Yox, Mişel özü ilə heç nə gətirmir, nə də aparmırdı. Bəs bunu kim edib?

Yenə də gözlərinin qabağında dünyanı yeməyə hazır olan Surenin iri balta dişləri canlandı. Qəzəbi daha da aşıb-daşdı:

- Mən nə edəcəyimi çox gözəl bilirəm, Suren, o balta dişlərini kökündən qoparmaq mənə borc olsun.

Dəqiqələr saata çevrildikcə İvetanın səbri tükənir, qəzəbi daha da kükrəyirdi. Əlində tutduğu ağır büllur külqabını Surenin ağzının üstünə necə çırpacağını götür-qoy edir, vaxt yaxınlaşdıqca bəyaz simasına bir bozluq çökürdü...

Suren evə gecədən xeyli keçmiş gəldi, adəti üzrə, yenə də içkili idi. Evdəki səssizlik onun eyninə də gəlmədi, erməni dilində "Sarı gəlin" mahnısının sözlərini təhrif edə-edə yataq otağına qalxan pilləkənə yaxınlaşdı, üzüyuxarı baxdı. Hər gecə olduğu kimi yenə də pilləkənin başından yastıq və adyalının üzünə çırpılacağını, yataq otağına buraxılmayacağını düşündü, lakin İvetanı həmişəki yerində görməyəndə ürəkləndi, vanna otağına keçib

yuyundu, daz başına tumar çəkdi, gicgahlarından sallanan saçlarını səliqə ilə başının ortasına doğru darayıb az da olsa, keçəlliyini gizlətdi, ətirlənib qamətini dik tutdu, şəstlə pilləkənləri yuxarı qalxdı, yuxarı qalxdıqca dadlı xəyallar qurdu, dişlərini ağarda-ağarda otağa daxil oldu. İveta otağın ortasında müqəvva kimi hərəkətsiz dayanmışdı. Onu yataq paltarında görməyən Suren təəccüblənsə də:

- Əzizim, inanırdım ki, yenidən mənə dönəcəksən, bir gün məni gözləyəcəksən. Axı özün də şahidsən ki, heç kim səni mənim qədər sevə-sevə əyləndirə bilməz, - deyərək qollarını açdı, lap yaxına gəldi, lakin gözlənilmədən gicgahına dəyən zərbədən kökündən kəsilmiş ağac kimi yerə yıxıldı, İveta onun sinəsinə çöküb büllur külqabı ilə hələ də ağaran dişlərinə bir neçə zərbə endirdi. Lakin bununla da kifayətlənmədi, dalbadal vurduğu zərbələrdən Surenin başı bir neçə yerdən partladı: hər tərəf qana bələndi, İvetanın üz-gözü, paltarları qan içində idi. O, "günahkarı əzişdir"əndən sonra bir qədər sakitləşdi, gözünə həmişə iyrənc görünən ərinin hərəkətsiz bədənini zorla otaqdan çölə sürüdü və pilləkənlərdən üzüaşağı yuvarlatdı, özünü toparlayıb ayağa qalxanda gözü yenidən divara vurulmuş bədənnüma güzgüyə sataşdı. Çaşqınlıqdan bir an nə edəcəyini bilmədi. Qarşısında üz-gözü, üst-başı qan içində olan "vampir" dayanmışdı. İveta "vampir"i görəndə dəhşətə gəldi, bağıraraq pilləkənləri iki-bir, üç-bir tullandı, aşağı enməyə çalışdı. Arxasınca şığıyan "vampir" özünü çatdırıb onun ayağından yapışdı, başını mərmər pilləkənlərə çırpa-çırpa üzüaşağı diyirlətdi. İveta Surenin cəsədinin üstünə sərildi, son gücünü toplayıb ayağa qalxmaq istəyəndə əli xəncərli "vampir" yenidən gözünə göründü. O, gözlərindən vəhşət yağan "vampir"in əlində son nəfəsini verdi və düşdüyü yerdəcə hərəkətsiz qaldı.

Yenicə uyumağa çalışan ev qulluqçuları İvetanın qışqırtısına yataqlarından hövlnak durdular. Haraya ilk yetən ağ önlüklü erməni qadın oldu. O gördüyü mənzərədən dəhşətə gəlib anlaşılmaz səslər çıxaranda bütün xidmətçilər salona toplaşmışdılar. Qana bulaşmış cəsədləri görən xidmətçilərdən birinin ürəyi bulandı, özünü zorla qapıdan çölə atdı...

Yarım saatdan sonra İvetanın malikanəsi polislərlə əhatələnmişdi, evə giriş və çıxış qadağan idi: qətllə bağlı araşdırmalar aparılır, dəlillər toplanırdı. Xidmətçilərə istintaq bitənə qədər şəhərdən çıxmaq yasaq edildi. ..

***

İvetanın ölümünü erməni diasporu sakitliklə qarşıladı, daha doğrusu, öz missiyasını başa vurmuş bir fiqur kimi "oyundan" kənarlaşdırıldığı üçün onu yad etməyi də lazım bilmədi. Bu sükut Ermənistanda da heç bir əks-səda doğurmadı. Anasının tələbinə baxmayaraq, cənazəni Ermənistana gətirməyi də öhdəsinə götürən olmadı. Ümidi dayısı oğlundan başqa, heç kimə gəlməyən Siranuşun yalvarış dolu gözlərinə Xoren də çox etinasız qaldı. Hər şeydə qazanc axtaran Xoren boş yerə pul xərcləməyi sevməzdi, ona görə də son borcu kimi üzünə kədər maskası taxaraq:

- Öləndən sonra harada dəfn olunmağın nə mənası var? Həm də onu buraya gətirmək üçün xeyli pul lazımdır, onu haradan tapacağıq? – deyəndə Siranuş ümidsiz halda yerə çökdü, tənhalığını dərk elədi, acı-acı hönkürdü. Yaxınlarının içində gözləri Nayruhini axtardı, görməyəndə duruxdu. Bacısının belə məqamda yanında olmamasının günahını da kimdəsə axtarmaq istədi, amma yamanlamaq üçün kiçik bacısından başqa, heç kimi tapmadı.

Nayruhinin son gəlişini, aralarındakı söhbəti xatırladı:

"- Əziz bacım, bilirəm, dərdin böyükdür, amma bu, müharibədir, hər şeyi gözə almağı bacarmaq lazımdır. Bax mən bütün ailəmi itirdim, tənhayam, amma dözürəm. Arabir sizləri görəndə göynəyimi unuduram.

- Sən göynəməməlisən. Əslində sən heç kimi itirməmisən, sadəcə düşmənlərimiz iki-üç nəfər azalıb. Düşmənə yas saxlamazlar. Amma mən, Harri kimi bir oğul itirmişəm... Oy, Harri, Harri, sən qara torpaqda necə yatırsan? Günəşi görmədən o qaranlıq məzarda necə dözürsən? Hö-hö-hö!

Bir oğlumun əvəzinə min türkün başını kəssəm, uf demərəm, bütün türk qadınlarını zavallı görsəm, yaralarım qaysaq bağlamaz. Xorenin gətirdiyi türk çocuğunu da mənə çox gördülər, lənətə gəlmişlər gecə ilə oğurladılar. Hər dəfə onun cəsədini tapdalayıb keçəndə yaralarımın sızıltısı cüzi də olsa, azalırdı."

O, hönkürtüsünü kəsib dedi:

- İndi mən də tənhayam, Nayruhi! Qol-budağını itirmiş, məhvə məhkum susuz səhra ağacıyam. Heç olmasa, bu günümdə yanımda ol, dərdinlə dərdimi ovut, axı mən İvetamı itirmişəm! Bilirsənmi, bu necə ağrılı, dəhşətlidir? Eh, sən haradan biləsən? Sənin İveta kimi bir övladın olsa idi, itirməyin nə olduğunu anlayardın.

Siranuşun son sözləri güclə eşidildi, yorğun göz qapaqları bir daha açılmayacaq kimi ağır-ağır endi...

Onun yatdığını dəqiqləşdirən bacısı İzabella asta addımlarla otaqdan çıxdı, kiçik qızına tez gələcəyini söyləyib Siranuşun yanından ayrılmamağı tapşırdı. O, hava qaralanda geri döndü. Siranuş hələ də yatırdı, gecədən xeyli keçsə də, aramla nəfəs alır, arabir anlaşılmaz sözlər deyirdi. Oturmaqdan yorulan İzabella

kürsüyə dirsəklənib gözlərini yumdu. Çox yorulduğu üçün tezliklə yuxuya getdi. Evə səssizlik kabusu çökdü, amma çox keçmədən Siranuşun xırıltılı boğuq səsi bu kabusu qovdu. Yuxuda kimdənsə yaxa qurtarmağa çalışan qadın çabalayır, boğazından nəyi isə açmağa çalışır, xırıltılı səsi adamı vahimələndirirdi. İzabella səsə ayıldı, bacısının boğulmuş simasını görəndə əvvəlcə duruxdu, onun yuxu gördüyünü biləndə isə çiynindən tutub astaca silkələdi. Siranuş təngnəfəs halda gözlərini açdı, dərhal durub yerin içində oturdu. Bacısının sual dolu gözlərinə baxanda heç nə demədi. Bir qədər toxtayandan sonra yenidən yatağa uzandı, gözlərini bir nöqtəyə zilləyib baxdı, özünü elə göstərdi ki, sanki heç kimi, heç nəyi görmür. İzabella da susdu, çünki belə məqamlarda hamıdan təkəbbürlü bacısının danışmaq həvəsi olmaz, danışdıran da layiqli payını alardı. Göz qapaqları sözünə baxmayan İzabella nə qədər oyaq qalmağa çalışsa da, mürgüləyir, başı sinəsinə enəndə isə diksinib ayılır, lakin səsini çıxarmırdı. Hava işıqlaşana yaxın Siranuş yenidən yuxuya getdi. Yuxusu tamamilə qaçmış İzabella da, yatmaq üçün gözlərini yumdu, lakin çox keçmədən bacısının xırıltılı səsinə oyandı. Nə qədər çalışsa da, onu yuxudan oyada bilmədi. Bir əli ilə boğazından, digəri ilə saçından yapışan bacısının üzündəki təlaş onun yuxuda kabus gördüyündən xəbər verirdi. Təbiətən qorxaq olan İzabellanı həyəcan bürüdü, bacısının əllərindən tutdu, onu yenidən oyatmağa cəhd etdi. Gözlərini açan Siranuş əllərindən bərk-bərk yapışan kiçik bacısını görəndə dəhşətlə bağırdı, əllərini onun əllərindən qoparaq:

- Məni, boğmaqmı istəyirsən, vampir? – dedi və gözlənilmədən onun üzərinə atılıb boğazından yapışdı. İzabellanın səsinə qonşu otaqda yatan qızı ayıldı. Bir müddət nə olduğunu anlama-

dı, lakin qonşu otaqdan gələn dava-dalaş səsini eşidib yerindən qalxdı, gördüyü mənzərədən heyrətə gəldi. Gözləri böyüyərək hədəqəsindən çıxan anasını son anda xalasının qorxunc əllərindən xilas elədi. İzabella özünə gələndə Siranuş heç nə olmamış kimi yenə də şirin yuxuda idi.

***

İvetanın ölüm xəbərini eşidəndə Nayruhi Moskvada idi. Təxirəsalınmaz bəzi işləri olduğu üçün bacısının yanına vaxtında gələ bilməmişdi. Lakin belə çətin günündə bir insan kimi bacısının yanında olmağı borc bildiyi üçün işlərini yekunlaşdıran kimi Yerevana getməyə bilet aldı. Onu həmişə olduğu kimi aeroportda heç kim qarşılamadı. Təmiz havanı ciyərlərinə çəkən Nayruhi səhər tezdən olsa da, yubanmağı lazım bilmədi, taksilərdən birinə əyləşib ünvanı söylədi. Taksi şəhərə doğru şütüdü. Moskvanın geniş küçələri, prospektləri ilə müqayisədə, Yerevan ona çox kiçik, cansıxıcı göründü. İndiyə qədər nə üçün bunun fərqinə varmadığını düşünsə də, beynini yormaq istəmədi. Taksi dar dalana çatıb dayananda Nayruhi maşından düşüb dalana buruldu, alaqapını yavaşca itələdi: açıq idi. Həyətə daxil olanda yenə də gözləri qeyri-ixtiyari ayaqyoluna dikildi, ayaqyolunun üstündəki çökək yer iynə kimi gözünə batdı. "Lənətə gələsən",- deyib evə sarı döndü. Qapını İzabella açanda təəccübləndi. Evinə çox bağlı olan, siyasətlə, demək olar ki, maraqlanmayan bacısının üzündəki qorxunu o dəqiqə sezdi. Nayruhi səsini çıxarmadan sual dolu baxışlarla bacısından cavab istədi. Hava soyuq olsa da, İzabella çölə çıxıb qapını arxasınca örtdü, yalnız ikisinin eşidə biləcəyi tərzdə astadan olub keçənləri danışmağa başladı. O danışdıqca təşvişlə tez-tez qapıya baxır, həyəcandan dişləri bir-birinə dəyir-

di. Sözünün sonunda uşaq kimi Nayruhiyə sığındı:

- Qorxuram, bacı, çox qorxuram. Əgər bir dəfə də boğazımdan yapışsa, Siranuşun əlindən çətin ki, qurtulam. Yuxuda gördüklərinin təsiri uzun müddət onu tərk etmir, həkim çağırmağa da qoymur. Yaxşı ki, gəldin, bəlkə də, sənin sözünü eşidər.

- Narahat olma, bu gecə keşikdə mən dayanacağam, hər şeyi özüm müşahidə edəcəyəm, lazım gəlsə, həkim çağıracağam,- deyə Nayruhi bacısına ürək-dirək verdi.

İçəri birlikdə girdilər. Pəncərələrə vurulmuş qara pərdələr otaqda vahiməni bir az da artırırdı. Nayruhi əlini uzadıb pərdəni kənara çəkmək istəyəndə İzabella mane oldu:

- Sən nə edirsən? Ayılıb görsə ki, içəri gün işığı düşüb qırğın qoparar.

Nayruhi astaca əlini geri çəkdi. Hər ikisi susdu.

- Atamızın da vəziyyəti heç yaxşı deyil. O gün həkim gəlmişdi. Dedi ki, ömrünə lap az qalıb. Hamını görmək istəyir, bəzən yuxuda görmək istədiyi adamların adını sayaqlayır, çağırır.

- Məni də mi, - deyə Nayruhi maraqlandı.

- Yox, daha çox ölülərlə, xüsusən də anamızla danışır, nəyə görəsə ondan üzr istəyir: “ Bağışla, sənin sirrini qoruya bilmədim”,- deyib əzab çəkdiyini söyləyir.

İzabella sözünü birdən dəyişdi:

- Bəlkə, sabah atamızın yanına birlikdə gedək? Ayıq olsa, çox sevinər.

Nayruhi dinmədi, onun dinmədiyini görüb bacısı da susdu. Yataq otağından anlaşılmaz səslər gələndə hər ikisi ayağa qalxdı. Siranuş zarıltıya bənzər səslə kiminləsə danışırdı, lakin dediyi sözləri anlamaq o qədər də asan deyildi. Arabir qızım, İveta sözlərini deyir, Harrinin adını çəkəndə isə hönkürürdü. İzabella

qorxu içində gah Nayruhiyə, gah da Siranuşa baxır, səsini çıxarmırdı. Səs kəsiləndə İzabellanın təlaşı daha da artdı, bacısına daha bərk sığındı. Onun hərəkətindən təəccüblənən Nayruhi çox keçmədən gördüyü mənzərədən özü də dəhşətə gəldi. Siranuş birdən-birə hərəkətə gəldi: bir əli ilə öz boğazından, digəri ilə isə saçından yapışdı, xırıltılı səslə kimi isə yamanladı. İzabella onun əllərini tutmaq istəyəndə Nayruhi mane oldu:

- Toxunma, o, yuxuda kabus görür, bir azdan sakitləşəcək.

Doğrudan da, çox keçmədən xırıltı kəsildi, Siranuşun sakit mışıltısı eşidildi. İzabella rahat nəfəs aldı: təhlükə sovuşmuşdu.

Siranuş səhərdən xeyli keçmiş yuxudan ayıldı, Nayruhini görəndə bir an duruxdu: qəzəblənsinmi, sevinsinmi, ayırd etməkdə çətinlik çəkdi. Ötən günləri yadına salıb qəhərləndi, iri qara gözlərini yaş tutdu:

- Mən də kimsəsizəm, Nayruhi, qızımı da itirdim, heç məzarı varmı, yoxmu, bilmirəm. Bütün ailəni itirsən də, sən məndən çox-çox xoşbəxtsən.

Siranuşun neçə gündən bəri ilk dəfə dil açaraq dərdini söyləməsi İzabellanı kövrəltsə də, dinmədi. Bacılarının susduğunu görən Siranuş sözünə davam etdi:

- Hə, sən xoşbəxtsən, çünki yalnız ailənin itkisinin dərdini yaşayırsan, səni yuxuda narahat edən, lənətləyən yoxdur. Amma mən...

Siranuş susdu, kiminsə eşidəcəyindən ehtiyat edirmiş kimi ətrafa boylandı, səsini qısaraq:

- Amma məni hər gecə hədələyir, gördüklərimi danışsam, öldürəcəklərini söyləyirlər. Bilirsənmi, kim? Öz balalarım. Hər gecə yüz dəfə ölüb-dirilirəm. Hə, ölüb-dirilirəm. Gözümə yuxu gedən kimi İveta başımın üstünü kəsdirir:” Harrini də, məni

də sən öldürdün!”- deyə qışqırır. Etiraz edə bilmirəm, əlində tutduğu daş parçası ilə üstümə cumur: “Sən, sənin iddiaların məni qatilə çevirdi, sənin də qatilin mən olacağam, amma səni birdəfəlik öldürməyəcəyəm, zərrə-zərrə, qram-qram tükədəcəyəm”,- deyərək daş ilə başıma vurmaq istəyir. Əllərini tutanda birdən-birə sevgili qızım vampirə çevrilir, boğzımı çeynəməyə çalışır, bu zaman onun uzanmış və qana bulaşmış köpək dişlərinə baxmaq cəhənnəm əzabını yaşamaq qədər dəhşətlidir, - pıçıldadı və Nayruhinin əllərindən yapışdı, - kömək elə, məni bu kabusdan qurtar. Övlad acısı nə qədər böyük olsa da, o ağrıları çəkə-çəkə yaşamaq istəyirəm, hə, əziz bacım, övladlarımın qisası üçün yaşamaq istəyirəm.

Siranuş danışdıqca ağzı köpüklənir, bəzən sözləri düzgün tələffüz etmir, gözlərində qəribə bir parıltı şölələnirdi. Birdən-birə onun gözündəki parıltı dəhşətli bir qorxuya çevrildi, bərk-bərk Nayruhini qucaqlayıb üzünü onun sinəsində gizlətdi, anlaşılmaz səslər çıxardı. Bu səslərin içində aydın eşidilən “gəlmə” və “vampir” sözləri idi. O, yenə xırıldamağa başlayanda Nayruhi yaxasının islandığını hiss etdi, bacısını çarpayıya uzadanda ağzından köpük axdığını gördü. Təcili yardım gələndə Siranuşun heç nə ifadə etməyən qara gözləri tavana zillənmişdi. İlk yardım heç bir nəticə vermədi, onun ürəyi döyünsə də, hərəkətsiz cismi cəsədi xatırladırdı. Lakin birdən-birə hərəkətsiz cisim yığılmağa, büzüşməyə başladı. Həkimin növbəti yardımı onun büzüşmüş vücudunun açılmasına səbəb oldu. Xəstə rahat nəfəs almağa başlayanda ehtiyatlı olmağı dönə-dönə tapşıran həkim alınacaq dərmanların siyahısını Nayruhiyə uzatdı. Nayruhi həkimin ardınca aptekə yollananda İzabellanın yalvarış dolu səsini eşitdi:

– Mən çox qorxuram, evə tez qayıt.

Nayruhi onu sakitləşdirdi, zahirən anasına çox bənzəyən və təbiətcə həm sadəlövh, həm də qorxaq olan bacısının alnından öpdü, gülümsünərək:

- Narahat olma, o, bir neçə saat yatacaq, mən o vaxta qayıdaram, - dedi.

Nayruhi aptekdən lazım olan dərmanları aldı, evə dönməmişdən əvvəl uşaq evinə baş çəkməyi də unutmadı. Ata-anasını itirmiş azyaşlı uşaqlarla görüş qəlbini göynətdi. Ermənicə heç nəyi başa düşməyən əsir uşaqları ilə görüşdə isə göz yaşlarını zorla saxladı. Özündən asılı olmadan onlarla türkcə danışanda uşaqların gözlərində sevinc qığılcımı parladı, onu əhatəyə aldılar. Uşaq evinin müdirinə bu hərəkət xoş gəlməsə də, adlı-sanlı vətənpərvər kimi tanıdığı jurnalistə etiraz edə bilmədi; "Yəqin ki, bunda da bir hikmət var", - deyə düşündü.

Nayruhi onlardan ayrılarkən yenə də gələcəyini söylədi. Uşaq evinin müdirinə isə məşhur kəlamı xatırlatmağı unutmadı:

- Xanım, düşmənlə öz dilində danışmağı bacarmalısan ki, istədiyinə nail olasan.

O, evə tələsdi, Siranuşun oyanmağına az qalırdı. Kiçik alaqapıdan içəri girəndə gördüyünə məəttəl qaldı. İzabella həyətdə qorxudan tir-tir əsir, içəridən isə Siranuşun qışqırığı və sınan qabların cingiltisi eşidilirdi. Nayruhi qapını açmaq istəyəndə İzabella:

- Qapını açma, bacımız dəli olub, əlindən zorla qaçmışam, - deyib hönkürdü.

Təcili yardım gələnə qədər hər ikisi həyətdə gözlədi. İçəri girmək həkimlər üçün də asan olmadı. Otaqdakı əşyaları qapıda görünən həkimlərə tolazlayan Siranuş əsl vəhşiyə dönmüşdü:

hamı onun gözünə vampir kimi görünürdü. O, əyninə geyindirilmiş xalatda əl-qol ata bilmədiyi üçün gedərkən əcaib səslər çıxararaq bacılarına dişlərini qıcadı. Filmlərdəki vampirlər kimi hərəkət edən Siranuşu görəndə bayaqdan Nayruhiyə qısılıb tir-tir əsən İzabella huşunu itirdi və Nayruhinin qollarından asılı qaldı...

***

Tərgül bağrına basdığı hər uşaqda öz körpəsinin iyini duymağa çalışdı. İllər bir-birini əvəz etdikcə Tərgülün bağrına basdığı uşaqlar böyüdülər, amma ciyərparası Amal heç böyümədi, onun gözündə altı aylıq körpə kimi qaldı. Gündüzlər başını körpələrlə qatan Tərgül üçün gecələr çox üzücü oldu; xəyallar hər dəfə onu çox uzaqlara apardı; gah oğlu ilə dağları, çəmənləri dolaşdı, gördüyü hər çiçəyin ətrini sinəsinə çəkdi, gah da yastığa dirsəklənərək çiçəklərlə, quşlarla, qayalarla bağlı əfsanələri bir-birinin ardınca uydurdu, balasının yuxuya getməsini seyr etdi, ona tamaşa etməkdən doymadı, gözlərini qırpmağa belə qorxdu. Elə zənn etdi ki, gözünü qırpsa, bir andaca körpəsini oğurlayacaq, onu şirin röyalardan ayıracaqlar. Yastığa dirsəklənən Tərgül xəyal aləmində çox üzdü, körpəliyi, gülüşü əsir düşmüş altı yaşlı Amalı tez-tez gözləri qarşısında canlandırmağa çalışdı, özünə: “Görəsən, görsəm, tanıyarammı?”- sualını verdi, o dəqiqə də: “Hə, tanıyaram, qoxusundan, üz cizgilərindən, çənəsindəki xalından, qıçındakı xəncər yarasından ( belə anlarda Tərgülün gözlərinə İvetanın bələyə tuşladığı xəncər görünər, ürəyi sancardı. Uşağın qışqırığına ayılması, qana bələnmiş bələyə doğru qaçmasını xatırlayar, İvetanı lənətləyər: “Sənin kimiləri torpaq da qəbul eləməsin”,- deyərdi) tanıyaram. Axı niyə də tanımayım?

Çətin gündə körpəmi ac qoymayan, onu yedirmək üçün südsüz döşlərimə süd verən Allahım balamı tanımaqda da köməyimə yetər”, - fikrilə təskinlik tapdı. O, körpəsinin yoxluğunu heç cür qəbul edə bilmədi, haradasa lap yaxında olduğunu düşündü, ötən illər gözünü yolda qoysa da, bir gün ona qovuşacağına inandı...

***

Mikola beş yaşlı oğlu ilə uşaq evinə gələndə Tərgül doğmalarını görürmüş kimi sevinir, bu böyük şəhərdə onlardan başqa dərdini bölüşəcəyi yaxın adamı olmadığını düşünürdü. Oğluna həm ata, həm də ana olan bu jurnalist Tərgülə çox vaxt öz soydaşlarını xatırladırdı. Mikolanın əvəzsiz yaxşılıqları, verdiyi ümidlər onu həyata bağlayırdı...

Bir gün saat onda Mikola Darya Alekseyevnaya zəng edib günortadan sonra vacib bir məsələ ilə bağlı görüşmək istədiyini deyəndə həmişə olduğu kimi yenə də Tərgülü həyəcan bürüdü, hansısa hiss ona Amalla bağlı bir yenilik olacağını pıçıldadı. Səbirsizliklə görüş anını gözlədi. Ona elə gəldi ki, dəqiqələr qəsdən geri sayır, irəliləmək istəmir. Günəş də yerindən tərpənmir, nədənsə bu gün günortanın qısamüddətli sərin mehi də əsməyə tələsmir. Tərgül səbri tükəndiyi üçün Darya Alekseyevnanın yanına getmək istəsə də, bacarmadı. Bunu yersiz hərəkət sandığı üçün səbrini basmağa çalışdı, uşaqları yatırandan sonra qapını döydü. İçəridən Darya Alekseyevnanın mülayim səsi eşidildi:

- Buyurun.

Tərgül ehtiyatla qapını açdı: Mikola ilə balaca Saşa içəridə əyləşmişdilər. Onu görən kimi Saşa irəli gəldi, qarşısında dayanıb:

- Salam, xala, - dedi.

Tərgül onun başını sığalladı, saçlarından öpdü və divarın dibində qoyulmuş stullardan birində əyləşdi. Saşa ondan əl çəkmədi, dizlərinə söykənib mahiyyətini anlamasa da, maraqla danışıqları dinləməyə başladı. Mikola aldığı son məlumatları dəqiqləşdirmək üçün gəldiyini söyləyəndə Darya Alekseyevna qovluqdan bir sənəd götürüb onun qarşısına qoydu. Hələ də söhbətin nədən getdiyini dərk etməyən Tərgül sual dolu baxışlarla gah Mikolanın, gah da Daryanın üzünə baxdığı üçün ona tərəf uzadılan şəkli əvvəlcə görmədi, lakin:

- Bu şəkil sizə nə deyir? – sualından diksindi, balaca fotoşəklə diqqətlə baxdı, baxdıqca gözləri böyüdü: bu onun Amalı idi. Həyəcandan dili topuq vura-vura:

- Yalvarıram, mənə düzünü deyin. Darya Alekseyevna, bu şəkli siz haradan tapmısınız?

Darya Alekseyevna Tərgülün üzünə baxmaqdan çəkinib baxışlarını yerə dikdi və astadan dilləndi:

- Bu uşaq vaxtilə bizim müəssisədə yaşayıb, sən gəlməmişdən bir neçə saat əvvəl isə buradan aparılıb.

Tərgül boğula-boğula soruşdu:

- Bəs nə üçün bunu məndən gizlətdiniz? Bəlkə, o vaxt oğlumu tapmaq mənim üçün daha asan olardı. Axı mən sizə yalvardım. Sizsə dediniz ki, buraya azərbaycanlı uşaq gətirilməyib. Nə üçün... Mikola aradakı gərginliyi yumşaltmaq üçün Tərgülün sözünü kəsdi:

- Darya Alekseyevna haqlıdır. Sizin Amal buraya Artur Muradyan adı ilə yerləşdirilib. Hamını çaşdıran da elə bu olub. Biz bundan xəbər tutandan araşdırma aparırıq. Nəhayət, eyni adlı körpəni başqa bir uşaq evindən tapdıq və mən də onu dəqiqləşdirmədən sizi narahat etmək istəmədim.

Artıq Tərgül heç nə eşitmirdi: balası buralarda - lap yaxınlıqda idi. Tezliklə ona qovuşacaq və doğma yurda qayıdacaqdı, daha heç kimdən, hətta Gülarədən belə utanmayacaqdı. Üzündən qəm kölgəsi bir anda çəkilən Tərgül sanki on il cavanlaşdı, balasını görmək sevinci ilə:

- Oğlum hansı uşaq evindədir? Oraya nə vaxt gedirik?- o, sualına cavab gözləmədən üzünü göylərə tutub, - Allahım, sənə min şükürlər olsun! İnanırdım ki, məni darda qoymayacaqsan, nə vaxtsa sevindirəcəksən, - dedi. Tərgül eşitdiyi xəbərdən çaşqına dönmüşdü: hərəkətlərinə cavabdeh ola bilmir, otağın içində obaş-bubaşa gedə-gedə Allaha şükür edirdi. Nə Mikola, nə də Darya Alekseyevna dillənirdi. Susaraq onun özünə gəlməsini gözləyirdilər. Otaqdakıları unudan Tərgül birdən-birə ayıldı, sevincinə kimsənin şərik olmaması onu çaşdırdı. Nurlu simasına qara kölgə endi, bir anda gözlərindəki sevinc yoxa çıxdı, sustaldığını hiss etdi, qeyri-ixtiyari divar boyu düzülmüş stullardan birində oturdu, nəzərləri gah Mikolanın, gah Daryanın, gah da çaşqın-çaşqın ona baxan dünyadan bixəbər Saşanın üzünə dikildi. Məsələnin ciddiliyini bütün varlığı ilə dərk edərək çox keçmədən sanki bir boy kiçildi, gözlərini Mikolaya dikdi. Nə qədər ağır olsa da:

- Xahiş edirəm, danışın. Məni taleyin daha hansı "sürpriz"i gözləyir?- dedi və cavab gözləmədən sözünə davam etdi, - amma balama "öldü" deməyin, əgər həyatda yoxdursa, " şəhid oldu"xəbərini mənə verin, bütün ömrüm boyu körpəliyi şəhid olan balama yas saxlayım.

Tərgül hıçqırdı, Mikola hiss etdi ki, ağlayan onun gözləri deyil, bir tərəfdən dərd əlindən paralanan, digər tərəfdən acı göz yaşları ilə sinəsinə köz kimi basılan ürəyidir. Daryanın da gözləri doldu.

Mikola birinci dəfə idi ki, danışmaqda çətinlik çəkirdi. Bala həsrəti ilə ömür yarpaqları xəzəl kimi tökülən bir anaya övladının Ermənistandakı uşaq evlərindən birində saxlandığını demək onun köz tutmayan yaralarının qaysaqlarını qoparmaqdan başqa nəyə yarayacaqdı? O, bir neçə dəfə danışmaq üçün boğazını arıtladı, lakin sozlər sanki dilində kilidləndi, Tərgülün çiyinlərini qucaqlayan Darya Alekseyevnaya söz tapmaqda aciz qalan adamlar kimi baxdı. Darya onu anladı, köksünə sığınan gənc qadının dən düşmüş saçlarından öpdü, asta-asta sözə başladı:

- Oğlun sağdır, Tərgül, narahat olma, amma…

O da sözünün davamını deyə bilmədi, susdu. Tərgülün qara badamı gözləri üzünə dikiləndə deyəcəyi sözləri unutdu.

- Amma nə?

Üzünə dikilən baxışlar Daryanı sıxdı, çətinliklə də olsa, sözünü tamamlaya bildi:

– Amma ona bizim əlimiz çatmır.

Tərgülün qaşları düyünləndi:

- Anlamadım. Nə üçün əlimiz çatmır?

- Çünki oğlunuz Ermənistandakı uşaq evlərindən birindədir,- sözlərini birnəfəsə deyən Darya həm özünü, həm də Mikolanı çətinlikdən qurtardı. İndi son söz Tərgülün idi. Simasına bulud çökmüş gənc ana tərəddüd etmədən:

- Mənə dəqiq ünvan verin, balamın yanına gedəcəyəm, ölümüm bahasına olsa belə, onu xilas edəcəyəm, - dedi.

Onun qətiyyətlə dediyi sözlər qarşısında hər ikisi susdu. Lakin bu sükut elə də uzun çəkmədi. Mikola sözə başladı:

- Oraya getmək o qədər də asan deyil. Sizin oğlunuz digər azərbaycanlı uşaqlarla xüsusi düşərgədə saxlanılır. Ən böyük uşağın səkkiz, ən kiçiyin isə altı yaşı var. Onlara indidən xüsusi

təlim keçilir. Təlim keçənlər türk dilini sərbəst bilənlərdir. Uşaqlara erməni vətənpərvərliyi sizin dildə aşılanır, ata-analarını türklərin qətlə yetirdiyinə dair müxtəlif video-materiallar göstərirlər. Qəribəsi budur ki, uşaqların erməni dilini öyrənməsini istəmirlər. Məqsədləri nədir, bilmirəm. Bunu öyrənməyə çalışacağam.

- Bəs siz necə öyrənəcəksiniz?- Tərgülün səsi sanki dərin quyunun dibindən gəldi.

- Hər halda bir çözüm tapacağıq, - deyərək Mikola getmək üçün ayağa qalxdı. Bayaqdan diqqətdən kənarda qalan və anlamadığı söhbətdən sıxılan Saşa atasının əlindən tutub qapıya tərəf çəkdi.

Eşitdiyi xəbərin ağırlığını dərk edən Tərgül Mikola gedəndə hələ də çarpaşıq fikirlər içərisində çabalayır, çıxış yolu axtarırdı. Birdən yadına Qayana düşdü, Nayruhi ilə son görüşünü xatırladı: “ Nayruhi:

- Mənim bir yox, artıq iki qızım var,- deyərək hər ikisini bağrına basanda heyrətdən Tərgülün göz yaşları da qurudu. Bir erməni qadından eşitdiyi bu sözləri növbəti hiylə zənn etdi, yavaşca onun qolunu boynundan açdı, ayağa qalxıb digər stulda oturdu. Onun bu hərəkəti Nayruhini sındırsa da, qətiyyən təəccübləndirmədi. Bir ananın faciəsini dinlədikcə elə xəcalət çəkmişdi ki, ifadə etməkdə söz də aciz idi. Tərgülün:

- Məni azad buraxın, - sözlərini eşidəndə başını qaldırıb:

- Yolun açıq olsun, qızım, bil ki, arxanda dayanan bir anan var, - dedi.

Tərgül ona çəpəki baxaraq sərt şəkildə dilləndi:

– Sizdən mənə ana, məndən sizə övlad olmaz.

O, Qayananı qucaqlayıb öpdü, Nayruhiyə ötəri nəzər salıb:

- Əlvida! – dedi və çantasını götürüb ona alınan paltarların

heç birinə əl uzatmadan qapıdan çıxdı. Arxasınca hönkürən qadının səsinə belə geri boylanmadı. Bu, Nayruhi idi".

Tərgül son ümid yeri kimi, düşməni saysa da, Nayruhiyə üz tutmalı oldu. Çantasından kiçik bir dəftərçə çıxartdı.Vaxtilə Qayananın verdiyi telefon nömrəsini tapdı, tələsmədən nömrəni yığdı, lakin çağırışına kimsə cavab verməyəndə mobil telefona zəng etdi. Nayruhinin cingiltili səsini eşidəndə əvvəlcə duruxdu, söhbətə necə başlayacağını bilmədi. Nayruhinin növbəti:

- Alo, sizə kim lazımdır? – sualından sonra çətinliklə də olsa, dili açıldı:

- Mənə siz lazımsınız.

- Siz kimsiniz, nədənsə tanımadım.

- Mən Tərgüləm, - sözünü eşidəndə Nayruhi dillənmədi. Tərgül nahaq zəng etdiyini düşünəndə xəttin o başından yenidən cingiltili səs sükutu pozdu:

- Xeyir ola, Tərgül, səndən nə əcəb, zəng eləmisən?

Tərgül onun səsindəki mülayimliyi duyub ürəkləndi:

- Sizinlə görüşmək istəyirəm, - dedi.

- Nə vaxt istəsən, görüşə bilərik.

***

Payız bu il Moskvaya nədənsə vaxtından əvvəl gəlmişdi. Havalar soyumuş, yay günəşinin hərarətindən yayxanan ağaclar ətəklərini yığmağa məcbur olmuşdu. Lakin havalar nə qədər soyusa da, səhər tezdən həmişəyaşıl ağacların yarpaqlarında yurd salan qırov günəşin zəif şüalarına davam gətirməyib əriyir, damcılar iriləşdikcə tappıltı ilə digər yarpaqların üstünə düşür və torpağa süzülürdü. Hava istiləşdikcə torpaqdan və yarpaqlardan qalxan buxar rütubəti artırır və hər tərəfdə qəribə qoxu

duyulurdu. Günün ikinci yarısında başlayan meh güclənəndə isə bəzi yaşıl yarpaqlar nə qədər qorunmağa çalışsa da, küləyə tab gətirə bilmir, ömrünü bitirmiş yarpaqlarla bərabər yolunmuş saç kimi havada dövrə vurur, ətrafa səpələnirdi. Bəzən şıdırğı yağış küçələrdə rəqs edir, ahəngdar tappıltıları təbiətə nəğmə qoşur, çılpaqlaşan ağaclara vıda laylası çalırdı.

Tərgül Moskvada beşinci payızı qarşılasa da, başı dərdlərinə qarışdığı üçün nəinki fəsillərin necə keçdiyini duymamışdı, hətta təbiətin gözəlliyindən də məhrum olmuşdu. Parkdakı ağacları seyr edərkən qəlbində boy atan kövrək xatirələr onu yenidən qoynuna aldı, doğma yurda apardı. Qarqar çayının ahəngdar şırıltısı, meh əsdikcə ömrünün payızında belə ağacdan qopmaq istəməyən yarpaqların pıçıltısı, quşların həyəcanlı civiltisi bu beş ildə ilk dəfə ona bu qədər yaxın oldu: "Tərgül, həyat var, yaşamağa dəyər!"- dedi. Nayruhi qoluna toxunanda Tərgül düşüncələrdən ayrıldı.

Yaxınlıqdakı skamyalardan birində əyləşdilər. Sükut davam etdikcə hər ikisi sıxıldı. Nayruhi nə üçün çağırıldığını təxmin etsə də, söhbətə birinci başlamaq istəmədi, sual dolu baxışlarla ona baxdı. Bu baxışlarda Tərgül indiyə qədər duymadığı bir həssaslıq, doğmalıq görəndə ürəkləndi, ağır-ağır dilə gəldi:

- Yadınızdadırmı, sonuncu dəfə mənə dedikləriniz? –

Nayruhi yenə dillənmədi, sakitcə başını tərpətdi.

- Siz mənə dediniz ki, yolun açıq olsun, qızım, bil ki, arxanda dayanan bir anan var.

Nayruhi ağzını doldurub nə isə demək istəyəndə Tərgül ona danışmaq imkanı vermədi:

- Mənsə dedim ki, sizdən mənə ana, məndən sizə övlad olmaz. Yəqin ki, xatırlayırsınız.

- Əlbəttə, xatırlayıram.

- Onda dediklərinizi isbat edin.

- Necə?

- Qayananın oğlunu tapıb gətirdiyiniz kimi oğlumu mənə gətirin.

Nayruhi duruxdu, bir an özünü itirdi, dili topuq vurdu:

- Bbbu imkansız, onu neecə ggətirə bilərəm?

Tərgül köksünü ötürdü:

- Deməк, mən haqlı imişəm. Əgər qızınız olsaydım, mənim də oğlumu tapıb gətirərdiniz.

- Qızım, məni başa düş. Xüsusi nəzarətdə saxlanan uşağı düşərgədən necə çıxarmaq olar? Bu, çox təhlükəlidir.

- Hm. Canınız sizin üçün çox əzizdir, amma balam da mənim canımdır. Onun sağ olduğunu bilə-bilə burada necə dayana bilərəm?- Tərgülün səsi titrədi, payız yağışına bənzər damlalar kirpiklərinə mirvari kimi düzülüb yanaqlarına süzüldü, toxtadıqdan sonra titrək səslə, - onda məni balamın yanına apar, - dedi.

- Tərgül, səni ora aparmaq yenidən cəhənnəm əzabı yaşatmaqdır, bunu məndən istəmə!

- Bəs neçə illərdir, o cəhənnəm əzabını yaşamırammı? – Tərgül hıçqırdı. Nayruhi onun başını köksünə sıxdı, pıçıltı ilə:

- Mənə vaxt ver, Tərgül, - dedi, - sənin üçün nə isə edəcəyəm, oğluna qovuşduracağam.

***

Həftələr bir-birini əvəz etdi, lakin Nayruhidən bir səs-soraq çıxmadı. Vaxt uzandıqca Tərgül özünü danladı, kömək üçün bir erməni qadına sığınması, ağız açması onu ruhən əzdi. Bəzən elə zənn etdi ki, indiyə qədər çəkdiyi ağrı-acılar onu bu qədər

sarsıtmayıb. Düşməndən kömək ummaqdan ölümü şərəfli bilən babaların sərt baxışları, anaların qınağı Tərgülü sıxdı. Bəzən isə mənəvi əzabın pəncəsində bağırmaq, bütün dünyaya etirazını püskürmək istədi, lakin səsini içində boğdu. Qəlbinin ağrıları, çəkdiyi iztirablar üzündəki son təbəssümü də yağmaladı, onu qaradinməz etdi. Darya Alekseyevna Mikola ilə son görüşdən sonra Tərgüldə yaranan ruh düşkünlüyünü hiss etsə də, onu ovundurmaq üçün hər cəhdin səmərəsiz olacağını bilir, övlad acısını gözəl anlayırdı. Əkiztay bacısı Yulyanın cəsədini qəzaya uğramış maşının təkəri altından çıxarmaq üçün anasının dırnaqları ilə torpağı eşərək acı fəryad qoparmasını üstündən otuz beş il keçsə də, unutmaq mümkün deyildi. Mikolanın da səssiz-səmirsiz yoxa çıxması, Daryanı təəccübləndirirdi. Bəzən onu ürəyində yamanlayır, öz-özünə deyirdi:

- Əgər kömək edə bilməyəcəkdinsə, bir ananın yaralarını təzələməyə ehtiyac vardımı?

Qapının döyülməsi Darya Alekseyevnanı düşüncələrdən ayırdı, astadan dilləndi:

- Buyurun.

Tərgülü görəndə üzünə xoş təbəssüm qondu, oturmaq üçün yer göstərdi, onun oturmaq istəmədiyini görəndə özü ayağa qalxdı, qoluna girib pəncərənin qabağına gətirdi, amma bunu nə üçün etdiyinin özü də fərqində olmadı. Uşaqların yatmaq saatı olduğu üçün həyətdə xəzəlləri bir yerə toplayan xidmətçidən başqa heç kim görünmürdü. Payız bütün əlvanlığı ilə göz oxşasa da, tökülən xəzəlləri toplayan qadın sanki bu gözəlliyi görmür, yerə düşən bütün yarpaqları yığmağa cəhd edirdi.

- Payız gözəl fəsildir, elədirmi?

Tərgül verilən sualı eşitmirmiş kimi:

- Darya Alekseyevna, haqqınızı halal edin, mən gedirəm, - deyəndə Darya təəccübləndi:

- Haraya gedirsiniz?

- Oğlumun dalınca gedəcəyəm.

Darya dəhşətə gəldi:

- Sən nə dediyini anlayırsanmı? Orada səni nələr gözlədiyini bilirsənmi?

- Anlayıram, nələr gözlədiyini də bilirəm. Balamı onların əlində qoya bilmərəm, ya öləcəyəm, ya da balamı qurtaracağam.

- Tərgül, düşün, oraya nə ilə gedəcəksən? Təyyarə ilə gedə bilməzsən, çünki sənədlərini görən kimi erməni olmadığın ortaya çıxacaq, bilərəkdən boğazını halqaya keçirtmə, səni elə təyyarədəcə öldürərlər.

- Təyyarə ilə getməyəcəyəm. Çox düşündüm. Oraya Gürcüstan ərazisindən keçəcəyəm. Erməni dilini gözəl bilirəm. Bu, köməyimə çatar.

Tərgülün qətiyyəti qarşısında Darya heç nə deyə bilmədi, amma Mikola ilə əlaqə saxlayana qədər onu yubatmağa çalışdı:

- Bir də düşün, Tərgül. Bu ağır yükün altına təkbaşına girmə.

Tərgül gözləri yol çəkə-çəkə az qala pıçıltı ilə dedi:

- Başqa çıxış yolu tapmadım, mənə verilən əmanətdən vaz keçməyə haqqım yoxdur. İndiyə qədər nə yerini, nə də sağ olduğunu bilirdim, nə vaxtsa tapmaq ümidilə günləri, ayları sovurdum. Amma indi...

Tərgül sözünü bitirməsə də, Darya onu gözəl başa düşdü...

***

İki gündən sonra Moskva – Tbilisi sərnişin qatarının altıncı vaqonunda kupedə əyləşənlər arasında Tərgül də vardı...

Üçüncü zəngdən sonra qatar yola düşdü. O, beş ildən çox yaşadığı, lakin isnişə bilmədiyi torpaqlara vida nəğməsi oxudu. Hava aydın, buludsuz görünsə də, Tərgül zülmət qaranlığa doğru addımladığını gözəl anlayırdı. Bu qara boşluqda qismətinə düşəcək "hədiyyə"lərlə bərabər oğlu ilə görüşünü gözünün qabağına gətirəndə bayaqdan tutqunlaşan siması birdən-birə aydınlaşdı, gözlərində gülüş, dodaqlarında təbəssüm oynadı.

Bir saatdan çox vaxt keçməsinə baxmayaraq, kupedəkilər söhbətə meyillənmirdilər. Lopa bığlı yaşlı kişi oturduğu yerdə mürgüləyir, başı sinəsinə əyiləndə diksinib ayılırdı, görünüşündən gürcü olduğu anlaşılırdı. Tərgüllə üz-üzə oturan qadının heç bir məna duyulmayan bozumtul gözləri şüşəyə bənzəyirdi. Yanındakı onbeş-onaltı yaşlı qızın gözlərində isə xoş bir ifadə vardı. Ortadan donqarı zorla duyulan burnunun üstündəki kiçik çillər sarışın simasına çox yaraşırdı. O, arabir yerindən qımıldanır, Tərgülə baxaraq nəsə demək istəyirdisə də, yaşlı qadının şüşə gözlərindən, üzünün ciddi ifadəsindən çəkinib susmağa məcbur olurdu. Qatarın ahəngdar taqqıltısına öyrəşən sərnişinlər, çox keçmədən rahatlandılar, indi bu səs onlara sanki layla çalırdı. Yaşlı qadın da oturduğu yerdə mürgüləməyə başladı. Onun mürgüləməsindən istifadə edən qız Tərgülə tərəf əyilib rus dilində adını soruşdu. Tərgül qıza gözucu baxıb dillənmədi. Amma qızın, deyəsən, əl çəkmək fikri yox idi:

- Mənim adım Loradır, anam rus, atamsa erməni əsilli gürcüdür,- qız Tərgülün mat-mat baxdığını görüb ara vermədən sözləri üyüdüb tökdü, - qəribə gəldi deyilmi? Yəni əslən ermənidir, lakin nədənsə gürcü familiyası daşıyır. Bu qadın nənəmdir. Atamı tutublar, anamsa, - qız dərindən ah çəkdi, - ruhi xəstədir, nə vaxt sağalacağı bəlli deyil. Tək qaldığım üçün nənəm məni özü

ilə gətirdi. Doğrusu, gəlmək istəmirdim. Axı balaca deyiləm, iki aydan sonra pasport alacağam, özümü dolandıra bilərəm. Moskvada çoxlu dostlarım var. Burada nə edəcəyəm? Eh, xoşuma gəlməsə, pasport alan kimi evdən qaçacağam.

O, Tərgülün yenə də dinmədiyini görüb incik halda sözünə davam etdi:

- Mən sizə hər şeyi danışdım, bəs siz kimsiniz, haraya gedirsiniz? Adınız nədir?- qız başını bir qədər də irəli uzadaraq pıçıltı ilə dedi,- Amma çox gözəlsiniz. Sizin kimi gözəl olsa idim, gözəllik müsabiqəsinə qatılardım. Siz heç müsabiqədə iştirak etmisinizmi?

Tərgül başını bulayaraq:

- Yox,- deyəndə qız əlini əlinə vurub heyifsiləndi:

- Heyif, çox heyif!

Şappıltı səsinə gözünü açan yaşlı qadın ona gözünü ağardaraq erməni dilində əmr etdi:

- Boşboğazlıq eləmə.

Susmaq istəməyən Lora az qala yalvardı:

- Nora nənə, nə olar, məni susdurma. Sakit otura bilmirəm. Sən yatırsan, mən də darıxıram. Danışmaq istəyirəm. Bu qıza bax, gör nə gözəldir! – o, başı ilə Tərgülü göstərdi, amma nənənin boz baxışlarında heç bir dəyişiklik görməyəndə əli ilə ağzını tutub pıqqıldadı və gülə-gülə fikrini tamamladı, - bağışla, nənəcan, unutmuşam, anam həmişə deyirdi ki, gözlərin boz rəngdə olduğu üçün sən gözəlliyi görmürsən.

Yaşlı qadın hövsələdən çıxaraq gəlinin ünvanına çoxmərtəbəli söyüş yağdıranda Tərgülün dodaqları qaçdı, amma bunu büruzə verməmək üçün öskürmək bəhanəsi ilə əlindəki dəsmalı ağzına tutdu. Kupeyə yenə sükut çökdü. Lopabığ sərnişin başını

çiyninə qoyub dərin yuxuya getmişdi. O, arabir kəsik-kəsik xoruldayır, bəzən də bu xorultu dayanan qatarın fısıltısına bənzəyən səslə əvəz olunurdu. Lora onun bu halını gördükcə qımışır, nadinc uşaqlar kimi onu yamsılayaraq xəfif-xəfif gülürdü. Nəhayət, nənənin də boz gözlərinə yuxu qondu. O nə qədər ayıq qalmağa çalışsa da, göz qapaqları ilə mübarizədə qələbə qazana bilmədi. Bir azdan qatarın nazik fiti eşidildi, deyəsən, növbəti stansiyaya çatırdılar. Nənənin fit səsinə oyanmaması Loranı sevindirdi. İndi o istədiyi qədər danışa bilərdi. Tərgülün pəncərədən çölə baxması qızcığazı çox maraqlandırdı, keçib onun yanında əyləşdi, gözlərini pəncərəyə zilləsə də, qaranlıqda heç nə görmədi. Astaca Tərgülün qoluna toxundu, onun tərpənmədiyini duyanda əyilərək diqqətlə gözlərinə baxdı. Qaranlığa dikilən gözlərin cazibəsindən heyrətləndi, içini çəkərək:

- Sizin nə gözəl gözləriniz var, - dedi, - ilk dəfədir ki, bu qədər mənalı, dərin göz görürəm.

Lora susdu, mavi gözləri uzun-uzadı yol çəkdi:

- Mənim anamın gözləri mavidir, mən də ona oxşamışam, müsahibi cavab verməyəndə darıxdığını açıq-aşkar büruzə -verdi, - niyə dinmirsiniz?- o, ərkyana başını Tərgülün çiyninə söykədi,- Siz mənə qulaq asırsınızmı?

Tərgül başı ilə təsdiqlədi. Lora təşəkkür etdi:

– Çox sağ olun, heç kim məni dinləmək istəmir. Elə zənn edirlər ki, çərənçiyəm, amma yox, çərənçi deyiləm. Məni başa düşən bir dosta möhtacam. İstəyirəm ki, kömək etməsə də, məni dinləsin, hislərimə şərik olmasa da, dediklərimi eşitsin.

O, birdən başını Tərgülün çiynindən qaldırdı, asta səslə soruşdu:

- Mənimlə dost olarsanmı?

Tərgül qeyri-ixtiyari əlini onun saçlarına toxundurdu:

- Olaram, - dedi.

Loranın sevincdən gözləri güldü, başını yenidən Tərgülün çiyninə qoydu, yenə dil-dil ötdü:

- Anamın da çiyni belə yumşaq idi. Amma atam ona gün vermirdi, tez-tez döyürdü. Heç səbəbini də bilmirdim, - bayaqdan dil-dil ötən qızın səsi birdən-birə titrədi, qəhərləndiyi hiss olundu. Qəhərini boğmaq üçün bir neçə dəfə udqundu, özünü ələ alıb sözünə davam etdi, - Bir gün kiçik qardaşım yoxa çıxdı. Çox balaca idi, hələ bir yaşının tamam olmağına xeyli vardı. Onda on yaşım vardı. Atam evə gələndə anam onun yaxasından yapışdı, üstünə qışqırıb soruşdu:

- Oğlumu neylədin?

Atam onun saçlarından tutub başını qəzəblə divara çırpanda qan ətrafa sıçradı, anam huşunu itirdi. Ayılanda evdə məndən başqa heç kimi görməyib qardaşımın yastığını qucaqladı, hönkür-hönkür ağladı. Danışığından bəlli oldu ki, atam qardaşımı pul lazım olduğu üçün satıb.

Lora yenə susdu. İndi onun üzündə yaşına uyğun olmayan qəmli bir ifadə vardı:

- Mənim beş yaşım olanda atam bizi atmışdı. Anam ikinci dəfə ərə getdi və qardaşımı dünyaya gətirməyə hazırlaşdı. Atalığım çox mehriban idi, məni çox sevirdi, amma bir gün qəzada həlak oldu. O öləndən sonra doğma atam geri döndü. Anam onu qova bilmədi. Tezliklə qardaşım doğuldu. Həmin gündən evimizdə dava-dalaş artdı, çünki atamın qardaşımdan xoşu gəlmirdi. Həmişə rus küçüyü deyirdi ona. Qardaşımı satandan sonra atamdan həmişə çəkindim, onu sevə bilmədim. Elə zənn etdim ki, məni də pul lazım olan kimi satacaq, anama həsrət qalacağam.

Anam da qorxudan məni bir müddət evdən uzaqlaşdırdı, Voronejdə yaşayan nənəmin yanına göndərdi. İki il orada yaşadım, amma nənəm öləndən sonra geri qayıtdım. Anam çox dəyişmişdi, həm qocalmış, həm də ağlını itirmişdi, gah evdən qaçır, gah da əlinə keçən hər şeyi həyətdən keçənlərə tullayırdı. Vəziyyəti getdikcə idarəolunmaz hala gəlirdi. Yalnız mənə baxanda üzünün cizgiləri yumşalırdı. Bir il bundan əvvəl həkimlər onu uzunmüddətli müalicə üçün apardılar. Atam isə etdiyi cinayətlərə görə dəfələrlə həbs olunsa da, tezliklə azadlığa buraxılıb. Amma bu dəfə, deyəsən, buraxılma şansı yoxdur. Bilirsinizmi niyə?

O, diqqətlə nənəsinə baxdı, dərin yuxuda olduğunu görüb pıçıltı ilə sözünə davam etdi:

- Bir qadının ölümündə əli olduğunu deyirlər.

Lora əl çantasını açdı, içindən çıxardığı şəklə uzun-uzadı baxdı, sonra Tərgülə uzatdı:

- Bax, bu, anamdır, bu mən, bu isə atamdır.

Tərgül şəkli aldı. Vaqonun zəif işığında onun gözlərində sanki bir şimşək çaxdı, ürəyi sürətlə döyünməyə başladı.

Loranın atası Xoren, anası isə itən uşağının hesabını Tərgüldən istəyən rus qadın idi. O, gözlərini yumdu, atasının kimliyi haqqında dəqiq məlumatı olmayan qızcığaza, həyatı talan edilmiş qadına qəlbən acıdı. Özünü birtəhər ələ alıb soruşdu:

- Atanın adı nədir?

- Maho Maxaradze, amma dostları onu Maho Muradyan kimi tanıyırlar.

- Bəs qardaşının adı necə idi?

Tərgülün onunla həmsöhbət olması Loranı sevindirdi:

- Qardaşımın adı Artur idi, atam hər ikimizin soyadını Muradyan yazdırıb.

Tərgülün ürəyi şiddətlə döyündü: uşağını sakitləşdirməyə çalışan sarışın qadın, isti havada belə örtük altında üzü gizlədilən körpə ani olaraq gözlərinin qarşısında canlandı, Loranın dedikləri bəzi qaranlıqlara aydınlıq gətirdi. Vaxtilə qəzəbləndiyi qadına yazığı gəldi. Loradan daha çox şey öyrənməyə çalışdı:

- Ananı sakitləşdirmək üçün atan qardaşını geri gətirdimi?

- Gətirdiyini görmədim. Amma Voronejdə nənəmin yanında olarkən anam məktub yazdı ki, qardaşımı tapıblar.

- Haradan?

- Qardaşımı oğurlayıb Fransaya aparıbmışlar, amma atamın dostları axtarış nəticəsində onu tapıblar və anam yenidən oğluna qovuşub. Hətta onunla çəkdirdiyi şəkli də mənə göndərmişdi. Bir az gözləyin, şəkli tapım.

Lora çantasını eşələdikcə Tərgülün ürək döyüntüləri də artırdı. Elə bu vaxt qızcığazın sevinc dolu səsini eşitdi:

- Axır ki, tapdım, baxın.

Əlləri əsə-əsə şəkli alan Tərgül gözlərinin yaşını zorla saxladı, astadan:

- Lora, qardaşını xatırlayırsanmı? – soruşdu.

- Əlbəttə. Sarışın saçları vardı, gözləri mənim gözüm kimi mavi idi. Anam bu şəkli göndərəndə, düzü, təəccübləndim, anama yazdım ki, bu, Artur deyil, amma o mənə inanmadı. Diqqətlə baxın, bu uşağın gözləri qaradır, saçları da şabalıdı rəngdədir. Hələ çənəsindəki xala baxın.

Tərgül beşillik ayrılıqdan sonra balasının şəklini ilk dəfə belə yaxından görürdü. O, əllərinin əsdiyini hiss etdi. Birtəhər özünü toparladı, həyəcanını boğmağa çalışsa da, səsindəki titrəyiş aydın duyuldu:

- Bəs indi qardaşın haradadır?

- Onu da oğurladılar, bundan sonra anamın halı daha da pisləşdi, dava-dərman da kömək eləmədi. O vaxtdan ruhi xəstə kimi qeydiyyata alındı. Atamsa məni heç vaxt onun yanına aparmadı, dedi ki, oraya uşaqları buraxmırlar.

İndi Tərgülün tam aydınlaşdırdığı məsələlər vardı; Sofiyanın qatili tutulub, oğlu Amal isə sağdır. Onu nəyin bahasına olursa-olsun tapmalıdır. Qatarın növbəti fiti eşidiləndə yaşlı qadın gözünü açdı, Lora şəkilləri gizlətməyə çalışsa da, bacarmadı. Birtəhər vəziyyətdən çıxmaq üçün dilini işə salmaq istəyirdi ki, nənəsi erməni dilində soruşdu:

- Artıq-əskik bir söz çərənləmədin ki?

Tərgül Loradan əvvəl dilləndi:

- Nora xala, çox şirin nəvəniz var, məni darıxmağa qoymadı.

Tərgülün ernəni dilində danışması yaşlı qadını diksindirdi:

- Siz də mi ermənisiniz?

Tərgül başı ilə təsdiqlədi.

- Adınız nədir?

- Laura.

- Gözəl adınız var. Siz haraya gedəcəksiniz?

- Bolnisi rayonuna gedirəm.

- Oralısınızmı?

- Özüm Moskvada yaşasam da, bacım oradadır. Tez-tez buralara gəlirəm.

Tərgülün erməni olması Loranı heyrətləndirdi:

- Siz ermənisinizmi? İnana bilmirəm. Mən bütün ermənilərin Nora nənəyə oxşadığını zənn edirdim. Ona görə də onları sevmirdim. Amma sizi sevdim.

Nənəsi nə qədər göz ağartsa da, Lora susmaq bilmədi, yenicə dostlaşdığı Tərgüllə xeyli söhbət etdi... Qatar Tbilisi vağza-

lına çatanda dərindən nəfəs alıb dayandı. Əvvəlcədən yır-yığış edən sərnişinlər çıxış qapısına yönəldilər. Lora kupedəcə Tərgülün böynuna sarılıb:

- Ünvanı unutma, bizə qonaq gəl, Laura, - dedi.

Nora nənə üz-gözünü turşutdu. Bunu qonaq sevmədiyi üçünmü, ya Tərgülə inanmadığı üçünmü etdi, başa düşmək çətin idi.

Axşam düşdüyü üçün Tərgül haraya gedəcəyini müəyyənləşdirməkdə çətinlik çəkdi. Gecəni qalmaq üçün taksi ilə mehmanxanaya getmək fikrinə düşdü. Əlini qapının dəstəyinə uzatmaq istəyirdi ki, adını eşitdi:

- Tərgül!

Qulaqlarına inanmadı, bu səsdə bir doğmalıq, yaxınlıq duydu. Əlini dəstəkdən çəkib geri çevrildi: qarşısında Nayruhini görəndə bir anlıq çaşıb qaldı. Nayruhi kədərli baxışlarını onun üzünə zilləyərək:

- Gəldim, qızım, səni tənha qoya bilməzdim, - dedi və Tərgülün boynuna sarıldı.

Mehmanxanada ikinəfərlik otaq kirayələdilər. Yüngülvarı axşam yeməyindən sonra hər ikisi istirahət etmək qərarına gəldi, hava küləkli idi, payızın sazağı adamın nəfəsini kəsirdi.

Nayruhi onun üzünə diqqətlə baxıb:

- Nə üçün tələsdin, Tərgül, məni gözləmədin, - dedi, - güvənmədinmi?

- Əvvəlcə güvəndim, amma sizdən bir xəbər almayınca gəlməyə məcbur oldum.

- Təkbaşına nə edəcəkdin? Əlindəki sənədlərlə nə iş görə biləcəkdin?

- Bolnisidə tələbə yoldaşım var, onlara gedəcəkdim, yardı-

mı onlardan alacaqdım.

- Bacaracaqdılarmı?

- Bilmirəm.

- Bir iş görəndə tələsmə, - deyərək Nayruhi çantasını qurdaladı, içindən bir zərf çıxartdı, Tərgülə uzadaraq, - sənin sənədlərindir. Yubanmağıma səbəb də bu idi. Əvvəldən şərtləşdiyimiz kimi, sən Bakıda uşaq evində böyümüsən, tibb bacısısan, qarışıqlıq düşəndə ağır yara alıbsan, - o, Tərgülün alnındakı çapığa işarə etdi, - adın Laura, Simonyan isə familiyandır. Sabah ayrılmalıyıq, səni Yerevana rəfiqənin adamları ötürərlər. Çünki o kəndlərdən Yerevana maşınlar işləyir. Mən səni Sasunlu Davidin heykəlinin yanında gözləyəcəyəm.

Bayaqdan Nayruhini dinləyən Tərgül marağını gizlətmədi:

- Burada olduğumu nədən bildiniz?

- Darya Alekseyevna söylədi.

- Sizə bir sual vermək olarmı?

- Əlbəttə.

- Mənə niyə kömək edirsiniz?

Nayruhi bu sualın qarşısında xeyli susdu, gözləri uzun-uzadı yol çəkdi, nəhayət, ağır-ağır dilləndi:

- İnsanlıq naminə.

Tərgül yerinə uzanıb adyalı üstünə çəkdi, ötən gecəni yatmasa da, yuxulaya bilmədi:

- Xorenin tutulduğunu bilirdinizmi?

Nayruhi sakitcə savab verdi:

- Bəli. Amma bu çox yüngül cəzadır, ölümü mənim əlimdən olacaq.

Hər ikisi susdu. Tərgülü fikir aldı: yad şəhərdə tanımadığı adamların içərisində maskalana biləcəkdimi? Oğlunu görən-

də hislərinə hakim olacaqdımı? Əgər ifşa olunsa, necə hərəkət edəcəkdi? Verilən əzablar qarşısında əvvəlki kimi tab gətirəcəkdimi? Suallar bir-birini əvəz etdikcə Tərgülü tər basdı. Tez də özünü ələ aldı:

- Sən nələri adlatmadın, Tərgül! İndi nədən qorxursan? Bütün ömrü boyu əzab içində qovrulmaqdansa, birdəfəlik yanmağı özün qəbul etmədinmi? Bu gün sənin öhdənə daha ağır yük düşür: Vətəni erməni məkrindən qorumaq, öz əlimizlə xalqımıza ediləcək xəyanətin qarşısını almaq, zorla erməniləşdirilən, aldadılan, körpə yaşlarından xalqımıza qarşı intiqama susadılan şəhid övladlarını düşəcəkləri bataqlıqdan xilas etmək.

Bunları düşündükcə Tərgül sakitləşdi, nə zaman yuxuya getdiyinin fərqində olmadı.

O, səhər yerindən duranda Nayruhi çoxdan getmişdi.

Şərtləşdikləri kimi bundan sonrakı yola təkbaşına davam etməli idi. Tərgül yüngül qəlyanaltı edəndən sonra avtobus dayanacağına yollandı. Bolnisiyə gedən ilk avtobusa minib yola düşdü. Yol boyunca necə qarşılanacağını düşündü. Arabir qəfil görüşdən təəccüblənən, gözlərinə inanmayan Tənzilənin donuxmasını xatırlayıb gülümsündü. Tələbəlik illərini yadına saldı: sadəlövhlüyü ucbatından hamıya inanan Tənziləni nə qədər çoxsevildiyini andı.

Evi tapmaq o qədər də çətin olmadı, amma onu Tənzilə deyil, yaşlı bir qadın qarşıladı. Qadın zənlə onun üzünə baxdı, mülayim səslə:

- Gözümə çox şirin görünürsən, amma tanıya bilmədim, - dedi.

Tərgül qadını qucaqladı:

- Nə tez unutdunuz, Nazilə xala, yadınıza salın, Bakıda si-

zinlə xoş günlər keçirmişik. Tənziləni yoxlamağa gələndə bizim əsl bayramımız olardı, - deyəndə qadın bir də onu diqqətlə süzüdü, gözləri yaşardı, barmaqları ilə Tərgülün alnındakı çapığı tumarladı:

- Xatırladım, qızım, sən Tərgülsən. Bəs bu çapıq nədir?

- Boş verin, Nazilə xala, Tənzilə nə vaxt gələcək?

- İndilərdə gəlməlidir. Sən rahatlan, bir stəkan çay iç.

O, çayı Tərgülün qarşısına qoydu, gözlərini alnındakı çapıqdan çəkməyərək fikirli-fikirli dilləndi:

- Şükür, salamat qurtarmısan. Xocalı qırğınını eşidəndə Tənzilə dəli olmuşdu az qala. Elə hey səni düşünürdü. Əlaqə saxlamaq da mümkün deyildi. İndi səni görmək onun üçün əsl bayram olacaq.

Qapının zəngi basılanda Nazilə xala:

- Qızımdır, - deyib ayağa qalxdı.

Tərgül intizarla Tənzilənin otağa keçməsini gözlədi, amma, deyəsən, rəfiqəsinin bu tezlikdə gözə görünmək fikri yox idi. Vanna otağından şırıltı səsi gəldi, ardınca Tənzilənin yorğun danışığı eşidildi:

- Ana, çox yorğunam, yatıb dincəlmək istəyirəm.

- Hələ otağa keç, bir stəkan çay iç, yorğunluğun tamam çıxacaq. Həm də, - ana susdu.

- Həm də nə?- sualını verəndə Tənzilə elə bildi ki, yenə də kimsə əri ilə barışdırmaq üçün minnətə gəlib. Ona görə də yorğun simasını qəzəb bürüdü, - heç kimlə görüşmək istəmirəm, necə gəliblər, elə də getsinlər, mən onunla birdəfəlik qurtarmışam, - deyib yataq otağına keçmək istəyəndə qarşısında Tərgülü gördü. Çaşqınlıqdan yerindəcə dondu. Tərgül hıçqırıqlar içində onun boynunu qucaqladı.

Tənzilənin bütün yorğunluğu bir andaca yox oldu. Rəfiqəsinin əlindən tutub qonaq otağına apardı:

- Haralardaydın, Tərgül, səni çox axtardım, heç kimdən, hətta Gülarədən də sənin haqqında məlumat toplaya bilmədim, çox qorxdum. Şükür, salamatsan, - Tərgülə danışmaq imkanı verməyən Tənzilənin gözü çapığa sataşanda dərindən içini çəkdi, - can bacı, bu yara göstərir ki, başın bəlada olub.

Tərgül başına gələnləri danışıb ev sahiblərini incitmək istəmədi:

- Yerevana getməliyəm, Tənzilə, mənə yardım edə bilərsənmi? – soruşanda ortaya dərin sükut çökdü.

- Sən nə dediyini düşündünmü? Orada səni nələr gözləyir, bilməzsənmi? – söyləyən rəfiqəsinə çox qısa cavab verdi:

- Oğlum gözləyir, Tənzilə. Onun arxasınca gedirəm.

***

Səhər tezdən yola düşən Tərgül Yerevana gəlib çatana qədər üç avtobus dəyişdi. Gün əyiləndə görüş yerində Nayruhi onu gözləyirdi...

Bir həftədən sonra Tərgül düşərgədə tibb bacısı kimi işə götürüldü. Gözəl siması, dalğalı qara saçları, zərif qaməti onun kimliyini təftiş edənlərin hamısını ovsunladı. Nayruhinin zəmanəti ilə gəlməsi isə Tərgül haqqında başqa araşdırmalara ehtiyac olmadığını göstərdi.

Düşərgə şəhərdən kənar idi. Hündür hasarların əhatəsində olan bu məkanın ətrafında heç kim gözə dəymirdi. Qala qapılarını xatırladan darvaza ikilaylı idi. İçəriyə xüsusi buraxılış vəsiqəsi olanlar və səlahiyyətli şəxslər girə bilərdilər. Həyət səliqəli idi. Cərgə ilə əkilmiş çox da hündür olmayan ağaclar bu düşərgənin

təzə salındığından xəbər verirdi. Yan-yana düzülmüş birmərtəbəli binalar eyni formada olsa da, müxtəlif məqsədlər üçün tikilmişdi. Həyətdə əyləncə mərkəzindən bir qədər aralı olan təlim meydançası diqqəti xüsusi cəlb edirdi.

İlk dəfə düşərgəyə daxil olanda Tərgül yanlış yerə gəldiyini düşündü. O elə zənn edirdi ki, düşərgəyə daxil olan kimi uşaqların əhatəsinə düşəcək, onların içərisində oğlunu axtaracaq, amma şahidi olduğu sakitlik təsəvvürlərini tamam alt-üst etdi. Tərgülü düşərgə komendantının yanına gətirdilər. Çox heybətli siması olan komendant oturduğu yerdəcə zəhmli baxışlarını onun üzünə dikdi. Tərgülə elə gəldi ki, bu baxışlar onun qəlbindəkiləri bir anda oxuyacaq və sorğu-sualsız ölüm hökmünü çıxardacaq. Daxilində təlatüm olsa da, həyatın hər üzünü görmüş Tərgül həyəcanını büruzə vermədi. Nəhayət, heybətli baxışları iblisvarı bir gülüş əvəz elədi: iri ətli dodaqlar yanlara çəkiləndə komendantın siqaret çəkməkdən saralmış dişləri, yastı sifətinə uyuşmayan iri burnu, pırpızlaşmış qaşları altından ağaran iri domba gözləri Tərgülə Sureni xatırlatdı. Hiss etdi ki, ürəyi bulanır, lakin dözməkdən başqa əlacı yox idi.

Komendant onu xeyli süzdükdən sonra tapşırıqlarını verdi:

- Uşaqlarla ünsiyyətdə çox olmayacaqsınız. Sizə müraciət edənlərlə yalnız yardım göstərənə qədər danışa bilərsiniz.. Danışığınız çox rəsmi olacaq, Laura xanım. Bütün anketlər tibb otağındakı arxivdədir, tanış ola bilərsiniz.

Tərgül ermənicə:

- Baş üstə, - söyləyəndə komendantın qaşları çatıldı:

- Laura xanım, burada ermənicə danışmaq yasaqdır, - deyə xəbərdarlıq etdi.

Tərgülün iş otağı da çox səliqəli idi. İlk tibbi yardım üçün

bütün ləvazimatlar, dərmanlar vardı. Ondan əvvəlki tibb bacısını etdiyi səhvə görə işindən uzaqlaşdırmışdılar. Bunu bildiyi üçün Tərgül çox ehtiyatlı davranmalı idi. Onun ilk işi anketlərlə tanışlıq oldu. Erməni ad-familiyasını daşıyan bu uşaqların doğum tarixi müxtəlif olsa da, anadan olduqları yer eyni – Xocalı idi. Hər anketi əlinə aldıqca Tərgül ruhən sarsıldı, öz uşaqlarımızdan Azərbaycan əleyhinə təxribat qrupu hazırlayan düşmənə nifrətinin həddi bilinmədi. Bu da sonuncu – otuzuncu anket. Bu anketi əlinə alarkən Tərgül qəlbində bir narahatlıq duydu. Özünü toxtadıb ilk vərəqi açdı, Muradyan Artur adını oxuyanda içindən bir sızıltı keçdi. Səhifənin yuxarısında yapışdırılan şəklə diqqətlə baxdı. Bu o idi: uğrunda hər əzaba qatlaşdığı, illərlə yuxularında sevib-əzizlədiyi balası idi. Böyümüşdü, lakin simasındakı məsumluq dəyişməmişdi, çənəsindəki qara xal azacıq iriləşmişdi. Gözlərindəki ifadə doğmalarına qovuşmaq həsrəti çəkən yaşlı bir insanın baxışlarını xatırladırdı. Tərgül şəkli bağrına basdı, gözlərindən axan yaş yanaqlarından süzülüb əllərinin üstünü isladtı. Balası ilə necə görüşəcəyini fikirləşdi: onu görərkən özünü saxlaya biləcəkdimi, soyuqqanlı olmağı bacaracaqdımı, qoyulan qadağaları yadına salacaqdımı? Suallar artdıqca Tərgül ürəyinin sıxıldığını hiss etdi. Bir qədər sonra gözlərinin yaşını qurutdu, öhdəsinə düşən vəzifəni xatırladı. Öz-özünə pıçıldadı:

- Qəlbini daşa döndər, Tərgül. Səni buraya gətirən yalnız analıq borcu deyil, həm də Vətən məhəbbətidir. Dözəcəksən, düşmənin mənfur planlarını pozmaq üçün bütün təhlükələri gözə alacaqsan, balanı belə fəda etməli olsan, yolundan dönməyəcəksən.

***

Ertəsi gün düşərgənin komendantı Tərgülü kabinetinə çağırtdırdı. Yenə də onu başdan-ayağa süzdü:

- Çox gözəlsiniz, - dedi, - əlinizdən daha nə iş gəlir?

Tərgül çaşqın halda dilləndi:

- Sizi anlamadım.

- Yəni incəsənətdən, musiqidən anlamınız varmı?

- Bəli, Azərbaycan mahnılarını gözəl bilirəm.

Komendant sınayıcı nəzərlərlə ona baxıb:

– Erməni mahnılarını necə? – soruşanda Tərgül dərhal cavab verdi:

- Burada ermənicə danışmaq yasaq olduğu üçün ermənicə oxumaq da, yəqin ki, qadağandır.

Üzünün ifadəsindən komendantın razı qaldığı hiss olundu:

- Qaydalara tez uyğunlaşırsınız, - o, bir qədər düşünüb amiranə tərzdə dedi, - oxuyun!

Tərgül duruxdu, elə zənn etdi ki, komendant ya zarafat edir, ya da onu ələ salır. Komendantın israrlı baxışlarını görəndə isə "Şuşanın dağları" mahnısını avazla oxumağa başladı. Oxuduqca gözləri qarşısında gəzib dolaşdığı meşələr, yaylaqlar, Cıdır düzü, buz bulaqlar canlandı. Mahnı bitəndə xəyallar da birdən-birə yoxa çıxdı, qarşısında komendantın heybətli siması canlandı. O, üzünə gülümsər ifadə verib:

- Səsiniz də özünüz qədər gözəldir, - dedi və əlavə etdi, - sizin bir vəzifəniz də artdı.

Tərgül qaşlarını çataraq soruşdu:

- Hansı vəzifə?

- Buradakı uşaqlara Azərbaycan mahnılarını öyrətmək sizin öhdənizə düşəcək. İndiyə qədər əsl azərbaycanlı kimi oxuyan bir erməni müğənni tapmadıq.

Tərgül başı ilə razılığını bildirəndə komendant bir qədər də yaxına gəldi, əlini onun çənəsinə toxundurmaq istəyəndə Tərgül ilan vurmuş kimi bir addım kənara sıçradı, ciddi səslə:

- Gedə bilərəmmi?- dedi.

Komendant razılığını bildirdi:

- Amma Laura xanım, bizim söhbətimiz hələ çox uzun olacaq, - deyərək gülümsünəndə Tərgül ikrahla üzünü çevirib getdi.

Lauranın hətəkəti komendantı çaşdırdı. İlk dəfə idi ki, tabeçiliyində olan işçidən belə hərəkət görürdü. Daxilən nə qədər qəzəblənsə də, arxayıncasına kreslosuna yayxandı:

- Sənin kimiləri yumşaltmaq elə də çətin deyil, - dedi, - gələcəksən, yalvara-yalvara ayaqlarıma qapanacaqsan.

Həmin gündən Tərgül komendantın gözünə görünməməyə çalışdı, amma nə qədər uzaq olmaq istəsə də, hər gün yolları kəsişdi.

Təlim zamanı ehtiyatsızlıq ucbatından ayağı zədələnən bir uşağı məntəqəyə gətirdilər. Səkkiz yaşlı Xaçik ufuldaya-ufuldaya tibb bacısının üzünə baxdı. Onun üzündəki həlimlik uşağı ürəkləndirdi:

- Sizə necə müraciət edə bilərəm?- soruşdu.

- Laura Simonyan, sadəcə, Laura xala da deyə bilərsiniz.

Xaçik sanki ağrılarını unutdu:

- Əvvəlki tibb bacısı çox qaşqabaqlı idi. Xəstələnəndə də ona müraciət edə bilmirdik, bizi acılayır, söyürdü. Baxışları da çox qəribə idi. Siz ona bənzəmirsiniz. Mən yoldaşlarıma bu barədə danışacağam.

Laura gülümsündü:

- Nə vaxt xəstələnsəniz, müraciət edə bilərsiniz, - o, Xaçikin yarasını təmizlədi, dərman sürtüb tənziflə sarıdı, - sabah sarğını

dəyişməyə gələrsən, - dedi.

Birinci xəstəsini yola salandan sonra tibb məntəqəsinin qapısı hər gün döyülməyə başladı. Mənəvi dəstəyə ehtiyacı olan uşaqlar tibb bacısının mərhəmətinə sığındılar...

***

Günlər keçsə də, Tərgül öz balasına hələ də həsrət idi, amma səbirlə o günün gələcəyinə, həsrətə son qoyulacağına əmin idi. Tibb məntəqəsi uşaqların qaldığı, təlim aldığı yerdən bir qədər aralı olduğu üçün o, demək olar ki, işçilərdən başqa heç kimi görmürdü.

Yeni tibb bacısı işçilərin də diqqətini cəlb etmişdi. İmkan düşən kimi onunla həmsöhbət olmaq üçün bəhanə gəzənlər məntəqənin qapısını döysələr də, Lauranın ciddi baxışları, etinasızlığı hər kəsin ümidini puça çıxardı.

Komendant üç gün idi ki, harayasa göndərilmişdi, lakin getməzdən əvvəl Lauraya səkkiz yaşlı uşaqlarla işləmək barədə tapşırığını verib, ondan "mərhəmətli" gülüşünü də əsigəməmişdi. Tapşırığa əsasən Laura səkkiz yaşlı uşaqlara Azərbaycan mahnılarını öyrətməli idi. On uşaqdan beşinin güclü musiqi duyumu vardı. Onlarla işləmək o qədər də çətin olmadı. Digər beş uşaqla işləmək isə nə qədər çətin olsa da, bir o qədər xoş idi...

***

Artıq qışın nəfəsi hər tərəfdə duyulmaqda idi. Ağrı tərəfdən əsən küləklər dağları vaxtından əvvəl bürümüş qarın soyuğunu hikkə ilə hər tərəfə yayırdı. Qazın olmaması, elektrik enerjisinin fasilələrlə verilməsi düşərgədə vəziyyəti çətinləşdirmişdi. Altı-yeddi yaşlı uşaqlar soyuğa dözmədikləri üçün tez-tez xəstələ-

nirdilər. Axşamüstü hərarəti çox yüksək olan bir uşağı məntəqəyə gətirdilər. Başqa xəstəyə iynə vuran Laura addım səsləri eşidəndə daxilində qəribə bir hal duydu. İşini bitirib geri çevriləndə qarşısında hərarətdən yanaqları pörtmüş doğma bir sima gördü. Donuxub yerində qaldı. Adını eşidəndə səksəndi:

- Laura xanım, uşağın hərarəti çox yüksəkdir. Təcili yardım göstərin.

Laura artıq heç nə eşitmirdi, güclə nəfəs alan balası ayaq üstə zorla dayanırdı. O, uşağı çarpayıya uzatdı, yaş tənzifi alnına qoyub, hərarətini ölçəndə heyrətdən gözləri böyüdü:

- Bu uşaq nə vaxt xəstələnib? – dedi.

- İki gün bundan əvvəl, - deyə xəstəni gətirən etinasızlıqla cavab verdi.

Lauraya hər şey aydın oldu: bu uşaqlardan sui-istifadə etmək istəyənlər istənilən anda onların həyatını bitirə bilərlər.

O hazırladığı pereparatı şpirisə çəkib xəstənin əzələsinə vurdu, nəbzini yoxladı, çox zəif idi, istənilən an huşunu itirə bilərdi. Növbəti iynə vurulandan sonra uşağın nəfəs alması bir qədər tənzimləndi, yanaqlarının qızartısı azaldı, lakin nəfəs aldıqca sinəsindəki xırıltını aydın eşidən Laura onun sağalınca məntəqədə qalmasının vacibliyini söylədi. Uşağı gətirən təlimçi ciddi şəkildə ucadan dedi:

- Biz vətən üçün əsgər yetişdiririk, hər çətinliyə, hətta xəstəliyə belə dözməyi bacaran əsgər, bildinizmi? Onların nazı ilə oynamağa səbrimiz yoxdur!

Laura sərt qaydaların balasına belə yaxınlaşmağı qadağan etməsinə dözmədi:

- Bu ki hələ çox körpədir...

Zabit istehza ilə:

- Düşmənin körpəsi, böyüyü olmur, Laura xanım, düşmən elə düşməndir, - deyəndə qapı açıldı, həmişə olduğu kimi yolunu tibb məntəqəsinin qabağından salan komendant səs eşitdib içəri girdi, zəhmlə soruşdu:

- Burada nə olub?

Zabit farağat vəziyyət alaraq olanları anlatdı. Komendant iblis baxışlarını Lauradan çəkməyərək:

- Vəziyyəti ağırdırsa, sağalana qədər qala bilər, - əmrini verdi.

Zabit getdi. Komendant zəhmətinin qarşılığının nə olacağını fikirləşərkən Laura təşəkkür etdi:

- Çox sağ olun, cənab komendant.

Komendant bir qədər susub:

- Yalnız bumu? Asudə vaxtımda sizinlə şam yeməyi arzusundayam, - sözlərini söyləyəndə Lauranın başından tüstü çıxdı, lakin özünü ələ almağı bacardı. Komendantsa qaliblər kimi cavab gözləmədən otağı tərk etdi.

Hələ də nə olduğunu anlamayan Artur onu məntəqədə saxlamaq istəyən gözəl qadına mat-mat baxırdı. Anasız illər onu hər sığaldan, qayğıdan, mərhəmətdən uzaqlaşdırdığı üçün onların nə olduğunu dərk etmirdi. O, həyatın bu hasarlardan və onun mühafizə etdiyi qayda-qanunlardan ibarət olduğuna çoxdan alışmışdı.

Axşama yaxın xəstənin hərarəti yenidən yüksəldi. Laura əl-ayağa düşdü, yaş tənzifi uşağın alnına, qoltuqlarının altına qoydu, növbəti yardımı göstərdi, lakin iltihablaşma prosesinin qarşısında etdiyi yardımların bir faydası olmayacağını gözəl bildiyi üçün təcili yardıma müraciət etməyi vacib bildi. Növbətçi zabit onun tələbini eşidəndə istehza ilə dedi:

- Narahat olmayın, Laura xanım, bunların min canı var, heç nə olmaz.

Laura ciddi tərzdə:

- Tələb edirəm, bu barədə komendanta xəbər verin, - deyə israr edəndə növbətçinin başqa çıxış yolu qalmadı. Yarım saat olmamış düşərgənin darvazası açıldı, təcili yardım maşını həyətə daxil oldu. Həkim xəstəni müayinə edərək vəziyyətin ciddi olduğunu söylədi və sağalana qədər xəstəxanada qalmasını tələb etdisə də, bir nəticəsi olmadı. Uşağı düşərgədən kənara aparmaq olmazdı.

Hamı getdi. Otaqda qızdırma içində qovrulan Artur və balasının dərdinə dərman olmağa çalışan Laura qaldı. Həkimin müayinəsi üzrə yazılan dərmanlar növbə ilə xəstəyə içirilməli, iynələr vurulmalı idi. Laura həkimin bütün göstərişlərini vaxtında yerinə yetirdi. Çarpayıda uzanıb halsız qalan körpəsinin üzünə baxa-baxa gözlərinin yaşını axıtdı. Yarıyuxulu Artur: “Ana”, - deyib səslənəndə özünü saxlaya bilmədi:

- Can bala, anan sənə qurban olsun, - deyib hıçqırdı, başını sayaqlayan xəstənin yastığına qoydu. Gecəni səhərə qədər yatmadı, uşağa gah çay, gah dərman verdi, yaş tənziflə tez-tez alnını, boyun-boğazını sildi. Səhərə yaxın uşağın hərarəti qismən enəndə rahat nəfəs aldı.

Ağlamaqdan və yuxusuzluqdan Lauranın gözləri şişmişdi, amma bu da onun gözəlliyinə xələl gətirməmişdi, əksinə qəlbindəki sevginin nuru üzünə hopmuşdu. Bunun səbəbini isə onun özündən başqa kimsə bilmirdi.

Komendant düşərgədəkilərə lazımi tapşırıqları verib xəstəni yoxlamaq bəhanəsi ilə tibb məntəqəsinə yollandı. Əvvəl xəstənin halını soruşdu. Qızdırması tam çəkilməyən xəstə onu görəndə yerindən qalxmaq istədi, komendant əli ilə uzanmaq işarəsi verdi, sonra Lauraya sarı döndü, onun şişkin gözlərini görəndə

istehza ilə gülümsündü:

- Laura xanım, deyəsən, ağlamısınız.

- Bəli, cənab komendant.

- Niyə?

- Oğlumu xatırladım. O da əgər sağdırsa, bu yaşdadır.

- Bizim işimiz nə xəyalpərvərliyi, nə də göz yaşını sevmir. Qəddar olmağı bacarmalısan.

- Məni buraya gətirən dağıdılan yurdumun, zorla əlimdən alınan oğlumun, gözümün qarşısında öldürülən ərimin intiqam hissidir. Əgər onları xatırlamasam, qisasçı ola bilmərəm, cənab komendant.

- Siz doğru buyurursunuz, unutqanlıq bizə yaramaz.

Komendant getdi. Artur Lauranın ona uzatdığı çayı qurtum-qurtum içib qadının üzünə xeyli baxdı. Gözlənilmədən dilləndi:

- Bu gecə anam yuxuma gəlmişdi.

Tərgül həyəcanlandı:

- Onu xatırlayırsanmı?

- Yox. Amma nə vaxt xəstələnsəm, yuxuma girir, alnımı ovuşdurur.

- Yuxuda gördüyün ananın siması yadında qalırmı?

- Əlbəttə. Sizə çox bənzəyir. Əgər adı Laura olsaydı, sizi anam sanardım, amma onun adı başqadır.

Lauranı maraq bürüdü:

- Nədir?

- Sənədlərimdə anamın adı Svetlanadır, amma yuxuda tamamilə fərqli ad deyirlər.

- Nə deyirlər? – Lauranın həyəcanı artdığı üçün sinəsi ürəyinə darlıq etdi, amma uşaq bunu duymadı, üzrxahlıqla dedi:

- İnciməyin, Laura xala, deməsəm, yaxşıdır.

Hər ikisi susdu.

On günlük müalicə yaxşı nəticə verdi. Artur tam sağalıb kazarmaya gedəndə xeyli təşəkkür etdi:

- Sizi heç vaxt unutmayacağam, Laura xala. Anam olmasanız da, ana şəfqətini məndən əsigəmədiniz. Əllərinizdə anamın əllərinin hərarətini, dilinizdə anamın dualarını, gözlərinizdə məhəbbətini gördüm. Kaş anam siz olaydınız, dünya mənim olardı.

Laura Artura heç nə deyə bilmədi, o danışdıqca gözlərindən axan yaşı barmaqlarının ucu ilə sildi, cavabı isə uşağı ana şəfqəti ilə bağrına basmağı oldu.

***

Hər həftənin bazar günü Lauranın şəhərə çıxmaq icazəsi vardı. Amma o, bazar günlərini də düşərgədə keçirirdi. Bu gün ilk dəfə şəhərə çıxacaqdı: Nayruhi Yerevana gəlməli idi. Yazın ilk ayı olsa da, hava soyuq idi. Laura yüngül yaz paltosunu geyib məntəqədən çıxmaq istəyirdi ki, komendant qarşısında dayandı. Onun:

- Laura xanım, şəhərə çıxmaq istəyirsiniz? – sualına cavab olaraq dedi:

- Bəli.

Komendant bir qədər başını ona tərəf əyərək pıçıldadı:

- Sizi istədiyiniz yerə mənim xidmət maşınım götürəcək. Bu axşam isə baş-başa şam edəcəyik.

Laura vəziyyətdən çıxış yolu axtarıb:

- Siz narahat olmayın, cənab komendant, mən özüm gedərəm. Həm də bu gün Nayruhi xanımla birgə olacağam, - deyə bəhanə gətirdi.

- İkimiz olanda mənə cənab komendant yox, adımı de. Eybi yox, Nayruhi ilə görüşdən sonra mən sizi axtarıb tapacağam.

Komendant getdi, Laura hiss etdi ki, əsəbdən nəfəsi darıxır. Buradan tez uzaqlaşmaq, komendantın əcaib simasını unutmaq üçün addımlarını yeyinlətdi. Nayruhi onu əyləncə mərkəzində gözləyirdi. Görüşləri çox səmimi keçdi. Laura aylar ərzində gördüyü işlərdən danışdı, Nayruhi isə öz işləri barədə bir kəlmə də danışmadı, amma onu ayıq olmağa səslədi:

- Bu uşaqların arasında xüsusi məqsədlər üçün yerləşdirilən erməni uşaqları da var, hər qrupda iki nəfərdir. Ehtiyatı əldən vermə. Həmin uşaqlar hər bazar günü valideynlərinin yanında olurlar. Onlar həm erməni, həm də türk dilini gözəl bilirlər. Düşərgəyə gələnlərin kimliyini onların vasitəsi ilə aşkara çıxarırlar. Bu uşaqları müəyyən etmək sənin işindir. Çalış, ələ keçməyəsən.

Axşama doğru Lauranın narahatlığının artması Nayruhinin gözündən yayınmadı. Məsələnin mahiyyətini biləndə isə qəzəblə dişlərini bir-birinə sıxdı:

- Sən onu mənə burax, narahat olma. Onun başına bir oyun gətirəcəyəm ki, düşərgənin yolunu birdəfəlik unudacaq.

Hava qaralanda komendantın xidmət maşını qapıda dayandı.

Nayruhini Lauranın yanında görən komendant narazılığını büruzə verməsə də, yaxasını ondan necə qurtaracağını fikirləşdi. Çünki o, mətbuat nümayəndələrini sevmir, bacardıqca onlardan uzaq durmağa çalışırdı. İndi isə əlacsızlıqdan qələmindən qurtarmaq mümkün olmayan Nayruhini də qonaq etməli idi. Onun narahatlığını sezən Nayruhi tez dilləndi:

- Mən sizinlə axıra qədər həmsöhbət ola bilməyəcəyəm. Cəmi bir saat vaxım var.

Bu söz komendantın qırışığını açdı. Maşın yaxınlıqdakı restoranın həyətində dayandı. Sifariş əvvəldən verildiyi üçün hər üçü hazır süfrə arxasına keçdi. Komendant ilk qədəhi erməni ordusunun şərəfinə qaldırdı. Qadınların içmədiyini görüb üzünə inciklik maskası taxdı:

- Siz ordumuzun şərəfinə içmək istəmirsinizmi?

Qadınlar bir-birinə baxdılar, qədəhləri astaca dodaqlarına toxundurub yerə qoydular. Komendant məmnun halda növbəti sağlığı söylədi. Məclisin qızğın yerində Nayruhi ayağa qalxdı. Laura onu yola salmaq üçün yerindən tərpənəndə komendant mane oldu, Nayruhini pilləkənə qədər özü ötürdü. Vəziyyətdən istifadə edən Laura yuxu dərmanını onun qədəhinə tökdü. Xoşbəxtlikdən komendantın geri qayıtması bir qədər uzun çəkdi. Məmnun halda geri qayıdan komendant növbəti tikəni udar-udmaz əlini dolu qədəhə uzatdı, Lauraya içməyi təkid etmədən şərabı birnəfəsə başına çəkdi. İndi onun iştahası daha da artmışdı. Sanki süfrədə olan bütün yeməkləri təkbaşına yeyəcəkdi. O yedikcə Laura onu seyr edir, üzündə yuxu nişanəsi görmədiyi üçün təlaşı artırdı. Deyəsən, komendant da bunu duymuşdu. Qadının təlaşı onu xumarlandırır, iri domba gözləri daha da parıldayırdı. Növbəti sağlığı demək üçün ayağa durub əlini şüşəyə uzadan komendant birdən səndələdi, içki şüşəsindən ikiəlli yapışıb stula çökdü, özünü tarazlamağa çalışsa da, bacarmadı: üzünü araq şüşəsinə dayayaraq Lauranı süzdü və elə o vəziyyətdə də yuxuya getdi...

Ertəsi gün Laura komendantı görmədi, işçilər onun xəstələndiyini güman etdilər, lakin dövlət qəzetində şərab şüşəsini qucaqlayaraq gözləri xumarlanan komendantın şəklini görəndə hər şey aydın oldu. Üç gündən sonra düşərgənin yeni komendantı

vəzifəsinin icrasına başladı. Nisbətən yaşlı olan bu komendant işçilərlə çox qaba davranmasa da, ciddiyyəti ilə hamıda xof yaratdı.

***

İllər bir-birini əvəz edir, sazaqlı qış yerini yaza, yaz yaya, yay payıza, payız qışa ötürürdü. Uşaqlar günbəgün böyüyür, böyüdükcə keçilən təlimlər də ağırlaşdırılır, hər çətinliyə sinə gərməyi bacaran döyüşçülər yetişirdi. Laura günbəgün böyüyən uşaqların arasında Arturu bir an da olsun gözdən uzaq qoymurdu. Ona çox alışan uşaqlar da Lauraya salam verməmiş yanından ötməzdilər. Yaşı onbeş- onyeddi arasında olan bu kursantlar hələ də Lauranın gözündə uşaq kimi görünürdülər. Arabir Nayruhinin yolu da düşərgədən keçirdi. Onun hərbi vətənpərvərlik ruhunda olan çıxışları bütün kursantları ovsunlayırdı.

Laura on il idi ki, düşərgədə çalışırdı. Bu on ildə o rastlaşmadığı adamları gördü, dəfələrlə gözəlliyi başına bəla oldu, lakin özünü qorumağı bacardı. Öz istəyi olmadığı üçün bu yaralı “erməni” gözəlini incitməyə heç kim nail ola bilmədi.

Baharın ən gözəl çağı idi. Düşərgədə təlim alan kursantları növbəti dəfə Qarabağa aparmaq planlaşdırılmışdı. Səfər bir həftə davam edəcəkdi. Ona görə də Laura tibb bacısı kimi onlarla birlikdə yola düşdü. Uzun məsafə qət edən iki avtobus Laçın torpağına daxil olanda onun qəlbindən bir sızıltı qopdu, dağıdılmış kəndlər bir-bir arxada qalırdı. Kursantlar da bu mənzərələrə həyəcansız baxa bilmirdilər. Yandırılmış evlərin qara maketi ölümün rəmzi kimi vahimə saçırdı. Laura Arturla yanaşı oturmuşdu. İndi o, oğlu ilə hər şeyi bölə bilir,heç nədən çəkinmir, pıçıltı ilə deyirdi:

- Bu yerlərə yaxşı bax, ata-baba yurdlarının, namusu tapdanan, əsir düşərgələrində işgəncə görən qız-gəlinlərimizin fəryadı sizi qisasa çağırır, bunları unutma.

Artur dinmədi, ucsuz-bucaqsız dağlar, sıx meşələr, qara kösövə dönmüş evlər ona yaxın keçmişdən çox şey deyirdi.

Altı aylıq olanda itirdiyi anasını on bir ildən sonra tanıyarkən ömründə ilk dəfə ürəkdən sevinmişdi. O, barmaqlarını qəsdən əzərək tibb məntəqəsinə gələndə hələ də gecə gördüyü yuxunun təsirində idi. Anası ona layla çalırdı, əslində bu, layla deyildi, həyata, taleyə olan bir üsyan idi. Yenə də eyni tanış sima onun saçlarını tumarlayır, alnından öpür, körpə kimi əzizləyirdi.

Artur içəri girib qapını örtdü, diqqətlə Lauraya baxdı, birdən-birə ona səsləndi:

- Ana!

Bu səsdən Laura diksindi, arxaya çevriləndə Arturu gördü, özünü bilməzliyə qoyub:

- Sənə nə olub, Artur?- soruşdu.

- Mənə Artur demə, öz adımı de, ana!- sözləri Lauranı lap çaşdırdı:

- Bu gün səni tanıya bilmirəm, Artur, yenə yuxumu görmüsən?

Uşaq başını tərpətdi, qara gözləri yaşla doldu:

- Yuxuda gördüyüm qadını səndən fərqləndirən yalnız alnındakı çapıqdır. İnanıram ki, sən mənim anamsan. Bu gecə məni öz adımla - Amal çağırıb oxşadın. Anam olduğunu danma, xahiş edirəm.

Laura hələ də donub qalmışdı, Arturun yalvarışı onun ürəyini göynətsə də, susurdu.

- Yadındamı, bir dəfə sənəddə anamın adının Svetlana oldu-

ğunu söyləmişdim.

Laura başı ilə təsdiqlədi.

- Amma mənim anamın adı Tərgüldür. Onda sizə deməyə qorxdum, amma indi qorxmuram.

Adını eşidəndə Tərgülün qolları sustaldı, ayaqları əsdi, tez yaxınlıqdakı stulda oturdu, göz yaşları badamı gözlərinə sığmadı, oğlunu qucaqlamağa taqəti olmadı.

- Sənin gələcəyini bilirdim, ana. Həmişə yuxuda mənə deyirdin ki, darıxma, səni tapacağam. Amma bu gecə dedin ki, gəlmişəm, oğul, məndən qaçma. Mənə cəsarəti verən də budur.

Amma mən ehtiyatlı olacağam, sirrimizi heç kim bilməyəcək.

Artur Lauraya yaxınlaşdı, körpə vaxtında olduğu kimi sinəsinə sığındı...

İndi həmin vaxtdan yeddi il keçmişdi, Artur on səkkiz yaşı olsa da, iyirmi yaşlı gəncə bənzəyirdi, çox yaraşıqlı idi və əsl vətənpərvər kimi yetişmişdi. Kursantların arasında onunla həmfikir olanlar, həqiqəti bilənlər də vardı. Nayruhidən aldıqları gizli məlumatlar onlara danılmaz həqiqəti dərk etməkdə çox kömək etdi. Bu sirri saxlamağı bacaranlar xaraktercə zəif, erməni təbliğatına uyanları öz cərgələrinə yaxın buraxmadılar...

***

Avtobusların ilk dayanacağı Şuşa idi. Əvvəlki ehtişamı göz oxşamasa da, Azərbaycana məxsus tarixi abidələr uçurulub bərbad vəziyyətə salınsa da, əvvəlki qaynar həyat gözə görünməsə də, Şuşa yenə gözəl idi. Nə yandırılmış çoxmərtəbəli binalar, nə də talanmış bağlar yaz fəslinin gözəlliyinə xələl gətirə bilmişdi. Bənzərsiz yaşıllıqlar, çəmənlərdə boy verən rəngbərəng çiçəklər

insana gəl-gəl deyirdi. Xan sarayı doğmalarına həsrət ana kimi boyun bükmüşdü, Vaqifin məqbərəsi gülləbaran edilmiş, Şuşa məscidinin həyətində zir-zibil qalaqlanmışdı. Otərəf-butərəfə qaçan donuz balalarının xorultusu ətrafı bürümüşdü. Üfunətdən məscidin həyətində dayanmaq mümkün deyildi. Şuşanın məhəllələri də xarabaya oxşayırdı. Bu da Lauranın aylı gecələrdə bacısı oğlu Rövşənlə həmsöhbət olduğu ev... Əslində buna ev demək olmazdı; atılan mərmilərdən tavanı çökən, uçurulmuş divarlardan qapı-pəncərəsi görünməyən daş yığını adlandırmaq daha doğru idi. Laura geri döndü, kursantlara Şuşanın bütün məhəllələri, tarixi abidələri haqqında məlumat verən bələdçiyə qulaq asmağa başladı. Onun Azərbaycan əleyhinə söylədiyi fikirlər, Şuşanın tarixən erməni torpağı olması barədə gətirdiyi uydurma faktlar nə qədər gülünc olsa da, susmaqdan başqa əlac yox idi. Dəmirçilər məhəlləsinə dönəndə Laura duruxdu: Nayruhi başı aşağı onlara tərəf gəlirdi, simasına əzab dolu bir kədər hakim idi. Hiss olunurdu ki, ağlayıb. Kursantlar onu görəndə hörmətlə təzim etdilər. Nayruhi zorla gülümsündü. İstirahət zamanı o, Laura ilə bir kənara çəkildi, yaşlı gözlərini səmaya dikdi, danışmaq istəsə də, qəhər boğduğu üçün bir söz deyə bilmədi. Laura da susdu. Bir qədər özünə gələndən sonra Nayruhi çantasından bir bağlama çıxartdı, açıb içindəki torpağı qoxuladı:

– Qayananın əkdiyi qızılgüllər pardaqlanıb, amma qızım bir də o gülləri görməyəcək. Bu torpağa da o güllərin ətri hopub, - o, bir qədər susub əlavə etdi, - bunu Bakıya göndərəcəyəm. Qızımın son arzusunu yerinə yetirməsəm, özümü heç vaxt bağışlamaram, Laura!

Laura təəccübləndi. Həyata nikbin baxan, idealı uğrunda hər şeyi gözə alan Nayruhidə bu düşkünlük, zəiflik nədən qay-

naqlanır, anlamadı, bəlkə də, anlamaq istəmədi. O, sual dolu baxışlarla Nayruhini süzdü.

- Qayana oldü, - Laura eşitdiyinə inanmaq istəmədi, - hə, qızım intihar elədi, namusunun ləkələnməsini heç cür qəbul edə bilmədi. Mənə dəfələrlə bu utancla yaşaya bilməyəcəyini söyləmişdi, amma özünü öldürəcəyini xəyalıma gətirə bilmirdim. Bu fikri unutdurmaq üçün ona əsir uşaqlardan birini də pulla Xorenə gətirtdim. Uşağı ilə bərabər Bakıya göndərdim, amma uşaq böyüsə də, o bu utancı unutmayıb, özünə qəsd eləyib, qəbrinə tökmək üçün həyətimizin torpağından istəyib. Mən ona görə buradayam və sizinlə təsadüfən qarşılaşdım. Bu gün üç gündür ki, balam qara torpaq altındadır. Bir ana kimi son illəri çıxsam heç vaxt onun yanında ola bilmədim. Türklərə yaxınlaşdıqca onu hər kəsdən, hətta dünyalarca sevdiyim həyat yoldaşımdan da qısqandım. Şuşanı tərk edəndə "beyni türk vətənpərvərliyi ilə zəhərlənmiş" bir övladı özümlə aparmağı şənimə sığışdırmadım.

Nayruhi susdu. Laura onun əzab dolu sifətinə, yaşla dolu gözlərinə baxa bilmədi, danışmağı da bacarmadı. Gənc yaşlarından rastlaşdığı faciələri sanki yenidən yaşadı.

Nayruhinin növbəti cümləsi isə onu çaş-baş saldı:

- Mən erməni deyiləm, Laura, - o, müsahibinin üzünə baxdı, heyrətdən böyüyən gözlərinin içinə baxaraq daha inamla dediklərini bir daha təsdiqlədi, - bəli, erməni qadın doğsa da, onun südünü əmsəm də, erməni çörəyi ilə böyüsəm də, mən erməni deyiləm.

Laura təəccüblə soruşdu:

- Bu necə olur?

- Uzun söhbətdir. Əvvəllər mən də həqiqəti bilmirdim. Onu çox sonralar anladım. Ancaq məni ağrıdan odur ki, nə qızım, nə

də Vaqif bundan xəbər tutdu... Bunu biləndən sonra nələr yaşadığımı heç kimə arzulamıram.

Nayruhi yenə susdu. Laura bildi ki, danışmaq onun üçün asan deyil. Buna baxmayaraq, o, ağır-ağır sözünə davam etdi:

- Üç bacının ən böyüyü mən idim. Üçümüz də gözəl idik, amma mən onlardan xeyli fərqlənirdim: həm zərif, həm də daha çox cəlbedici idim. Dəmirçilər məhəlləsində üçotaqlı bir evimiz vardı. Atam nədənsə məni sevməzdi, kiçik bacılarımı oxşayar, onlara müxtəlif hədiyyələr alardı. Mən inciməzdim, çünki anam da əynimə tikdiyi gözəl paltarlarla məni sevindirərdi. Bəzən səbəbsiz yerə söyülər, acılanardım, yenə anam könlümü alardı. Bir qədər böyüdükdən sonra isə atamın rəftarı dəyişdi, Şuşaya Ermənistandan gələn qonaqların məclisində məni əyləşdirdi, bir "vətənpərvər" kimi yetişməyimə nail oldu. Amma ailə qurarkən nə qədər çalışsa da, məni Vaqifdən ayıra bilmədi. Xeyir-duanı anamdan aldım. Məlum hadisələrdən sonra onlarla birlikdə Şuşanı tərk etdim. Yerevandan qovulan bir türk ailəsinin evində yerləşdik. Başım təşkilatın işlərinə qarışsa da, valideynlərimə baş çəkməyi unutmadım.

Anam Şuşanı tərk edəndən sonra çox yaşamadı. Ölümü mənə çox yer elədi. Amma məni sevməsə də, atamı tez-tez yada saldım... Xocalı faciəsindən bir il keçəndən sonra Yerevana növbəti gəlişimdə, adətim üzrə, onu yoxlamağa getdim. Tənhalıqdan lap qocalmışdı. Kövrəldim, qollarımı açıb boynunu qucaqlamaq istədim, sinəmdən itələdi. Gec gəldiyim üçün incidiyini zənn edib könlünü almağa çalışdım, üzümə rişxəndlə baxaraq:

- Mən səndən istədiyimi aldım. Bu evdən əvəzində nə istəyirsən, götür, amma bir də buralara gəlmə, - dedi.

Kiçik yaşlarımdan onun təhqirlərinə alışdığım üçün bunu

da keçici hal hesab etdim və evdən heç nə götürmək istəmədim, amma qapının ağzındakı sandıq diqqətimi cəlb edəndə fikrimdən vaz keçdim. Üstünün tozunu silib ağzını açdım. İçi boş idi: anamın ölümündən sonra bacılarım hər şeyi aparmışdılar. Sandıqda üzü bozarmış bir dəftər vardı (ara-sıra anamın nə isə yazdığını uşaq vaxtı çox görmüşdüm), onu götürüb bir də geri boylandım, qoca hələ də mənə rişxəndlə baxırdı. Bu baxışlara dözməyib evi tərk etdim.

Nayruhi danışdıqca Laura gözlərini onun üzündən çəkmir, əsl həqiqətin nə olduğunu bilmək istəyirdi.

- Mənim atam Göyçə mahalında yaşayan türklərdən olub, anamı çox sevib. Nə qədər çalışsalar da, köhnə düşmənçiliyə görə valideynləri onları ayıra bilməyiblər, gənclər evdən qaçıblar. Ana babam“mərhəmət”göstərib qızı ilə kürəkəninə sığınacaq verib. Anam mənə hamilə imiş...

Bir neçə gündən sonra atamın mədəsindən bərk ağrı tutur, məlum olur ki, yeməkdən zəhərlənib. Sən demə, babamın tapşırığı ilə nənəm atamın yeməyinə zəhər tökübmüş...

Atamı dəfn etmək üçün valideynlərinə verirlər. Ana babam evində türk küçüyü görmək istəmədiyindən mən doğulmamış anamı Şuşada yaşayan dul bir kişiyə, öz uzaq qohumuna ərə verir.

Anam adımı atamın arzusu ilə Nailə qoysa da, əri, yəni ögey atam razılaşmır və mən Nayruhi oluram. Bütün bunları anamın gündəliyindən öyrəndim. Uzun müddət özümə gələ bilmədim, elə zənn etdim ki, bir ölüdən fərqim yoxdur. Anladım ki, məni ona görə böyüdüblər ki, öz əsil-kökümün qənimi olum... Yaşamaq istəmirdim, çünki vicdan əzabı çəkmək ölümdən dəhşətli idi. Özümü çox qınadım, qarğış etdim:

- Axı mən nə üçün türk küçüyünə bənzədiləndə ayılmadım? Digər bacılarımdan ucuz tutulanda, atalığım yalnız məni gizli təşkilata üzv yazdıranda səbəbini soruşmadım? Niyə öz əlimlə soydaşlarıma quyular qazdım, yurdumu viranəyə döndərdim? Niyə? Niyə? Bu sualların cavabını kim verəcək? Öz kökümə, soyuma düşmən kəsildiyim üçün nalə çəkdim, Allaha yalvardım ki, mənə ölümlərin içindən ən dəhşətlisini versin...

Sonra anladım ki, ölüm çıxış yolu deyil, insanlığı fəlakətə sürükləyənlərə qarşı mübarizə aparmalıyam.

Doğmalarımın yanına qayıtmağa üzüm gəlmədi. Şuşada sağ tapdığım qızımın nə üçün ölüdən fərqlənmədiyini bundan sonra anladım. Bax həmin vaxtdan dünya jurnalistləri məni Nadejda kimi tanıdı. Bu adla erməniləri təmsil etməyim gizli təşkilat üzvlərinə də xoş gəldi, hətta məni alqışladılar. Mənsə itirilən torpaqlarımızın, namusu tapdanan qız-gəlinlərimizin intiqamını almaq üçün bir kabus kimi ermənilərin kökünü qazıyacağıma and içdim. İlk zərbəni məni kökümə qarşı silahlandıran atalığıma vurdum: ona qoca vaxtında sevimli nəvəsi İvetanın, bacım Siranuşun acılarını yaşatdım. Mənəvi ağrıların içində qovrula-qovrula dünyasını dəyişdi.

Amma anamı rəhmətlə yad edirəm. O heç vaxt kilsəyə getmədi, xaç çevirmədi, bunu övladlarından yalnız mənə qadağan etdi. Onun bu hərəkətinin mahiyyətini çox sonralar başa düşdüm: o, ilk sevgisinin xatirinə müsəlmanlığı da qəbul edibmiş. Məhz buna görə də atalığımın etirazlarına baxmayaraq, Vaqiflə ailə qurmağıma təkan verdi, son borcunu layiqincə yerinə yetirdi.

İndi Allahdan bir diləyim var: günahlarımı (bu sözü deyərkən onun gözlərində elə bir ifadə yarandı ki, sözlə anlatmaq mümkün deyildi) yumaq üçün mənə ömür versin. Bəlkə, o zaman vicda-

nım bir qədər rahatlıq tapar, qəbir evinə üzüağ gedərəm.

Laura eşitdiklərinin təsirindən çıxa bilmirdi. İndi Nayruhi ona yalnız qızının qisasını almağa çalışan bir ana kimi deyil, həm də ölümün gözünə dik baxmağı bacaran mücahid qədər yaxın idi...

***

İki gün Şuşada qaldıqdan sonra kursantları daşıyan avtobus Xocalıya yol aldı. Şuşada olarkən atəş səsləri eşidilməsə də, Xocalıya çatanda ara-sıra pulemyotların uzaqdan gələn şaqqıltısı az da olsa, vahimə yaradırdı. Atəşi hansı tərəfin açmasını müəyyən etmək o qədər də asan deyildi. Atəşkəs elan olunsa da, bunun formal xarakter daşıdığı hamıya bəlli idi. Ermənilər ilk baxışdan xarabalığı xatırladan Xocalıda və digər zəbt edilən ərazilərdə möhkəmlənmək üçün vəziyyətdən çox gözəl istifadə etmişdilər. Müasir dövrün tələblərinə uyğun tikilmiş istehkamlar, müdafiə qurğuları onların gecə-gündüz çalışdıqlarından xəbər verirdi. Yeni təbliğat kompaniyası Xocalıdan olan kursantların doğulduğu küçələri göstərən salamat qalmış lövhələrdən başladı. Adı "zorla" türkləşdirilmiş küçələrdə yaşayan "əzabkeş" ermənilərin "qətliamını" göstərən foto-stendə Laura sakitcə tamaşa edə bilmədi. Tanış simaları gördükcə gözlərindən axan yaş dayanmadı. Yan-yana cənazələri düzülmüş bir ailənin faciəsi isə hönkürtüsünə səbəb oldu. Sifəti eybəcər hala salınmış Bəhram dayının, ondan bir neçə metr aralıda ayaqları iplə bağlanmış Badam xalanın və nəvələrinin cəsədlərini görəndə ürəyi qısıldı. Bir tərəfdən Nayruhi, digər tərəfdən Artur onun qoluna girib bir daşın üstündə oturtdular. Nayruhi narazı halda başını buladı:

- Dözümünüz olsun, Laura xanım.

Bu yol isə vaxtilə onları qoynuna alan doğma ocağa aparan küçənin başlanğıcı idi. İkimərtəbə binadan yalnız qapqara divarlar yadigar qalmışdı. Elə bu vaxt bələdçinin səsi eşidildi:

- Bu binada sizin silahdaşınız Artur Muradyan doğulub. Barbar türklər onun valideynlərini qaçarkən qətl ediblər, Artur isə bir təsadüf nəticəsində bizim əsgərlərimiz tərəfindən xilas edilib.

Laura heyrətləndi. İndiyə qədər digər uşaqların doğulduğu ünvan haqqında verilən məlumatları təbliğatın növbəti mərhələsi hesab etsə də, eşitdiyi ünvanın dəqiqliyi erməni kəşfiyyatının pis işləmədiyindən xəbər verirdi. Deməli, daha ehtiyatlı olmaq, planları həyata keçirmək üçün yüz ölçüb bir biçmək lazım idi. Onun təəccübünü hamıdan əvvəl Nayruhi sezdi və xəbərdarlıq etmək üçün qolundan dartdı.

Növbəti gün istiqamət Ağdam şəhərinə idi. Vaxtilə abadlığı, əhalisinin firavan dolanışığı ilə ad çıxaran Ağdamın xarabalıqlarında bayquş ulayırdı. Ara-sıra salamat qalmış evlərdən sökülən taxta-şalbanları, daşları naməlum istiqamətə daşıyan köhnə sovet istehsalı olan maşınlar gözə dəyirdi. Ot-ələf basmış bağlarda sındırılmış budaqlarına, qəlpələrdən yaralanmış gövdələrinə məlhəm axtaran ağaclar da sanki dik baxmağı yadırğamışdı, xəcalətdən başını yerə əymişdi. Ürək ağrıdan mənzərələri seyr etmək çox çətin idi.

Cəbhə xəttindəki istehkamlara getməmişdən əvvəl kursantlara ehtiyatlı olmaq barədə göstəriş verildi. Bu gecə onların bir qismi təcrübəli kəşfiyyatçıların köməyi ilə təmas xəttini adlayıb müəyyən işlər görməli, mümkün qədər çox məlumat toplamalı, bacaran “dil” də gətirməli idi. Gedənlərin arasında Artur da vardı. Laura heç bir təcrübəsi olmayan kursantların birdən-birə kəşfiyyata göndərilməsini başa düşmədi. Vaxt ötürdü. Bir saat-

dan sonra bələdçilik edən kəşfiyyatçılar geri döndülər, amma Arturgildən bir xəbər çıxmadı. Lauranın həyəcanı artmağa başladı. Səhərə yaxın gedənlər qayıtdılar. Onların arasında Arturu görməyəndə Laura canını qoymağa yer tapmadı, yoldaşları da heç bir məlumata malik olmadıqlarını söylədilər. Lauranın ürəyindən qara-qura fikirlər keçdi, amma onun çəkdiklərindən heç kim xəbərdar deyildi. Komandir də heç nə olmamış kimi davranırdı. Səhərə yaxın şaqqıltı eşidiləndə yerindən ilk sıçrayan Laura oldu. Gələn Artur idi: çiynində huşunu itirmiş bir adam vardı. O çatan kimi tutduğu əsiri çiynindən yerə aşırdı. Sonra cibindən çıxardığı kağızı səliqə ilə açdı.Gördüyü bütün obyektlərin xəritəsini olduğu kimi kağızda çəkməsi komandiri heyrətləndirdi, onun bacarığını alqışladı. Əsirə baxanda isə gülümsündü. Onu ayıltmağı məsləhət bildi. Arturun uyutduğu təlim məqsədi ilə keşikdə dayanan erməni əsgər idi. Kursantlar yalnız indi bildilər ki, onların kəşfiyyatı təlim məqsədi ilə təşkil olunub. Bütün kəşfiyyatçıların işi təqdir olunsa da, Arturun adı xüsusi vurğu ilə çəkildi.

Laura oğlunun uğuruna sevindi. Məşqlər bir neçə gün davam etdi. Sonuncu kəşfiyyat isə Lauranı böyük bir təhlükə ilə üz-üzə qoydu. Bu dəfə tutulan əsir müqavimət göstərdi, Xaçik kürəyindən bıçaq yarası aldı, amma Arturun vurduğu ağır zərbə əsiri uyutdu. Onun zorba bədənini güclə çiyninə alan Artur yaralanmış Xaçikə də kömək etməli oldu. Onlar kazarmaya hamıdan əvvəl çatdılar. Komandir toplanışa çağırıldığı üçün yerində yox idi. Kazarmaya çatan kimi Laura Xaçikə ilk tibbi yardım göstərib qanaxmanı dayandırdı, dərman qoyub yaranı sarıdı. Əlləri, ayaqları bağlı əsir isə çöldə hələ də baygın idi. Artur onu arxası üstə çevirəndə Lauranın gözləri heyrətdən böyüdü, həyəcanla pıçıldadı:

- Xoren.

Artura hər şey aydın oldu. Xoren yarıyumulu gözlərini açdı, başını tərpədərək:

- Hə, Artur, yaman qüvvətlisən, - dedi və əlavə etdi, - səni görməyə gəlmişəm.

Artur özünü bilməzliyə vuraraq soruşdu:

- Siz kimsiniz?

- Mən Xorenəm, sənin atanam. İndiyə qədər dustaqxanada idim. Cəzamı çəkən kimi səni axtardım, burada olduğunu öyrəndim. Atanı qucaqlamayacaqsanmı?

Artur başını buladı:

- Siz mənim atam ola bilməzsiniz, mənim damarlarımda oğrunun, caninin qanı axa bilməz.

- Sən mənəmi cavab qaytarırsan? Mən olmasa idim, o sərsəm anan səni də dəli eləmişdi.

- Anamın adını ağzına alma, yoxsa...

Xoren rişxəndlə:

- Yoxsa nə? Bəlkə, gizli agenturanın əməkdaşı ilə söz güləşdirəcəksən?- deyəndə Artur onun qoyun cibini axtardı, sənədləri gözdən keçirib əllərini açdı. Laura hər an kiminsə gələcəyindən ehtiyat edərək həyəcanlandı. O, qaranlıqdan istifadə edib oradan uzaqlaşmağa cəhd elədi, lakin Arturu tək qoymağa da ürəyi gəlmədi. Elə bi vaxt gözləri Lauraya sataşan Xoren daha sürəkli qəh-qəhə çəkərək ayaqlarını açıb ayağa durdu və dedi:

- Aha, Xocalının gözəli də burada imiş ki. Elə bilirdin, tək Arturu axtarırdım? Yox, səni də tapmaq fikrim vardı, qızım vaqonda tanış olduğu Lauranı təsvir edəndə bildim ki, bu sənsən və Gürcüstana nə üçün gəlmisən. Doğrusu, sənin qəbrini Artura qazdırmaq fikrində idim, indi isə deyəsən, hər ikinizin qəbrini

özüm qazacağam. Amma bir hesabım var, onu yerinə yetirəndən sonra səni də, bu soysuz oğlunu da ifşa edəcəyəm, - o, cibindən nəsə çıxartdı və Lauranın üzünə atdı. Laura sol yanağının, çənəsinin və buxağının göynədiyini hiss etdi. Bayaqdan Xorenin hərəkətlərinə zorla dözən Artur anasının iniltisini eşidəndə dayana bilmədi, öldürücü zərbə ilə onu yerə sərdi. Xoren bir qədər çırpınıb həmişəlik sakitləşdi...

Yığıncaq bitdi. Qapıdan hamıdan əvvəl çıxan Nayruhi geri çağırıldığı üçün Laura ilə xudahafizləşməyə tələsdi, gözləri yerdə uzanan Xorenə sataşanda nifrətlə ona sarı tüpürdü:

- Heyif, səni gəbərtmək mənə qismət olmadı, - deyərək Xorenin sənədlərini Arturdan aldı və çantasında gizlətdi.

Digər kursantlar yığışınca komandir də gəldi, əhvalatdan xəbərdar olub Xorenin meyitinə baxdı, tanımadığı üçün heç nə demədi, üstündə sənəd olmadığını görəndə isə meyiti bir çuxura gömməyi tapşırdı.

Lauranın üzü, boğazının altı getdikcə şişdi, bəzi yerlərdə yaralar açıldı. Onu müayinə etmək üçün Yerevandakı mərkəzi xəstəxanaya göndərdilər. Müayinə zamanı kimyəvi maddədən istifadə olunduğu aşkara çıxdı. Uzunmüddətli müalicə yaranı sağaltsa da, Lauranın əvvəlki gözəlliyindən əsər qalmadı. Nayruhi xəstəxanada olarkən onu dəfələrlə yoxladı, təsəlli verdi. Başladıqları işdə onun xeyir-duasını alıb dedi:

- Bizim sədamızı hələ çox eşidəcəksən, Tərgül, Arturdan isə narahat olma, onu balam kimi qoruyacağam. Gizli adımız "Qarabağ", mahnımız "Sarı gəlin" olsun.

Laura göz yaşları içərisində onu qucaqladı. Nayruhi pıçıltı ilə:

- Gəldiyin yolla geri dön, Tərgül, burada sənin görəcəyin iş-

lər bitdi. Xoreni axtarsalar, ifşa oluna bilərsən. İndi növbə bizimdir. Vətənə qayıt, doğmalarına, oğluna qovuş. Bu sənin haqqındır. Mənim qızımın da məzarını tap, bu torpağı üstünə səp, qoy beşiyində rahat uyusun,- deyərək qoynunda gəzdirdiyi kiçik bükülünü ona verəndə Tərgül özünü saxlaya bilməyib hönkürdü. Bir qədər sakitləşəndən sonra soruşdu:

- Bəs siz nə vaxt dönəcəksiniz?

- Qarabağ azad olunanda qismət olsa, görüşərik.

Nayruhi getdi. Düşərgəyə yeni tibb bacısı təyin olunduğu üçün Lauranı içəri buraxmadılar, lakin Artur və kursantlardan bir neçəsi görüş üçün komendantdan icazə ala bildilər. O, Arturu bağrına basdı, nə qədər öpsə də, boyunu sevsə də, balasından doymadı. Görüş vaxtı bitəndə darvazanın açılması ilə örtülməyi elə ani oldu ki, sanki bir daha açılmayacaqdı.

***

Tərgül yenidən Bolnisiyə qayıtdı. Ünvanı rahatlıqla tapdı. Qapını ehtiyatla döydü. Tezliklə yüngül ayaq tappılıtları eşidildi, Tənzilə qapının ağzında göründü. Qarşısında dayanan üzü yanıq qadına təəccüblə baxsa da, daxilindəki bir hiss onun yad olmadığını pıçıldadı. İri badamı gözlərə baxanda heyrətlə:

- Tərgül!- deyərək onu qucaqladı, qolundan tutub içəri çəkdi, - bu qansızlar səni nə hala qoyublar, bu zülmü Allah götürməz.

Tənzilə ağlayırdı, Tərgül də ona qoşulmuşdu. Qara çərçivədəki şəkli görəndə öz dərdini unudan Tərgül ayağa qalxdı, şəkli əlinə aldı, nə qədər yaşlansa da, simasından nur yağan Nazilə xalanın gözlərindən öpdü. Axşama yaxın qəbiristanlığa gedib Nazilə xalanın məzarını ziyarət etdilər.

Tənzilə başına gələnləri danışdırıb Tərgülün dərdlərini təzələmək istəmədi, yalnız bir sual verdi:

- Oğlunu tapdınmı?

Tərgül başı ilə təsdiqləyərək:

- Tapdım, amma gətirməyi bacarmadım, - dedi.

Hər ikisi susdu...

Telvizorda “Xəbərlər” proqramı başladı. Xəbərlərin başlıqları oxunanda Tərgül diksindi. Birinci başlıq belə idi: “Gizli adımız “Qarabağ”, mahnımız “Sarı gəlin”. O, az qala nəfəs almadan verilişə baxmağa başladı. Tərgül Xankəndi yaxınlığında böyük silah anbarının partladılması barədə diktorun verdiyi məlumatın ardınca deyilənləri eşitmədi, Nayruhi ilə olan son danışığı xatırladı:

- Bizim sədamızı hələ çox eşidəcəksən, Tərgül, Arturdan isə narahat olma, onu balam kimi qoruyacağam. Gizli adımız “Qarabağ”, mahnımız “Sarı gəlin” olsun.

Tərgül dərindən nəfəs aldı, neçə illərdən bəri ilk dəfə gecəni çox rahat yatdı.

***

Tənzilə Tərgülü yanında bir həftə qonaq saxladı. Həftə tamam olan günün səhəri o getmək üçün hazırlaşdı və vaxtilə rəfiqəsinə verdiyi sənədləri istədi. Tənzilə sənədləri gətirsə də, yenidən bir neçə gün qalması üçün yalvardı. Tərgül inad edəndə isə dedi:

- Bu sənədlərlə gömrük məntəqəsini keçə bilməzsən. Şəxsiyyəti təsdiq edən sənədlər tamamilə dəyişib. Azərbaycana yalnız sərhəd kəndlərdən keçmək mümkündür. Həmin kəndlər arasında hələ nə yoxlama postları, nə də sərhəd dirəkləri var. Qardaşım səni ötürər...

***

Tərgül axşama yaxın Qazax - Bakı marşrutunda əyləşmişdi. O, hava qaralana qədər yol boyu uzanan çöllərə, kəndlərə, gördüyü hər bir ağaca, kövşənlərdə saralan otlara, tikanlara ürəyində salam verdi. Gah kövrəlib doluxsundu, gah da da dərin xəyala daldı. Uzaqdan başı dumanlı dağlar görünəndə içindən bir sızıltı keçdi. Yevlaxa yaxın yol ayrıcında Qarabağa tərəf həsrətlə boylandı. O bu yollardan çox keçmişdi, amma heç vaxt indiki qədər qəlbində həsrət yükü olmamışdı. Birdən ona elə gəldi ki, çiyinlərindəki ağır yük ömrü boyu qamətini dik saxlamağına mane olacaq. Üzə çıxana qədər, doğmalarını tapana qədər bu yükə tab gətirmək mümkün olacaqdımı? Tərgül bunu müəyyənləşdirməkdə aciz olduğunu dərk etdi. Bakıya çatana qədər sorğu-suallar ona dinclik vermədi. Avtobusda mürgüləyən sənişinlər şəhərə çatana yaxın ayılsalar da, Tərgül xəyal aləmindən ayrılmağa çətinlik çəkdi. Avtobus mənzilə çatıb dayananda bütün sərnişinlər əşyalarını götürüb aşağı ensələr də, o, yerindən tərpənmədi. Elə bildi ki, ayaqları hərəkətdən düşüb. Sürücünün təəccüblü baxışları altında oturacaqdan qalxanda isə ona elə gəldi ki, ayaq basdığı yer od olub onu qarsayacaq, "mənim balam hanı?"deyən dillər külə çevirəcək. Bunları düşünə-düşünə avtobusdan enən Tərgül üzünə dəyən sərin mehdən xoşhallandı. Doğma torpağa qədəm qoyduğu anı xatırladı: dizləri üstə düşüb əlləri ilə oxşadığı kol-kos, öpdüyü daş-kəsək sanki ona qüvvət verdi, şahə qalxan dalğalar kimi qoynuna aldı. O, duydu ki, bir boy ucaldı. Qeyri-ixtiyari Cabir Novruzu yad etdi:

- Allah səni rəhmət eləsin, Ustad! Doğrudan da, "İnsan Vətənində böyükdür ancaq!"

Avtobusdan düşənləri qarşılamağa gələnlər çoxdan getmiş-

dilər. Tərgül səhəri vağzalda qarşıladı. Nayruhinin verdiyi ünvana baxdı. Səhər tezdən ev sahiblərini narahat etməmək üçün saat səkkizə qədər vağzal ətrafı yerləri seyr etdi.

Gedəcəyi ünvanı tapmaq elə də çətin deyildi. Hərbi hospitalın yanında yerləşən beşmərtəbəli bina əvvəlki görünüşünü dəyişməmişdi. Onu Nayruhinin qaynı Raqif qarşıladı, evinə dəvət etdi. Tərgül Qayananın oğlunu görəndə öz körpəsi yadına düşdü. Ali məktəbə imtahan verib yüksək bal toplayan Ayxanı təbrik etdi. Ev sahibləri nə qədər israr etsələr də, o, yemək süfrəsinə əyləşmədi, Nayruhinin arzusunu yerinə yetirmək üçün qəbiristanlığa getməyi vacib bildi. Ayxan əmisinə əziyyət vermək istəmədi. Çünki Qayananın ölümü, demək olar ki, onun qəddini əymiş, bir neçə ay içində illərlə qocaltmışdı. Onu qoruya bilmədiyi üçün özünü günahkar sayan əmi hələ də düşdüyü vəziyyətdən çıxa bilmirdi. Hər dəfə qəbiristanlığa gedəndə günlərlə heç kimlə danışmaq istəmir, özünə qapanırdı. Belə vaxtlarda yalnız Ayxan onu ovuda bilirdi.

Qayananın məzarı təzə qəbiristanlıqda idi. Üstü səliqə ilə götürülmüşdü, başdaşına vurulan şəklə baxanlar iri qara gözlərdəki kədərin acısını duymaya bilməzdilər. Tərgül məzar daşını sildi, Qayananın kədərli gözlərindən öpdü. Ayxan aldığı qərənfilləri məzarın üstünə düzmək istəyəndə mane oldu, qoynunda gizlətdiyi kiçik bağlamanı çıxartdı. Onun hərəkətlərinə maraqla baxan Ayxan bağlamadakı torpağı görəndə birdən-birə ayıldı. Anasının danışıqlarını xatırladı, alnındakı çapıqdan gələnin Tərgül olduğunu anladı. Bağlamadakı torpağı əlinə aldı, ətrini ciyərlərinə çəkdi, sonra öpdü, gözləri yaşla dolduğu üçün Tərgülün üzünə baxmağa utandı. Tərgül məzara dikilən yaşla dolu gözlərə baxmadan başını asta-asta tərpətdi. Ayxan torpağı ehtiyatla məzarın

üstünə səpdi, qəhərini zorla boğaraq dedi:

- Kaş bu torpağı sənin gözlərinə tökmək imkanım olaydı, ana. Arzun yerinə yetdi, əllərinlə əkdiyin qızılgüllərin ətri hopan torpağı gül ləçəkləri ilə qarışıq sənə ərməğan etdilər. Rahat uyu, gözəl anam. Sənin qisasını alacağım gün gələcək.

Tərgül də gözlərinin yaşını silərək:

- Qayana, sənin qisasını aldıq, Xoreni elə öldürdük ki, üzərinə gül qoyulacaq bir məzarı da qalmadı, - deyəndə Ayxana elə gəldi ki, məzarın üstünə düzdüyü qərənfillər titrəşdi...

***

Yazı burada bitirdi. Kamal dəftəri qatlayıb stolun üstünə qoyanda aydın bir səhər açılmışdı. Gülarənin solğun simasında ərinin uzun illərdən bəri görmək istədiyi, lakin duymadığı xoş bir təbəssüm vardı. Kamal bunun səbəbini bilməsə də, özündən asılı olmadan gülümsündü. Gülarə üzünü onun çiyninə söykəyərək:

- Kamal, Tərgülün dalınca gedək, - deyəndə isə təəccübləndi:

- Niyə?

- Çünki hələ də sənin anlamadığın bir çox sualların cavabı ondadır. Mən hər şeyi danışsam da, bəzi məsələlərə aydınlıq gətirə bilməyəcəyəm.

Kamal soruşdu:

- Xəyalı da aparaqmı?

- Xəyalı da, Gülyazı da aparmalıyıq. Qoy Tərgülün kim olduğunu hər ikisi onun dilindən eşitsin.

- Olsun. Nə vaxt yola düşürük?

- Elə bu gün.

- Bəlkə, bu gün istirahət edəsən? Sabah gedək.

- Bu bir gün mənim üçün sonu bilinməyən əzabdır, Kamal.

Kamal razılaşdı. Yüngül qəlyanaltı edəndən sonra hər üçü həyətə endi. Çox çəkmədən Ramanaya tərəf yol aldılar.

Maşın asfalt yolda şütüdükcə səhərin sərin mehi Gülarənin saçlarını tumarladı. Ramanaya tərəf enən yolun kənarlarında sıra ilə əkilmiş ağaclar, göz oxşayan yamyaşıl çəmənlik çox cəzbedici idi. Bir azdan yeraltı keçidlər də arxada qaldı. Səhər mehi haradansa qovub gətirdiyi xoş rayihəni maşının içərisinə doldurdu. Elə bu vaxt Gülarənin gözü yol boyu uzanan gül bağına sataşdı. Rəngbərəng güllər yaz vaxtı çəmənlikdən boylanan dağ çiçəklərini yadına saldı. O, dərindən köks ötürəndə maşın vağzaldan yeni salınmış Şuşa şəhərciyinə tərəf istiqamət aldı. Yolun hər iki tərəfində eyni biçimdə tikilmiş və hasara alınmış birmərtəbəli evlərdən səs-səmir gəlmirdi. Maşın birinci küçədən keçərək ikinci kücədə yerləşən yaşıl darvazalı hasarın yanında dayananda Gülarənin ürək döyüntüləri artdı. Özünü ələ almaq üçün Kamaldan bir qədər gözləməyi xahiş etdi, dilinin altına qoyduğu dərman əriyincə halı yaxşılaşdı. Kamal ehtiyatla qapını döydü. Gülarə həyətdə eşidilən addım səslərindən bildi ki, qapını Gülyaz açacaq. Qız qapının ağzında dayanan qonaqları görəndə duruxdu:

- Ata, ay ata, gör kimlər gəlib! – deyə səsləndi.

Rövşən üzünü qurulaya-qurulaya pilləkəndə göründü. O da səhərin gözü açılar-açılmaz xəbərsiz təşrif buyuran qonaqların gəlişinə təəccübləndi, amma bunu büruzə vermədən onları gülər üzlə qarşıladı. Gülyaza süfrə açmaq üçün işarə verəndə Kamal mane oldu:

- Bizdən ötrü narahat olmayın, nahar etmişik. Amma sizdən bir xahişimiz olacaq.

Rövşən səmimiyyətlə:

- Xahiş nədir, - dedi, - nə istəsəniz, yerinə yetirməyə hazıram.

- Bizi Tərgülün yanına aparарsınızmı?

- Bu nə sözdür, əlbəttə, apararam.

- Bəs Gülyaz?

Gülarənin özündə güc tapıb verdiyi suala Rövşən gülərək cavab verdi:

- Mən onu heç vaxt tək qoymuram, Tərgülün yanına gedəndə həmişə özümlə aparıram. Onların görüşü mənə anamı xatırladır: əlində nə olsa, bir kənara atıb qollarını boynuma dolayardı.

Rövşənin səsi titrədi, Gülarə də kövrəldi. Elə bu vaxt Gülyaz süfrəyə çay gətirdi. Qonaqlar çaydan imtina etmədilər.

Yüngül yır-yığışdan sonra iki maşın bir-birinin ardınca yola düzəldi.

Qaralar kəndinə gəlib çatanda saat dörd idi. Arabir atəş səsləri eşidilirdi, amma bu, kənd sakinləri üçün adi hal idi: hərə öz işində idi. Xeyli küçə keçdikdən sonra Rövşən maşını bir evin qarşısında saxladı. Maşından düşüb həyət qapısını astaca itələdi. Açılmayanda üzünü qonaqlara çevirib:

- Yenə oraya – qəbiristanlığa gedib. Bir az gözləyək, - deyərək qonaqların rahatlığını pozmaq istəmədi.

Gülarənin həyəcanını hiss edən Kamal etiraz etdi:

- Heç bir narahatlığı yoxdur, gedək. Ananın məzarını biz də ziyarət etsək, yerinə düşər.

Rövşən dinmədi. Qəbiristanlıq kəndə yaxın olduğu üçün yolu piyada getməli oldular. Üstü ərəb əlifbası ilə yazılan köhnə qəbirlərin arasından keçib bir qədər də irəlilədilər. Sıra ilə düzülmüş yeni qəbirlərin bir çoxunun üstü götürülməmişdi. Qara mərmərdən eyni biçimdə düzəldilmiş qəbir daşları bu yerin şə-

hidlərə məxsus olduğunu göstərirdi. Rövşən irəlilədikcə ondan geri qalmayan Gülarə elə zənn edirdi ki, dünyanın axırına qədər elə beləcə yol gedəcək, Tərgülə çatmaq, onu görmək bir xəyal olaraq qalacaq. Rövşən səmtini dəyişmək istəyəndə birdən ayaq saxladı. Dayanmaq işarəsi verdi. Onun işarəsindən Gülarənin canına vicvicə düşdü, lakin qulağına dəyən səsdəki həzinlikdən qəlbində rahatlıq duydu. Tərgül idi: giley dolu ağısı nə qədər asta səslənsə də, qəbiristanlıqdakı sükutu pozurdu. O, qəbrin üstündəki çiçəkləri arıqlıqdan damarları çıxmış əlləri ilə oxşaya-oxşaya məzarla söhbətə başladı:

- Bir vaxt məni də qara torpaq qoynuna alacaq anam kimi, sənin kimi, bacım. Kim bilir, bəlkə, ən böyük nisgilimin yükündən xilas olmadan qara torpağın da ağırlığını çiyinlərimdə daşıyacağam... Körpəliyimdə anama, gəncliyimdə körpələrimə həsrət qaldım. Bir dəfə ağız dolusu “ana” deyə bilmədiyim kimi, “ana” deyib çağıranlarım da məndən uzaq düşdülər, məsafələr məni onlara yaxşınlaşdırdı, amma zaman ətrimi duymadan məni onlara yadlaşdırdı, yox, yadlaşdırmadı, ana duyğusunun gözəlliyini başqa qucaqda, sevdiklərimin qoynunda tapdılar... Mənsə...

Tərgülün səsi birdən-birə kəsildi, uzaqdan eşidilən hönkürtüsü səssizlikdə Gülarənin qulaqlarında əks-səda verdi, - bunun ardınca onun hıçqırıqlar içində dediyi kəsik-kəsik sözləri Gülarədən başqa heç kim anlamadı, - mənsə bu istiliyi onlara verə bilmədim, nə qızımın tellərinə sığal çəkdim, nə də oğlumun boyunu sevdim. Bu gün, nəfəs almağımın səbəbkarları – Amalım, Gülyazım, sizə yaxınlaşmağa özümdə cəsarət tapmıram. Bir dəfə yad adamlar kimi baxmağınız mənim üçün ölümdən betər olar. Qurulu dünyanızı məhv etməyə də qıymıram. Elə kənardan sizi görmək, boyunuzu sevmək də mənə bəs edərdi, əgər tale sizi

təsadüfən rastlaşdırmasaydı...

Tərgül sözünün davamını gətirə bilmədi, onun vəziyyətini başa düşən Gülarə həyəcanlı səslə çağırdı:

- Tərgül!

Tərgül başını qaldıranda ona yaxınlaşan Gülarəni gördü, asta-asta dikəldi, lal heykəl kimi dayanıb yerindən tərpənmədi. Bir neçə addımlıq məsafəni zorla qət edən Gülarə onun arıqlıqdan taxtaya dönmüş çiyinlərini qucaqladı. Amma bu dəfə ağlamadı, daha doğrusu, ağlaya bilmədi. Tərgülün faciəsi onu elə sarsıtdı ki, gözlərinin yaşı belə qurudu. Hönkürüb ürəyini boşaltmaq istədi, bacarmadı: ürəyinin yerində sanki bir buz parçası asılmışdı, soyuğu bütün vücuduna yayılırdı. O, Tərgüldən aralandı, soyumuş əllərini Xəyala və Gülyaza uzatdı. Tutduğu əllərin hərarəti canına yayıldıqca ürəyinin buzu əridi. Üçü birlikdə Tərgülə yaxınlaşdı, Gülarə titrək səslə:

- Qucaqla balalarını, Tərgül, bu sənin haqqındır, - deyəndə Tərgüldən başqa hamı heyrətlə ona baxdı. Kamala elə gəldi ki, Gülarə ağlını itirib, nə dediyini anlamır. Rövşənsə hələ də nə baş verdiyindən xəbərsiz olduğu üçün maddım-maddım gah ona, gah da bacısı qədər sevdiyi, taleyinə qəlbən yandığı xalasına baxdı. Xəyal anasının hərəkətini başa düşə bilmədi, Gülyazsa həmişə olduğu kimi Tərgülün boynuna sarıldı...

Bir saatdan sonra hamı süfrə arxasında idi. Çay süfrəsi yığışdırılandan sonra ortaya gələn yeməklərə heç kim əl vurmadı. Rövşən evin böyüyü kimi "bismillah" deyib əlini çörəyə uzatdı, digərləri də onun hərəkətlərini təkrar etdilər, lakin elə ilk loğma kal armud kimi boğazlarından keçmədi. Çörəklər süfrəyə qaytarıldı. Hamının nəzərləri Tərgülə və Gülarəyə dikildi. Həmin məşum gecə - Xocalı qətliamı, nə qədər ağır olsa da, ağ-qara

lent kimi Gülarənin gözləri qarşısında canlandı. Nəfəs çəkmədən olayları dinləyənlər anaların ölçüyəgəlməz ağrı-acısına şərik çıxmaqda aciz olduqlarını dərk etdilər.

- Sonrasını bilirsən, Kamal. Tərgüllə məndən əvvəl sən qarşılaşdın, amma tanımadın. Xəyalın gətirdiyi qolbağı mənim üçün həyəcan siqnalı oldu. On səkkiz yaşı tamam olandan bu günə qədər, düz dörd ildir ki, baş verənlərdən də xəbərdarsan.

- Nədən mənə hər şeyi anlatmadın, bu boyda dərdi tək çəkdin? – Kamal sual dolu baxışlarını onun üzünə dikdi.

- Qorxdum, Kamal. Sənin yenidən köhnə halına qayıtmağından qorxdum. Bu qadının Tərgül ola biləcəyinə inanmadım. "Tərgül Xəyalsız geri dönə bilməz, özü ölər, amma onu qoruyar", - dedim. İndi hər şey bəllidir. Oğlumuz düşmən arxasındadır, amma ona məndən çox Tərgülün "oğul" deməyə haqqı var. Elə bilməyin ki, Xəyalı unutduğum bir an oldu. Yox, Amalla bərabər onu da əzizlədim, geyindirdim, yedirtdim, layla çaldım, hətta birinci sinfə də yola saldım, hər gün qarşıladım. Amma heç birinizə acılarıma şərik edərək əzab vermək istəmədim. Mənim günahım yalnız budur. Tərgülü də incitdim, tanıya bilmədim onu. Hərəkətləri, gözləri mənə çox şey desə də, inana bilmədim ona.

Gülarə nəfəsinin təntidiyini hiss etdi, bir qədər susub:

- Məni bağışlaya biləcəksənmi, Tərgül? – dedi.

- Səni qınamıram. Mən də sənin kimi hərəkət edərdim, -sözlərini eşidəndə göz yaşı quruyan Gülarənin hönkürtüsü otağı doldurdu.

Bayaqdan bəri hamıya diqqətlə qulaq asan Rövşən hələ də eşitdiklərini yuxu sanaraq baxışlarını xalasına yönəltdi. Bu baxışlardakı təlaşı anlayan Tərgül təmkinlə soruşdu:

- Sizi tapdığım ilk gün yadındadırmı, Rövşən?

Rövşən başını tərpətdi.

- Məni yalnız anan tanıdı. Gözlərimə baxan kimi: ”Tərgül!”- qışqırıb bayıldı. Bilirsənmi niyə?

– Yox, bilmirəm.

- O yalnız məni itirməyin acısını yaşamamışdı. Doğuş zamanı dünyasını dəyişən Rəşidənin və qızının ölümünü qaldıra bilməyəcəyini düşünərək bağrına basdığın Gülyazı səndən almağa cürət etməmişdi. Bunu məndən də gizlətmişdi. Həmin gecə işıqların sönməsi, silahların aramsız şaqqıldaması həkimləri çaş-baş qoyduğu üçün buna imkan yaranmışdı. Bacım olanları mənə söyləmək imkanı olmadığı üçün illərlə bu acını daşıdı. Düz on səkkiz ildən sonra ölüm yatağında olarkən həqiqəti etiraf etdi. Özünü həm sənin, həm də mənim qarşımda çox günahkar sayırdı. Bu acılar bacımı yeyib bitirdi, etirafdan sonra dedi: “Allahım, günahımdan keçdinsə, canımı bu gün al”. Mən ağladım, çünki onu tapmışkən yenidən itirmək istəmirdim. Bacım həmin gün vəfat etdi. Onu tək qoya bilmədim. Hər gün qəbrinin üstünə gedib onunla dərdləşdim. Taleyimə qane oldum. Amma susa bilmədim. Allah qatında daşınacaq günahı qəbul etmədim.

O dəftərdə yazılanlarsa həqiqətdir. İndi Xəyal düşmən içindədir, məqam gözləyir. O, tək deyil. Əsir düşmüş neçə övladımız onunladır. Ermənilərin öz əlimizlə Azərbaycana zərbə vurmaq niyyətini biz puça çıxardıq. Erməni məkrindən xəbərdar olmaları üçün onlara erməni dilini də öyrətdik. Nə vaxt “Adımız “Qarabağ”, mahnımız “Sarı gəlin” qrupunun adını eşitsəniz, bilin ki, o bizik!

- Xəyal əsl həqiqəti bilirmi?- Kamalın intizarla verdiyi suala Tərgül gülümsünərək cavab verdi:

- O hər şeyi bilir. Qarabağ savaşının yenidən alovlanaca-

ğı gün onun sədası hər tərəfə yayılacaq. Çiyin-çiyinə döyüşmək üçün əsl Amalı gözləyəcək.

Hava qaralmaq üzrə idi. Sərhəd məntəqələrində yenidən atəş səsləri yüksəldi. Ermənilərin mövqelərində güclü partlayış müşahidə olunanda Tərgülün gözlərində parıltı duyuldu:

- Bu, Amalgilin növbəti əməliyyatıdır...

***

Gülyazla Xəyal yanaşı oturmuşdular, bir-birinə o qədər bənzəyirdilər ki... Bunu Rövşən də, Kamal da yalnız indi hiss etdilər. Tərgül ayağa qalxıb onların hər ikisini taxta sinəsinə sıxanda otaqdakıların gözləri doldu.

Xəyal universiteti bitirən kimi evlərinə hərbi çağırış vərəqi gəlmişdi. Bundan nə Gülarənin, nə də Kamalın xəbəri vardı. O gözlənilmədən cibindən hərbi çağırış vərəqini çıxarıb:

- Sabah əsgər gedirəm, ana! – deyəndə ilk kimə baxacağını şaşırdı. Gülarə ilə Tərgülün qolları eyni anda onun boynuna dolananda Xəyal hər iki ananın çıyınlərini qucaqlayıb başlarını geniş köksünə sıxdı. Bu səhnə hamını kövrəltdi, gözlərdə sevinc yaşları göründü. Kamal oğluna qürurla baxsa da, çox düşüncəli idi:

- Bəs magistraturada təhsilini davam etdirməyəcəksənmi? – soruşanda Xəyal ciddiyyətlə dedi:

- Oxumaq heç vaxt gec deyil, ata, əvvəl əsgəri xidmətimi başa vurmalıyam.

Kamal onun alnından öpdü.

Ertəsi gün Xəyalı yola salanlar içərisində bütün sevdikləri vardı...

***

Aylar keçdi. Cəbhəyə gəldiyi gündən Xəyal bacarığı, çevikliyi ilə həm əsgər yoldaşlarının, həm də komandirin sevimlisinə çevrildi. Ağdam – Füzuli cəbhə xətti boyunca onun adını eşitməyən olmadı. Xüsusi təyinatlıların kəşfiyyat qrupunda fəaliyyət göstərən Xəyalın düşmənin əsas qüvvələri, döyüş texnikası, silahları haqqında verdiyi məlumatlar çox qiymətli olurdu. Bəzən keşik çəkən erməni əsgərlərini zərərsizləşdirməkdən qorxmayıb "dil" gətirməsi onu qorxmazlıq mücəssəməsinə çevirdi.

Növbəti kəşfiyyatlardan birində yoldaşlarından ayrılan Xəyal qaranlıqda ona tərəf gələn iki nəfəri görüb özünə əlverişli mövqe seçdi. Gələnlərin bizim dilimizdə danışması onu çaşdırsa da, sayıqlığı əldən vermədi, onların danışığına hakim kəsildi. Eşitdikləri ona çox qəribə gəldi:

- Amal, bu ermənilər nə qədər hiyləgər, əclaf millətdir. Heç şeytan da yatıb yuxusunda görə bilməzdi ki, türk balası Xalid Xaçik, Amal isə Artur olacaq. Nə yaxşı ki, Laura xala ilə Nayruhi bizim gözümüzü açdı. Yoxsa ermənilərdən heç nə ilə fərqlənməyəcək, öz doğmalarımızın qanını axıdacaqdıq.

- Elədir, Xalid. Amma biz də az iş görməmişik, - Amal bir qədər susub soruşdu, - bu gün bizi Yerevandan buraya nə üçün gətirdiklərini bilirsənmi?

- Yox, bilmirəm, amma onu da bilirəm ki, başımızı sığallamağa yox, verdikləri çörəyin haqqını artıqlaması ilə ödətməyə gətiriblər.

- Doğru deyirsən. Bizdən kəndlərdə vahimə yaratmaq üçün istifadə edəcəklər. Diqqəti cəlb etmədən kənd ətrafının minalanması da bu plana daxildir.

- Nədən bildin?

- İki komandirin: Ovanes Balayanla Aşot Martirosyanın danışığından. Mənə heç əhəmiyyət vermirdilər. Eybi yox, biz necə lazımdırsa, minaları düzərik. Təki onların könlü "xoş" olsun.

Artur səsini kəsərək Xaçikə susmaq işarəsi verdi, ətrafı dinşədi, pıçıldadı:

- Mən nəfəs duyuram, yaxınlıqda kimsə var. Əllərim yaman gicişir, kaş erməni ola.

- Başqası da ola bilərmi?

- Əlbəttə, cəbhə xəttindəyik, - deyərək yönünü Xəyala tərəf çevirdi, döyüş bıçağını əlində hazır tutdu.

Xəyal Tərgülün dediyi sözləri yadına salsa da, fənd işlədərək gizləndiyi yerdən çıxdı, qəfil zərbə ilə Xaçiki yerə sərdi. Artur bir göz qırpımında yoldaşının yerə sərildiyini görüb döyüşə hazır vəziyyət aldı. Qarşısındakının sakit dayandığını görəndə təəccübləndi, onun növbəti hücumunu qabaqlamaq üçün fürsətdən istifadə etmək qərarına gəldi. Yerində fırlanaraq ayağı ilə güclü zərbə endirmək istəyəndə Xəyal ustalıqla zərbədən yayındı:

- Adımız "Qarabağ", mahnımız "Sarı gəlin",- dedi.

Arturun nitqi qurudu. Növbəti zərbəni endirmək üçün aldığı vəziyyətdəcə dayandı, eşitdiklərini yuxu sandı. Xəyal ona yaxınlaşıb qucaqlayanda özünə gəldi:

- Sən yalnız Xəyal ola bilərsən, - dedi, - bizi tanıdınsa, bəs Xaçiki niyə vurdun?

- Hər ehtimala qarşı ehtiyatlı olmalıyıq,- deyə Xəyal cavab verdi, - indi ayrılmalıyıq, mən yubana bilmərəm, işimi tamamlamalıyam. Sən isə bunu da götürüb geri qayıt. Səngərə çatana qədər ayılar. Analarımız yaxşıdır, narahat olma.Yenidən görüşənədək.

Xəyal bir göz qırpımında yoxa çıxdı. Artur Xaçikin ayıl-

masını gözlədi. Bugecəki hadisə onu elə ovsunladı ki, yerindən tərpənmək istəmədi, öz-özünə gülümsünüb pıçıldadı:

- İlk görüşümüz pis olmadı.

***

Mart ayının son günləri idi. Erməni azğınlığı həddini aşmışdı. Dinc əhali evində gecələyə bilmir, körpələr, qadınlar, qocalar qətlə yetirilirdi. Bütün əsgərlər düşmənə layiqli cavab üçün veriləcək əmri səbirsizliklə gözləyirdilər. Hətta dözməyənlər:

- Nə atəşkəsbazlıqdır? Bu ancaq bizim üçündürmü? Nə qədər gözləmək olar? – deyərək etiraz edəndə Xüsusi Təyinatlı Qüvvələrin rəhbəri Eldar Ağayev onları təmkinli olmağa çağırdı:

- Az qalıb, lap az qalıb. Düşmənə layiqli cavab verəcəyik, darıxmayın, - sonra o, Xəyala baxıb:

- Arxamca gəl, - dedi.

Xəyal içəri girib farağat vəziyyəti aldı. Stolun üstündəki xəritəyə baxan komandir barmağını tünd narıncı rəngli bir yerə tuşladı:

- Bu nöqtəni alsaq, Füzuli – Cəbrayıl istiqamətində üstünlük birdəfəlik bizim tərəfimizə keçəcək. Bizə bu ətrafda yerləşən düşmən ordugahının sxemi lazımdır. Əldə edə biləcəksinizmi?

Xəyal təmkinlə cavab verdi:

- Bəli, cənab komandir. Qartal (“Adımız “Qarabağ”, mahnımız “Sarı gəlin” qrupunun rəhbəri Arturu hamı belə adlandırırdı) bütün cəbhə boyu düşmən mövqelərinin xəritəsini hazırlayacaq.

Ağayev qamətini dikəltdi, barmaqlarının ucunu kəmərinə keçirərək otaqda var-gəl etdi, düşüncəli halda dedi:

- Qartala salamlarımı yetir. Ehtiyatı əldən verməyin. Bu torpağın sizin kimi oğullara ehtiyacı böyükdür. Bugünkü vəzifə-

nizi, yəqin ki, bilirsiniz, - komandir yenidən xəritəni nəzərdən keçirdi, - kəşfiyyata dörd nəfər gedəcəksiniz. Düşmənin diqqətini onlar atəş açan kimi sizin getdiyiniz istiqamətdən yayındıracağıq. İndi yoldaşlarını da çağır.

Xəyal:

- Oldu cənab komandir, - deyərək əlini gicgahına aparıb dabanı üstdə fırlandı, iri addımlarla otağı tərk etdi.

Bu gün komandir çox qayğılı görünürdü: həmişəki ciddilikdən, sərtlikdən, demək olar ki, əsər yox idi. Bunu əsgərlər də hiss etdilər, lakin hislərini büruzə vermədən farağat vəziyyətində bütün tapşırıqları dinlədilər. Sözünü bitirən komandir kəşfiyyatçıların qarşısında durub nüfuzedici nəzərlərlə onlara tək-tək diqqət yetirdi, amma getmək əmrini vermədi. Adətinin əksinə olaraq, vidalaşırmış kimi onları bir-bir bağrına basdı:

- Allah köməyiniz olsun, oğullarım, bugünkü tapşırığın yerinə yetirilməsindən çox şey asılıdır, - dedi.

Komandirin hərəkəti kəşfiyyatçıları duyğulandırsa da, hamısı bir ağızdan:

- Vətənə xidmət şərəf işidir, - söylədi.

***

Zil qaranlıq gecə hər tərəfi bürümüşdü. Cəbhə xətti boyu hökm sürən səssizlik özü vahimə yaradırdı. Nə bir şaqqıltı eşidilir, nə də ətraf kəndlərdən işıq görünürdü. Qarşı tərəf də yox imiş kimi qınına çəkilmişdi. Adətən, belə səssizliyin arxasında qulaq batıran atəş səslərinin, qətllərə fərman verən ölümsaçan parıltının olduğunu komandir yaxşı bilrdi. O, səngər boyu gəzir, əsgərləri ayıq olmağa səsləyirdi. Bəzən əlini qayğı ilə kiminsə çiyninə qoyur, kiməsə ürək-dirək verirdi. Öz döyüşçülərinə yaxşı bələd olan komandirin bugünkü narahatlığını heç kim anlaya

bilmirdi. Elə bu vaxt qaranlıda yarımdairə cızan qırmızı nöqtə komandirin sinəsində qərar tutdu. Bu, komandirlə yanaşı addımlayan köməkçisi Sabirin gözündən yayınmadı, bir göz qırpımında onun önünə keçdi. Əvvəlcə bir şey anlamayan komandir oğlu qədər sevdiyi Sabirin yıxılmamaq üçün sinəsinə söykəndiyini görəndə hər şeyi başa düşdü. Nəfəsi təngişən köməkçisini qucağına alıb yerə çökdü, özündən asılı olmadan bağırdı:

- Həkim!!!

Onun səsi gecənin bağrını yardı. Buna bənd imiş kimi qarşı tərəfdən pulemyorlar, avtomatlar şaqqıldadı. Hissiyyata qapılmağın, gecikməyin məğlubiyyətin başlanğıcı olduğunu bilən komandir ayağa qalxdı, intizarla onun işarəsini gözləyən əsgərlərə:

- Atəş, bütün atəş nöqtələrinə atəş! - deyə əmr etdi.

Vıyıltı ilə uçuşan mərmilər, ölümsaçan güllələr əvvəl qan qoxulu gecəni, sonra isə düşmən mövqelərini dəlib keçdi. Barıt iyi hər tərəfi bürüdü. Yaylım atəşlə qarşılaşan ermənilər susdular.

Sabiri sanitar məntəqəsinə apardılar. Vəziyyəti ağır idi: burada saxlamaq ölümlə nəticələnə bilərdi. İlk tibbi yardım göstəriləndən sonra onu qəsəbədəki hərbi hospitala çatdırdılar. Hərbin qanunları ilə böyüyən komandir köməkçisi üçün nə qədər narahat olsa da, səngəri tərk etmədi, əsgərlərə ruh verdi:

- Müharibənin öz qanunları var, oğullarım, o heç kimi bir-birindən ayırmır. Əgər arxamızdakı azad Vətəni qorumasaq, işğal altında olan torpaqlarımız bizim üçün yalnız xəyal olar. Biz haqqımız olanı almaq üçün buradayıq. Qanı axıdılan hər əsgərimizin qisasını minlərdən alacağıq. Geriyə dönüş yoxdur. Azərbaycan naminə yalnız irəli!, - deyib əlini qaldıranda düyünlənmiş yumruqlar səf çəkdi, “Azərbaycan naminə!” andı dalğa-dalğa yayılıb dağlarda əks-səda verdi.

***

İlk atəş səsləri eşidiləndə Xəyalgil neytral zonanı keçmişdilər. Qəribə idi ki, ermənilər onların getdiyi istiqamətə atəş açmırdılar. Bu, Xəyalı şübhələndirdi:

- Ehtiyatlı olun, - o, Azərin duruxduğunu görüb sözünə davam etdi, - erməni kəşfiyyatçıları ilə üzləşə bilərik. Onların təhlükəsizliyini təmin etmək üçün, yəqin ki, bu istiqamətdən atəş açmadılar.

- Ağlabatan fikirdir, - deyə digər kəşfiyyatçı Xəyalın dediyini təsdiqlədi.

Qarşıdakı təpəni aşandan sonra Xəyal tapşırıqları verdi:

- Artıq ayrılma vaxtıdır. Sağ qalmağa çalışın. Ehtiyatsızlıq ölümə bərabərdir. İki saatdan sonra burada görüşməliyik.

Xəyal yaxınlıqdakı köhnə səngərin içinə atıldı. Əyilə-əyilə Arturla görüşəcəyi yerə çatmağa tələsdi. Bir qədər aralıda işartı görüb dayandı. Arturla görüşəcəyi yerin yaxınlığında ermənilər yeni keşikçi məntəqəsi qurmuşdular. Xəyal bir qədər də yaxına gələndə üç nəfərin ocağın ətrafında oturduğunu gördü. O, aralarında xısın-xısın danışsalar da, ermənilərin dediyi bəzi sözləri açıq-aydın eşitdi. Çox ehtiyatla üzü ocağa tərəf oturan keşikçilərə yaxınlaşdı, sərrast atdığı döyüş bıçağı ilə yekəpər ermənini vurdu, cəld hərəkətlə diğər keşikçinin boğazından yapışıb işini bitirdi. Qorxusundan tir-tir əsərək əllərini qaldıran ermənini isə boynundan vurduğu zərbə ilə uyutdu, əl-ayağını, ağzını bağladı. Ölən erməniləri yaxınlıqdakı xəndəyə sürüdü. Bayquş səsi eşidəndə bildi ki, Artur onu çağırır.

Artur qoynundan çıxardığı bağlamanı Xəyala verdi. Tələsik digər məlumatları da ötürdü:

- Diqqətlə qulaq as. Sabah bizimkiləri mülki paltarda ətraf

kəndlərin girişlərinə mina düzmək üçün göndərəcəklər. Onlar kamikadze kimi yetişdirilib. Minalar uzaqdan idarə ediləcək. Əgər minaları basdıra bilməsələr, ermənilər onları mina qarışıq göyə sovuracaqlar.

- Onlar bunu bilirlərmi?

- Bəli.

- Sən də oradasan?

- Yox. Onlara Orxan, yəni Ohan başçılıq edəcək. Aralarında ermənilər olmayacaq. Dörd qrupa bölünəcəklər. Hər qrupda iki nəfər var. Heç biri erməni dilini bilmir. Parolları "Sarı gəlin" mahnısıdır. Qaranlıqda həmin mahnı ilə bir-birini çağıracaqlar. Bu öz oğullarımızın "düşmən" ərazisində törədəcəkləri ilk təxribatdır. Xahiş edirəm, onları öldürməyin, xilas edin, axı bizim qanımızı daşıyırlar. Əsl həqiqəti öyrənəndə bu əsgərlərin nifrəti qarşısında heç bir erməni tab gətirə bilməyəcək. Bəzilərinin valideynləri əsirlikdən azad edilib, Bakıda yaşayırlar

- Bəs siz nə edəcəksiniz?

- Biz səngərləri minalamalıyıq.

- Hansı səngərləri?

- Ermənilərin.

Xəyal qaşlarını çatdı:

- Qəribədir, niyə?

- Döyüşdən qaçmamaq üçün.

Ayrılmaq vaxtı idi. Xəyal həmişə olduğu kimi onu qucaqladı:

- Özünü qoru, qardaş, analarımız səni gözləyirlər.

Artur gözlərini qaranlığa dikdi. İndi onun nə fikirləşdiyini anlamaq çətin idi. O, Xəyalın əllərini sıxıb:

- Yubanma, növbənin dəyişməsinə az qalıb, ələ keçə bilər-

sən, - dedi və birdən-birə peyda olduğu kimi, qəfildən də yoxa çıxdı. Xəyal geri döndü, uyudub əl-qolunu bağladığı erməni hələ də ayılmamışdı. O, əsiri çiyninə alıb gəldiyi yolla geri qayıtdı. Yoldaşları onu çoxdan gözləyirdilər...

Dan yeri ağarmamış kəşfiyyatçılar hərbi hissəyə çatdılar. Xəyal əsiri təhvil verib komandirin yanına tələsdi. O, hərbi salam verib kəşfiyyatçıların sağ-salamat geri döndüyünü söyləyərək düşmən mövqelərində gördükləri yeniliklər barədə məlumat verdi, sonra qoynunda gizlətdiyi bağlamanı komandirə təqdim etdi. Komandir bükülünü açdı: əvvəlki ciddi siması dəyişməsə də, gözlərində sevinc işartıları göründü, irəli gəlib əlini Xəyalın çiyninə qoydu:

- Afərin, uşaqlar, böyük iş bacardınız. İndi düşmənin bütün obyektləri ovcumuzun içindədir. Başqa xəbər də varmı?

- Bəli, var, cənab komandir. Artur sabah hava qaralandan sonra azərbaycanlılardan ibarət qrupun mülki paltarda cəbhə xəttini keçərək ərazidə təxribatla məşğul olacağını söylədi.

Komandir yenidən stola yaxınlaşdı, xəritədə sərhəd boyu qırmızı rənglə işarələnən məntəqələrin siyahısını oxudu:

- Horadiz, Şükürbəyli, Alxanlı, Kürdmahmudlu, Arayıtlı, - sonra üzünü Xəyala çevirib, - gedə bilərsən, - dedi.

Xəyal yerindən tərpənməyəndə:

- Sənə nə olub? Niyə getmək istəmirsən? Bir sözünmü var? – soruşdu.

Xəyal:

- Bəli, cənab komandir,- deyə cavab verdi.

Komandirin:

- Buyur, dinləyirəm, - sözlərindən sonra o, Arturdan eşitdiklərini olduğu kimi danışdı.

Komandir fikirli halda stolun üstündəki xəritəyə bir də diqqət yetirdi:

- Bu, asan iş deyil, Xəyal, - dedi, - Tədbirli olmalıyıq, erməniləri qabaqlayıb həm planlarını pozmalıyıq, həm də o gəncləri xilas etməliyik. Amma bir çətinliyimiz də var: Arturu qorumaq, hədəfi ondan yayındırmaq lazımdır. Çünki növbəti əməliyyatlarımız zamanı dəqiq zərbələrimiz ermənilərə çox şey deyəcək.

Xəyal farağat vəziyyətini dəyişmədən:

- Cənab komandir, özümüzlə “dil” gətirmişik, - xəbərini verəndə komandir özünü saxlaya bilmədi, Xəyalı bağrına basdı:

- Get dincəl, sabah işimiz çox olacaq, - dedi.

***

Ayın biri olduğu üçün səngərdəki əsgərlər bir-biri ilə aprel zarafatı edirdilər. Müharibə də, səngər də, gecəki atışma da sanki yaddan çıxmışdı. Qarşı tərəfdə də sakitlik idi, nə atəş açılır, nə də hərəkət hiss olunurdu. Buna baxmayaraq, səngərdəkilər nəzərlərini qarşı tərəfdən ayırmırdılar. Komandir məntəqəsində də ciddi müzakirə gedirdi. Təxribatçıların gələcəyi yollar xəritədə aydın göstərilmişdi. Onları yaxalamaq üçün xüsusi təyinatlıların siyahısı hazırlandı. Siyahıda Xəyalın da adı vardı. Plan hazırlanandan sonra komandir:

- Oğullarım, üzərinizə düşən vəzifə çox ağırdır. Qanı qanımızdan, canı canımızdan olan düşmənlə qarşılaşacaqsınız. Onlar sizi düşmən gözündə görsələr də, siz fərqli olun. Onların xilası neçə ananın, neçə atanın sevinci deməkdir, neçə sönmüş ocağın yenidən nurlanması deməkdir. Amma bu, müharibədir, hər şeyi gözə almalısınız. Bunun ölümü də, qalımı da var. Allah sizi qorusun! – deyib əsgərlərə xeyir-dua verdi.

Təxribatçıların gələcəyi istiqaməti dəqiq bilən mülki geyimli əsgərlər kənd sakinlərində heç bir şübhə doğurmadan düşmən mövqelərinə yaxın yerdə məskunlaşdılar. Əslində bura müxtəlif istiqamətlərdən gələn təxribatçıların görüşüb ayrılacağı məkan idi. Bir-birindən on metr aralı məsafədə gizlənən əsgərlər ətrafı diqqətlə gözdən keçirdilər. Gözlərinə artıq-əskik heç nə görünmədi. Bayaqdan gözünü bir nöqtəyə zilləyib heç nə danışmayan Xəyal birdən hərəkətə keçdi, sürünə-sürünə yaşıl otları bir qədər soluxmuş talaya çatdı. Əlini uzadıb bir çəngə ot yolmaq istədi. Torpaq otla qarışıq yerdən ayrıldı. O, talanın soluxmuş otlarını təmizlədikcə lay-lay torpaq da yerdən ayrıldı. Otdan təmizlənmiş torpaq yumşaq olduğu üçün ehtiyatla torpağı kənara çəkməyə başladı. Növbəti dəfə torpağı kənara çəkmək istəyəndə barmaqları nəyəsə toxundu. Xəyal bildi ki, təxribatçıların "xəzinə"sini tapıb. İşarə ilə yoldaşlarını çağırdı. Tezliklə sellofana bükülmüş qutularda saxlanan minalar aşkara çıxdı. Demək, əvvəldən bu minalar erməni kəşfiyyatçıları tərəfindən təxribatçılar üçün basdırılıbmış. İndi minaları buradan uzaqlaşdırmaq, erməni mövqelərinə yaxın ərazilərdə basdırmaq lazım idi. Hava alatoran olsa da, planı həyata keçirmək qorxulu idi: ermənilər onları hər an görə bilərdilər. Xanlar ciddiyyətlə dedi:

- Bir az gözləyək. Onları zərərsizləşdirəndən sonra minaları ermənilərin lap qulağının dibində basdırarıq.

Xəyal Arturun dediklərini yadına salıb etiraz etdi:

- Yox, minalar onlar gələnəcən uzaqlaşdırılmalıdır. Çünki təxribatçıların ələ keçdiyini hiss edən kimi minaları işə salacaqlar.

- Bunu hardan bilirsən?

- Bilməsəm, demərəm. Vaxtımızı boş danışığa itirməyək.

Hamı iş başına!

Bütün heyət Xəyalla razılaşdı. Əsgərlər bir-birindən xeyli aralı sürünə-sürünə minaları düşmənin birinci səngərinə tərəf apardı. Bu səngər gecələr çox vaxt boş olur, keşikdə dayanan əsgərlər tərəfindən qorunurdu, gündüzlər isə gözə dəyən əsgərlər vaxt-bivaxt atəş açırdılar.

Səngərdə yenə sakitlik idi, keşikçilər də görünmürdülər. Bundan istifadə edən əsgərlər minaları səngərin içinə atıb sürünə-sürünə geri qayıtdılar. Onlar geri qayıdınca hava tamam qaraldı. Heç kim cınqırını çıxarmırdı. Birdən gecənin səssizliyini həzin bir musiqi pozdu. Fitlə astadan "Sarı gəlin" mahnısı çalındı. Xəyal da onun kimi mahnını çalanda yaxınlıqdan bir adam ayağa qalxdı, iri addımlarla səs gələn tərəfə - Xəyala doğru getdi, yanında uzanıb astadan soruşdu:

- Elə ikimizik?

- Hə, - deyə Xəyal pıçıldadı, amma nəzərlərini gəncdən ayırmadı.

- Harada olsalar, gəlib çıxarlar,- deyib yerini rahatlayan gənc qəfildən boynunun ardına dəyən zərbədən huşunu itirdi.

Xəyal onun əl-ayağını, ağzını bağlayıb bir tərəfə uzatdı.

Röyal pıçıldadı:

- Qaldı yeddisi, - o, sözünün davamını deyə bilmədi, növbəti çağırışa cavab verəndə müxtəlif istiqamətdən üç nəfər eyni zamanda ayağa qalxıb ona tərəf irəlilədi. Təhlükəli vəziyyət yarandığını görən Xəyal Röyala tərəf süründü, digər tərəfdən Xanlar özünü yetirdi. Hər üçü döyüşə hazır vəziyyət alıb gözlənilməz zərbə ilə "qonaq"ları zərərsizləşdirdilər. Xəyal gülümsünərək zarafat etdi:

- Qaldı dördü.

Elə bu vaxt ağac şaqqıltısına bənzər səs eşidildi, amma mahnı çalınmadı. Onun sakitcə irəliləməsi Xəyalı duyuq saldı, astadan fit çaldı. Qarşıdan gələn:

- Qorxmayın, mənəm, - deyərək soruşdu, - bəs Ohan gəlməyib?

Cavab əvəzinə sinəsinə dəyən zərbədən səndələyib yerə yıxıldı, əlini cibinə aparmaq istəyəndə Tərlan cəld tərpəndi, növbəti zərbəni endirdi...

Sonuncu təxribatçıları zərərsizləşdirmək o qədər də asan olmadı. Gələnlərdən biri imkan tapıb erməniləri xəbərdar edərək qəh-qəhə çəkdi:

- İndi bizimlə birlikdə sizin də külünüz göyə sovrulacaq, - dedi və ağzına dolan qanı nifrətlə tüpürdü. Elə bu vaxt qarşıdakı səngərdən eyni anda partlayan minaların qulaqbatırıcı səsi hər tərəfi bürüdü. Əsgərlər yerə yatdılar, partlayışın güclü dalğasından göyə sovrulan torpaq qırıqları üstlərinə tökülsə də, xoşbəxtlikdən heç birinə çovuyan qəlpələr dəymədi. Xəyal:

- Buradan bacardıqca tez uzaqlaşmaq lazımdır, əsirləri götürün, - dedi.

Dəstə kəndin kənarında gözləyən maşına çatanda uzaqvuran toplardan, iriçaplı pulemyotlardan, minaatanlardan açılan atəş gecənin qaranlığını qırmızı tüstüyə bürüdü. Əsgərlərin başı üstündən uçuşan mərmilər sərhədyanı kəndləri hədəfə almışdı. Gurultudan vahimə ilə otərəf-butərəfə qaçışan dinc sakinlərin atəşfəşanlıqda görünən siluetləri ürəkağrıdan idi. Ermənilərin atəşinə cavabın gecikməsi Xəyalgili təəccübləndirdi. Əsgərlərin narahatlığını görən Ohan:

- Ha gözünüzə dönüm, qırın bu türk köpək uşağını, - deyib ucadan güləndə qəzəbini boğa bilməyən Xanlar onun ağzının

üstünə bir yumruq ilişdirdi. Ohan ağzının qanını tüpürüb yenə bərkdən güldü:

- Bizi öldürmədiyinizə sizi peşman edəcəyəm. Nə qədər ki fürsətiniz var, işimizi bitirin,- deyə qaliblər kimi əmr etdi.

Xəyal onu istehza ilə süzüb gözlərini qıyaraq:

- Kimin peşman olacağını gələcək göstərər. Beyniniz nə qədər zəhərlənsə də, onu təmizləməyi bacaracağıq. Sizi erməni köləsi olmağa qoymayacağıq,- söyləyəndə Ohan coşdu:

- Bədbəxtlər, mən kölə deyiləm, Xocalıda öldürülən ata-anamın qisasçısıyam. Onların əvəzinə sizlərdən minini öldürsəm, ürəyim soyumaz!

Birdən dəhşətli bir gurultu ətrafı lərzəyə saldı. Bütün cəbhə boyu atəşə başlayan artilleriyamız düşmən mövqelərinə zərbələr endirdi. Hər şey bir-birinə qarışdı. Özünü itirən qarşı tərəf nizamsız şəkildə hara gəldi atəş açmağa başladı. Güclü artilleriya zəbəsindən sonra gecənin qaranlığı əsgərlərimizin "ura!" sədalarından yarıldı. Hələ də özünə gəlməyə macal tapmayan ermənilər səngərdən çıxıb qaçmağa səy göstərdilər. Minalar işə düşəndə isə məcburiyyət üzündən geri qayıtdılar. Dəhşətli əlbəyaxa döyüş başladı. İllərin intiqamına susamış əsgərlərimiz düşməni səngərdəcə məhv etdilər, əllərini qaldırıb aman istəyənləri əsir götürdülər. Xeyli itki verən düşmən geri çəkildi.

Tapşırığı layiqincə yerinə yetirən Xüsusi Təyinatlı Dəstənin komandiri əsgərləri alqışladı. Əsirləri bir-bir gözdən keçirdi. O, başını aşağı əymədən gözləri ilə hələ də meydan oxuyan Ohanın qarşısında dayandı:

- Səni Orxanmı, ya Ohanmı çağıraq?

Ohan istehzasını gizlətmədi:

- Lazım olanda Orxan, olmayanda Ohanam.

Ağayev onu bir də diqqətlə süzdü, əsir düşən digər ermə-niləri göstərib dedi:

- Yaxşı bax, əsirlərin içində seçilənlər kimlərdir?

Ohan yeddi nəfərdən başqa, bütün əsirlərin saralmış bənizinə, bir neçə saat ərzində kiçilmiş boyuna baxdı, ikrahla onlara tərəf tüpürdü:

- Qorxaqlar. Bir damcı qandanmı qorxursunuz?

Ağayev amiranə tərzdə sözünə davam etdi:

- Bəli, qorxurlar. Çünki qorxaqlıq onların erməni xislətindən irəli gəlir. Sizdəsə onu görmürəm və bu mənə çox mətləbləri başa salır. Orxanlarımızı ohanlaşdıran, Amallarımızı arturlaşdıran, Xalidlərimizi xaçikləşdirən, Azərlərimizi arsenləşdirən, Mehdilərimiz mikolaşdıran erməni rəzilləri ilə çəkəcəyimiz haqq-hesab böyük olacaq. Onlara öz oğullarımızın əli ilə bizə zərbə endirməyə imkan verməyəcəyik.

Adlar bir-bir çəkildikcə Ohanın təəccübü də artdı. İçini şübhələr bürüdü, lakin uduzan tərəf olduğunu hiss etdirmədi, yenə gözləri meydan oxudu. Bunu görən komandir barmağı ilə onun gözlərinə işarə edib:

- Unutma, belə qartal baxışlar yalnız türklərdə var. O, nəsildən-nəslə genlə ötürülür, - dedi.

Səkkiz əsiri digər ermənilərdən ayırıb hərbi helikopterlər vasitəsilə Bakıya göndərdilər.

***

İlk qələbə əsgərlərimizi daha böyük zəfərlər qazanmağa səfərbər etdi. Ertəsi gün ermənilər itirilmiş mövqelərini geri qaytarmaq üçün növbəti əməliyyata başladılar, lakin dəqiq zərbə ilə ağlagəlməz məsafədən hədəfə alınan silah anbarlarının, strateji

əhəmiyyət daşıyan obyektlərin partladılması onlara vəziyyətin gərginliyindən xəbər verdi. Ordudakı çaxnaşma, qorxu məğlubiyyətin başlanğıcı idi. Mövqeyini qoyub qaçan əsgərlərin qarşısını almaq getdikcə çətinləşirdi. Onları yerində saxlamaq üçün güclü xarakterə ehtiyac vardı.

Erməni komandir Aşot Martirosyan Ovanes Balayandan məsləhət istədi:

- Əsgərlərimiz qaçırlar, nə edək?
- Onları məcbur saxlamalıyıq, qarşılarını almalıyıq.
- Necə?

Ovanes tərəddüd etsə də:

- Türklərdən istifadə etməliyik . Onların gözünü belə anlarda qan örtür, döyüş mövqeyini, yoldaşlarını çətin vəziyyətdə qoyub qaçanı bağışlamırlar. Bunu sən də bilirsən. Qaçanlara nəzarəti onlara tapşırmalıyıq. Heyif ki, onlardan səkkiz nəfərini dünən itirdik. Çox cəsur idilər. Onlarla çox iş görə bilərdik, - dedi.
- Nəzarəti kimlərə tapşıracaqsan?
- Artur, Xaçik, Arsen, Eduard və Robikə.
- Olsun!

***

Döyüş səngimək bilmirdi. Bütün cəbhə boyu ermənilərlə təmas xəttində üstünlük Azərbaycan əsgərlərinin əlində idi. Bu hamıda böyük ruh yüksəkliyi yaratmışdı. Komandir Ağayev yenidən Arturun çəkdiyi xəritəyə baxdı. Sıradan çıxan obyektlərin sayı çox idi. O, əlini xəritədə tünd- göy rənglə işarələnmiş obyektin üzərinə qoydu:

– Çox uzaqda yerləşsə də, bugünkü hədəfimiz buradır, - dedi və barmağı ilə həmin yeri döyəclədi.

Növbəti hücum Cocuq Mərcanlının azad edilməsi ilə nəticələndi. Lakin yüksəkliklərin düşmən əlində olması kəndin hər an atəş altında qalması demək idi. Komandirin növbəti çıxışı əsgərlərə yeni ruh verdi:

- Oğullarım, indi qisas günüdür. Qanı axıdılan körpələrimizin, namusu tapdanan qız-gəlinlərimizin, yurdu dağıdılan babalarımızın sərgərdan ruhu, əsir torpaqlarımız bizi gözləyir. Uğurlarımız az deyil, artilleriya atəşi ilə düşmənin baş qərargahını yerlə-yeksan etmişik. Minlərlə hektar torpaqlarımızdan yadellilərin izlərini silmişik. Tərtər, Ağdərə, Ağdam istiqamətlərində davam gətirməyən düşmən əsgərləri səngərlərdən qaçırlar. Əhali Qarabağı tərk edir. Amma nə qədər ki, düşmənlər torpaqlarımızdan qovulmayıb, bizə gecələr yuxu, gündüzlər toy-bayram haramdır. Bu gün döyüş bölgəsində ən hündür təpədə Azərbaycan bayrağı dalğalanmalıdır.

Əsgərlərin ura səsləri dağlarda əks-səda verdi. Bu səda ilə bərabər atəş səsləri bütün bölgəni bürüdü.

Lələtəpə yüksəkliyi ətrafında düşmən ciddi müqavimət göstərir, mövqeyi əldən vermək istəmirdi. Təpənin üstündə yerləşdirilən artilleriya qurğuları məhv edilmədən yüksəkliyi almaq mümkün deyildi. Üzünü Xüsusi Təyinatlı Dəstənin əsgərlərinə tutan Ağayev dedi:

- Zirvədə yerləşən düşmən texnikası bu gecə sıradan çıxarılmalı, əsgərləri məhv edilməlidir.

Əsgərlər farağat vəziyyəti alıb bir səslə:

- Oldu, cənab komandir, - deyə cavab verdilər.

Axşama yaxın döyüş səngidi. Düşmənlər meydandakı cəsədləri belə götürməyə ürək etmədən son səngərlərinə sığındılar.

Saat dörddə on nəfərlik qrup təpənin zirvəsinə doğru hərəkət etdi. Təpəyə doğru uzanan səngərə çatanda Xəyal dayanmaq işarəsi verdi. Özü isə gecənin səssizliyini pozan bayquş ulartısına tərəf süründü. Artur səngərdə onu gözləyirdi. Sakitcə qucaqlaşdılar. Artur vəziyyət barədə məlumat verdi:

- Qarşınızda iki post var. Təpə güclü mühafizə olunur. Postları ortadan götürə bilsək, təpəyə gedən yol açılacaq. Orada əsgəri qüvvə azdır, yalnız topçular və köməkçiləridir. Onlar da yəqin ki, yorğunluqdan yatmış olacaqlar. Amma bu dəfə postda dayananlar adi əsgərlər deyillər. Ehtiyatlı olun. Düşmən qərargahının partladılması Ermənistanda bərk həyəcan doğurub, səfərbərlik elan ediblər. Döyüşə vaxtilə Qarabağda vəhşilik törədənləri çağırıblar. Onlar avtobuslarla yola düşüblər, sabah burada olacaqlar. Xankəndi boşalır, digər ərazilərdən də köç karvanı Ermənistana doğru yol alıb, amma erməni hökuməti köçü dayandırmaq haqqında göstəriş verib. Rəhbərləri də qorxu xofu bürüyüb.Etiraf edirlər ki, kömək olmasa, bir həftə duruş gətirmək imkanları yoxdur.

Siz təpəyə arxa tərəfdən qalxın. Orada heç kim yoxdur, qarşıdan gələcəyinizi gözləyirlər. İndi mən getməliyəm.

Xəyal qeyri-ixtiyari:

- Bizimlə qal, getmə, - deyəndə Artur başını buladı:

- Getməliyəm. Bugünkü döyüşdə üç nəfərimiz şəhid olub, Xaçiklə Robik isə ağır yaralanıb. Nə onları, nə də Nayruhini tənha qoya bilərəm.

- Bəs analarımıza nə deyim?

- Gözləsinlər, onları dostlarımla ermənilərsiz Qarabağda qarşılayacağam.

- Yolun uğurlu olsun, qardaşım!

Xəyal onunla vidalaşıb geri döndü, yoldaşları ilə bərabər təpənin arxa - ermənilərin nəzarətində olan hissəsinə keçdi. Birinci post artıq göz önündə idi. Sürünərək bir qədər də yaxına gəldilər. Uzaqdan atılan bıçaq üzü onlara tərəf dayanan erməninin boğazına batdı. Digərləri arxaya çevrilib atəş açmağa macal tapmadılar, hər ikisi qətlə yetirildi.

İkinci postu da səssizcə ələ alandan sonra dəstə təpənin zirvəsinə doğru irəlilədi. Əsgərlərimiz şinelinə bürünüb yatan topçuları əsir aldılar. Xəyal üçrəngli bayrağı təpənin zirvəsinə sancanda gözəl bir yaz səhəri üzə güldü. Qarşı tərəfdən eşidilən ura səsləri, təpənin başında dalğalanan üçrəngli bayraq erməniləri çaş-baş saldı: onlar mühasirəyə düşdüklərini zənn edərək hər iki tərəfə atəş açmağa başladılar.

Növbəti artilleriya zərbəsi Ermənistandan köməyə gələn qoca döyüşçüləri Qarabağ torpağına ayaq basmaqdan məhrum etdi. Əsgərlərimizin yeni həmləsində son sığınacaqlarını itirən ermənilər silahlarını yerə qoyaraq təslim oldular.

Qələbəni qeyd edən əsgərlərin sevincinə şərik olan komandir Ağayev onları təbrik etdi və dedi:

- Bu, son deyil, oğullarım, ilk qələbəmizdir. Üçrəngli bayrağımız Qarabağın bütün bölgələrində dalğalanana qədər silahlarımız susmayacaq!

O düyünlənmiş yumruğunu yuxarı qaldıranda himnimizin sədaları dalğa-dalğa yayıldı, bütün Qarabağ səmasını bürüdü.

**20.06.2018 - 10.08.2019**

Qeyd

Qeyd

Kitab hazır depozitivlərdən istifadə edilərək
“HEROQLİF” mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 04.01.2020
Kitabın formatı: 60x84 1/16.
Həcm: 19 ç.v.
Tiraj: 300

Ünvan: Mətbuat prospekti, 529-cu məh.
Mob: 055 221 20 68